**Etibar Yaqubov Muradxanlı**
6 ноября 2020 г. ·

Cənab Prezident, Cənab Ali Baş Komandan, Dünən Qardaşım oğlu xüsusi təyinatlıların komandosu baş leytenant Əliqismət Yaqublu Şuşa uğrunda döyüşlərdə qəhrəmancasına Şəhid oldu! Oğlum Cahid də ön cəbhədə torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə iştirak edir. Sabah o da Şəhid ola bilər. Əgər Şəhid olarsa, Mən, Qardaşım, yaxınlarım, Lerik rayonumuz və kəndimiz Əliqisməti necə mərd-mərdanə qarşıladıqsa, onu da elə qarşılayacağıq. Mən özüm də orduya yazılmışam. İstənilən vaxt döyüşlərə qatılmağa və Şəhidlik zirvəsinə ucalmağa həvəslə hazıram. Mənim cəsədimi də ailəm və el-obam şərəflə qarşılamağa hazırdır. Yetər ki, Siz durmayın! Yetər ki, Siz sona qədər İrəli deyin! Yetər ki, birliyimiz pozulmasın! Biz bu acını yaşadıq, qoy gələcək nəsillər Şəhid halvasının acısını dadmasın! Biz müharibə istəmirik. Amma bizi müharibəyə çəkənləri, torpaqlarımızı işğal edənləri və bu işğalda işğalçılara dəstək verənləri cəzalandırmağı da bacarırıq. Siz bunu artıq göstərdiniz. Bu gün bir sira beynəlxalq dövlətlər antiazərbaycan təbliğatına başlayıb. Əminəm ki, iradəniz və xalqımızın mübarizə əzmi bütün bu hücumların qarşısını layiqincə alacaq və ordumuzun cəbhədə göstərdiyi rəşadəti həmişə olduğu kimi ikinci cəbhədə də göstərəcəkdir. Ya Qarabağ, ya ölüm, başqa yolu yox artıq! Qarabağ Azərbaycandır!!! AYB üzvü, Prezident Təqaüdçüsü, yazıcı Etibar Muradxanlı.

196 Комментарии: 74 Поделились: 39

**Cənab Prezident, Cənab Ali Baş Komandan! Dünən qardaşım oğlu xüsusi təyinatlıların komandosu baş leytenant Əliqismət Yaqublu Şuşa uğrunda döyüşlərdə qəhrəmancasına Şəhid oldu! Oğlum Cahid də ön cəbhədə torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə iştirak edir. Sabah o da Şəhid ola bilər. Əgər Şəhid olarsa, mən, qardaşım, yaxınlarım, Lerik rayonumuz və kəndimiz Əliqisməti necə mərd-mərdanə qarşıladıqsa, onu da elə qarşılayacağıq. Mən özüm də orduya yazılmışam. İstənilən vaxt döyüşlərə qatılmağa və Şəhidlik zirvəsinə ucalmağa həvəslə hazıram. Mənim cəsədimi də ailəm və el-obam şərəflə qarşılamağa hazırdır. Yetər ki, Siz durmayın! Yetər ki, Siz sona qədər "İrəli!" deyin! Yetər ki, birliyimiz pozulmasın! Biz bu acını yaşadıq, qoy gələcək nəsillər Şəhid halvasının acısını dadmasın! Biz müharibə istəmirik. Amma bizi müharibəyə çəkənləri, torpaqlarımızı işğal edənləri və bu işğalda işğalçılara dəstək verənləri cəzalandırmağı da bacarırıq. Siz bunu artıq göstərdiniz. Bu gün bir sıra beynəlxalq dövlətlər antiazərbaycan təbliğatına başlayıb. Əminəm ki, iradəniz və xalqımızın mübarizə əzmi bütün bu hücumların qarşısını layiqincə alacaq və ordumuzun cəbhədə göstərdiyi rəşadəti həmişə olduğu kimi ikinci cəbhədə də göstərəcəkdir. Ya Qarabağ, ya ölüm, başqa yolu yox artıq! Qarabağ Azərbaycandır!!!**

**AYB üzvü, Prezident təqaüdçüsü, yazıcı Etibar Muradxanlı.**

***7 noyabr 2020-ci il.***

**Etibar Muradxanlı**

# İlin beşinci fəsli

*sənədli-bədii roman*

**Kitab müəllifin şəxsi vəsaiti hesabına nəşr olunub.**
**Qazi və Şəhid ailələrinə ödənişsizdir.**
**Kitabın satışından əldə olunan gəlir "Yaşat" fonduna hədiyyə olunacaq.**

Redaktor və ön sözün müəllifi:
Əsəd Cahangir

Korrektor:
Əyyar Tahir

**Etibar Muradxanlı. İlin beşinci fəsli.** *Sənədli-bədii roman.*
Bakı, Qanun nəşriyyatı, 2022, 304 səh, 500 tiraj.

Qanun nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-334-8

© Etibar Muradxanlı, 2022
© Qanun nəşriyyatı, 2022

Tanınmış yazıçı Etibar Muradxanlının sənədlər və faktlara əsaslanan, əsgər və zabitlərimizin vətənpərvərlik və qəhrəmanlığını inandırıcı, təsirli döyüş səhnələri vasitəsilə əks etdirən "İlin beşinci fəsli" romanı Şuşanın və işğal olunmuş digər ərazilərimizin düşməndən azad edilməsinə həsr olunub. Birinci Qarabağ müharibəsindən bəhs edən "Siz mühasirədəsiniz, leytenant" və "Tələbə taqımı"ndan sonra bu, müəllifin müharibə mövzusunda üçüncü, İkinci Qarabağ müharibəsi haqqında ədəbiyyatımızda ilk romandır.

## Ön söz

## ŞƏHADƏT VAXTDAN UCADIR

"İlin beşinci fəsli" Etibar Muradxanlının Qarabağ müharibəsi mövzusundakı üçüncü romanı, İkinci Qarabağ müharibəsi haqqında isə ilk romanımızdır. Onun bir neçə il öncə işıq üzü görən "Siz mühasirədəsiniz, leytenant" və Qarabağ könüllüləri olan tələbələrin qəhrəmanlığından bəhs edən "Tələbə taqımı" romanları isə Birinci Qarabağ müharibəsinə həsr olunmuşdu. Və bu üç roman bir yerdə öz müəllifinin on illərdir ki, yazdığı "Qarabağnamə"sinin tərkib hissələridir.

İstər "Siz mühasirədəsiniz, leytenant", istər "Tələbə taqımı", istərsə də "İlin beşinci fəsli" romanı göstərir ki, Etibarın taleyi öz xalqının, vətəninin tarixi taleyi ilə bağlıdır və bunlar gəlişigözəl filoloji trafaret, dəxli oldu-olmadı çoxlarının haqqında işlədilən basmaqəlib sözlər deyil. Etibar bu sözlərə, doğrudan da, haqq edir: "Tələbə taqımı"ndakı könüllü tələbələr arasında yazıçının özü də var;

“Siz mühasirədəsiniz, leytenant”ın əsas qəhrəmanı, mühasirəyə düşmüş bölüyün komandiri Yaqubəli Yaqubov yazıçının qardaşıdır; “İlin beşinci fəsli”nin personajları sırasında isə onun oğlu Cahid Yaqublu və qardaşı oğlu, şəhid Əliqismət Yaqublu da yer alır. Bir könüllü kimi cəbhəyə getmək üçün müvafiq ünvanlara, hətta Respublika Prezidentinə məktubla müraciət etməsinə baxmayaraq, çağırış yaşının keçməsi ilə bağlı Etibarı bu dəfə cəbhəyə aparmadılar. Amma əvəzində tale ona İkinci Qarabağ müharibəsində bir yazıçı kimi iştirakı rəva gördü və o bu çağırışa “İlin beşinci fəsli” romanı ilə cavab verdi.

İşğal altında olan ərazilərimizin erməni vandallarından azad olunmasına həsr edilən “İlin beşinci fəsli” sənədli-bədii romandır. Burda təsvir olunan olaylar gerçək hadisələr, qəhrəmanlar isə müharibədə, doğrudan da, iştirak eləmiş əsgər və zabitlərimizdir. Romanda hadisələr o qədər real, inandırıcı təsvir olunub ki, bu barədə ən adi, elementar təsəvvürü olmayanlar belə romanı oxuyub, “Müasir müharibə necə olur?” sualına aydın cavab tapa bilir. Elə təəssürat yaranır ki, müəllif müharibənin ən qızğın nöqtələrində olub və birbaşa iştirakçısı, şahidi olduğu hadisələri təsvir edib. Amma roman daha konkret və daha aktual bir məsələyə də aydınlıq gətirir – Şuşa necə böyük fədakarlıq hesabına azad olunub! Əsas müəllif ideyası məhz bu suala verilən cavabın orbitində fırlanır. Qarabağı, Şuşanı bizə verməyiblər, biz onu almışıq – Ali Baş Komandanımızın strateji uzaqgörənlik və taktiki çevikliyi, ordumuzun rəşadəti və şəhadəti hesabına!

Müharibə mövzusunda yazılan digər romanlardan fərqli olaraq, "İlin beşinci fəsli"nin mərkəzi qəhrəmanı yoxdur. Daha doğrusu, bu qəhrəman konkret bir şəxs yox, özünün bütün əsgər və zabitləri, şəhid və qaziləri ilə birlikdə qəhrəman Azərbaycan ordusudur. Nəyin bahasına olursa-olsun, Şuşanı əldən vermək istəməyən düşmənin aramsız atəş yağışı altında gah bu, gah da digər əsgər və zabit şəhadətə qovuşur, amma ordu qurbanlar verə-verə bir an belə dayanmadan irəliləyir, dolanbac dağ yolları, dumanlı dərələr, sıldırım qayalardan keçir və sonucda zəfər bayrağını Şuşanın ən uca zirvəsinə sancır, Ali Baş Komandanın "Şuşa Azərbaycandır!" əmrini şərəflə yerinə yetirir.

Şuşa noyabrın 8-də – dumanlı, çiskinli bir payız günü azad edilib! Bəs, niyə onda "İlin beşinci fəsli"? Çünki qələbənin konkret fəsli olmur, o sevinci və kədəri, ümidi və qüssəsi ilə birlikdə bütün duyğuların, yazı və qışı, yayı və payızı ilə birlikdə bütün fəsillərin qovuşduğu əlahiddə bir zaman, ayrıca bir fəsildir. Bu fəsil coğrafi yox, mənəvi amillərlə müəyyənləşir. Bu, qələbə fəsli, zəfər fəslidir! Qəhrəmanlığın bir anı və əbədiyyəti var. Fədakarlıq ölüm və ölümsüzlük deməkdir! Şəhadət vaxtdan ucadır!

Etibarın "Qarabağnamə"si üç romandan ibarət olmayıb, "Fəridə nənəgilin pəncərələri" povesti, "Qaç, nə qədər gec deyil", "Üç süngü, bir güllə" hekayələrini də özündə birləşdirir və inanıram ki, o, gələcəkdə də bu istiqamətdəki fəaliyyətini davam etdirəcək. "Tələbə taqımı" romanına yazdığım ön sözdəki bir fikri təkrar etmək istəyirəm ki, bu mövzu Etibarın taleyidir, o dünyaya döyüş mövzuları, konkret olaraq Qarabağ müharibəsi haqqında yazmaq

üçün gəlib və "İlin beşinci fəsli" romanı bu fikrin sadəcə, növbəti əyani təsdiqidir, amma birinci olmadığı kimi, sonuncu da deyil.

Yazıçı qardaşıma taleyin verdiyi missiyanı uğurla yerinə yetirməyi arzulayır, oxucuları qəhrəmanlıq tariximizlə bağlı bizə qurur hissi yaşadan bu romanı oxumağa dəvət edirəm.

***Dərin sayğılarla***
**Əsəd Cahangir**
*10.09.2022*

## BİZİ VƏTƏN ÇAĞIRIR

...Ay işığı bütün dünyanı bürüyən ağappaq gəlinliyini ardınca sürüyüb, gözdən qəfil itdi. Dan yeri söküldü... Birdən-birə sıçrayıb Cıdır düzünə düşən və şahə qalxan ağappaq bir at elə kişnədi ki, səsindən yer-göy, dağ-daş lərzəyə gəldi. Atın belində qürurla oturmuş, başında ağ buxara papaq, ağ çərkəzi çuxalı süvari qılıncını sıyırıb havaya qaldırdı. Laçın qayalarının dalından qalxan Günəş parlayaraq, qılıncın qəbzəsindən tutmuş ucuna qədər bütün Qarabağın üzünə gülümsədi. Ayaqlarını yerə çırpıb, yenidən şahə qalxan atın nallarının zərbindən yer titrədi, göy gurladı, şimşək bütün dağlar boyu qığılcım səpdi. Süvarinin ağırlığından az qala beli qırılan, amma qürurunu qırmayıb qamətini şax tutan at ayaqlarını yerə çırpıb, üçüncü dəfə şahə qalxdı və yerində dövrə vurdu. Qartal baxışlı süvari dörd bir yanı öz qılıncının parıltısında seyr elədi. Dağlar, qayalar, meşələr, çaylar, bulaqlar qılıncın parıltısında almaz kimi bərq vurdu. At ayaqlarını yerə endirəndə süvari qılıncını qınına qoyub, hər iki əlini yanlara açdı, çapmağa başladı, çapıb-çapıb səmanın bağrına sıçradı. Və qəfil gəldiyi kimi buludlara qovuşaraq, sonsuz ənginlikdə qəfil də yox oldu...

***

– Dur, oğul, dur, ayaq saxla, duuuuur! – deyə sıçrayıb yerindən qalxdı ana. Gözlərini ovuşdurub diqqətlə ətrafı dinşədi. Ananın səsindən diksinərək səksəkə içərisində ayılan ata gözlərini qadının əl uzatdığı tərəfə zilləyib həyəcanla soruşdu:

– Nə olub, ay qız, nə baş verib!?

Həyəcandan titrəyən qadın ərinin səsini belə eşitmədi. Alnından puçurlanan tər damlaları göz yaşlarına qarışdı. Arvadın yuxusunu qarışdırdığını anlayan ər xəfifcə toxunub, onu sakitləşdirməyə çalışdı. Qadın gördüyü yuxunun təsirindən hələ də özünə gələ bilmir, dayanmadan hıçqırırdı. Ev telefonunun qəfil zəngi gecənin sükutunu pozdu. Kişi qeyri-ixtiyari saata baxdı: – 01:36. – Xeyir olsun! – deyə yerindən sıçrayıb dəstəyi qaldırdı.

– Yaqubov Cahid Etibar oğlunun evidir?

– Bəli, – zəngin haradan, nə üçün edildiyini anlayan ata həyəcanını boğub təmkinlə cavab verdi.

– Sizi Suraxanı Rayon Hərbi Səfərbərlik İdarəsindən narahat edirlər. Oğlunuz Yaqubov Cahid iki saatdan sonra cəbhəyə yola düşəcək. Xahiş edirik saat dörd tamamda onu idarəyə gətirəsiniz.

– Baş üstə, – deyib dəstəyi asdı. Saatına baxdı. İki saatdan artıq vaxt var, qoy bir az da yatıb yuxusunu alsın deyə oğlunu oyatmağa qıymadı. Ardınca yetirib qapının astanasında dayanan, boynunu bükərək sual dolu gözlərini ona zilləmiş həyat yoldaşına bir söz demədən qonaq otağına keçdi. Televizoru yandırdı. Azərbaycan Prezidenti, Ali Baş Komandanın müharibə anonslu çıxışı təkrar-tək-

rar nümayiş etdirilirdi: – Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaq! Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikası sıradan çıxıb! Son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter almışdır! Bu, erməni faşizminin növbəti təzahürüdür...

Həyətə çıxdı. Sonsuz ənginlikdən boylanan Ayın sifəti bozarmış, işığı süzülüb Bakının üstünə dağıldığından rəngi solmuşdu. Təbiət sakit və səssiz idi. Gecə yarıdan keçməsinə baxmayaraq, küçədən, qonşu həyətlərdən hələ də səs gəlirdi. Şəhər oyaq idi. Qonşular öz övladlarını cəbhəyə yola salmaq üçün tələm-tələsik yol hazırlığı görürdülər.

Kişi gözünü sonsuz ənginliyə uzun-uzadı dikib durdu. "Vaxtdır artıq, – düşündü: – Qoy, bizim yarımçıq qoyduğumuz işi övladlarımız bitirsin. Nəvələrimizə saxlamasın. Qoy, bu məsələ burda bitsin, gələcək nəsillərə qalmasın". Vaxt keçirdi, evə qayıdanda artıq oğlunun da oyandığını, televizorun önündə durub diqqətlə Ali Baş Komandanı dinlədiyini gördü: – ...Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı

dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır! Biz haqq yolundayıq! Bizim işimiz haqq işidir! Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!!!

* * *

Suraxanı rayon hərbi səfərbərlik idarəsinin qabağında yüzlərlə çağırışçı və daha artıq sayda valideynlər, çağırışçıların yaxınları toplaşmışdı. Payız gecəsinin sərin mehi çağırışçı valideynlərinin, yaxınlarının nigaran simalarını, həyəcandan tər basmış alınlarını nə qədər sığallasa da, hiss etdirməməyə çalışdıqları qəlblərinin hərarətini, ürəklərinin yanğısını soyutmaqda aciz qalmışdı. Yola salanlar dolmuş gözlərini gizlətməyə, qüssələrini hiss etdirməməyə, çağırışçılar isə yaxınlarına ürək-dirək verməyə, onları ovundurmağa, qələbə ilə qayıdacaqlarına inandırmağa çalışırdılar. Çağırışçılar ruh yüksəkliyi ilə, valideynlər isə kədərlə vidalaşırdılar. Övladlarını bir daha görə biləcəklərmi, bir daha onları bağırlarına basa biləcək, oxşaya biləcəklərmi deyə həsrətlə övladlarının son görüntülərini gözlərinə hopdurmağa, qoxusunu ciyərlərinə çəkməyə, nəfəslərini yaddaşlarına verməyə çalışırdılar. Gözləri alov saçan çağırışçılar isə otuz illik həsrətə son qoyaraq qayıdacaqları günü xəyallarında canlandırır, indi kədər, nigarançılıq və həsrətdən ağlayan valideynlərinin o zaman fərəh, qürur və sevinc göz yaşları axıdacaqlarını düşünüb qürrələnir, ayrılarkən də yaxınlarının yaddaşında qürurlu qalmağa çalışırdılar...

Avtobuslara minmək haqqında komanda verildi. Çağırışçılar analarından, yaxınlarından ayrılıb bir-bir avtobuslara minməyə başladılar.

– Get, kişi kimi, mərdi-mərdanə döyüş, qələbə ilə qayıt, Cahid! – Oğlu ilə qucaqlaşaraq görüşüb çağırışçıların avtobusa minmələrinə mane olmasın deyə bir addım geri çəkildi: – Tezliklə mən də sənin yanında olacam, İnşaAllah! – ucadan ardınca səsləndi. Cahid atılıb avtobusa mindi və salonun arxa tərəfinə çəkilərək pəncərədən başını çıxartdı: – Sənə ehtiyac qalmayacaq, ata, özüm həll edib, qayıdacam, İnşaAllah! – deyə əlini də başı ilə bərabər avtobusun pəncərəsindən çıxarıb təkcə atasına deyil, onları yola salan bütün valideynlərə tərəf yellədi.

Avtobuslar nərildəyib yerlərindən tərpəndi. Könüllü olaraq Vətənin müdafiəsinə yollanan çağırışçıları aparan maşınlar uzaqlaşdıqca duaları yüksələn analar motor səsləri kəsilənə qədər yerlərindən tərpənməyib əllərini yelləməkdə davam etdilər. Oğlunu döyüşə yola salan ata isə həyat yoldaşının danışdığı yuxunu xatırladı. Çağırışçıları döyüşə, Vətəni müdafiəyə aparan avtobus həyat yoldaşının yuxusunda şahə qalxan, sonra səmaya sıçrayıb buludların arasında yox olan ağ at kimi uzaqlaşıb qaranlığı yararaq şəfəqlərini ətrafa yayan Günəş şüalarının fövqündə gözdən itdi...

* * *

– Bir neçə dəqiqə bundan qabaq mənfur düşmən yeni torpaqlar işğal etmək niyyəti ilə iriçaplı silahlardan istifadə etməklə yenidən ərazilərimizi atəşə tutdu. – Bölük komandiri mayor Elçin Mənsurov uca səslə farağat durub diqqətlə onu dinləyən xüsusi təyinatlılara məlumat verdi: – Artilleriyaçılarımız eşitdiyiniz kimi, – üzünü əsgərlərin-

dən çevirmədən, əlini düşmənin ərazilərimizi atəşə tutduğu səmtə uzadıb hamı aydınca eşitsin deyə səsini daha da ucaltdı, – düşmənin cavabını layiqincə verməkdədir. Düşmən bizi öz ərazilərimizdən, 30 il bundan qabaq xaincəsinə işğal etdiyi ərazilərimizdən atəşə tutur. Düşmən öz torpaqlarımızda bizə meydan oxuyur! Düşmən daha da irəli getmək, torpaqlarımızın daha bir qismini ələ keçirməklə ləyaqətimizi, mənliyimizi tapdamaq niyyəti ilə bu gün yenə də atəşkəsi pozub. Düşmən bu gün bir millət olaraq bizi yox etmək niyyəti ilə yenidən silaha əl atıb. – Sıranın qarşısında gəzərək gözünü belə qırpmadan bir-bir əsgərlərinin sifətinə diqqət kəsildi: – Əsgərlər, bu gün, Vətənimizin bu ağır günündə qarşımızda çox böyük bir vəzifə durur. – Qəfil dayanıb gözünü üzbəüz durduğu əsgərin baxışlarında cəmlədi:

– Əsgər Ayxan Mövsümov.

– Mən, cənab mayor.

– Özündən başqa bacın, qardaşın varmı?

– Bacım var, cənab mayor.

– Gizir Orxan Dadaşov.

– Mən, cənab mayor.

– Özündən balaca qardaşın varmı?

– Var, cənab mayor.

– Çavuş Hacı Vəliyev.

– Mən, cənab mayor.

– Evdə qoyub gəldiyin anan-atan, bacı-qardaşın varmı?

– Var, cənab mayor.

Mayor Mənsurov sıranın qarşısında gəzərək əsgərlərinin gözünün içinə baxmaqda davam etdi. Amma daha sual

vermədi, cavab verdi. Əsgərlərinin qəlblərində ona ünvanladığı suallara cavab:

– Mənim də qardaşım var, cənab leytenant Bağı İbrahimov. Mənim də bacım var, cənab gizir Turqay Məmmədov. Mənim də anam var, cənab gizir Kamil Həsənov. Mənim də atam var, cənab çavuş Bəxtiyar Həsənzadə. Mənim də dayım, əmim, xalam, bibim var, cənab leytenant Ayxan Heydərov. Mənim də yaxınlarım, sevdiklərim var, cənab xüsusi təyinatlılar, sizin sevdikləriniz, sizin yaxınlarınız kimi. – Yeriyib sıranın tən ortasında dayandı: – Amma,.. – alov saçan baxışlarını əsgərlərinin qəzəbdən yanan sifətlərində gəzdirib baş barmağını düşmənin bir an belə dayanmadan atəş açdığı səmtə tərəf uzatdı. – Amma oradan bizi artilleriya atəşinə tutan düşmən və onun atdığı mərmi nə sənin atanı tanıyır, çavuş Rəşad Əsədov, nə sənin ananı tanıyır, çavuş Vüqar Babayev. Nə sənin bacını tanıyır, kiçik çavuş Fərid Aslanov, nə də sənin qardaşını tanıyır əsgər Ayxan Mövsümov. Bu gün mənfur düşmənin niyyəti 30 il bundan qabaqkı niyyətindən heç nə ilə fərqlənmir. 30 il bundan qabaq mənfur düşmən orada, – mövqelənib bu gün bizi atəşə tutduğu öz doğma torpaqlarımızda məsum bacılarımızı, günahsız körpələrimizi, qızlarımızı, gəlinlərimizi, atalarımızı, analarımızı, qocalarımızı, cavanlarımızı öz qanında boğdu. Zülmlə, işgəncə ilə qətlə yetirdi. İndi o ruhlar bizi orada gözləyir, orada! Əsgərlər, əzizlərim, qardaşlarım, baxın, bizim Vətənimiz oradan başlayır!... – Susdu. Sanki dediklərinin təsirini öyrənirmiş kimi yenidən döyüşçülərini bir-bir nəzərdən keçirtdi. Hava artıq işıqlanmağa doğru gedirdi. Amma mayor Mansurova elə

gəldi ki, Günəş bu gün Laçın qayalarının arxasından deyil, səbrlə onu dinləyib, səbrsizliklə əmr gözləyən əsgərlərinin sifətindən doğur: – Ali Baş Komandan əmr verdi. Bu gün artıq illərlə gözlədiyimiz əmrin icrasına başlayırıq. İstiqamət işğal olunmuş torpaqlarımızdır. Leytenant İbrahimov, leytenant Heydərov, siz öz qruplarınızla hal-hazırda olduğumuz Füzuli rayonunun kənd Horadiz istiqamətində, digər iki qrupla isə mən Alxanlı kəndi istiqamətində hərəkət edəcəyik. Kəşfiyyatın verdiyi məlumata görə, vaxtdan istifadə edən düşmən qarşıda çoxsaylı səngərlər qazmış, istehkamlar düzəltmişdir. 6-8 metr dərinliyində xəndəklər qazmış, keçilməz sədlər qurmuşdur. Bütün sahə minalanıb. Heç nəyə baxmayaraq biz, illərlə keçdiyimiz təlimlərdən əldə etdiyimiz təcrübədən istifadə edərək düşmənin qurduğu bütün sədləri aşmalı, istehkamlarını dağıtmalı, mövqelərini ələ keçirməliyik...

Susdu mayor Mansurov, lakin yalnız dil ilə danışmağı durdurdu, bir-bir əsgərlərinin qarşısında gəzib onların alov saçan gözləri ilə danışdı: – Və nəhayət düşmənin işğal etdiyi torpaqlarımızı azad etməliyik. Bunu bütün Azərbaycan xalqı bizdən gözləyir. Bunu bütün türk dünyası bizdən gözləyir, bunu gözləri yaşlı şəhid anaları bizdən gözləyir, bunu hər an dili dualı analarımız bizdən gözləyir, bunu birinci Qarabağ müharibəsindən belləri qırılmış, amma başları dik, məğrur atalarımız bizdən gözləyir. Onların ümidləri bizədir, yalnız bizə. Bizimsə özümüzdən başqa heç kimə ümidimiz yoxdur!... Son ümidimiz Şəhadətdir! Mərdi-mərdanə Şəhadət! Amma şəhadətlə də heç nə bitmir. Üzərimizə düşən vəzifəni yerinə yetirməyincə, tor-

paqlarımızı düşmən işğalından azad etməyincə Şəhadətə belə izn yox!... – Sözünü bitirər-bitirməz üzünü qrup komandiri leytenant İbrahimova tutdu: – Leytenant İbrahimov, İkinci xəndəyi ələ keçirib Şeybey və Nüzgar kəndlərindən keçərək Xocavənd istiqamətində gedən dörd yolda görüşürük. Allah yardımçınız olsun!...

– Qruuup, ardımcaaa irəli! – deyə leytenant İbrahimov iki qrupdan ibarət dəstənin qarşısında deyilən istiqamətdə qaçaraq hərəkətə başladı...

## Düşmənlə göz-gözə

...Düşmənin birinci istehkamı bir kilometr qarşıda təxmin edilirdi. Leytenant İbrahimov açılan atəşlərdən düşmənin mövqelərini təyin edən kimi hər iki qrupa "uzanın" deyə əmr verdi. Leytenant Heydərov sürünərək zabit yoldaşının yanına gəldi. – Sahə minalanıb, Baği, – deyə əlini gözlərinin üstünə qoyub diqqətlə sahəni müşahidə eləməyə başladı: – Pamusun[1] köməyi olmadan buranı keçə bilməyəcəyik. – Başını silkələməklə razılığını bildirən leytenant İbrahimov pamusu atəşə hazır vəziyyətə gətirməyi əmr etdi. Özü isə sahəni bir daha diqqətlə nəzərdən keçirib: – Pamus bizə yalnız əlli metr irəliləməyə kömək edə biləcək. Əlli metrdən sonra isə, – əlini irəli uzadıb şəhadət barmağını uzaqdan güclə sezilən heyvan cığırlarına tuşladı: – baxın, o cığırlardan istifadə etməklə irəliləyə bilərik.

Sahəni minadan təmizləmək üçün nəzərdə tutulan alətdən açılan atəş düşmənin birinci istehkamı istiqamətdə

[1] Sahəni minadan təmizləmək üçün nəzərdə tutulan alət.

irəli şütüdü. Təxminən əlli santimetr enində toz qoparaq cığır açan alət sol tərəfə meylli şəkildə əlli metrdən sonra sönükdü. Xüsusi təyinatlıların iki cığırla daha sürətli irəliləməsini təmin etmək üçün əsgər pamusu ikinci atəşə hazır vəziyyətə gətirdi. Bu zaman artıq pamus avadanlığını işlədən əsgərin yerini təyin edən düşmən həmin ərazini ardıcıl avtomat atəşinə tutdu. Düşmənin davamlı həmlələrindən özünü itirməyən əsgər nizamlayaraq açdığı birinci cığıra paralel şəkildə daha bir yol aça bildi. Düşmən tərəfdən açılan güllələr vıyıltı ilə ətrafından, qulaqlarının dibindən ötdü. Əsgər döyüş yoldaşları irəliləyə bilsin deyə düşmənin diqqətini öz üzərinə cəlb etmək məqsədilə üçüncü cığırı açmaq üçün özünü aləti hazır vəziyyətə gətirməyə çalışan kimi göstərdi. Amma elə anındaca ayağından aldığı güllə yarasından qəfil səntirləyərək yerə yıxıldı.

Leytenant İbrahimovun işarəsi ilə yaralı əsgəri təhlükəsiz yerə gətirmək üçün iki döyüşçü dərhal ona tərəf süründü. – Atəş dəstək! – deyə leytenant İbrahimov ayağa sıçradı. Baxışlarından bir-birini anlayan hər iki qrupun komandirləri pamusun açdığı cığırlarla irəli yeridi. Dərhal da xüsusi təyinatlı döyüşçülər ara məsafəsi saxlamaqla komandirlərinin arxasınca addımlamağa başladılar. Çığırdan çıxmadan, ehtiyatla düşmən istehkamına doğru yeridilər. Minalanmış açıq meydanda, pamusun açdığı cığırdan bir addım belə kənara çıxmaq imkanı olmayan xüsusi təyinatlılar qəfil atəşə tutuldular. Dərhal da sol cinahla irəliləyən leytenant İbrahimovun rəhbərlik etdiyi qrup diz üstə çöküb, cavab atəşi ilə düşməni susdurmağa çalışdı. Düşmən səngərinin ardıcıl atəşə tutulduğundan istifadə

edən leytenant Heydərovun qrupu sağ cinahda irəli şığıdı. Bir qumbara atışı məsafəsində dayanıb nəzərlərini və avtomatlarının lülələrini düşmən səngərindən bir an belə ayırmadan dizlərini yerə qoydular. Komandirin arxasında mövqe tutmuş iki xüsusi təyinatlı dərhal yerlərində dikəlib əl qumbaralarını bir-birindən on-on beş metr məsafə arasında səngərin sağ və sol cinahlarına tolazladılar. Səngərin içərisində baş verən partlayış sağ və sol cinah istiqamətlərdə otuz-otuz beş metr məsafəni toz-dumana bürüdü. Qumbara qəlpələrinin səngərdən kənara yayıla bilməyəcəyini nəzərə alan xüsusi təyinatlılar partlayış zamanı uzanmağa belə vaxt ayırmayıb dərhal irəli şığıdılar. Sağ qalan düşmən əsgərlərinin başını səngərdən çıxarmağa imkan vermədən sürəkli atəş yağdırmaqla sıçrayıb düşmənin mövqe tutduğu səngərə atıldılar. Bir an keçmədi ki, leytenant İbrahimovun qrupu da sol cinahdan özünü yetirdi.

Artıq məhv edilmiş düşmənlə göz-gözə qalan xüsusi təyinatlılar dərhal da qruplarla səngər boyu müxtəlif istiqamətlərdə daha dərinliyə hərəkətə keçdilər. Bir dəqiqə keçmədi ki, yaxın məsafədən düşməni məhv edən leytenant İbrahimovun qrupu: – Sol tərəf təmiz! – deyə bağıraraq məlumat verdi. – Sağ tərəf də təmiz! – leytenant Heydərov döyüş yoldaşına hay verdi. Hər iki qrup rəhbəri məhv etdikləri düşmən cəsədlərinin üstündən adlayaraq səngərin mərkəzində bir-birinə yaxınlaşdı: – Şəxsi heyət salamatdırmı? – deyə sözləşiblərmiş kimi eyni anda bir-birinə sual etdilər. Məlum oldu ki, tapşırığın ilk mərhələsini hər iki qrup itkisiz, tam heyətlə yerinə yetirə bilib. Təxminən səkkiz yüz metr, bir kilometr qarşıda isə düş-

mənin mövqe tutduğu daha bir istehkam onları gözləyirdi. Yubanmaq olmaz, gözlənilməz sürprizlər qaçılmazdı.

– Səngəri diqqətlə yoxlayın, düşmən çox hiyləgərdir, – leytenant İbrahimov göstəriş verdi: – Bütün gizlənə biləcək yerləri axtarın. – Əvvəlcə səngəri, sonra isə qarşıdakı sahəni diqqətlə nəzərdən keçirib: – Ayxan, – gözünü adlamalı olduğu sahədən ayırmadan zabit yoldaşına səsləndi: – Biz növbəti istehkamı götürənə qədər sən burda qal, qardaşım. Həm düşmənin gizləndikləri yerdən çıxıb arxadan hücum etmək ehtimalının qarşısını almaq, həm də lazım olduğu halda bizə dəstək vermək üçün fürsət gözləməlisən.

– Oldu, baş üstə, cənab leytenant. – Adətən bir-birinə adları ilə müraciət etmələrinə baxmayaraq leytenant Heydərov silah yoldaşının məsləhətini döyüş tapşırığı kimi qəbul etdi. – Gizir Orxan Dadaşov və kiçik çavuş Fərid Aslanov, aranızdakı məsafə on-on beş metr olmaq şərtilə düşmənin qarşıdakı istehkamına doğru paralel olaraq minadan təmizlənmiş iki cığır açacaqsız. Hərəkəti sürətləndirmək üçün heyvan cığırlarına üstünlük verin.

– Oldu, cənab leytenant. – Hər iki əsgər kiçik minaaxtaran avadanlıqları işə salıb cəld irəli şığıdı.

Bir-neçə dəqiqədən sonra artıq onlar yüz metrə qədər məsafəni qət etmişdilər. Döyüş yoldaşlarının hərəkətini diqqətlə izləyən xüsusi təyinatlılar bir-birinin gözlərinə baxıb: – Getdik! – deyə qrup komandirinin əmri ilə sıçrayıb səngərdən açıq sahəyə çıxdılar. Silahlarını atəşə hazır vəziyyətdə tutub minadan təmizlənmiş cığır boyu irəli qaçdılar. Qəfil ətrafda minomyot mərmiləri partlamağa,

qulaqlarının dibindən avtomat, snayper gülləleri uçuşmağa başladı. Dərhal da silahlarını işə saldılar. Düşmənin atəş açdığı bütün nöqtələri ardıcıl atəş altında saxlamaqla sürətlərini daha da artırdılar. Düşmən səngəri ilə aralarındakı məsafə kiçildikcə ətraflarında düşən, havada uçuşan güllələrin sayı daha da artmağa başladı. Əsgər qəfil səntirləyib sol böyrü üstə yerə yıxıldı. Çavuş Hacı Vəliyev yetirib özünü yaralı yoldaşına çatdırdı.

Əsgər əlinin içərisindən yara almışdı. Avtomat gülləsi əsgərin ovcunun içərisindən girib, arxa tərəfindən çıxmışdı. Çavuş Vəliyev dərhal döyüş yoldaşının çiyin çantasındakı rezini çıxarıb qan axmasın deyə biləyindən bağladı. Avtomatının gülləleri bitmiş darağını dolusu ilə dəyişib atəşə hazır vəziyyətdə saxladı. Çəkib onu bir qədər təhlükəsiz yerə gətirdi:

– Arxadan əsgərlərimizlə bərabər tibbi heyət də gəlməlidir. Onlara qoşulub geri qayıdarsan, – deyə tapşırıq verdi: – Amma qarşına düşmən əsgəri də çıxa bilər, – əlavə etdi: – diqqətli ol, özünü qoru. Allah amanında! – Qalxmaq istərkən yaralı əsgərin əlini buraxmayıb: – Haqqını halal et, qardaş! – deyə minnətdarlıqla ona zillənmiş gözlərinə ani nəzər yetirdi:

– Halal olsun, qardaş, sən də halal et! – Çavuş Vəliyev yaralı əsgərin: “Halal olsun, Allah sizinlə olsun!” sözlərini dinləmədən qaçıb özünü artıq düşmən səngərini haqlamış döyüş yoldaşlarına yetirdi. Və uca səslə “Allahu Əkbər” – deyə hərəsi bir tərəfdən manevrlə səngərə atıldılar. Səngərdə yalnız bir neçə düşmən əsgəri sağ qalmışdı. Onlar minalanmış bir neçə kilometr məsafəni çox qısa bir za-

man kəsiyində, inanılmaz manevr, çevik hərəkətlə keçib gözlənilmədən səngərin içərisində peyda olan Azərbaycan xüsusi təyinatlılarını qarşılarında görüncə əllərində olan qumbaraları partlatmağa cəhd etdilər. Avtomatları artıq çiyinlərində, avtomat süngüləri əllərində olan xüsusi təyinatlılar düşmənə macal vermədi. Düşmən əsgərləri qumbaraların həlqələrini çəkməyə macal tapmamış avtomat süngülərinin soyuq hərarətini vücudlarında hiss etdilər.

Xüsusi təyinatlılar bıçaqlarını düşmən əsgərlərinin gövdələrindən çıxarıb dərhal da növbəti tapşırıq almaq üçün qrup komandirlərinin yanına toplaşdılar. Amma arxa cəbhədən, indicə keçib gəldikləri birinci səngərdən eşidilən güllə səsləri diqqətlərini cəlb etdi. Cəld silahlarına sarılıb döyüş vəziyyəti aldılar... Düşündükləri başlarına gəlmişdi. Səngərin müxtəlif tərəflərində qazmaların, su çənlərinin içərisində gizlənmiş düşmən əsgərləri gizləndikləri yerdən çıxıb arxa səngərdə mövqe tutmuş xüsusi təyinatlılara hücum etmişdilər. Amma həmişə ayıq vəziyyətdə olan xüsusi təyinatlılar onlardan daha cəld tərpənmiş, dördünü yerindəcə məhv etmiş, ikisi isə səngərdən çıxıb manevrlə qarşıdakı, Azərbaycan əsgərinin indicə azad etdiyi istehkama doğru qaçırdı. Yoldaşlarının onları nişan aldığını görən qrup komandiri:

– Tələsməyin, güllələrə qənaət edin, – deyə gözləməyi əmr etdi: – Kim olduğumuzu hiss etdirmədən onları özümüzə tərəf çağırın.

Xüsusi təyinatlılar səngərdən azacıq qalxınıb: – Ara,... ara... – var səsləri ilə bağıraraq əllərini havada yelləməklə düşmən əsgərlərini yanlarına səsləməyə başladılar. Uzaq

məsafədən xüsusi təyinatlıların yalnız sinələrindən yuxarı hissəsini görən düşmən əsgərləri onları özlərinki zənn edib istiqamətlərini onlara doğru dəyişdilər. Sevincək üstlərinə qaçmağa başladılar. Aldandıqlarını isə yalnız yaxınlaşanda anladılar. Amma artıq gec oldu. Hər ikisi sərrast atəşlə yerindəcə məhv edildi.

Düşməndən azad edilmiş arxa istehkamda mövqe tutan ikinci qrup da özünü ön istehkama yetirdi:

– Əhmədov yaralandı! – deyə çatar-çatmaz leytenant Heydərov məlumat verdi: – Onu təhlükəsiz bir yerdə saxladıq ki, arxadan gələn tibb işçiləri arxa cəbhəyə təxliyə etsinlər.

Leytenant Heydərovun dediklərindən məlum oldu ki, Əhmədov, gizləndikləri yerdən qəfil çıxıb onlara hücum edən düşmən əsgərlərilə döyüşən zaman səngərin içərisindəcə güllə yarası almışdı.

– Allah şəfa versin! – xüsusi təyinatlılar bir ağızdan səsləndilər.

Döyüş yoldaşlarının yaralandığından təəssüflənən leytenant İbrahimov dərindən köks ötürüb tapşırığın növbəti hissəsini həyata keçirmək üçün hərəkətə başlamağın vaxtı olduğunu bildirdi:

– Sol tərəfimizdə Lələtəpə, düz qarşıda Hadrud, Hadruddan sağ tərəfdə isə Xocavənd rayonu yerləşir. – Səngərdən başını qaldırıb əlinin hərəkəti ilə istiqamətləri göstərdi: – Düşmənin qarşıda çox güclü müdafiə mövqeləri yerləşir. Biz Kənd Horadizdən keçib Şeybey və Nüzgar kəndləri istiqamətində hərəkət edəcəyik. Amma adlarını qeyd etdiyim kəndlərə getmək üçün biz Lələtəpə yüksəkliyinin

qarşısından keçməliyik. Lələtəpədən Seyidəhmədli kəndi istiqamətində isə bir neçə xəndək qazılıb. Beş-altı metr dərinliyində, on metr enində olan xəndəklər... – Susub bir-bir döyüş yoldaşlarının diqqətlə onu izləyən baxışlarına nəzər yetirdi: – Bu xəndəklər, bizim qarşımızı almaq üçün düşmənin ən etibarlı maneələri hesab olunur. Orada düşmən hər cür pusqu qura bilər. Tapşırığı yerinə yetirmək üçün ilk növbədə nə etməliyik? – sual dolu gözlərini yenidən döyüş yoldaşlarının baxışlarında gəzdirdi: – Bəli, sağ qalmalıyıq. – deyə yoldaşlarının cavablarını bir daha təkrar etdi: – Yadınızda möhkəm saxlayın, uşaqlar, tapşırığı yerinə yetirmək üçün ilk növbədə, mütləq və mütləq biz sağ qalmalıyıq. Ona görə də heç bir səhv istəmirəm. Diqqətli və yenə də diqqətli, son dərəcə diqqətli olmalısız. Taktikanı bilirsiz, gözlənilməz hücumlardan, artilleriya atəşindən özünüzü qorumalısız, mina ehtimal olunan sahələrdən ehtiyatla ötməli, gördüyünüz bütün şübhəli əşyalardan kənar keçməlisiz... – Susdu. Sual dolu baxışlarını bir-bir döyüş yoldaşlarının gözlərində gəzdirib: – Sualınız varmı? – deyə soruşdu.

– Hər şey aydındır, komandir, – həmlə qrupu bir ağızdan cavab versə də qrup rəhbəri döyüşçülərinin həqiqətən də hər şeyi başa düşüb və yadında saxladığına əmin olmaq üçün müşahidələrini davam etdirdi. Səbrlə gözlədi. Tam əmin oluncaya qədər tapşırığa başlamağa tələsmədi. Xüsusi təyinatlılar da susub komandirlərinin son qərarını gözlədilər. Alov saçan, qəzəb yağan gözlər, ölmək və öldürməyə hər an hazır olduqlarını bütün səmimiyyətilə püskürən baxışlarla komandirlərinin əmrini gözlədilər.

– Elə isə, Allah amanında! – deyə əsgərlərinin döyüş əzminə bir daha əmin olan leytenant İbrahimov sükutu yenə də özü pozdu: – Ya Allah! Getdik!!! – Sıçrayıb səngərdən çıxdı...

* * *

Sahəni diqqətlə nəzarətdə saxlamaqla, avtomatını atəşə hazır vəziyyətdə tutub irəli yeridi. Bir-bir kəlmeyi-şəhadətini təkrar edən döyüş yoldaşları da komandirlərinin ardınca hərəkətə başladı. Sürətlə irəliləyən qrup rəhbəri düşmənin qazmayıb özlərinin və texnikanın xəndəklərə düşmədən rahatlıqla hərəkət etməsi üçün şahmat şəklində saxladığı cığırları müəyyən edə bildi. Dərhal da istiqamətini həmin cığırlar tərəfə dəyişdi. Amma həmin cığırlar düşmən üçün açıq hədəf olduğundan diqqətdən yayına bilməyib, dərhal da artilleriya atəşinə tutuldular. Ətraflarında düşüb toz-torpağı başlarına ələyən, qumu-çınqılı havaya sovuran, qulaqlarını batıran mərmi atəşi altında qaçaraq özlərini Kənd Horadizə saldılar. Kənd ərazisi xüsusi təyinatlıların görünməzliyini müvəqqəti də olsa təmin etdi.

Kəndin dağılmış, viranə qalmış ərazisində təxminən beş yüz metr irəliləmişdilər ki, Lələtəpə istiqamətindən bir düşmən əsgərinin sürətlə kəndə doğru qaçdığını gördülər. Qrup rəhbərinin işarəsi ilə tez yerə çökən xüsusi təyinatlılar döyüş mövqeyi seçib səbrlə düşmənin hərəkətini izləməyə başladılar.

– Mən bu ermənini diri istəyirəm. Sahə barədə səhih məlumata ehtiyacımız var, – deyə qrup rəhbəri üzünü çavuş Hacı Vəliyevə çevirib pıçıltı ilə göstəriş verdi.

Tez-tez çevrilib arxaya baxmaqla hövlnak irəli qaçan

düşmən əsgəri artıq Kənd Horadizin ərazisinə daxil olmuş, sürətlə kəndin mərkəzinə doğru irəliləyirdi. Çavuş Vəliyev avtomatını çiyninə keçirib əyilərək düşmənin qaçdığı istiqamətdə hərəkətə başladı. Düşmən əsgərinin onu görmək, səsini duymaq məsafəsində dayanıb otların arasından başını azacıq yuxarı qaldıraraq: – Ara,... ara,... – deyərək düşməni yanına səslədi. Çavuş Vəliyevi özününkü hesab edən düşmən əsgəri istiqamətini dəyişib Azərbaycan xüsusi təyinatlısına tərəf götürüldü. Amma çavuşa çatmadan sinəsindən aldığı güllədən geri sıçrayıb arxası üstə torpağa düşdü. Dərhal atəş açılan istiqamətdə çevrilən çavuş Vəliyev özündən bir qədər aralıda gizir Turqay Məmmədovun diz üstə çöküb erməni əsgərini nişan aldığını gördü. Yerindən sıçrayıb döyüş yoldaşının gülləsinə tuş gələn düşmən əsgərinin uzandığı yerə götürüldü. Düşmən artıq ölmüşdü.

Əsəbi halda geri qayıdıb hələ də çökdüyü yerdə qalaraq avtomatının lüləsi ilə ətrafı müşahidə altında saxlayan gizir Məmmədovun üstünə bağırdı:

– Nə etdin, ay Turqay?! Eşitmədin komandir nə dedi?

– Eşitdim, amma hövsələm çatmadı, – tövrünü belə pozmadan gizir Məmmədov təmkinlə cavab verdi: – Üzrlü hesab et, Hacı, amma bu ermənilərə heç səbrim qalmayıb. Bir yandan da az qalmışdı sənə çatsın. Qorxdum bir xəta törədər.

Turqayın izahatı çavuşun qəzəbini ovutmadı, amma dərinə də getmədi. Silahını çiynindən sivirib dodaqaltı deyinə-deyinə komandirə yaxınlaşdı. Heç bir söz demədən yanında mövqe tutdu. Qrup rəhbəri də bir söz soruşmadı,

zatən hər şeyi görmüşdü. Narazılığını yalnız "Yenə də məlumatsız qaldıq" – deyə bildirərək məzəmmətedici nəzərlərlə ani olaraq gizir Məmmədovun üzünə diqqət yetirdi:
– Getdik! – ayağa qalxıb irəli düşdü...

...Düşmən kənd ərazisindən çıxmış xüsusi təyinatlıların hərəkət istiqamətini artıq müəyyən etmişdi. Minaatanların atəşi dayanmadan yağır, məsafə böyük olduğu üçün mərmilərin heç biri hədəfə yaxın düşmürdü. Amma dayanmadan düşmən mövqelərinə doğru irəliləyən Azərbaycan əsgərləri, getdikcə atəş nöqtəsinə yaxınlaşdıqları, minaatanların daha rahat nişan alması və atəşin təyin etdiyi yeri tutması üçün açıq hədəfə çevrilirdilər. Mərmilərin daha yaxın məsafədə partladığını görən qrup komandiri:

– Artıq düşmən bizi görüb, hədəfdəyik, diqqətli olun! – deyə aralarındakı məsafəni böyütməyi əmr etdi.

Qarşıda sökülüb-dağılmış bir tikili göründü. Ətrafı diqqətlə müşahidə edib, hərəkət istiqamətlərini müəyyən etmək üçün bu tikilinin xüsusi təyinatlılara köməyi dəyə bilərdi. Qrup rəhbərinin işarəsi ilə hamı həmin tikiliyə doğru istiqamətləndi. Minaatan mərmiləri də artıq daha yaxında düşür, havaya qaldırdığı toz-torpağı, qəlpələri ilə həmlə döyüşçülərini az qala addım-addım təqib edirdi. Qəfil partlayan minaatan mərmisi əks-həmlə döyüşçülərinin son cərgəsində hərəkət edən gənc əsgər Ayxan Mövsümovu havaya uçurtdu. Bir neçə metr kənarda zərblə yerə çırpılan əsgər sağ qolunun yerində olmadığını gördü. Qəlpə Mövsümovun dirsəyindən bir qədər yuxarı sağ qolunu yerindən qoparıb özündən xeyli kənara atmışdı. Ayxan "Qolum", "Qolum" – deyə bağıran zaman çavuş Hacı Və-

liyev çevrilib yardım etmək üçün döyüş yoldaşının yanına yüyürdü. Amma özünü gənc əsgərə çatdıra bilmədi. İkinci mərmi çavuş Vəliyevin düz qarşısında partladı. Və Hacı Vəliyevi havaya qaldırıb arxası üstə torpağa çırpdı...

Sanki Günəş batdı, işıq çəkildi, qaranlıq çökdü. Qaranlığın bağrını yaran qızılı alov dilləri pəncəsi ilə xüsusi təyinatlının sifətini yaladı. Vəliyev əlləri ilə sifətini qapamaq istədi. Bacarmadı. Alov dilləri əllərini də qarsıdı. Əllərini sifətinə yaxınlaşdırıb "Gözlərim" – deyə bağırdı. Döyüş yoldaşları özlərini yetirib hər iki yaralını yaxınlıqdakı tikilinin yanına sürüdülər. Daha təhlükəsiz yerdə arxaları üstə torpağa uzadıb sakitləşdirməyə çalışdılar. Ayxan Mövsümov yerində durmur, ağrıdan qovurulur, dayanmadan "qolum, qolum" – deyə fəryad edirdi. Hacı Vəliyev yerində dikəlib əllərini sifətinə yaxınlaşdırdı. Amma toxunmağa cəsarəti çatmadı. Sanki sifəti od saçır, alov püskürürdü. Bircə qarış sifətindən aralı saxladığı əlləri tir-tir titrəyir, sanki sifətinin istisindən əllərini üzünə yaxınlaşdıra, toxundura bilmirdi.

Qrup rəhbəri yetirib döyüş yoldaşının yanında yerə çökdü: – "Kimsən, əsgər, kimsən, qardaş?!" – deyə üstünə bağırdı. Çavuş Vəliyevsə komandirinin səsini eşitmir, "sifətim yanır,..." – deyə qeyri-ixtiyari təkrar-təkrar öz-özünə gileylənirdi. Qrup rəhbəri onun çiyinlərini qamarlayıb - "Kimsən, əsgər, kimsən, qardaş?!..." – deyə təkrar üstünə bağırınca komandirinin səsini dərin bir quyudan eşidirmiş kimi çavuş Vəliyev sağ qulağını səs duyduğu tərəfə çevirdi. "Mənəm, komandir, mənəm qardaş, Hacıdır, Hacı!"

Leytenant İbrahimovun səsinə eyni tempdə cavab verən çavuş komandirinin yanında olduğunu duyunca ürəkləndi. Qrup rəhbəri gözləri ilə ətrafı axtarıb, yoxlayırmış kimi: – Yox, yox, əsgər, yox, Hacı bu dəqiqə mənimlə bərabər addımlayırdı, özünü ələ al, qardaş, adını doğru de mənə, – çiyinlərindən tutub diqqətlə sifətinə baxdı.

– Mənəm, komandir, mənəm, Hacı! – Komandirini yanında hiss etməsi və sifətindən əllərinə daman qanın təmasını duyması elə bil Hacını sakitləşdirmiş, ürəkləndirmişdi. Sifətinin yanmadığını, mərminin qaldırdığı toz-torpağın sifətinə çırpılması və qəlpə yarası alması nəticəsində üz-gözündə yanğı baş verdiyini anlamışdı. Əllərini yaxınlaşdırıb sifətinə toxundu. Görməsə də, ovuclarının al-qırmızı qana boyandığını hiss etdi. Xüsusi təyinatlı döyüşçü tanınmaz haldaydı. Qrup komandiri onu sinəsindəki etiketindən tanıdı. Amma bir gözünün yerində olmaması, digər gözünün isə əcaib formada çevrilməsi komandiri belə qorxutmuş, söz deməyə cürəti qalmamışdı.

Ani toxtaqlıq tapsa da, əhvalının yaxşı olmadığını anlayan Hacı isə “Ay Allah!” – deyə gözlənilmədən kəlmeyi-şəhadətini deməyə başladı: – Əşhədü ən la İlahə İllallah, Əşhədü ənnə Muhəmmədən Rəsulullah. Əşhədü ənnə əmirəl-mü’mininə Əliyyən vəliyyull...

Leytenant Bağırovun onu sona qədər dinləməyə hövsələsi çatmadı:

– Əşşi, sən də bir dayan görək! – deyə özünü ələ aldı. Sivirib çantasını çiynindən çıxardı: – Səndə nə var ki, belə ölməyə tələsirsən? – Açıb tibbi ləvazimatları bir-bir yerə düzməyə başladı: – Yoxsa bezmisən daha, bizi yarıyolda

qoymaq istəyirsən? – Həyəcandan öz əllərinin də titrəməsinə baxmayaraq, Hacını sakitləşdirməyə, ona toxtaqlıq verməyə çalışdı.

Kəlmeyi-şəhadətini yarımçıq saxlayan Hacı isə indi yadına düşürmüş kimi görmədiyi istiqamətlərdə boylanaraq: – Komandir, sən Allah, görün o əsgər necə oldu? Deyəsən qolundan yaralanmışdı o da, – soruşdu.

Qolunu itirən əsgər Ayxan Mövsümova isə digər döyüş yoldaşları, onlardan beşcə addım aralıda, tibbi yardım göstərməyə çalışırdı. Ayxan Mövsümovun dayanmadan "Qolum, qolum" – deyə sızlamasını Hacı Vəliyev eşidə bilmirdi... Hər iki yaralıya ilkin tibbi yardım göstərildikdən sonra qrup rəhbəri iki döyüşçünü yanına çağırıb: – Yubanmaq olmaz, uşaqlar, yaralılar qanaxmadan ölə bilərlər! Onları dərhal arxaya, təxliyə qrupuna çatdırmaq lazımdır! – deyə əmr etdi.

Komandirin əmrini eşidən çavuş Vəliyev: – Yox, komandir, belə bir vəziyyətdə sizin irəliləməniz daha vacibdir. – Etirazını bildirdi: – Bizdən yana narahat olmayın. Çox xahiş edirəm, bizi elə burada qoyub yolunuza davam edin. Onsuz da, təxliyə qrupu ilə həkim bizi təqib edir. Harada olsalar da, indilərdə gəlib çıxacaqlar!

Komandir döyüş yoldaşlarına bir-bir nəzər yetirib, hamının vaxt itirmədən irəli getmək əzmində olduğunu və döyüş tapşırığının da yalnız bunu tələb etdiyini görüb razılaşmaq məcburiyyətində qaldı: – Allaha əmanət, qardaş, özünüzü qoruyun, İnşaAllah, həkimlə təxliyə qrupu tezliklə özlərini yetirəcəklər! – deyə yaralıları bir-bir bağrına basıb növbəti hədəfə doğru istiqamət götürdü...

Artıq gözlərini itirdiyini düşünən Vəliyev yerə uzanıb gözləri olmadan bundan sonrakı həyatı haqqında xəyallar qurmağa başladı. Qolunu itirən əsgər isə hələ də "qolum" deyə sızlamaqda davam edirdi. Artıq ağrılarının azaldığını, sanki sifətinin keyidiyini və tutulmuş qulaqlarının tədricən açıldığını hiss edən Hacı bir addımlığında uzanıb sızlayan gənc əsgərin səsini indi eşitdi. Sifətini əsgərə tərəf tutub, astadan soruşdu:

– Özünü necə hiss edirsən, əsgər?

Sanki, dərdini deməyə, halından gileylənməyə fürsət axtarırmış kimi:

– Qolunu itirən adam özünü necə hiss edər, komandir? – deyə gənc əsgər narazı-narazı dilləndi.

– Adın nədir, əsgər?

– Ayxan, Ayxan Mövsümov, komandir!

– Səncə gözünü itirən adam özünü necə hiss edər, Ayxan? – bir anlıq susub cavab gözlədi.

Ayxan cavab vermək fikrində deyildi. Bəlkə də görməməyin, kor olmağın nə olduğunu təsəvvür etmədiyi, bəlkə də düşünə bilmədiyi, bəlkə də indi bu barədə düşünmək belə istəmədiyi üçün cavab verə bilmədi. Hacı isə susmadı. Sanki əsgərin deyil, özünün daha çox köməyə ehtiyacı olduğunu göstərmək üçün əsgəri yanına çağırdı:

– Yanımda otur, Ayxan, mən ətrafı görə bilmirəm, mən daha heç nə görmürəm, – gənc əsgərin boyründə yerə çökdüyünü hiss edincə pıçıltıyla dilləndi: – Səncə, mən belə yaşaya biləcəyəmmi? Səncə, yaxınlarının sifətini görmədən, ətrafın, təbiətin gözəlliyini görmədən yaşamaq mənə asanmı olacaq?!...

Ayxanın yalnız sızıltısını eşitdi. Ayxan döyüş yoldaşının əhvalını yaxşı başa düşsə də, cavab verəsi halda deyildi. Özündən bir neçə metr aralıda düşən qoluna, jqutla sıxılmasına baxmayaraq, dayanmadan qanı sızan qopmuş qolunun yerinə baxır, təəssüflə başını yelləyir, sızlamaqdan durmurdu. Dirsəklənib azacıq dikəldi Vəliyev. Boynunu döyüş yoldaşlarının getdiyi istiqamətə uzadıb:

– Qrupu görürsənmi? – deyə xırıltılı səslə soruşdu.

Qrup artıq gözdən itmişdi. Bunu Hacı yaxşı bilirdi. Amma niyyəti gənc əsgəri söhbətə tutmaq, azacıq da olsa, ovundurmaq, dərdini unutdurmaq idi. Ayxan döyüş yoldaşlarının getdiyi istiqamətə diqqət kəsildi. Amma dayanmadan qan itirdiyi üçün və aldığı yaranın acısından gözləri qaralır, artıq uzağı aydın görə bilmirdi.

– Onlar çoxdan gedib, komandir! – əzab və işgəncə ifadə edən titrək səslə cavab verdi.

Hacı döyüş yoldaşını yenə də rahat buraxmadı:

– Sən görə bilirsən, əsgər, sifətimə bir bax. Gör, gözlərim heç olmasa yerindəmi, yoxsa düşüb itib?

Bayaqdan ona tərəf baxmağa cəsarət etməyən əsgər, kiçik komandirinin sifətinə ani nəzər yetirdi. Tez də üzünü yana çevirib gözlərini qapadı. Sanki Hacı onu görürmüş kimi başını yelləməklə "yox" – deyə cavab verdi. Hacı görməsə də, döyüş yoldaşının cavabını duymuşdu. Susdu, amma səbri çatmadı:

– Yoxdur demək, demək, heç vaxt görə bilməyəcəm! Amma sənin qoluna protez qoyacaqlar, eynisi olmasa da, qolunu əvəz edə biləcək, rahat yaşayacaqsan... – Əsgər Mövsümov döyüş yoldaşının çıxmış gözlərinin yerindən

sızan qanı görüb daha da sarsılmışdı. – Səndən bir xahişim var, qardaş, – Hacı yenə də sakit dura bilmədi. Udqundu, qanla dolmuş boğazını arıtlayıb, – gözlərim, bax, buralarda düşüb, qardaş, – deyə boğazını irəli uzadıb, ətrafı göstərirmiş kimi ehmalca başını sağa, sola yellədi: – Axtar tap onları, qardaş, axtar!

Döyüş yoldaşının halı özünü unutdurmuşdu əsgərə. İndi artıq qolunda deyil, ürəyində ağrı hiss edir, qolunun qopduğunu deyil, gözlərinin düşdüyünü zənn edirdi. Çavuş Vəliyevin ağrılarını qəlbində duyur, döyüş yoldaşının gözlərinin deyil, öz ürəyinin düşüb itdiyini, sanki qəlbinin yox olduğunu, yerində isə bir boşluq, bir sükunət, qaranlıq və dərin bir quyu yarandığını hiss edirdi. Əsgər Mövsümov təlimlərə yeni qoşulmuş, amma sınaqları tamamlamamış döyüşə atılmışdı. Ürəyi hələ kövrəkliyini itirməmiş, dərdini içində basdırmağı öyrənməmişdi. Dost itkisi görməmiş, dost itkisinin can yanğısından daha acı olduğunu dadmamışdı. Könülsüzcəsinə ayağa qalxıb, kiçik komandirinin başı ilə işarə etdiyi yerə tərəf addımladı. Döyüş yoldaşının gözlərinin sanki indi ayaqları altında qalacağından, özü də bilmədən ayaqlarını üstünə basmaqla dünya işığını dostunun üzünə birdəfəlik qapayacağından, Hacının bütün ümidlərini, bütün arzularını tapdayacağından qorxa-qorxa yeri axtarmağa başladı. Durduğu yeri ehtiyatla dəyişməklə, ayağını hara gəldi basmamaq şərtilə bütün ətrafı diqqətlə axtardı. Tapa bilməyincə üzünü dayanmadan onu söhbətə tutan döyüş yoldaşına tərəf çevirdi:

– Yoxdur, komandir, yoxduuuur! – hər kəlməsində yanğısını ifadə edən təəssüflə dilləndi.

– Oralardadır, əsgər, oralardadır, bəlkə də, ayaqlarınıza dolaşıb torpağa qarışıb. Bir çöpdən-zaddan tapıb torpağı eşələ, qardaş, bəlkə tapa bildin. – Çavuş inadından dönmədi.

Əsgər Mövsümov yerində azacıq dikəlib, təəccüblə döyüş yoldaşının üzünə baxdı. Düşmüş, yerindən qopmuş gözlərinin çuxurundan dayanmadan sızan qanın altında gizlənmiş sifətinin cizgilərini görməsə də, kiçik komandirinin bilərəkdən onun başını qatdığını anladı. Gəlib ehmalca yanında yerə çökdü:

– Sən mənimlə məzələnirsəəən, komandir? – deyə narazılığını bildirdi.

– Məzələnməkdən keçib, əsgər, səbr etmək, bir az da dözmək lazımdır. Harada olsa, indilərdə təxliyə qrupu gəlib çıxacaq, – etiraf etmək məcburiyyətində qaldı Hacı.

– Yaxşısı budur, gedək burdan, komandir. Çəkilək arxaya. Bizimkilər ordadır! Burada isə hər an bir təhlükə baş verə bilər. Görmədin, köstəbək kimi yerin altından peyda olub, necə üstümüzə hücum çəkdilər?!

Əsgərin narahatlığının artdığını görən çavuş:

– Hücum çəkdilər, amma elə dərhal da gəbərtdik onları! – dedi, amma təkliflə də razılaşmaq məcburiyyətində qaldı: – Yaxşı, avtomatımı gətir ordan, – deyə əlini yaralandığı tərəfə uzatdı: – Oralarda olmalıdır. Mən belə gedə bilmərəm. Avtomatı boynuna keçirərsən, mən də avtomatdan tutub arxanca yeriyərəm. Həm də hər dəqiqə düşmənlə qarşılaşa bilərik, hazırlıqlı olmalıyıq.

Ayxan cəld qalxıb çavuş Vəliyevin göstərdiyi istiqamətə üz tutdu. Tez də qayıdıb:

– Avtomatın yoxdur, komandir, – deyə məruzə etdi: – Onu yəqin, uşaqlar özləri ilə aparıblar. – Cavab gözləmədən geri dönüb öz snayperini götürdü: – Mənim snayperimdən istifadə edə bilərik.

– İndiki halda snayperdən istifadə etmək mümkün olmayacaq, əsgər. – Çavuş razılaşmadı: – Düşmənlə qarşılaşsaq, avtomatdan boynundan asıldığı halda tək sol əlinlə də atəş aça bilərsən, snayperləsə bu mümkün olmayacaq. Gözləsək, yaxşıdır...

– Komandir... – sözü əsgər Mövsümovun ağzında qaldı.

– Susss, – deyə çavuş Vəliyev baş barmağını qanlı dodaqlarının üstünə qoydu: – Ətrafı yoxla, Ayxan, ayaq səsləri duydum.

Ayağa durmağa nə taqəti, nə də həvəsi olan əsgər Mövsümov yerindəcə boylanıb ətrafa diqqət etsə də, heç nə görə bilmədi. İllərin təcrübəsindən keçən, ən ehtiyatlı ayaq səslərindən, tər qoxusundan, hətta bir ay qabaq siqaret çəkmiş insanın özündən xeyli aralıda nəfəsinin hərarətindən duyuq düşən xüsusi təyinatlı kəşfiyyatçı səkkiz ayın əsgərinə inanmadı. Cəld böyründə daşıdığı çantasından əl qumbaralarını hər iki əli ilə qamarlayıb həlqələrini çəkmək üçün dişlərinə yaxınlaşdırdı.

– Durun, atmayın, – səs bir addımlıqdan eşidildi: – Mənəm, Əlizadədir!

Qəfil səsdən diksinən Mövsümov oturduğu yerdən sıçrayıb səs gələn tərəfə boylandı. Çavuş Vəliyev yerindən tərpənmədən:

– Əlizadə kimdir? – əl qumbaralarının həlqələrini dişlərindən ayırmadan xəbər aldı.

Gələn hərəkətdən qalmadı:

– Tibb işçisi, sanitar! – deyə yaxınlaşıb çavuşun başının üstündə durdu: – Sizi aparmağa gəlmişəm! – dərhal da izahat verdi.

Əlizadəni səsindən tanıyan Hacı:

– Sən əsgər Mövsümovu apar, qardaş, onun vəziyyəti daha ağırdır, – deyə arxayınlaşıb əl qumbaralarını çantasına yerləşdirdi: – ikimizi də aparmaq sənə çətin olacaq.

– Mümkün olmayan heç nə yoxdur, qardaş. Həm də sizi burda tək saxlaya bilmərəm. – Əlindən tutub ayağa qaldırdı çavuşu: – Gəldiyim cığırla asta-asta yeriyəcəm. Siz də bir-birinizdən və məndən tutmaqla arxamca addımlayın...

Uzaqlardan dayanmadan güllə səsləri eşidilir, arabir minaatan və artilleriya qurğularının atəşi bütün səsləri batırır, qarşıdakı dağlarda əks-səda verirdi. Motor səslərinin yalnız uğultusu gəlib yaralı əsgərlərin durduğu yerə çatırdı. Artıq həm Hacı Vəliyev, həm də Ayxan Mövsümov ilkin psixoloji sarsıntını adlamış, qulaqlarının uğultusu keçmiş, canlarının ağrısını, az da olsa, unutmuşdular. Tibb işçisinin gəlişi ümidlərini artırmış, xəyallarını doğrultmuşdu. Yaralandığı üçün döyüş yoldaşlarının yanında olmadığından təəssüflənən çavuş Vəliyev, tibb işçisi Əlizadənin köməkliyi ilə ayağa qalxan kimi:

– Uşaqlardan nə xəbər? – deyə xəbər aldı: – Yəqin artıq üçüncü eşalonu da götürüblər, İnşaAllah!

– İnşaAllah! – tibb işçisi də inamla cavab verdi: – Vaxt itirmək olmaz, uşaqlar! – deyə dərhal da narahatlığını bildirdi: – Bizimkilər artıq bu yerləri “şumlayıb” keçiblər,

amma şərəfsizlər hələ də orda-burda gizlənib, gözlənilmədən çıxıb bizə arxadan atəş açırlar!...

Vaxt itirmədən hərəkətə başladılar. Bir az qabaq sağ-salamat adlayıb irəli keçdikləri ikinci eşalona çatar-çatmaz qəfil atəş səsləri eşidildi. Tibb işçisi Əlizadə dərhal dizi üstə çöküb atəş açmağa başladı. Çavuş gənc əsgəri də dartıb, özü ilə bərabər yerə uzandırdı. Avtomatdan qırıq-qırıq atəş açıldı və dayandı. Çavuş uzandığı yerdə dikəlib:

– Nə olub, Əlizadə? – deyə xəbər aldı.

– Ermənidir qaçan! – avtomatının nişangahı ilə hələ də erməni əsgərinin görünüb yoxa çıxdığı sahəni müşahidə edən sanitar təmkinlə cavab verdi. – Onu burdan sağ göndərmək olmaz, qardaş.

Düşmən əsgərinin aradan çıxacağından narahat olan çavuş tələsik dilləndi: – Get, onu təmizlə gəl! Bizdən narahat olma, biz səni burda gözləyirik.

Əlizadə qalxıb düşmən əsgərinin atəş açıb gizləndiyi istiqamətdə addımladı. Qarşı tərəfdə ardıcıl olaraq atışma səsləri eşidildi və kəsildi. Bir neçə dəqiqədən sonra Əlizadə bir avtomat çiynində, biri də əlində arxayın addımlarla yaralı döyüşçülərə yaxınlaşdı.

– Yaralamışdım, yenə də qaçırdı, şərəfsiz! – deyə döyüş yoldaşlarının yanında yerə çöküb dərindən nəfəs aldı.

– Öldürə bildinmi heç olmasa? – Hələ də arxayınlaşa bilməyən çavuş Vəliyev qulaqlarını az qala Əlizadənin dodaqlarına yapışdıraraq soruşdu.

Oturmağıyla durmağı bir olan Əlizadə:

– Məhv etdim, komandir, heç qoyarammı? – deyə dərhal əlavə etdi: – Avtomatını da özümlə götürmüşəm.

– Sanki görürmüş kimi zərərsizləşdirdiyi düşmən əsgərindən qənimət götürdüyü silahı Hacıya tərəf uzatdı. Cavabını gözləmədən: – Gedək, gedək, gözləməyə heç vaxt yoxdur. – deyə yoldaşlarını tələsdirdi...

* * *

Qrup Baği İbrahimovun əmri ilə üçüncü eşalon istiqamətində hərəkətə başladı. Düşmənin mövqe tutduğu və möhkəmləndiyi üçüncü eşalona təxminən bir kilometr məsafə qalmış müşahidə üçün mövqelənib gözləməyi əmr etdi. Üçüncü eşalona getmək üçün yalnız minalanmamış bir yol ehtimal edilirdi. Həmin yol düşmənin təminat maşınları və düşmən piyadasının hərəkəti üçün minalanmamışdı. Bu barədə qabaqcadan kəşfiyyat məlumat vermişdi. Amma bu yolla düşmənin üstünə hərəkət etmək ciddi risk tələb edirdi. Üçüncü eşalonda mövqe tutan düşmən tərəfindən ciddi nəzarətdə saxlanılan minalanmamış bu cığırda görünmək özünü göz-görəsi ölümün qucağına atmaq demək idi. Qrup rəhbəri rabitəçiyə rəhbərliklə əlaqə yaratmağı əmr etdi. Bir dəqiqə keçmədi ki, rabitəçi: "Kombat xətdədir!" – deyə radionu leytenant İbrahimova uzatdı.

– Cənab mayor, biz artıq üçüncü eşalonun bir kilometrliyindəyik. – Qrup rəhbəri dərhal məlumat verdi: – Həmlə etmək üçün fürsət gözləyirik. Amma artilleriya, ya da aviasiya dəstəyi olmasa, şəhid vermədən mövqeni götürmək çətin olacaq! Əmriniz nədir?

– Məlumatımız var, leytenant. Artilleriya sizə dəstək verəcək. – Radiodan yayılan xırıltılı səsi bütün xüsusi tə-

yinatlılar aydınca eşitdilər: – Gözləyin, ikinci həmlədən, aviasiya atəşindən sonra hücuma keçərsiniz!

Qrup rəhbəri sağ və sol tərəflərində uzanıb əmr gözləyən döyüş yoldaşlarına tərəf növbə ilə çevrilib:

– Gözləyək! – deyə əmri təkrar etdi.

On dəqiqədən sonra qarşıdakı düşmən mövqeyinə ardıcıl olaraq iki artilleriya zərbəsi endirildi. Artilleriya zərbələrinin qaldırdığı toz dumanı çəkilməmiş səmada aviasiyanın gurultusu eşidildi. Və hava hücumunun ardıcıl olaraq endirdiyi bir neçə zərbə möhkəmlənmiş düşmən mövqeyindəki düşmən əsgərlərini torpaqla bərabər havaya uçurtdu. Qırıcı təyyarələrin gurultusu qulaqlarından çəkilməmiş: – Ardımca irəli! – deyə leytenant İbrahimovun bağırtısı xüsusi təyinatlıları ayağa qaldırdı. Ara məsafəsi saxlamaqla bir cərgədə sıralanaraq minalanmamış cığırla düşmən səngərinə doğru hərəkətə başladılar. Eşalonun bir neçə addımlığında sürəti artıraraq müxtəlif istiqamətlərdən səngərin içərisinə atıldılar. Başını səngərdən qaldırmağa hələ də cəsarət etməyən düşmən əsgərləri gözləmədikləri anda Azərbaycan xüsusi təyinatlılarını öz qarşılarında gördülər.

Artilleriya və aviasiya zərbələrindən sonra mövqedəki düşmənin sayı xeyli azalmış, cəsədləri səngər boyu səpələnmişdi. Sağ qalanların isə zərbə dalğasının təsirindən qulaqları tutulmuş, hərəkətlərini tənzimləməkdə, özlərini idarə etməkdə çətinlik çəkdikləri aydınca hiss olunurdu. Səngərə daxil olan kimi üzbəüz və qısa məsafədən atəş açmaqla düşmənin müqavimət göstərməsinə macal

verməyən xüsusi təyinatlılar dərhal tutduqları yerdə möhkəmlənməyə başladılar. Qrup komandiri ətrafına boylanıb:

– Hamı sağ-salamatdırmı? – deyə tələsik xəbər aldı.

Şəxsi heyət üzvləri baxışlarını bir-birinə ötürməklə hamının yerində olduğunu qrup rəhbərinə çatdırdı. Eşalon itkisiz alınmışdı. Amma dayanmaq, dincəlmək, hətta bu uğura sevinmək üçün belə vaxt yox idi. Qarşıda isə onları dördüncü eşalon və ermənilərin keçilməz sədd hesab etdikləri, 27 il ərzində möhkəmləndirib alınmaz qalaya çevirdikləri Ohanyan səddi gözləyirdi... Dördüncü, beşinci və işğalçılar tərəfindən dağıdılıb yerlə yeksan olunmuş Füzuli şəhərinin yaxınlığında yerləşən altıncı eşalonların alınması dronların dəstəyi ilə mümkün oldu. Hər iki qrupa altıncı eşalonda dayanıb möhkəmlənmək əmri verildi. Amma çox keçmədi ki, xüsusi təyinatlıları dabanqırma izləyən quru qoşunları özlərini işğalçılardan azad olunmuş əraziyə yetirdilər. Təxminən iyirmi üç saat çəkən əks həmlə əməliyyatından sonra xüsusi təyinatlılara, istirahət belə etmədən, Cəbrayıl rayonu istiqamətində yerdəyişmə əmri verildi. Orada xüsusi təyinatlıları daha ağır döyüşlər gözləyirdi...

***

Hücum əmrindən dərhal sonra zirehli texnika hərəkətə başladı. İstiqamət Füzuli rayonundan keçməklə düşmənin işğal altında saxladığı Cəbrayıl rayonu idi. Kəşfiyyat qrupu artıq xeyli irəliləmişdi. Düşmənin istehkamlar və ciddi maneələr qurduğu birinci eşalonun qarşısındakı ön xətt artıq son bir həftə ərzində polkovnik-leytenant Saqi Babayevin rəhbərlik etdiyi kəşfiyyat qrupu tərəfindən açılmış,

əks həmlənin hərəkəti üçün əlverişli şərait yaradılmışdı. Birinci eşalona qədər olan sahədə zirehli texnikanın və canlı qüvvənin hərəkətinə ciddi mane ola biləcək heç nə qalmamışdı. Azərbaycan Silahlı Qüvvələri əks hücuma keçmək üçün tam heyətdə hazır idi. Amma torpaqların işğaldan azad olunması üçün əmr gözləyən Azərbaycan Ordusunun bütün hərəkətlərini düşmən ciddi şəkildə nəzarətdə saxlayır, azadlıq əsgərlərinin bütün addımlarını təmas xəttinə yığdıqları saysız-hesabsız ağır artilleriya qurğuları, tank və minaatanların nişangahından izləyir, göz qırpmadan qarşı tərəfi müşahidə altında tuturdu. Düşmən işğalı davam etdirmək, azadlıq ordusunun əks-hücumunun qarşısını almaq üçün illərlə ciddi tədbirlər görmüşdü və qurduğu istehkamların keçilməz olduğuna inanırdı. Azadlıq ordusunun keçəcəyi sahəyə əvvəlcə saysız-hesabsız piyada əleyhinə minalar, sonra tank əleyhinə minalar yerləşdirilmiş, ardınca isə bir neçə cərgə dəmiryol dirəkləri basdırılmış, onların da arası və üstü tikanlı lentvari məftillərlə hörülmüş, araları və diblərinə şahmat şəklində tank və piyada əleyhinə minalar düzülmüşdü. Bütün bu kimi ciddi maneələrdən sonra düşmən yenə də rahat ola bilməmiş, ardınca daha bir piyada əleyhinə mina sahəsi, döyüş texnikası əleyhinə mina sahəsi, ardınca məftil maneələri, daha sonra isə tank əleyhinə qazılmış xəndəklərlə mövqelərini möhkəmləndirmiş, keçilməz bir sədd yaratmışdı.

Buna baxmayaraq, iyirmi səkkiz il səbr edən Azərbaycan ordusu əks hücuma keçmək əzmində idi və səbrsizliklə torpaqlarımızı işğaldan azad etmək üçün əmr gözləyirdi... Tanklar, təkərli zirehli texnika və piyadaların döyüş

maşınları toz qopararaq irəli şütüdü. Təxminən beş yüz metrlik məsafəni maneəsiz keçdilər. Azərbaycan ordusunun əks hücumunu öz mövqelərindən müşahidə edən düşmən artilleriyası qəfil atəşə başladı. Görünür qurduqları istehkam və maneələrə arxayın olan düşmən əks-həmlə qüvvələrinin bu qədər məsafəni maneəsiz keçə biləcəklərinə inanmır, qurduqları maneələrin hücumun qarşısını saxlayacağını, basdırdıqları minaların Azərbaycan silahlı qüvvələrini havaya uçuracağını səbrlə gözləyirdi...

Bir anın içində döyüş meydanı tufanlı bir dənizə çevrildi. Ön cərgədə hərəkət edən tanklar, piyadaların döyüş maşınları və digər döyüş texnikasının bir hissəsini alov bürüdü və onlar bir qədər də irəli sürünərək hərəkətdən qaldılar. Meydan toz-dumanla qarışıq vurulmuş texnikadan ərşə qalxan alov dilləri və burum-burum səmaya yüksələn qapqara tüstü məngənəsində əsir oldu. Düşmən isə dayanmadan tank, minomyot və digər artilleriya mərmilərini Azərbaycan ordusunun üzərinə yağdırır, texnikanın hərəkətini dayandırmaq üçün bütün vasitələrdən istifadə edirdi. Qarşıda hərəkət edən döyüş maşınlarının bir hissəsi vurulub hərəkətdən qaldığı üçün arxalarınca gələn texnika və ordunun digər hissələrinin irəliləməsinə maneçilik törədir, əks-həmlə əməliyyatını ləngidirdi...

Briqada düşmən üzərinə üç istiqamətdə hücuma başlamışdı. Sağ, sol və mərkəz cinahlar üzrə hərəkət edən ordunun iki cinahında kəşfiyyat qrupları fəaliyyət göstərir, yalnız mərkəzi cinah komanda idarəetmə məntəqəsinin təlimatları əsasında irəliləyirdi. Kəşfiyyat rəisi polkovnik-leytenant Saqi Babayev döyüşü idarəetmə məntəqə-

sindən müşahidə edən hərbi hissə komandiri polkovnik Nizami Mövlanova yaxınlaşdı:

– Cənab polkovnik, icazə verin mərkəz cinahı üzrə fəaliyyətə başlayım! – deyə döyüşə və kəşfiyyat qruplarının fəaliyyətinə birbaşa döyüş meydanında, əsgərlərlə çiyin-çiyinə olmaqla rəhbərlik etmək üçün icazə istədi. Briqada komandiri əvvəlcə yüksək rütbəli zabitin birbaşa döyüş meydanında fəaliyyət göstərməsinin təhlükəli olduğunu və peşəkar kəşfiyyat komandirini itirmə ehtimalının döyüşün taleyinə mənfi təsir bağışlayacağını bildirib razılaşmadı. Amma polkovnik-leytenantın təkidi və özünün də adətən əsgərlərin arasında irəlidə olmasının döyüşə müsbət təsirini xatırlayıb:

– Düşmən çox hiyləgərdir, Saqi, – deyə briqada komandiri polkovnik-leytenanta öz adı ilə müraciət etdi: – Döyüşün ilk günündə istəmirəm səni itirim. Hər bir əsgərin, xüsusilə də yüksək hazırlıqlı, yüksək rütbəli zabitin, peşəkar kəşfiyyatçının itirilməsinin ordumuz üçün, döyüşün taleyi üçün nə demək olduğunu yaxşı bilirsən. Son dərəcə ehtiyatlı olmaq şərtilə icazə verirəm, sonnn dərəcə! – böyümüş bəbəklərini baxışlarına zilləyib barmağını kəşfiyyat rəisinin burnunun ucunda silkələdi: – Anladınmı?!

– Anladım, cənab polkovnik! – Polkovnik-leytenant gözlərini belə qırpmadan briqada komandirinin sərt və xəbərdaredici baxışlarının qarşısında farağat durdu.

– Get, amma sağ-salamat qayıt! – briqada komandiri razılıq verdi.

– Oldu! – deyə polkovnik-leytenant hərbi təzim edib idarəetmə məntəqəsindən çıxmaq istərkən, – Saqi, – pol-

kovnik Mövlanov bir daha onu öz adı ilə çağırmaqla ayaq saxlamağa məcbur etdi: – Mehti ilə danışmısanmı?

– Bəli, cənab polkovnik, – kəşfiyyat rəisi rəsmiyyətdən çıxmadan qısa cavab verdi.

– Aysu ilə Ayan necədir? – Briqada komandiri zabitinə "azad"lıq verməyə tələsmədi.

– Yaxşıdırlar, komandir!

Hərbi hissə komandiri:

– Allah amanında, komandir, diqqətli ol və ağılla hərəkət et! – deyə azyaşlı qızlarını və oğlunu xatırlatmaqla kəşfiyyat rəisinə bir daha ehtiyatlı olmağın vacibliyini bildirdi.

Kəşfiyyat rəisi baxışları ilə hərbi hissə komandirinin müavinləri və döyüşü idarəetmə qrupunun digər üzvləri ilə vidalaşıb komanda məntəqəsindən çıxdı. Bir an gözlərində canlanan və əllərini ona tərəf uzadaraq məsum təbəssümlə gülümsəyən oğlu Mehdi, körpə qızları Aysu və Ayan komanda məntəqəsindən çıxınca qeybə çəkildi. Yenidən önündə alov yağan, göydən od ələnən, atəş səsləri qulaq batıran, ölümsaçan döyüş meydanı canlandı. Polkovnik-leytenant hər anı ölüm gətirən bu məşum meydandan keçərək qarşıda mənfur düşmənlə üz-üzə olan əsgərlərinin yanına gedəcəkdi. Bu tapşırığı yerinə yetirməzdən öncə isə o, azyaşlı oğlundan, körpə qızlarından və briqada komandirindən ölməmək kimi daha vacib bir tapşırıq almışdı...

Alovlanan bütün təkərli zirehli texnika, tank və piyadaların döyüş maşınlarının arxa qapıları açıldı və desant üçün nəzərdə tutulmuş kabinədə əyləşən canlı qüvvə meydana atıldı. Canlı qüvvənin hərəkətə keçdiyini müşahidə

edən düşmən dərhal kiçik çaplı silahlarla döyüşə qoşuldu. İndi artıq meydanda hərəkət edən təkcə zirehli texnika deyil, canlı qüvvə də hədəfə çevrilmiş, düşmən dayanmadan müxtəlif silahlardan atəş açır, snayper, avtomat və pulemyot gülləri dayanmadan havada uçuşur, dolu kimi torpağa ələnirdi. Piyada qoşunları dərhal özlərinə mövqe seçib yerə sərildilər. Və nişan almadan ardıcıl olaraq qarşı tərəfi atəşə tutdular.

Qısa bir müddətdə manevrlə özünü ön xəttə yetirən polkovnik-leytenant Saqi Babayev vurulduqdan sonra hərəkətdən qalmış və yenicə alovlanmağa başlayan tankın üstünə sıçradı. Tankın üst qapısını açıb bayıra çıxmaq istəyən atıcı operatora geri qayıdıb yerində oturmasını əmr etdi. Cəld içəri atılıb avtomatik idarəetməsi sıradan çıxmış tankın lüləsini əllə idarəetmə ilə düşmən səngərinə tərəf çevirdi. Hədəfi nişan alıb atəş əmri verdi. Dayanmadan həmlə briqadasının üzərinə güllə və mərmi yağdıran düşmənin bir neçə atəş nöqtəsi havaya sıçradı. Səngər boyu düzülən düşmən əsgərləri və səngərin arxa tərəfində sıralanan minaatan qurğuları üzərinə daha iki tank mərmisi endirildi. Alov getdikcə tankın qülləsini bütövlüklə cənginə aldı. Polkovnik-leytenant Babayev və tankın atıcı operatoru cəld özlərini açıq qapıdan bayıra atıb yerə uzandılar.

Bir an keçmədi ki, tank mərmiləri ilə susdurulmuş bir neçə düşmən nöqtəsi yenidən və daha qəzəblə gurlamağa başladı. Kəşfiyyat rəisi sürünərək özünü ön sırada mövqelənmiş həmlə qrupuna çatdırdı. Komandirlərini

yanlarında görüncə, bayaqdan qarşılaşdıqları ciddi müqavimətdən, dayanmadan üstlərinə yağan güllələrdən ruhdan düşmüş, daha bir addım da irəli gedə bilməyəcəklərini düşünən şəxsi heyət sanki məğlubedilməz bir ordunun, yenilməz bir qüvvənin onlara köməyə gəldiyini zənn etdi. "Komandir burdadır, bizimlədir!" – deyə ətrafa çevrilərək sevinc qarışıq bağırtı ilə bir-birinə xəbər verdilər. Mərkəzi cinahdan təxminən beş yüz metr məsafədə yerləşən sağ və sol cinahlar da tez bir zamanda rəhbərliyin onlarla bərabər ön sırada olduğunu öyrəndi. Kəşfiyyat rəisi irəli sürünüb, vurularaq hərəkətdən qalmış, daha bir zirehli texnikanın arxa tərəfdən üstünə sıçradı və bir göz qırpımında özünü kabinənin içərisinə saldı. Düşmənin sıradan çıxmış hesab etdiyi, tədricən alovlanmağa başlayan, tüstüsü göyə qalxan bir tank gözlənilmədən yenidən lüləsini irəli fırlatdı. Və burum-burum havaya qalxan qapqara tüstü dumanının içərisindən qarşı tərəfə alov püskürdü. Snayper və digər kiçik çaplı silahlarla hücumun qarşısını almağa çalışan düşmən səngərindən torpaqqarışıq havaya qalxan bir neçə düşmən əsgəri yarpaq kimi ləngər vuraraq yerə çırpıldı. "Allahu Əkbər" nidası hər üç cinahda əks-səda doğurdu.

Əks-həmlə qrupu sanki bu nidanın şövqündən coşaraq bir göz qırpımında ayağa sıçradı və düşmənin üstünə şığıdı. Qəzəblə yerə çırpılan əsgər çəkmələrinin tappıltısı düşmən səngərində yerindən qopacaq ürək kimi çırpınmağa, altından sıçrayan toz-torpaq isə alov kimi yanmağa başladı. Əsgərlər yaydan çıxmış ox kimi özlərini düşmən səngərinə atdılar. Artıq səngərdən çıxmaq fürsəti tapmamış düşmən əsgərləri dayanmadan qarşı tərəfə atəş açmaq-

la arxaları üstə tələsik geri çəkilməyə başladılar. Amma artıq bir qisminin şəhadəti bahasına əldə edilən səngərdə mövqelənmiş həmlə qrupu düşmənin uzaqlaşmasına macal vermədi. Mövqe ələ keçirilənə qədər qaçıb aradan çıxa bilməyən düşmən yaraqlıları ardıcıl atəşlə susduruldu. Növbəti eşalona özlərini çatdıra bilən digərləri isə mövqelənib yenidən həmlə qrupunu müxtəlif çaplı silahlardan atəşə tutmaqda davam etdilər.

Polkovnik-leytenant Babayev həmlə qrupunun bir qisminə düşmənin atəş nöqtələrini susdurmağı, digərlərinə isə yaralılara ilkin tibbi yardım göstərməyi, şəhidləri təhlükəsiz yerə daşımağı əmr etdi. Özü isə düşməndən təmizlədikləri mövqeləri təhqiq etməyə başladı. Düşmən 28 il işğalda saxladığı ərazilərdə ciddi gücləndirilmiş müdafiə mövqeləri qura bilmişdi. Üstü beton dayaqlarla örtülü müşahidə məntəqələri, iki-üç metr dərinlikdən günəş panelləri vasitəsilə idarə olunan tanka məxsus PKT pulemyotları, əsgər istirahət otaqları, silah-sursat, ərzaq anbarı və sair digər texniki vasitələrlə təmin olunmuş qazmalar düşməndə keçilməz sədd düzəltməsi təsəvvürü yaratmışdı. Düşmən eyni zamanda arxadakı səngərlərə gözə görünmədən, sərbəst gedib-gəlmək və təminat daşımaq üçün yollar qurmuşdu...

Baxış bitər-bitməz polkovnik-leytenant Babayev briqada komandiri Nizami Mövlanovla əlaqə yaradıb, birinci eşalonu düşməndən artıq təmizlədikləri barədə məruzə elədi. Briqada komandiri ilk növbədə şəhid və yaralılarla maraqlandı.

– Çox təəssüf ki, şəhidlərimiz də, yaralılarımız da var, cənab polkovnik! – deyə Babayev gözləri ilə yaralıları səngərə çəkib ilkin yardım göstərən döyüş yoldaşlarına boylandı.

– Dərhal yaralılara ilkin tibbi yardım göstərin! Təxliyə qrupunu yanınıza göndərirəm. Mövqeləri möhkəmləndirin. Bütün ehtiyat tədbirlərini görün. Düşmənin hiyləsindən özünüzü qoruyun. Səngəri və ətrafı ciddi şəkildə yoxlayın. Hər cür sürprizə hazır olun! – deyə briqada komandiri ilk tapşırıqlarını verdi: – Qısa bir müddətdə motoatıcı qoşun hissələrinin tutduğunuz səngərdə yerləşdirilməsi üçün lazım olan bütün tədbirləri görün. Tez-tez mənə məlumat verin! – əlavə etdi.

– Oldu, cənab polkovnik!... – Yenidən aramsız və amansız həmləyə başlayan düşmən artilleriyasının gurultusu polkovnik-leytenantın son sözlərini ağzındanca qapıb havaya uçurtdu... Kəşfiyyat qrupunun ələ keçirdiyi eşalon dayanmadan atəşə tutulur, eşalonun qarşı və arxa tərəflərinə aramsız olaraq mərmi endirilirdi. Başları üstündən vıyıldayan qəlpələr, dayanmadan yağan mərmilərin qaldırdığı torpaq, daş-kəsək əsgərlərin hərəkətlərini çətinləşdirir, verdikləri şəhidlər, ətraflarında zarıldayan yaralılar isə tələsdirir, ləngimədən çalışmaq, heç olmasa, yaralıları ölümdən qurtarmaq üçün əllərindən gələni etməyə məcbur edirdi.

Kəşfiyyat qrupu iki hissəyə bölünərək müxtəlif istiqamətlərə ayrılan səngərin içərisini dəqiqliklə yoxladı. Səngərdən kənar, açıq sahədə piyada qoşunları əleyhinə quraşdırılmış partlayıcı qurğuların təmizlənməsindən ötrü

mühəndis maneələrin dəf edilməsi üçün nəzərdə tutulan alətdən istifadə olundu... Saat 07:30-da başlayan əks-həmlə əməliyyatı saat 11:00-da tapşırığın tamamilə yerinə yetirilməsi ilə başa çatdı.

...Azad olunmuş ərazilərin bütün gecə boyu düşmən tərəfindən dayanmadan artilleriya atəşinə tutulmasına baxmayaraq, piyada qoşunları hissə-hissə irəliləyərək mövqeyə yerləşdirildi. Səhər Günəşi ətrafı işıqlandırmağa macal tapmamış motoatıcı briqadanın əks-həmlə qrupu növbəti tapşırığı həyata keçirmək üçün artıq əmr gözləyirdi. Kəşfiyyat rəisi piyada qoşunlarının hərəkəti üçün bütün tədbirlərin görüldüyü haqqında briqada komandirinə məlumat vermək istərkən, rabitəçi tələsik yaxınlaşıb kombriqın xətdə olduğunu və özünün onunla danışmaq istədiyini bildirdi. Briqada komandiri məruzəni dinləmədən tapşırıq verdi:

– Hal-hazırda yerləşdiyiniz ərazidən iki-üç yüz metr qarşı sağ tərəfdə düşmənin idarəetmə məntəqəsi yerləşir. Orada düşmənin canlı qüvvəsinin mövcudluğu və sizin tutduğunuz mövqeyə doğru hərəkətə keçməyə hazırlaşması ehtimal olunur. Oranı yoxlayın.

Briqada komandiri gecəykən hərbi hissənin qərargah rəisi polkovnik-leytenant Fariz Rüstəmov, briqada komandirinin müavini polkovnik-leytenant Teyfur Rüstəmov, briqada komandirinin ideoloji iş və mənəvi-siyasi məsələlər üzrə müavini mayor Valeh Mustafayevlə birlikdə manevrlə irəliləyərək Nüzgar kəndinin qarşısındakı təpədə idarəetmə məntəqəsi yaratmış və bununla da döyüş meydanını, düşmənin mövqelərini daha yaxın məsafədən

müşahidə etmək, daha dəqiq və operativ qərarlar vermək imkanı qazanmışdı. Briqada komandiri və müavinlərinin idarəetmə məntəqəsi yaratdığı ərazi bir gün qabaq düşməndən azad edilmiş və əks-həmlə qrupunun yerləşdiyi birinci eşalondan təxminən bir kilometr qarşıda idi. Hal-hazırda briqada komandirinin yoxlanılması haqqında tapşırıq verdiyi düşmənin idarəetmə məntəqəsi onlardan təxminən altı-yeddi yüz metr arxada, hücuma hazırlaşan həmlə qrupundan isə bir neçə yüz metr qarşıda yerləşirdi...

Kəşfiyyat rəisi briqada komandirinin tapşırığı üzrə qrup yaradaraq düşmənin artıq susdurulmuş, amma hələ də canlı qüvvəsinin mövcudluğu ehtimal olunan idarəetmə məntəqəsinə doğru hərəkətə başladı. Bu məntəqədə düşmən əsgərlərinin hələ də məhv edilməməsi növbəti həmlə üçün ciddi təhlükə ola bilərdi. Mühəndis maneələrin dəf edilməsi üçün nəzərdə tutulan alətdən istifadə etməklə həmin məntəqə ilə həmlə qrupu arasındakı məsafə zərərsizləşdirildi. Və qısa bir zamanda kəşfiyyat qrupu məntəqəyə sıza bildi. Dərhal da “arama-tarama” işlərinə başlanıldı. Məntəqədə görünmədən xidmət aparmaq üçün hər cür şərait yaradılmışdı. Qarşı tərəfi izləmək və məlumat ötürmək üçün müasir texnika ilə təchiz olunmuş, döyüşmək, hücumun qarşısını almaq və əks zərbələr endirmək üçün müxtəlif çaplı silahlar yerləşdirilmiş məntəqə hətta uzun müddət kifayət edəcək qədər silah-sursat və ərzaq təminatı ilə təchiz edilmişdi. Məntəqədə düşmənin canlı qüvvəsi tapılmadı. Azərbaycan ordusu həmlə edən zaman düşmən məntəqəni tərk edərək qaçmış, məhv edilmiş döyüş yoldaşlarını isə özləri ilə aparmağa macal tapmamışdı.

Polkovnik-leytenant Babayev məntəqəni tam yoxlayıb, hər hansı bir təhlükənin qalmadığına əmin olduqdan sonra briqada komandirinə məruzə etdi. Dərhal da piyada qoşunlarından ibarət bir taqımın məntəqəyə yerləşdirilməsi haqqında göstəriş verdi. Hələ məntəqəni tərk etməmişdi ki, polkovnik Nizami Mövlanovun amiranə səsi yenidən radioda eşidildi:

– Nüzgar tərəfdən üzərimizə dörd düşmən tankı irəliləməkdədir. Daha dəqiqi, Nüzgarın sağ yolundan. Məqsədləri arxamıza keçməklə yolumuzu qapatmaqdır. Artilleriya ilə əlaqə saxla...

Düşmən, görünür, briqada komandirinin hərəkətlərini izləmişdi və kombriqi, yüksək rütbəli Azərbaycan zabitlərini, idarəetmə məntəqəsini sıradan çıxarmaqla döyüşdə üstünlük əldə etməyə, nəticələri öz xeyrinə dəyişməyə can atırdı. Polkovnik-leytenant Babayev dərhal artilleriya divizionunun komandiri mayor Əşrəf Nəsibovla əlaqə saxlayıb koordinatları diktə etdi. Öndə hərəkət edən düşmən tankı artilleriya zərbəsindən dərhal sonra alovlandı. Digərləri əvvəlcə dayanıb geri süründülər, sonra tələm-tələsik çevrilib arxa istiqamətdə sürət götürdülər. Dayanmadan mərmi yağdıran düşmən artilleriyası da istiqaməti atəş nöqtəsinə yönəltməklə tanklarını qorumağa çalışdı. Bir an keçmədi ki, geri dönən düşmən tankları artilleriya mərmilərinin qaldırdığı toz-duman, yanan texnika və digər qurğuların ətrafı bürüyən tüstüsünün arxasında görünməz oldu.

Döyüş meydanını və əks-həmlə əməliyyatlarını binoklunun gözü ilə müşahidə edən briqada komandirinin yeni əmri radioda eşidildi:

– Orta cinah istiqamətində hücuma hazırlaşın! Biz bu mövqeni qısa bir zamanda tutmalıyıq!...

Aypara şəklində əks-hücuma keçən Azərbaycan Ordusu sağ və sol cinahlardan xeyli irəliləmiş, düşməni geri çəkilməyə məcbur etmişdi. Sağ cinahda 218 nömrəlihərbi hissənin bir neçə taqımdan ibarət döyüşçüləri, sol cinahda isə 702 nömrəlihərbi hissənin digər həmlə qrupu mövqelərini möhkəmləndirmişdi, indi növbəti həmlə üçün əmr gözləyirdi. Kəşfiyyat rəisi mərkəz haqqında artıq kifayət qədər məlumat əldə edə bilmişdi. Düşmən mərkəz istiqamətində daha çox texnika və canlı qüvvə toplamış, istehkamlar qurmuş, saysız-hesabsız maneələr quraşdırmışdı. Düşmənin iki tikilidən ibarət komanda məntəqələri də mərkəzi cinahda yerləşdirilmişdi. Komanda məntəqələrinə paralel, amma onlardan təxminən əlli metr aralıda isə minaatanlara məxsus batareya mövqe tutmuşdu.

Polkovnik-leytenant Babayev briqada komandirinin əmri üzrə yubanmadan kəşfiyyat qrupu ilə hərəkətə başladı. Kəşfiyyatçılar sürünüb birinci komanda məntəqəsinə müqavimətsiz daxil oldular. Arama işləri bir neçə dəqiqə çəkdi. “Təmizdir” - deyə kəşfiyyat rəisinə məruzə edildi. Dərhal birincidən çox da uzaq olmayan ikinci tikili istiqamətində hərəkətə başladılar. İkinci tikiliyə on-on beş metr məsafə qalmış qəfil atəşə tutuldular. Qrup yerə uzanıb atəş nöqtəsini müəyyən etməyə çalışdı. İkinci tikilidən təxminən əlli metr aralıda yerləşən minaatanlara məxsus batareyada mövqelənmiş düşmən pulemyotçusu ardıcıl güllə yağdırırdı. Kəşfiyyatçılar növbə ilə atəş nöqtəsinə həmlə etməklə bir-birindən xeyli aralandılar. Qrup rəhbəri

iki döyüşçüyə ikinci tikilini nəzarətdə saxlamağı, digərlərinə isə sürünərək irəliləməyi əmr etdi. Özü isə anidən qalxıb dizi üstə çökərək daha bir döyüşçü ilə minaatanlara məxsus batareyada mövqelənmiş düşmən pulemyotçusunu ardıcıl avtomat atəşinə tutdu. Pulemyotçu ani olaraq susdu, amma ardınca dərhal da sağ və sol tərəflərində mövqelənmiş avtomatçılarla birgə atəşə başladı.

Kəşfiyyatçılar sürünərək özlərini ikinci tikiliyə çatdıra bildilər. Dərhal da əlləri ilə işarə edərək ikinci tikilinin də "təmiz" olması haqqında məlumat verdilər. Mövqelənib düşmən pulemyotçusunu və ətrafındakı atıcıları ardıcıl atəşə tutmaqla komandirin və digər yoldaşlarının da yanlarına gəlmələri üçün şərait yaratdılar. Bir neçə dəqiqədən sonra isə artıq kəşfiyyat qrupunun hamısı özlərini ikinci tikiliyə çatdıra bildi.

Düşmən pulemyotçusu isə susmaq bilmirdi. Komandirin əmri ilə düşmən pulemyotçusunun tutduğu mövqe eyni anda müxtəlif istiqamətlərdən atəşə tutuldu. Avtomat gülləri pulemyotçunun və ətrafındakı düşmən əsgərlərinin diqqətini cəlb etdi, bunu görən kimi iki döyüşçü sağ və sol tərəfdən irəli sürünməyə başladı. Düşmən pulemyotçusunun atəş nöqtəsinin təxminən on-on beş metrliyinə qədər sürünüb, bir-birinə baxaraq işarə gözlədilər. Və qəfil yerlərindən sıçrayıb iki əl qumbarasını eyni anda tikiliyə tulladılar. Düşmən susdu. Düşmənlə kəşfiyyat qrupu arasındakı məsafə toz-dumandan görünməz oldu. Bundan istifadə edən kəşfiyyat qrupu cəld yerindən sıçrayaraq düşmən minbatının mövqeləndiyi, böyük bir hissəsi yerin altında olan tikilinin içərisinə atıldı. Tikilinin içərisində partlayan

qumbaranın təsirindən hələ özünə gələ bilməyən düşmən əsgərlərinin bir neçəsi avtomatdan istifadə etməyə macal tapmadı, kəşfiyyat qrupunun ardıcıl atəşi nəticəsində məhv edildi. Bir neçə düşmən əsgəri arxadakı mövqelərilə əlaqələndirilən səngərin içərisində geri çəkilməyə başladı. Dolanbac səngərlə aradan çıxmağa çalışan düşmən daraqlarında olan bütün gülləleri dayanmadan həmlə qrupu istiqamətində gurlatdı.

Polkovnik-leytenant Babayev vıyıltıyla dəbilqəsini dəlib keçən və beynində gurlayan qəfil zərbənin təsirindən səngərin divarına çırpıldı. Amma özünü itirmədi, ani görünüb tez də gözdən itən düşmən əsgərinin ardınca irəli sıçradı. Tez-tez dönüb arxaya baxmaqla səngərin dərinliyinə qaçan düşmən əsgərini başından nişan aldı. Və işğalçı ordunun canını qurtarmağa can atan əsgəri növbəti dolanbacı adlamağa macal tapmadı. Boynunun ardından aldığı avtomat gülləsi onu zərblə torpağa çırpdı. Aradan çıxmağa macal tapmış bir neçə düşmən əsgəri isə səngərdən çıxaraq arxaya çəkilmişdi, bir xeyli arxada mövqelənərək itirdikləri tikilini atəşə tuturdular. Təxminən üç yüz metr dərinlikdə düşmənin daha bir səngəri görünür və orada mövqelənən düşmənlər artilleriyanın ardıcıl müşayiəti ilə geri çəkilməkdə olan döyüş yoldaşlarına dəstək verirdilər...

Kəşfiyyat qrupu mövqedə möhkəmlənincə, polkovnik-leytenant Babayev başından aldığı zərbəni xatırladı. Dəbilqəni çıxarıb əlini başına çəkdi. Güllə dəbilqəni deşməklə başının sol tərəfindən sivişib keçmiş, xoşbəxtlikdən başına xətər yetirməmişdi...

***

Axşam çiskinlə bərabər gəldi. Qaranlıq duman kimi qəfil çökdü və özü ilə bərabər gətirdiyi sərin meh çox keçmədi ki, qatı dumanı qovub qarşıdakı dağlara doğru apardı. Yağış səpdi və tez də dayandı. Buludlu səmada pərən-pərən düşmüş ulduzlar müxtəlif istiqamətlərdən parlayaraq qatı zülmətin bağrını yardı. Amma şüası özlərindən bir addım da qabağa gedə bilmədi. Utanırmışlar kimi tez də çəkilib buludların arxasında yox oldular. Qaranlığın vahiməsi təbiətin səsini batırdı və tam sakitlik çökdü.

Qaranlıqdan və sükutdan xoflanan düşmən boşluğu atəşə tutdu. Düşmən səngərindən qalxan qırmızı fişəngin işığı həmlə qrupunun üzərini azacıq işıqlandıraraq yox oldu. Gündüz işığında artıq yeri müəyyən edilmiş düşmən eyni məkandan daha bir fişəng atmaqla meydanı nəzarətdə saxlamağa çalışdı. Həmlə qrupunun geri qovduğu işğalçı ordunun aradan çıxmağa macal tapmış əsgərlərinin də toplaşdığı səngərdən daha bir neçə fişəng havaya uçdu. Və meydan yaylımvari atılan fişəng güllələrinin işığından qırmızı rəngdə aydın göründü. Düşmən Azərbaycan Ordusunun yenidən hücuma keçəcəyindən qorxur və havaya tez-tez fişəng buraxmaqla meydanı nəzarətdə saxlamağa çalışırdı.

Həmlə qrupu isə həmin axşam yenidən hücuma keçmək niyyətində deyildi. Əsgərlər tutduqları tikilidən çıxıb, on-on beş metr irəli süründü, səhərə qədər səngərlər qazaraq müdafiəni möhkəmləndirdi, təxminən iki yüz əlli-üç yüz metr uzunluğunda olan ön sırada zəncirvari şəkildə qazılmış səngərlərdə mövqelənib növbəti hücum üçün

hazır dayandı. Düşmən də əks-həmlə etmək üçün bütün gecəni yatmadı. Azərbaycan ordusundan təxminən üç yüz metr irəlidə mövqelənib möhkəmlənməyə çalışdı. Tələsik mövqeyə daşınan artilleriya qurğuları cəbhə boyu düzülərək atəşə hazır vəziyyətə gətirildi. Canlı qüvvənin sayı artırıldı...

Qaranlıq sürünərək meydandan yox olmağa, dan yeri sökülməyə başladı. Ala-toranda üç düşmən əsgəri səngərin üstünə qalxıb irəliyə yerdəyişmə etməyə çalışdı. Ardıcıl uçuşan snayper güllələrinin vıyıltısı bayaqdan düşmən tərəfdən ara-sıra gurlayan avtomat atəşinin bağrına ox kimi sancıldı. Snayper gülləsi ilə məhv edilən işğalçı əsgərlərin cəsədləri diyirlənib qarşı tərəfə düşdü. Düşmən tərəf ani susdu, sonra artilleriya mərmiləri ard-arda həmlə qrupunun yerləşdiyi mövqe istiqamətində uçuşdu. Gecə boyu qazılıb hazırlanan səngərlərin ətrafı tufanlı dənizə döndü. Yaxınlıqda düşən mərmilər torpağın altını üstünə çevirdi. Səngərlərin nizamı pozuldu. Ani olaraq səngərə çökən həmlə qrupu başlarını silkələməklə torpağı təmizləyib avtomatların qundaqlarını yenidən sinələrinə sıxdı. Artilleriya atəşindən istifadə etməyə çalışan bir neçə düşmən əsgəri snayper gülləsi ilə məhv edildikdən sonra durduqları yüksəklikdən aşağı diyirlənmiş üç əsgərin cəsədini götürmək üçün hərəkətə keçdi. Amma tez də başları üzərindən uçan güllələrin xofundan geri çəkildi.

Ala-toran da artilleriya mərmilərinin havaya qaldırdığı toz dumanı kimi səhərin şehindən ağırlaşıb torpağa çökdü. Artıq düşmən mövqeləri adi gözlə aydın görünürdü. Düşmən gecə uzunu mövqeyə daşıdığı minaatan qurğula-

rını səngərdən bir neçə metr arxada sıra ilə yerləşdirmiş, istiqamət verən taxtalarını həmlə qrupunun mövqelərinə doğru tuşlamışdı. O, həmlə qrupunun səngərdən çıxaraq irəli hərəkət edəcəyini gözləyirdi, əlləri tətikdə atəş üçün hazır dayanmış, fürsətə köklənmişdi. Həmlə qrupu isə tələsmirdi. Polkovnik-leytenant Babayev meydanı, düşmənin mövqe tutduğu ərazini və özlərinin bu meydandakı mövqelərini diqqətlə izləyib hücumun növbəti mərhələsi üçün plan hazırlamağa çalışırdı. Düşməninsə gözləməyə səbri çatmadı. Ani səngimədən sonra ağır artilleriya topları və minaatanlar yenidən dilə gəldi. Həmlə qrupunun nizamla düzülmüş avtomat və snayperlərdən düşmən səngərinə doğru ara-sıra uçurduğu güllələr susdu. Əsgərlər səngərlərin içərisində yerə çöküb başları üstündən uçan qəlpə və güllələrdən qorunmağa çalışdı. Kəşfiyyat komandiri:

– Özünüzü qoruyun, əsgərlər! – deyə bağıraraq ətrafına boylandı: – Müşahidə etməklə döyüşü davam etdirin! – Başını səngərdən qaldırmadan tank əleyhinə vasitə olan SPK 9-u atəşə hazır vəziyyətə gətirməyi əmr etdi. Düşmən mövqelərinin üzərinə eyni anda iki mərmi endirildi. Əks-artilleriya həmləsi ilə qarşılaşan düşmən dərhal minaatanlarının yerini dəyişdi. Amma uzaq məsafədən ağır silahlarla yağdırılan atəş səngimədi. Polkovnik-leytenant səngərin içərisində çömbəlmə oturub xəritəni qarşısında yerə sərdi. Şəhadət barmağını xəritənin üstündə gəzdirib düşmənin koordinatlarını təyin etməyə çalışdı. Eyni anda digər əlində tutduğu radionun düyməsini sıxaraq: – Şahin, Qalxana cavab ver, Şahin! – deyə artilleriya divizionunun

komandiri mayor Əşrəf Nəsibovu çağırdı. Divizion komandiri dərhal cavab vermədi. Əlaqə kəsilmişdi.

Polkovnik-leytenant yerini dəyişmək məcburiyyətində qaldı. Bir neçə dəfə yerini dəyişdirməklə, nəhayət ki, divizion komandiri ilə əlaqə yarada bildi. Dərhal da yerləşdikləri mövqenin koordinatlarını dəqiqliklə diktə etdi. Sözünü bitirər-bitirməz əlavə elədi: – Diqqətlə qulaq as, Əşrəf, düşmən mövqeləri bizim durduğumuz yerdən 350 metr qarşıda yerləşir. Hədəfi dəqiq nişan alın. Yoxsa mərmilər düşmənin yox, bizim üstümüzə yağar. Zatən üstümüzə gələn mərmilərdən başımızı belə qaldıra bilmirik!... – Əlaqəni kəsib düşmən tərəfə boylandı. Və düşmən mövqeyindən sıçrayıb üstünə şütüyən tank əleyhinə SPK 9-un mərmisi bəbəklərində böyüməyə başladı. Çevrilib üzü üstə səngərin içinə tullanmaqla eyni anda: – Uzanın! – deyə var səsiylə bağırdı.

"Uzanın" sözünün nidasını qoymamış mərmi başının üstündən uçub bir-neçə metr arxadakı yamacda partladı. Partlayışdan doğan qəlpələr ətrafı bürüyən toz-torpağın içərisindən şütüyüb iynə kimi bütün ətrafa sıçradı.

Komandir ayağa qalxdı. Qoşa əlləri ilə qulaqlarını sıxaraq səntirləyib yenidən yerə çökdü. Eşitmir və aydın görmürdü. Dəbilqəsinin üst tərəfi yerindən qopub havaya uçmuşdu. Burnu yerindən qopmuş, sifətini deşən bir neçə qəlpə dərisini qoparmış, gözlərini qan tutmuşdu. Güllə keçirməyən gödəkçəsinin bir hissəsi qopub çiynindən sallanmış, bədəni saysız-hesabsız qəlpələrdən dəlik-deşik olmuşdu. Qulaq batıran, yeri-göyü lərzəyə salan ard-arda partlayışların qopardığı vahimənin içərisində ətrafa boy-

landı. Ölmüşdümü? Haqqında düşünmək belə istəmədiyi ölüm beləmi olur? Göz qapaqlarını sıxıb əlini görmədiyi istiqamətdə irəli uzatdı:

– Mənə ratsiya verin! – Əsgərlər komandirdən bir neçə metr aralıda düşən radionu tapıb tez onun əlinə uzatdılar. Əsgərin uzatdığı radionun soyuq təmasını əlində duyunca ölmədiyini anladı. Döyüş yoldaşlarının yardım etməyə çalışdıqlarını duymadan, sorğularını eşitmədən xırıltılı səslə briqada komandirini çağırdı. Polkovnik Mövlanov dərhal cavab verdi. – Yaralanmışam, cənab polkovnik, əmriniz nədir?

– Necə yaralanmısan, polkovnik? Vəziyyətin necədir?

– SPK 9-un qəlpələrindən yara almışam, cənab polkovnik. Vəziyyətim haqqında hələlik heç nə deyə bilmərəm!

– Olduğun yerdə qal, səni çıxarmaq üçün texnika ilə təxliyə qrupunu göndərirəm.

– Göndərməyin, cənab polkovnik, gəlib bura çıxa bilməzlər. Mərmi dolu kimi başımıza yağır. Özüm bir təhər çıxmağa çalışacam!

– Taqım və bölük komandirlərini təlimatlandır, sən olmadığın müddətdə qrupu irəli apara bilsinlər. Tez-tez mənimlə əlaqə saxlasınlar. Özünsə ehtiyatlı və diqqətli ol! Mən səni tanıyıram, komandir, yaxşı tanıyıram, sən bu çətinliyi də keçib sağ-salamat yanımıza gələcəksən, gələcəksən!... – Radioda komandirin səsinin tonunun dəyişildiyi, həmişə əmr, göstəriş verməyə öyrəşən polkovnikin indi xahiş etdiyi, yalvardığı aydınca hiss olundu: – Gəlməlisən!... – Briqada komandiri bir daha təkrar etdi: – Gəlməlisən!... Səni buradan izləyirəm, lazım olan anda dərhal

kömək göndərəcəm: – Tələsik də əlavə etdi: – Keçib getdiyiniz yol üzrə arxadakı ən yaxın səngərə doğru hərəkətə başla. Özüm də ora gələcəm. Son dərəcə ehtiyatlı ol, son dərəcə, özünü qoru! Allah amanında! – əlaqə kəsildi.

Polkovnik-leytenant ətrafında ona yardım etməyə çalışan əsgərlərə dərhal zabit heyətini yanına çağırmağı əmr etdi. Onlar gələnə qədər özü ilə gəzdirdiyi su qabını çıxarıb yüngülcə sifətini yaxaladı. Gözlərinə dolmuş qanı, toz-torpağı təmizləyib görməni bərpa etdi.

– Bir neçə dəqiqədən sonra artilleriyaçılar verdiyim koordinatlar üzrə düşmənə zərbə endirməyə başlayacaq. Sonra düşmənin tutduğu əraziləri azad etmək üçün qrupu daha irəli aparmaq lazım olacaq. Bugünlük hədəf düşmənin axşam boyu daşınıb möhkəmləndiyi səngərdir. Gördüyünüz kimi, səngərin arxa tərəfində düşmən iriçaplı silahlar yerləşdirib, üstümüzə dayanmadan mərmi yağdırır. İndiki halda irəliləmək ölümə bərabərdir. Tədbirli hərəkət etmək, ərazini diqqətlə müşahidə edib taktikanı müəyyənləşdirmək lazımdır. Ən vacibi, uşaqların təhlükəsizliyini nəzərə alaraq, hücumu planlaşdırın. Şəhidsiz mümkün deyil, başa düşürük, amma şəhidlərimizin sayını minimuma endirməyə çalışın. Tez-tez kombriqlə əlaqə saxlayın, cənab polkovnik bütün məlumatlardan xəbərdar olmalıdır. – Avtomatına dayaqlanıb ayağa qalxdı: – Çox təəssüf ki, bu yara ilə sizinlə döyüşü sona qədər davam etdirə bilməyəcəm. Sizi Allaha tapşırıram. Özünüzü qoruyun! Allah amanında! – Kəşfiyyat rəisi zabitləri təlimatlandırınca xeyli arxada yerləşdirilmiş Azərbaycan artilleriyaçıları düşmən mövqelərini ardıcıl olaraq atəşə tutmağa başladı.

– Haqqınızı halal edin, uşaqlar! – deyə polkovnik-leytenant Babayev heç kimin köməyi olmadan arxa səngərə doğru hərəkətə başladı.

Başının üstündən aramsız uçan, düşmən səngərinin altını üstünə çevirən artilleriyaçılarımızın qopardığı tufanı duymurmuş kimi avtomatına dayaqlanaraq gəldikləri yolla ləng addımlarla geriyə addımladı. Artıq arxa səngərə qayıtmış, onu binoklla izləyən polkovnik Mövlanov kəşfiyyat rəisini qarşılamaq üçün bir neçə əsgərə göstəriş verdi. Kəşfiyyat rəisi uzun və üzücü yolu çətinliklə keçib özünü bir gün qabaq düşməni qovub çıxardıqları arxa səngərə çatdıranda polkovnik Mövlanovla bərabər təxliyə qrupu və yaralıya ilkin yardım etmək üçün həkim heyəti hazır dayanmışdı. Polkovnik-leytenant həkimin köməyi ilə sanitar maşınına uzadıldı. Sanki üç kilometr məsafəni qanı axa-axa, otura-dura, çətinliklə keçib gələn kəşfiyyat rəisinin gücü bura, döyüş yoldaşlarının himayəsinə çatana qədərmiş.

Saqi Babayevə ilkin yardımı həkim, o artıq huşunu itirdikdən sonra, edə bildi.

Bu vaxt mayor Əşrəf Nəsibovun komandiri olduğu artilleriya divizionu tapşırığı artıq yerinə yetirmiş, motoatıcı briqada hərəkətə keçmişdi. Düşmənsə qarşıdakı səngərin arxasına topladıqları minaatanlarla deyil, uzaqvuran toplar və artilleriya qurğuları ilə hücumun qarşısını almağa çalışırdı. O, motoatıcı briqadanın piyadaları ilə bərabər hücuma dəstək verən Azərbaycan artilleriyaçılarını da hədəfə almışdı. Qarşıdakı səngərin arxasına topladıqları minaatanlarsa artıq məhv edilmiş, motoatıcıların irəliyə

yolları qismən açılmışdı... Artilleriya divizionunun hədəfə alındığını görən briqada komandiri divizionun yerdəyişmə etməsi haqqında əmr verdi. Divizionun qarşısında atəşi dayandırmadan yerdəyişmə etmək kimi çox vacib və riskli bir tapşırıq qoyulmuşdu. Bu, motoatıcı bölmələrin manevrlərini dəstəkləməklə hücumunu sürətləndirmək, düşmən artilleriyasını azdırmaq və yerdəyişmə prosesində yeni mövqedən dərhal atəşi davam etdirərək düşməndə iki cəbhədən artilleriya hücumu qarşısında qalması haqda aldadıcı rəy yaratmaq məqsədi daşıyırdı.

Divizion dərhal hərəkətə başladı. Daşına bilən artilleriya qurğularından yalnız ikisi əvvəlki mövqedə qalıb atəşi davam etdirərkən, digərləri yeni mövqeyə daşındı. Elə birinci minaatan daşındığı yerdə quraşdırılan kimi atəşə qoşuldu. Bu zaman artıq səkkiz kilometrdən uzaq məsafəni vura bilən artilleriya qurğularımız da dislokasiya tapşırığını yerinə yetirib atəşə hazır vəziyyətə gətirilmişdi. İlk mərmi hücumun qarşısını uzaq məsafədən almağa çalışan düşmən mövqeyini havaya uçurtdu. Ardınca ard-arda endirilən artilleriya zərbələri düşməni tamamilə susdurdu. Piyada qoşunları düşmənin yerlə yeksan olunmuş səngərinə, meyitləri üst-üstə qalaqlanmış minaatan batareyasının məhv edilmiş mövqeyinə daxil oldu. Briqada komandiri isə dayanmamağı, mövqelənib müşahidə apardıqdan, ətrafı dəqiqliklə öyrəndikdən sonra hücumu davam etdirməyi əmr etdi. Düşmənin geri çəkilərkən arxada, əks-həmlə ordusunun addımbaaddım keçəcəyi yolda qurduğu pusqu isə hələ "gizli döyüşü" davam etdirirdi...

Uzaqvuran artilleriya qurğuları yerdəyişmə edən kimi atəşə hazır vəziyyətə gətirildi. Tank əleyhinə döyüş topları batareyasının baş zabiti baş leytenant Fərhad Mürsəlov ərazini öyrənmək məqsədi ilə ətrafı gəzərkən yerləşdikləri mövqedən təxminən otuz-altmış metr qarşıda dörd Azərbaycan tankının tüstüləndiyini müşahidə etdi. Onlardan üçü qüllə hissəsindən alovlanmağa başladığından artilleriya qurğuları ilə vurulduğu, birinin isə tırtılları qırıldığından və alt tərəfindən alovlanmağa başladığından tank əleyhinə minaya düşdüyü ehtimal edilirdi. Fərhad Mürsəlov tankların içərisində yaralı əsgərlərin ola biləcəyini söyləyib onları da yoxlamağı məsləhət gördü. Və beş nəfərdən ibarət qrupla tankın açdığı cığırla həmin tanklara doğru irəliləməyə başladılar.

Tankların ekipajları zirehli maşınları tərk etmişdilər. Ətrafda da nə şəhid, nə də yaralı diqqəti cəlb edirdi. Görünür, tankların heyəti də piyadalara qoşulub hücumu davam etdirmişdi. Ətraf öyrənildikdən sonra baş leytenant Fərhad Mürsəlov dərhal topların yanına qayıtmağı əmr etdi. Briqada komandirinin əmri ilə həmləni davam etdirməli, növbəti yerdəyişməyə hazır olmalı idilər.

Düşmən artilleriyası isə qısa fasilədən sonra yenidən gurlamağa başladı. Tank əleyhinə döyüş topları batareyasının baş zabiti tələsir, düşmənə vaxtında cavab vermək üçün özünü artilleriya qurğularına çatdırmağa çalışırdı. Piyadaların və zirehli texnikanın keçib irəliyə getdiyi ərazidə hərəkət etdiyindən özünü təhlükəsiz hiss edir, tələsdiyindən mina ehtimalını ağlına belə gətirmirdi. Qəfil ayağı boşluğa düşdü, ardınca isə ayağının altında partlayan

piyada əleyhinə mina onu havaya qaldırıb bir neçə metr kənara tulladı. Yerə düşərkən artıq huşunu itirmişdi. Top komandiri çavuş Elçin İsmayılov cəld komandirinə doğru götürüldü. Amma düşmənin sürpriz minalarını xatırlayıb tez də ayaq saxladı. Dərhal rəhbərliklə əlaqə saxlayıb baş leytenant Fərhad Mürsəlovun minaya düşməsi haqqında məruzə etdi. Çavuş İsmayılova tezliklə istehkamçı və təxliyə qrupunu göndərəcəklərini bildirib, baş leytenanta yaxınlaşmayıb gözləməyi məsləhət gördülər.

Çavuş İsmayılovunsa istehkamçı və təxliyə qrupunu gözləməyə hövsələsi çatmadı. Döyüş yoldaşının gözlərinin qarşısındaköməksiz vəziyyətdə can verməsinə razı ola bilmədi. Minanın havaya qaldırdığı toz-torpaq yerə çökən kimi asta-asta taqım komandirinə tərəf addımladı. Bir neçə addımlığında dayanıb müşahidə aparmağa başladı. Baş leytenant Fərhad Mürsəlov inildəyib gözlərini açdı. Ağrı hiss etmirdi. Sanki yerdə uzanıb qalan onun cismi deyil, ruhu idi. Azacıq qalxınıb cisminə baxdı. Heç nə görə bilmədi. Uzanıb nə baş verdiyini xatırlamağa çalışdı. Düşmənin atdığı artilleriya mərmiləri xeyli qarşıda partlasa da səsi gəlib Mürsəlovun minaya düşdüyü yerə çatırdı. Baş leytenant Mürsəlov heç bir səs eşidə bilmirdi.

Bir neçə addımlığında dayanıb ətrafı müşahidə etməklə ona yaxınlaşmağa çalışan çavuş İsmayılov döyüş yoldaşının ətrafında diqqətini cəlb edən şübhəli çuxurları və telləri görüb hərəkətdən qalmışdı. Asta səslə batareya komandirini çağırır, baş leytenantın sağ olub-olmadığını öyrənmək istəyirdi. Bir neçə dəqiqədən sonra isə baş leytenant Mürsəlovun kiprikləri çırpınıb yenidən aralandı. Bulanıq

şəkildə döyüş yoldaşının bir neçə addım ondan qabaqda dayanıb ona baxdığını gördü. Azacıq qalxınıb yenidən bədəninə boylandı. Sol ayağı yerində deyil, sağ ayağını isə qəlpələr parçalamış, qanı dayanmadan axırdı.

– Gəl məni burdan çıxart! – deyə xırıltılı səslə döyüş yoldaşına səsləndi.

Öz səsini eşitməsə də çavuş İsmayılovun:

– Səbr et, qardaş, ətrafında sürpriz minalar var. İstehkamçını çağırmışam, qoy gəlib ətrafını təmizləsin, sonra çıxaracağıq, – dediyini zəif şəkildə eşitdi. – Amma yerindən tərpənmə. O biri minalara toxuna bilərsən. Bir az dişini sıx! – Komandirinin ölmədiyinə əmin olan çavuş İsmayılov, huşunu itirməsin deyə onu söhbətə tutmağa çalışdı:
– Döz, qardaşım, bir az da döz!

Baş leytenant Mürsəlov döyüş yoldaşının son sözlərini eşitmədi. Artıq sağ ayağının sanki od tutub yandığını, dizindən aşağı sol ayağının qopduğu yerdənsə dəhşətli bir ağrının baş qaldırdığını hiss etməyə başlamışdı. Qan onu aparır, gözləri getdikcə öləziyirdi. İstehkamçının gecikdiyini, komandirinsə qan itirmədən ölə biləcəyini düşünən çavuş İsmayılov ehtiyatla ona yaxınlaşmağa başladı. Çətinliklə qolları arasına alıb ayağa qalxdı. Ayağını öz izinə basmaqla asta addımlarla arxa tərəfə yeriməyə başladı. Baş leytenant Mürsəlov huşunu itirdiyindən döyüş yoldaşının onu qucağına alarkən əlinin parçalanmış sümüyünün arasına keçdiyini hiss edə bilmədi. Çavuş İsmayılov komandirini ayağının altında daha bir mərminin partlaması qorxusu ilə deyil, ruhunu, yaralanmış cismini incidə biləcəyi həyəcanı ilə ehtiyatla geridə buraxdıqları topların yanına gətirdi.

Çavuş İsmayılov komandirini təhlükəsiz yerə gətirincə istehkamçı, həkim və təxliyə qrupu da artıq özlərini hadisə yerinə çatdırmışdılar. Çavuş İsmayılov yaralını UAZ tibb maşınına yerləşdirən kimi həkim ilkin yardım göstərməyə başladı. Dərhal da çevrilib tibbi yardım maşınının açıq qalmış arxa qapısından gözlərini intizar içərisində ona zilləmiş baş leytenantın döyüş yoldaşlarına boylandı:

– Arxayın olun, uşaqlar, sağalacaq komandiriniz!

Döyüş yoldaşları baş leytenant Mürsəlovun hərəkətsiz bədəni, solmuş siması və yumulu gözləri ilə ümid və həsrət dolu baxışlarla vidalaşıb tibbi yardım maşınını gəldikləri yolla geriyə yola saldılar. Getdikcə sürətini artıran "sanitar" maşını gözdən itənə qədər yerlərindən ayrılmayıb onu müşahidə etdilər.

Qarşıda partlayan artilleriya mərmisi onları fikirdən ayırdı. Düşmənin uzaq məsafəni vuran toplarının mərmiləri onların durduğu yerə gəlib çata bilmirdi. Bu o demək idi ki, düşmən artilleriyası onlardan xeyli uzaqda mövqe tutmuş və onların da atacağı mərmilər düşmən mövqelərini məhv etmək imkanında deyildi. Baş leytenant Mürsəlov ərazini öyrənmək məqsədi ilə ətrafı gəzərkən toplar artıq həmlə vəziyyətindən çıxarılıb, növbəti döyüş məntəqəsinə daşınmaq üçün maşınların arxasına bağlanmışdı. Yerdəyişmə tapşırığını yerinə yetirmək üçün dərhal hərəkətə keçdilər. Maşınlara əyləşib verilmiş koordinatlar üzrə hərəkətə başladılar. Yerdəyişmə tapşırığını adətən gecə qaranlığında həyata keçirməyə öyrəşmiş topçular artıq xeyli irəliləmiş piyada qoşunlarının əks hücum əməliy-

yatına dəstək vermək üçün qaranlığın düşməsini gözləyə bilməzdilər...

Düşmənin qovulmuş 41-ci artilleriya alayının qalıqlarının qarşıdakı təpələrdə mövcudluğu haqqında məlumat daxil oldu. Düşmən hələ də həmin təpəliklərdən əks həmlə qüvvələrinin hərəkətini izləyir, fürsət tapan kimi ağır artilleriya qurğuları ilə əks zərbə vurmaqla irəliləməyimizə mane olmağa çalışırdı. İlk mərmi ön sırada döyüş topu daşıyan maşından bir neçə metr qarşıda partladı. Maşın yoldan çıxıb hərəkətdən qaldı. Baş leytenant Fərhad Mürsəlov yaralanıb döyüşdən çıxdıqdan sonra müvəqqəti olaraq onun vəzifəsini icra edən çavuş Elçin İsmayılov kabinədən sıçrayıb: – Sağ tərəfə döyüşə! – deyə bağıraraq şəxsi heyətin maşınları tərk edib müdafiə olunmalarını əmr etdi.

Şəxsi heyət maşınların banından tullanmağa macal tapmamış ikinci mərmi digər bir maşının önündə partladı və maşını yolundan çıxarıb xeyli kənara aşırdı. Alov maşının motorxanasını bürüyüncə əsgərlər sıçrayıb yerə düşdülər. Yaralıları da özləri ilə sürüyərək kənara çəkildilər. Ətrafda ard-arda partlayan mərmilərin qaldırdığı toz dumanı, alovlanmış maşınlardan qalxan tüstü topçular batareyasını tamamilə cənginə aldı. Döyüş topları daşıyan maşınlardan üçü tamamilə sıradan çıxsa da, burularaq havaya qalxan tüstüsü bir-birindən xeyli məsafədə aralı yoldan çıxaraq hərəkətdən qalmış digər maşınları arxasında gizlətdi. Düşmən isə eyni istiqamətdə dayanmadan mərmilər endirir, əsgərlərə göz açmağa macal vermirdi.

Sürünərək texnikalardan xeyli kənara çəkilmiş əsgərlər avtomatlarını uzaqdan təyin etdikləri düşmənin atəş

nöqtələrinə tuşladılar, amma atəş açmağa tələsmədilər. Düşmən təxminən min-min iki yüz metr məsafədən onları mərmi atəşinə tutmuşdu. Çavuş Elçin İsmayılov briqada komandiri ilə əlaqə saxlamağa çalışdı. Amma radioda xışıltıdan başqa heç bir səs eşitmədi. Eyni anda əsgərlərdən bir neçəsi bağıraraq yaralandıqlarını, köməyə ehtiyacı olduqlarını söylədilər. Komandir pusqudan salamat çıxmış əsgərlərə yaralıları təhlükəsiz yerə daşımalarını əmr edib, özü isə yenidən briqada komandiri ilə əlaqə saxlamağa çalışdı. Elə bu an başının üstündə Azərbaycan Silahlı Qüvvələrinə məxsus dronların gurultusunu eşitdi. Arxası üstə torpağa uzanıb dərindən nəfəs aldı. Bir an keçmədi ki, arxa mövqedəki artilleriya qurğuları da dronların həmləsinə qoşuldu.

Düşmən mövqeləri istiqamətdə uçuşan mərmilərin gurultusu qulaqlarını batırsa da, sinəsində sıxdığı radiodan xırıltı ilə gələn briqada komandirinin səsini eşidə bildi. Briqada komandiri şəhid və yaralıların sayını soruşur, vəziyyətləri ilə maraqlanırdı. Çavuş Elçin İsmayılov yaralıların daşındığı çuxura sürünüb vəziyyətlə maraqlandı. Dərhal da yeddi nəfərin yaralandığını, şəhidin olmadığını məruzə etdi. Briqada komandiri yaralılara ilkin yardım göstərməyi tapşırıb təxliyə qrupu və həkim gələnə qədər yerlərindən tərpənməməyi əmr etdi...

## Şişqaya döyüşü və Hadruta açılan qapı

Dörd nəfərdən ibarət xüsusi təyinatlı qüvvələrin mənsubu tabor komandiri mayor Hacı Rəhimov və bölük komandiri baş leytenant Allahyar Telmanlı ilə şəxsi heyətə yaxınlaşan zaman səbrsizliklə tapşırıq gözləyən könüllü zabitlər baş leytenant Səid Rəşidzadə, baş leytenant Elgün Kazımov və baş leytenant Raqif Xanışov irəli yeridilər. Artıq hər üç zabitin səbrsizlik göstərdiklərini, dəfələrlə irəli getmək, döyüşə qatılmaq xahişi ilə müraciət etdiklərini nəzərə alan mayor Rəhimov:

– Gözləriniz aydın, uşaqlar, tapşırığa gedirsiz! – deyə məlumat verdi: – Hər üçünüz baş leytenant Allahyar Telmanlının bölüyündə taqım komandiri kimi fəaliyyət göstərəcəksiz. Bu qardaşlar, – üzünü xüsusi təyinatlılara tərəf çevirib, – sizə bələdçilik edəcəklər, – dedi, – hazır olun...

Taborun fəaliyyətə hazır olması haqqında baş leytenant Allahyar Telmanlı gecə saat dörd radələrində məruzə etdi. Tabor komandiri mayor Hacı Rəhimov döyüş tapşırığı haqqında məlumat vermək, təlimatlandırmaq üçün zabit heyətini yanına çağırdı:

– Taborumuza çətin, amma şərəfli bir tapşırıq verilib, zabitlər. Bilirsiz ki, ordumuz dayanmadan irəli gedir, artıq qısa bir müddətdə kifayət qədər uğurlar əldə etmişik. Amma bizim əsas məqsədimiz düşməni tamamilə məhv etmək və işğal altında olan bütün torpaqlarımızı işğaldan azad etməkdən ibarətdir. Xocavənd rayonunun Hadrut qəsəbəsi istiqamətində və qəsəbəni əhatə edən bir neçə

hakim yüksəklikdə möhkəmlənən düşmən ordumuzun irəliləməsi üçün ciddi maneə törədir. Bu maneəni aradan qaldırmaq tapşırığı bizim taborun üzərinə qoyulub. Qəsəbə istiqamətində kəşfiyyat fəaliyyəti göstərən bir qrup xüsusi təyinatlı Şişqaya yüksəkliyi yaxınlığında düşmənə sarsıdıcı zərbə vuraraq geri dönən zaman hiyləgər düşmən tərəfindən pusquya düşüb. Hazırda xüsusi təyinatlı qüvvələrdən ibarət olan qrup mühasirə şəraitində döyüşü davam etdirir. Bizim vəzifəmiz dayanmadan irəliləyərək kəşfiyyatçılarımızın mühasirədən çıxmağına yardım etmək və hakim yüksəklikləri ələ keçirməklə Hadrut qəsəbəsinin işğaldan azad olunmasına şərait yaratmaqdır. Tapşırıq sizə aydındırmı?

– Bəli, cənab mayor. – Zabitlərin dördü də eyni anda cavab verdi.

– Sualınız varmı?

– Xeyr, cənab mayor.

– Əməliyyata şəxsən özüm rəhbərlik edəcəm. Taqımlar arasındakı məsafənin yetmiş, yüz metrdən artıq olmamağına nəzarət edin. Harada olmağımdan asılı olmayaraq bütün məlumatlar dərhal mənə çatdırılmalıdır...

Xüsusi təyinatlıların dörd nəfərdən ibarət qrupu öndə irəliləməklə tabor təyin olunmuş istiqamətdə hərəkətə başladı. Keçilməz dağlar, sıldırım qayalarla irəliləyən tabor təxminən otuz beş-qırx kilometrlik məsafəni on iki saata qət edə bildi. Gün əyilmiş, payız Günəşinin beli qırılmışdı. Hərarət düşsə də, dayanmadan hərəkətdən vücudları od tutub yanan əsgərlərin istidən pörtmüş sifətlərinin təri qurumamış, alınlarından puçur-puçur gilələnirdi. Ara-sıra əsən

sərin, amma qupquru dağ mehi susuzluqdan dil-dodaqları qurumuş əks-həmlə qrupunun sifətlərini və dodaqlarını çat-çat etmişdi. Susuzluqdan az qala ciyəri qovurulan əsgərlərin gözlərinin işığı solmuş, taqətləri kəsilmiş, ayaqlarını çətinliklə sürüyürdülər. "Su, su" – deyə inildəyən əsgərlərin hənirləri aydınca eşidilirdi... Yüksəklikdə mövqe tutan düşmən qruplarla hərəkət edən taborun hərəkət istiqamətini artıq müşahidə etmişdi. Amma susur, səbrlə pusquya sala biləcəkləri məqamı gözləyirdi.

Özü də yorulub əldən düşmüş, həm də yaralı olan tabor komandiri mayor Rəhimov irəli keçib zabitləri yanına çağırdı. Hərəkətdən qalmadan çatdıqları əraziyə uyğun şəkildə döyüş tapşırığını izah etməyə çalışdı:

– Əvvəla nəzərinizə çatdırım ki, artıq biz düşmən tərəfindən aşkar olunmuşuq. Düşmən bizi sol tərəfimizdəki dağ silsiləsindən müşahidə edir, – deyə başının işarəsi ilə sol tərəflərindəki yüksəkliyi göstərdi: – Diqqətlə qulaq asın, sol tərəfimiz Cəbrayıl rayonu, sağ tərəfimiz Füzuli rayonu, qarşıda isə Hadrut qəsəbəsidir. Getdiyimiz istiqamətdən baxdıqda qəsəbənin sol tərəfində Şişqaya yüksəkliyi, sağ tərəfində isə Ərgünəş yüksəkliyi yerləşir. Düşmən hər iki yüksəklikdə möhkəmlənərək hissələrimizin irəliləməsi üçün ciddi maneə törədir. Biz bu yüksəklikləri götürməklə ordumuzun irəliləməsinə şərait yaratmalıyıq. İlk növbədə Şişqaya yüksəkliyini götürmək, sonra isə Hadrut qəsəbəsinin içərisindən keçməklə Ərgünəş yüksəkliyi istiqamətində hərəkət edəcəyik. Düşmən bizi, çox güman ki, qarşıdakı alban məbədinin yaxınlığında pusquya salmağa çalışacaq. Düşmən alban məbədinin yaxınlı-

ğında su olduğunu və bizim də su əldə etmək məqsədilə mütləq ora gedəcəyimizi düşünür. Ora, həm də çökəklik olduğu və düşmən mövqelərindən asanlıqla nişana gəldiyi üçün bizi orada tamamilə məhv edəcəyinə əmindir. İndi düşmənə hiss etdirmədən taqımlarınızın qarşısına keçin və tədricən sağ tərəfə çəkilməklə hərəkəti davam etdirin. Əmrimi gözləyin. Müvafiq mövqeyə çatan kimi işarəmlə döyüşə girəcəyik...

Zabitlərin dördü də düşmənə hiss etdirməməyə çalışmaqla, taqımlarının yanına tələsdilər. Qarşıda, dağ silsiləsinin aşağı hissəsində alban məbədi görünürdü. Susuzluqdan ciyərləri qovurulan əsgərlər uzaqdan qaralan məbədi və ətrafındakı yaşıl ağacları görüncə su tapmaq ümidilə sürəti artırdılar. Yüksəklikdə, dağın ağac bitmiş sol tərəfi ilə çılpaq tərəfinin qovuşduğu sağ tərəfi arasında hərəkətlərini hiss etdirməməyə çalışmaqla irəliləyən düşmənin gözləməyə səbri çatmadı. Düşmən əks-həmlə qrupunun tədricən sağ tərəfə çəkilmək, müdafiə üçün müvafiq mövqe tutmaqla ehtiyatla irəliləməsindən artıq izləndiyindən xəbər tutduğunu anlamışdı. Qəfil atəş açıldı.

– Tabooor, döyüşə! – deyə tabor komandiri mayor Rəhimovun əmri dağlarda əks-səda verdi.

Əsgərlər cəld özlərini yerə atıb sol tərəflərindəki yüksəkliyi atəşə tutdular. Düşmən başını zirvənin arxasına çəkib susdu. Amma eyni anda qarşıdakı, – əks-həmlə taborunun tutduğu mövqeyin sağ tərəfindəki yüksəklikdən pulemyot gurladı. İrəlidə hərəkət edən bölük komandiri baş leytenant Allahyar Telmanlı avtomatını sinəsinə dayayıb

cəld istiqaməti qarşı, düşmən pulemyotçusu istiqamətinə dəyişdi. Diz üstə çöküb zirvəni sürəkli atəşə tutdu.

– Birinci taqım, Telmanlının ətrafında mövqelən! – Tabor komandiri Rəhimov bağırdı: – İkinci və üçüncü taqımlar, sol tərəfi nəzarətdə saxlayın! Komandirin tapşırığı üzrə dərhal mövqelənən tabor atəşə tutulduğu istiqamətlərə nişan almadan güllə yağdırırdı. Əks-həmlə qrupundan xeyli irəlidə hərəkət edən dörd nəfərdən ibarət xüsusi təyinatlı uzaqdan əllərinin işarəsi ilə tabor komandirini məlumatlandırdıqdan sonra düşmən pulemyotçusu istiqamətində, – yüksəkliyin sağ tərəfi boyunca hərəkətə keçdi. Bələdçi qrupunun niyyətini anlayan tabor komandiri:

– Atəşi dayandırmayın, uşaqlar. Düşmənin yüksəklikdən başını qaldırmasına imkan verməyin! – deyə göstəriş verdi.

Bu zaman ikinci taqımın komandiri baş leytenant Səid Rəşidzadə tabor komandirinin yanına süründü:

– Komandir, icazə verin, öz taqımımla sol tərəfimizdəki düşmənin arxasına keçim, – deyə icazə istədi.

Mayor Rəhimov atəşi dayandırıb ətrafı bir daha diqqətlə nəzərdən keçirtdi. Qarşı yüksəklikdə mövqelənmiş düşmən pulemyotçusu və ətrafında sipər olan düşmən əsgərləri dayanmadan güllə yağdırır, yerdəyişmə etməyə belə imkan vermirdilər. Sol tərəfdəki yüksəklikdə mövqe tutan düşmən əsgərləri isə fasilə ilə atəş açır, tez də başlarını geri çəkib gizlənirdilər.

Sağ cinahda hərəkət edən xüsusi təyinatlılar artıq gözdən itmişdilər. Onlar manevrlə dərə içi burulub dağın arxasına keçmişdilər.

– Sizə atəş dəstəyi verəcəyik, baş leytenant. Taqımınla arxaya hərəkət et. – Mayor Rəhimov baş barmağı ilə taqım komandirinə gedəcəkləri istiqaməti nişan verdi: – Özünüzü sol tərəfdən deyil, o tərəfi biz nəzarətdə saxlamağa çalışacağıq, qarşıdan, düşmən pulemyotçusunun atəş açdığı istiqamətdən qoruyun. Onların mövqelərindən sizin hərəkət etdiyiniz istiqamət daha yaxşı görünür.

– Oldu, komandir, – deyə baş leytenant Rəşidzadə dərhal taqımının yanına süründü.

Baş leytenant Allahyar Telmanlı manevrlə cəld yerini dəyişdi. Birinci taqım komandirin əmri ilə eyni anda qarşı tərəfi sürəkli atəşə tutdu. Baş leytenant Telmanlı düşmən pulemyotçusunun diqqətini öz üzərinə cəlb edincə Səid Rəşidzadə qrupu ilə hərəkətə keçdi. Onlar sürətli qaçışla əlli-altmış metr arxa tərəfə yüyürüb cəld də yerə uzandılar. Düşmən pulemyotçusu ikinci taqımın manevr cəhdini anlayıb yenidən baş leytenant Rəşidzadənin taqımının hərəkət etdiyi istiqaməti sürəkli atəşə tutdu. Taqımın bir qismi arxa tərəfə çevrilib cavab atəşi açınca, digər qismi yüksəkliyin çiynindən iki-bir, üç-bir arxasına sürünməyə başladı.

Bu zaman düşmən pulemyotçusunun tutduğu mövqenin yaxınlığında baş verən partlayış düşməni ani olaraq susmağa məcbur etdi. Əl qumbarasının qaldırdığı toz-torpaq yerə enməmiş pulemyotçu istiqamətini arxa tərəfə çevirib yenidən gurladı. Amma qarşısında partlayan ikinci qumbaradan sonra tamamilə susdu. Pulemyotçunun sağ və sol tərəfində mövqelənmiş düşmən əsgərləri də silahlarını

arxa tərəfə çevirdilər. Yüksəklikdəki qarışıq silah səslərinin eşidilib tez də susması aydınca hiss olundu.

Bu zaman hər iki düşmən mövqeyini nəzarətdə saxlamağa çalışan mayor Rəhimovun radiosundan xüsusi təyinatlı bələdçi qrupunun komandirinin xırıltılı səsi eşidildi: "Komandir, düşmənin qarşı yüksəklikdəki mövqeyi məhv edildi".

Mayor Rəhimov cəld baş leytenant Rəşidzadənin taqımının getdiyi istiqamətə boylandı. Taqımın sonuncu əsgəri yüksəkliyin çiynindən burulub gözdən itdi. Tabor komandiri əlini sağ qolundakı yarasının üstünə sıxıb yerində dikəldi. Mayor Rəhimovun sifətindəki qəlpə yarasının sarğısı düşmüş, sağ qolundakı yarasından qan sızmağa başlamışdı. Sifətini qırışdırıb ufuldadı, amma əhəmiyyət vermədi. Diqqətini sol yüksəklikdəki düşmən mövqeyinin ətrafında baş verən atışma cəlb etdi. Yüksəklikdə mövqe tutan düşmən müdafiəyə keçmiş, qarşı tərəfi deyil, çevrilib arxa tərəfi atəşə tutmuşdu.

– Allah yardımçınız olsun! – deyə düşmənin arxasına sızıb qəfil hücuma keçən baş leytenant Səid Rəşidzadənin taqımına dua etməyə başladı. – Atəşi dayandırmayın, uşaqlar, amma tək-tək, həm də düşmənin başının üzərindən, yalnız imitasiya xarakterli atəş açın. – Tabor komandiri göstəriş verdi: – Nəzərə alın ki, baş leytenant Rəşidzadə atəş açdığımız istiqamətdə fəaliyyət göstərir.

* * *

Təxminən on-on beş dəqiqə sürən atışmadan sonra yüksəklikdə ard-arda iki partlayış baş verdi və düşmən susdu.

Eyni anda tabor komandiri bağıraraq atəşi dayandırmağı əmr etdi. Və yerindəcə qalxıb yüksəkliyi diqqətlə müşahidə etməyə başladı. Bir neçə dəqiqədən sonra düşmən arxasına sızan baş leytenant Rəşidzadənin taqımı yüksəklikdə deyil, getdikləri istiqamətdə, yüksəkliyin aşağı çiynində görünüb işarə ilə özümüzünkülər olduqlarını bildirdilər. Yüksəklikdə mövqe tutan düşməni məhv etdikdən sonra tabor komandiri ilə radio əlaqəsi olmadığı üçün səhvən özümüzünkülər tərəfindən atəşə tutula biləcəklərindən ehtiyat edən taqım komandiri yüksəklikdən deyil, geri qayıdıb getdikləri istiqamətdən aşağı düşməyi məsləhət bilmişdi...

Xüsusi təyinatlı kəşfiyyat qrupu yüksəklikdən enmiş, alban məbədinin yaxınlığındakı bulağın başında mövqelənib taborun gəlişini gözləyirdi. Tabor bulağa yaxınlaşanda dağların işığı artıq sovrulmuş, yüksəklikdə bitmiş ağacların və qayaların silueti dörd bir tərəfdən üstlərinə hücum çəkmişdi. Başdan ayağa qədər tərdən islanmış əsgərlər bulağa yaxınlaşar-yaxınlaşmaz çiyin çantalarını yerə atıb suyun üstünə hücum çəkdilər. Zabitlər əsgərlərin qarşısını kəsib, bulağa yalnız iki-bir, üç-bir yaxınlaşıb az miqdarda su içmələrini məsləhət gördülər...

Taqım komandiri baş leytenant Səid Rəşidzadə Birinci Qarabağ Müharibəsi iştirakçısı olmuş, ərazini yaxşı tanıyan atası Nofəl Qasımovun telefon nömrəsini yığdı:

– Ata, biz hal-hazırda Hadrut qəsəbəsinin yaxınlığındakı alban məbədindəyik. – Az qala bağıraraq məlumat verdi: – Düşməni doğma kəndimizdən qovmağımız haqqında müjdəni, İnşaAllah, sabah sənə verəcəm! Sabah, İnşaAl-

lah, Birinci Qarabağ Müharibəsində uğrunda döyüşdüyün, qurbanlar verdiyin qəsəbəni işğaldan azad edəcəyik!

Dəstəyin digər ucunda gözlərindən sevinc göz yaşları axan atası özünü ələ alıb:

– Səid, oğlum, nəbadə kilsənin yaxınlığındakı bulaqdan su içəsiz. İçmək üçün yararsızdır bu bulaq! – deyə xəbərdarlıq etdi.

Səid üzünü bulaq başından çəkilib müxtəlif yerlərdə mövqelənərək dörd bir tərəfi nəzarətdə saxlamağa çalışan döyüş yoldaşlarına çevirdi:

– Artıq gecdir, ata. Bu bulağın suyu bizə şəfa kimi gəldi, sən heç narahat olma! – deyə gülümsəyib əlini su içdikdən sonra quruldamağa başlayın qarnının üstündə gəzdirdi...

Araz üstə, buz üstə, kabab yanar köz üstə,
Qoy məni öldürsünlər, bir ala göz qız üstə!
Qoy məni öldürsünlər, bir ala göz qız üstə!

Baş leytenant Səid Rəşidzadənin həzin, mülayim səsi səssizliyin bağrını dəldi. Silahlarını çiyinlərinə dayayıb dairəvi müdafiə mövqeyi tutmuş əsgərlərin yorğun simalarına təbəssüm qondu. Baş leytenant mahnının birinci bəndini qurtarar-qurtarmaz:

– Ay Laçın, can Laçın, mən sənə qurban Laçın!
Ay Laçın, can Laçın, mən sənə qurban Laçın!

– deyə xor şəklində səsinə səs verdilər.

– Arazı ayırdılar, lil ilə doyurdular,
Mən səndən ayrılmazdım, zor ilə ayırdılar!

– şeirin ikinci bəndini baş leytenant Allahyar Telmanlı zümzümə etdi. İşıqsaçan güllələr başlarının üstündən uçdu. Əsgərlər başlarını ani gizlədib eyni anda atəş açılan istiqaməti gülləyə tutdular. Baş leytenant Səid Rəşidzadə avtomatını sinəsinə sıxıb dizi üstə çökdü. Yerini bəlirlədiyi düşməni atəşə tutmaqla bu dəfə daha ucadan:

– Ay Laçın, can Laçın, mən sənə qurban Laçın!
Ay Laçın, can Laçın, mən sənə qurban Laçın!

– deyə ritmini pozmadan mahnını oxumaqda davam etdi.

Bütün gecə boyu düşmən susmadı. Taborun tutduğu mövqe qısa fasilələrlə atəşə tutuldu. Səhər açılar-açılmaz düşmənin kəşfiyyat dronu başlarının üstündə göründü. Dövrə vurub geri istiqamət aldı. Amma əsgərlərin kütləvi açdığı sərrast atəşlə istiqamətini dəyişib Cəbrayıl rayonu səmtindəki qayalara çırpılaraq parça-parça oldu. Saat doqquz radələrində tabor komandiri mayor Rəhimov zabitləri yanına çağırıb xüsusi təyinatlıların gecə boyu əldə etdikləri kəşfiyyat məlumatlarını nəzərlərinə çatdırdı:

– Kəşfiyyatın verdiyi məlumata görə qarşımızdakı bu dağın, – əlini sol tərəflərindəki yüksəkliyə sarı uzatdı, – arxasında düşmənin möhkəmlənmiş hərbi hissələri mövcuddur. Biz özümüz də bilmədən, düşmənin mövqelərinin

yaxınlığından keçib bura qədər gəlmişik. – Əlini sağ qolundakı yarasının üstünə sıxıb sızladı. Amma ağrıdığını hiss etməsinlər deyə tez də səsinin tonunu yüksəldib sözünə davam etdi: – Sağ tərəfimizdəki meşəliklərdə isə düşmənin xeyli sayda canlı qüvvəsi döyüş mövqeyi tutub. Həmin istiqamətdə isə xüsusi təyinatlılarımız daha dərinə sızaraq düşmənin arxasında mühasirə şəraitində döyüş fəaliyyətini davam etdirirlər. Hazırda bir qrup xüsusi təyinatlımız həmin istiqamətdə artıq hərəkətə keçib. Bizim taborumuz irəli, Şişqaya yüksəkliyinə doğru gedəcək. – Üzünü bölük komandiri baş leytenant Telmanlıya tutub: – Sən birinci taqımla bacardıqca sol tərəfimizdəki yüksəkliyə doğru qalxmalı, Şişqaya istiqamətindəki fəaliyyətini bizi düşmənin sol tərəfimizdən gözlənilən hücumundan qorumaqla davam etdirməlisən. Baş leytenant Elgün Kazımov da sənin qrupunda fəaliyyət göstərəcək, – tapşırıq verdi. Nəzərlərini taqım komandirləri baş leytenant Səid Rəşidzadə və baş leytenant Raqif Xanışovun üzərində cəmləyib: – Siz irəli, birbaşa Şişqaya üzərinə yeriyəcəksiz, – dedi. – Hazır olun, düşmən hücuma keçmədən biz üzərinə getməliyik, – deyə əlavə etdi. – İndi taqımlarınızın yanına qayıdın və hərəkətə başlamaq üçün əmrimi gözləyin...

Taqım komandirləri əsgərlərinin yanına qayıdıb tez-tələsik hazırlaşmağa başladılar. Baş leytenant Allahyar Telmanlı birlikdə hərəkət edəcəkləri birinci taqımın yanından ayrılıb ətrafı bir daha diqqətlə müşahidə etmək və hərəkət planını hazırlamaq məqsədilə sol cinahlarındakı dağlara doğru yeridi. Albanlardan qalma qədim qəbir daşının üstünə çıxıb əlini gözlərinin üzərinə qoyaraq müşahidə

etməyə başladı. Cənub tərəfi keçəl, zirvəsindən başlayaraq şimala doğru isə qalın meşəliklə örtülmüş dağlar qarşıdan burulub Şişqaya yüksəkliyinə qədər uzanırdı. Meşə massivi düşmənin gizlənməsi və dağın keçəl tərəfinin aşağı hissəsi ilə hərəkət edəcək əks-həmlə taborunun fəaliyyətini nəzarətdə saxlamağı üçün kifayət qədər əlverişli idi. Buna görə də bölük komandiri öz qrupu ilə bacardıqca yuxarı, yüksəkliyə doğru dırmanmalı, taborun düşmən tərəfindən izlənməsinin qarşısını almalı və nəzarət funksiyasını əks-həmlə taborunun xeyrinə dəyişməli idi.

Baş leytenant Raqif Xanışov bölük komandiri Telmanlının hələ də düşmən üçün açıq hədəf ola biləcək albanlardan qalma qədim qəbir daşının üstündə dayanıb müşahidə apardığını görüncə cəld ona yaxınlaşdı:

– Burda durmayın, komandir, düşmən qarşıdakı dağın zirvəsindən bizi müşahidə edir, hər an atəş aça bilər, – deyə xəbərdarlıq etdi.

Baş leytenant Telmanlı:

– Bu şərəfsizlərdən qorxan deyiləm, Raqif, sən işinlə məşğul ol. Yaxın dəqiqələrdə fəaliyyətə başlayırıq, – deyə müşahidəsini dayandırmadan qətiyyətlə cavab verdi.

Baş leytenant Xanışov bölük komandirindən ayrılıb taqımına tərəf addımladı. İyirmi beş-otuz metr ayrıldıqdan sonra qəfil atəş açıldı. Taqım komandiri geri çevrilib cəld avtomatını atəşə hazır vəziyyətə gətirdi. Baş leytenant Telmanlı üzərində durduğu qəbir daşının üstünə çökdü. Qollarını daşın kənarlarına dayaqlayıb müvazinətini saxlamağa çalışdı. Daha bir atəş açıldı. Bölük komandiri qəbir daşının üstündən sürüşüb böyrü üstə torpağa düşdü.

– Komandiri vurdular! – Səs arxa tərəfdən, taborun mövqeləndiyi ərazidən eşidildi. Atəş açılan məkanı təyin edə bilməsələr də, istiqamət məlum idi. Atəş qarşıdan, yüksəklikdəki meşədən açılmışdı. Əsgərlər həmin istiqaməti sürəkli atəşə tutdular. Baş leytenant Xanışov isə cəld bölük komandiri Telmanlının yanına yüyürdü. Snayper gülləsi bölük komandirini boynundan və qarın nahiyəsindən yaxalamışdı. Taqım komandiri Xanışov baş leytenant Telmanlını arxası üstə çevirib cəld yaxasını açdı. Tabor komandiri mayor Rəhimov və baş leytenant Rəşidzadə də özlərini dərhal yaralıya çatdırdılar. Yaranın üzərinə tənzif basıb qanaxmanın qarşısını almağa çalışdılar. Baş leytenant Telmanlı ufuldayıb gözlərini açdı. Tabor komandirini başının üstündə görüncə:

– Cənab mayor, qrupu oraya, – qana bulaşmış əlini çətinliklə sinəsinin üzərində rahlayıb baş barmağını düşmən snayperinin atəş açdığı istiqamətdə tuşladı, – tez, elə indi, siz Şişqaya istiqamətində hərəkətə başlamazdan qabaq göndərin, – xırıltı ilə söylədi: – Atəş dəstəyi olmadan ora yaxınlaşmaq çətin olacaq.

– Sən özünü yorma, Allahyar, nə lazımdı, biz edəcəyik. – Böyründə dizləri üstə çökən mayor Rəhimov tənzif sıxdığı əlini Telmanlının yarasının üzərindən çəkmədən dilləndi. Baş leytenant Telmanlı xəfifcə gülümsəyib gözlərini qapadı.

Mayor Rəhimovun əmri ilə yaralını ehtiyatla daha təhlükəsiz yerə, qədim alban məbədinin yanına gətirdilər. Saat on radələrində tabor komandiri baş leytenant Səid Rəşidzadəni Allahyar Telmanlının yerinə bölük komandiri

təyin edib, hərəkətə başlamaq üçün hazır olmağı tapşırdı. Bu zaman əsgər Cəlil Mehrəliyev qaçaraq mayor Rəhimova yaxınlaşdı:

– Baş leytenant Allahyar Telmanlı şəhid oldu, komandir! – deyə doluxsunmuş halda məlumat verdi.

Heç bir söz demədən zabitlərin dördü də başlarını yelləyərək dizləri üstə yerə çökdü. İndi yadına düşübmüş kimi, tabor komandiri əlini yarasının üstünə basaraq sızladı. Dərindən köks ötürüb:

– Yubanmaq olmaz, uşaqlar. Getmək vaxtıdır, – deyə baxışlarını cəmlədiyi məchul nöqtədən ayırmadan pıçıldadı: – Səid, Raqif, siz dediyim kimi birbaşa Şişqaya üzərinə hərəkət edəcəksiz. Telmanlının getməli olduğu istiqamətdə, düşmənin sol cinahımızdakı mövqelərinə doğru özüm gedəcəm.

– Siz yaralısız, komandir, sol cinahımız qayalıqlardan ibarətdir. O istiqamətdə hərəkət etmək sizin üçün çətin olacaq. – Yeni təyin olunmuş bölük komandiri baş leytenant Rəşidzadə söhbətə müdaxilə elədi: – İcazə verin sol cinahımız üzrə tapşırığı mən yerinə yetirim.

– İcazə vermirəm! – Mayor Rəhimov qətiyyətlə bildirdi: – Siz, yalnız, mənimlə hərəkət edən qrup yüksəkliyin şimalla cənub hissəsinin kəsişdiyi yerə çatana qədər bizə atəş dəstəyi verəcəksiz. Sonra artıq sizin irəliləməyiniz üçün şərait yaratmağa çalışacağıq, – ayağa qalxdı: – Şəhidimizlə vidalaşıb dərhal hərəkətə başlayın! – deyə şəhid baş leytenant Allahyar Telmanlının cəsədinin qoyulduğu yerə doğru addımladı...

## "Mən Azərbaycan zabitiyəm!"

Telmanlı yatmışdı elə bil. İncə bir təbəssüm qapanmış gözlərinin kənarlarını qırışdırmış, çiliklənib sifətində donmuşdu. Ətrafında qəribə bir aura yaranmışdı. Rəngi günəşin sarısına bənzər çalar almış, üzərindən də bəyazımışdı. Təbəssümünün isə öz rəngi vardı, – bir qədər şəffafa çalan, təbiətin heç bir guşəsində əksini tapmayan təbəssüm rəngi. Üzərindən buludlar keçirdi elə bil. Başı üstə səssiz durub yanaqlarını yararaq süzülən, sifətlərini yara edərək səssiz gilələnən göz yaşlarının ardından bulanıq görünən bu təbəssüm düşdükləri boşluqdan çıxmaq üçün həvəs belə göstərməyən döyüş yoldaşları ilə son vidası idi Telmanlının.

– Qisasın yerdə qalmayacaq, qardaş! – Mayor Rəhimovun boğazını yararaq xırıltı ilə çıxan bu sözlər döyüş yoldaşlarının sifətinə soyuq su kimi çırpıldı elə bil.

...Cəbrayıl səmtindəki dağların arxasından doğan Günəş meylini Füzuli istiqamətində salmışdı. Tələsmədən, qarış-qarış irəliləyir, hiss etdirmədən səmanın mərkəzinə doğru can atırdı, daşların, qayaların, ağacların kölgəsi tədricən istiqamətlərini dəyişirdi. Şəhid Allahyar Telmanlının nəşini etibarlı bir yerdə ağac budaqları ilə maskaladıqdan sonra mayor Rəhimov hərbi hissə komandiri polkovnik Nizami Mövlanovla radio vasitəsilə əlaqə yaradıb son vəziyyət haqqında məruzə etdi. Və şəhidin maskalandığı yeri nişan verib təxliyə edilməsini xahiş etdi. Saat on radələrində əks-həmlə taboru təyin edilmiş taktika üzrə Şişqaya istiqamətində hərəkətə başladı...

Xüsusi təyinatlı qrupun iki kəşfiyyatçısı artıq gecədən sağ cinah üzrə hərəkət edib, meşənin dərinliyində gözdən itmişdi. Səid Rəşidzadənin rəhbərlik etdiyi qrup iki yüz-iki yüz əlli metr irəliləyib mövqeləndi. Sol cinahdakı dağların arxasından silahlarının gözü ilə əks-həmlə taborunun hərəkətini nəzarətdə saxlayan düşmən mövqelərini hədəfə alıb gözləməyə başladı. Tabor komandiri mayor Rəhimovun rəhbərlik etdiyi qrup hərəkətə keçdi. Amma gözlədiklərinin əksinə olaraq düşmən reaksiya verməyib, gözləmə mövqeyi tutdu. Mayor Rəhimovun qrupu təyin olunmuş yerə çatıb istiqamətini Şişqaya səmtində dəyişincə dərədə pusquda duran baş leytenant Rəşidzadənin qrupu fəaliyyətə başladı. Şişqaya yüksəkliyinin ətəyinəcən uzanan meşənin girişinə qədər təhlükəsiz gəldilər...

Ermənilər dağdan enib əks-həmlə taborunun gözləmədiyi yerdə, aşağıda, Şişqaya yüksəkliyinin ətəyində mövqe tutmuşdular. Tabor xəbərsiz düşmən üzərinə yeriyir, düşmənsə pusqu qurub onları gözləyirdi. Meşənin başlanğıcının təxminən qırx-əlli metrliyində qəfil atəş açıldı. Tabor atəşin hansı tərəfdən açıldığını təyin etməyə macal tapmamış, eyni anda müxtəlif istiqamətlərdən sürəkli atəşə tutuldu. Cəld özlərini yerə atıb yaxınlıqdakı daşların arxasına sürünməyə başladılar. Toparlanıb mövqelənən kimi nişan almadan meşəni qarasına atəşə tutdular. Sağ cinah üzrə hərəkət edən xüsusi təyinatlı qrupun kəşfiyyatçıları aşağı tərəfdən manevrlə meşəyə sızmağa çalışdılar. Tabor mövqelənməyə fürsət tapmadan artıq ilk şəhidlərini vermişdi. Bir qrup avtomatlarını sinələrinə sıxıb düşmənə

cavab atəşi yağdırınca, ikinci qrup sürüyüb yaralıları atəş nöqtəsindən çıxarmağa başladı.

Sol cinahdan yamac boyu hərəkət edən mayor Rəhimovun qrupu yetirib meşənin əlli metrliyində mövqe tutdu. Və anidən atəşə qoşuldu. Artıq meşəyə sızmış və xeyli irəliləmiş xüsusi təyinatlılar: – Köməyə gəlin, qardaşlar, irəli! – deyə bağıraraq istiqamətlərini bildirdilər. Axşamdan düşmən arxasına sıza bilmiş xüsusi təyinatlı kəşfiyyat qrupu vacib məlumatlar və əsir götürdükləri bir düşmən zabiti ilə geri qayıdarkən qəfil düşmən tərəfindən mühasirəyə alınmışdı. Onlara köməyə tələsən ikinci qrup da təyin olunmuş yerə yüz-yüz əlli metr məsafə qalmış pusquya düşmüş və həm qarşıya, – irəlidə mühasirədə olan döyüş yoldaşlarına tərəf, həm də geriyə, əks-həmlə qrupunun irəlilədiyi istiqamətdə yolları qapanmışdı.

Bölük komandiri baş leytenant Səid Rəşidzadə yerində qalxıb sol cinahda mövqe tutan mayor Rəhimov istiqamətdə boylandı. Mayor Rəhimov sağ əlini havaya qaldırıb irəli-geri yelləməklə, "irəli", sol əlini qaldırıb açıb yummaqla "atəş-dəstək məndə" işarəsi verdi. Baş leytenant Rəşidzadə:

– Hazır oluuun! – deyə ətrafına diqqət yetirdi. Qəfil yerindən sıçrayıb: – Ardımcaaa, irəliii! – var səsi ilə bağıraraq meşəyə doğru yeridi. – Allahu Əkbər! – nidası güllə səslərini və meşənin küyünü anındaca batırdı və artilleriya mərmisi kimi dağlarda əks-səda verdi. Bölük, komandirinin ardınca sürəkli atəş yağdırmaqla meşəyə doğru yürüdü. Xeyli sayda itki verən düşmən cəsədlərini də saxlayıb meşənin dərinliyində gözdən itmişdi. Qarşıda, – kəşfiy-

yat qrupunun hərəkət istiqamətində isə atəş səsləri daha intensiv şəkil almışdı. Cavab olaraq tək-tək, manevrli və növbəli atəş səsləri isə xüsusi təyinatlıların taktikasından xəbər verirdi.

Bölük dayanmadan kəşfiyyat qrupunun pusquya düşdüyü səmtə doğru irəliləməkdə davam etdi. Təxminən iyirmi-otuz metr irəlilədikdən sonra yenidən avtomatlar gurladı. Ağacların arxasında gizlənən düşmən əsgərləri aramsız güllələr yağdırmaqla tədricən geri çəkilməyə başladılar. Əks-həmlə taborunun ikinci və üçüncü taqımları ağacların arxasından növbəli şəkildə atəş açmaqla düşməni təqibə keçdi. Düşmən əsgərləri geri çəkildikcə əks-həmlə taborunu ardınca çəkir, sanki güllələri bitsin və asanlıqla pusquya sala bilsinlər deyə müxtəlif yerlərdə gözə dəyib tez də yox olur və istiqamətlərini kəşfiyyat qrupunun pusquya düşdüyü yerdən yayındırmağa çalışırdılar. Düşmənin hiyləsini anlayan bölük komandiri Rəşidzadə:

– Güllələrə və əl qumbaralarına qənaət edin. Tək-tək atın. Diz üstə çökərək düşmənə atəş açın, – səslənərək tapşırdı. Və irəli düşüb: – Mən getdiyim istiqamətdən yayınmayın! – deyə növbəli şəkildə ağacların arxasında mövqelənməklə kəşfiyyat qrupunun çağırdığı tərəfə doğru hərəkətini davam etdirdi. Tədricən geri çəkilən düşmən anidən dayanıb müqavimət göstərməyə cəhd etdi. Amma əks-həmlə taborunun sürəkli atəş yağdırmaqla, manevrlə, dayanmadan irəliləməsi, eyni zamanda qarşı tərəfdən, – kəşfiyyat qrupunun mövqeləndiyi yerdən də atəşə tutulduğundan sola doğru səmt alıb, Şişqaya yüksəkliyi istiqamətində aradan çəkilməyə məcbur oldu. Təxminən yüz-yüz

əlli metr qarşıdan “Allahu Əkbər” nidası eşidildi. Kəşfiyyat qrupunun zabiti uzaqdan əlini yelləyərək istiqamətini bildirdi. Yaxınlaşan kimi bölük komandiri Rəşidzadəni bağrına basaraq:

– Sağ olun, komandır, həyatımızı xilas etdiniz! – deyə təşəkkür etdi. Ovcundakı gülləni göstərib: – Artıq üçüncü dəfədir bu gülləni qoruyub saxlayıram, komandir. Beşcə dəqiqə də gec gəlsəydiniz, bu güllə də açılacaqdı. Amma öz başıma! – təbəssümlə söylədi: – Qrupda yalnız bir əl qumbarası, uşaqların hərəsində də yalnız bir neçə güllə qalmışdı. Sizi bizə Allah göndərdi!...

Digər kəşfiyyatçılar da təbəssümlə salamlayaraq yanlarından ötüb, əsir götürdükləri düşmən zabitini çəkə-çəkə tabor komandirinin hərəkət etdiyi istiqamətdə tələsdilər. Adını belə bilmədiyi kəşfiyyat komandiri aralanıb getmək istərkən:

– Pusquya düşmüş digər kəşfiyyatçılarımızdan nə xəbər var, komandir? – deyə baş leytenant Rəşidzadə xəbər aldı.

– Sayənizdə onlar da Hadrut qəsəbəsi istiqamətində fəaliyyətlərini müvəffəqiyyətlə davam etdirirlər, komandir. Yeri gəlmişkən onların da sizə salamları və təşəkkürləri var! – xüsusi təyinatlıların komandiri deyib aralandı...

Düşmən uzaqlaşmamışdı. Atəş səsləri yaxınlıqdan eşidilir, getdikcə Şişqaya yüksəkliyinə doğru geri çəkilirdi. Təqibi dayandırmaq, tapşırığı vaxtında yerinə yetirməmək, düşmənin əks-hücumuna şərait yaratmaq demək idi. Bunu nəzərə alan bölük komandiri: – Getdik! – deyə irəli düşdü. Düşmən müqavimətini davam etdirir, gizləndikləri yerdən çıxıb atəş açmaqla tədricən geri çəkilir, ba-

cardıqca hücumun qarşısını almağa çalışırdı. Müddətdən artıq xidmət edən Əmrah Səfərli qəfil çağıraraq:

– Komandir, biz çox irəli getmişik. Tabor arxada qalıb, – deyə xəbərdarlıq etdi.

Baş leytenant Raqif Xanışov da qaçıb bölük komandirinin yanına gəldi:

– Bəlkə taboru gözləyək, Səid. Qoy gəlib çatsınlar. Birlikdə hücumu davam etdirərik, – deyə məsləhət verdi.

Arxadan eşidilən atəş səsləri getdikcə yaxınlaşır, qarşı tərəfdən eşidilən atəş səsləri getdikcə uzaqlaşırdı. Diqqətlə meşəni və silah səslərini dinşəyən baş leytenant Rəşidzadə:

– Tabor ardımızca gəlir, uşaqlar. Biz hücumu dayandıra bilmərik. Əks təqdirdə düşmən mövqelənib hücumun qarşısını ala, yenidən üzərimizə əks hücuma keçə bilər. İrəli, yalnız irəli! – deyə qətiyyətlə bildirdi...

Meşəlik ərazi bitdi. Qarşıda üzərində hündür bir qüllənin başında düşmən bayrağı dalğalanan Şişqaya yüksəkliyi göründü. Qrup meşədən çıxar-çıxmaz yüksəklikdəki bayraq dirəyinin ətrafında mövqelənmiş düşmən pulemyotçusu tərəfindən və bir neçə istiqamətdən sürəkli avtomat atəşinə tutuldu. Cəld özlərini yerə atıb cavab atəşi açdılar. Bölük komandiri Rəşidzadə işarə ilə bir-birindən aralanıb müxtəlif istiqamətlərdən yüksəkliyə doğru irəliləməyi əmr etdi. Növbəli şəkildə düşmən mövqeyini atəşə tutmaqla on beş-iyirmi metr kənara çəkildilər. Və müxtəlif istiqamətlərdən eyni anda güllə yağdıraraq düşmən pulemyotçusunun üzərinə yeridilər. Ard-arda yüksəklikdə iki partlayış baş verdi. Baş leytenant Səid Rəşidzadə və baş leytenant

Raqif Xanışovun müxtəlif istiqamətlərdən bir-iki dəqiqə fərqlə yüksəkliyə tolazladığı əl qumbaraları düşmən mövqeyini havaya qaldırdı. Partlayışın qaldırdığı toz-torpaq yerə enər-enməz qalxıb özlərini cəld yüksəkliyə atdılar. Yüksəklikdə son dəqiqələrdə öldürülən pulemyotçu da daxil olmaqla altı düşmən cəsədi və xeyli silah-sursat qalmışdı...



**Şəhid baş leytenant Səid Rəşidzadə**

Ətrafı nəzarətdə saxlamaq üçün, düşmən, bayraq dirəyinə kamera quraşdırmışdı. Avtomatla atəş açıb kameranı yerindən qopartdılar, dərhal da dartıb kabellərini qırdılar. Baş leytenant Səid Rəşidzadə düşmən bayrağını çıxarıb yerinə özü ilə gətirdiyi Azərbaycan bayrağını assın deyə qülləyə dırmanmağa cəhd etdi. Yüksəkliklə üzbəüz qarşı yamacdakı meşə massivindən qəfil silahlar gurladı. İtirdikdən sonra da uzaqdan nəzarətdə saxlamağa çalışan düşmən yüksəkliyi müxtəlif istiqamətlərdən atəşə tutdu. Bölük komandiri ayağını qoyduğu elə ilk pillədən cəld yerə enib:

– Müdafiəni təşkil edin, – deyə taqım komandiri baş leytenant Raqif Xanışova göstəriş verdi: – Düşmənin mövqelərini, atəş nöqtələrini dəqiqləşdirin, – əlavə etdi.

Düşmənin qarşıdakı dərədə və dərənin yuxarısındakı meşə massivində daha çox toplaşdığı müşahidə edildi. Yüksəkliyə gəlib çıxa bilmiş əks-həmlə taborunun əsgərləri dairəvi müdafiəni təşkil edib bir-birindən təxminən on beş-iyirmi metr məsafə saxlamaqla mövqe tutdular. Baş leytenant Xanışov əlini havaya qaldırıb yelləyərək:

– Bir-bir sayın görək burada neçə nəfərik, uşaqlar? – ucadan xəbər aldı: – Mən bir, Raqif Xanışov, – dərhal da özündən saymağa başladı.

Sol cinahda mövqelənən “maxe”:

– Mən iki, Əmrah Səfərli, – deyə komandirinin başladığı sayın ardını söylədi.

– Mən üç, Xalid Abdullayev, – əsgər Abdullayev davam etdi.

– Mən dörd, İqbal Qurbanov.

– Mən beş, Yadigar Əsgərzadə.

– Mən də altı, Səid Rəşidzadə. – Bölük komandiri əlini havaya qaldırıb döyüş yoldaşlarının səsinə səs verdi.

Əlini endirməyə macal tapmamış atəş açıldı. Güllə dərənin yuxarısındakı meşə massivindən açılmışdı. Baş leytenant Xanışov:

– Tək-tək atıldığı üçün bu snayperdir, uşaqlar. Diqqətli olun, snayperin gizləndiyi yeri dəqiqləşdirək, – deyə göstəriş verdi: – Eyni vaxtda ora atəş açmaqla düşməni məhv edə bilək.

İkinci və üçüncü güllələr taqım komandiri Xanışovla maxe Səfərlinin tutduqları mövqe istiqamətində uçdu. Və Xanışovun gizləndiyi qaya parçasına dəyib vıyıltıyla istiqamətini dəyişdi. Əsgər Xalid Abdullayev bağıraraq:

– Mən onu gördüm, komandir! – deyə baş barmağını düşmən snayperinin gizləndiyi istiqamətə tuşladı. Eyni anda həmin istiqaməti atəşə tutdular. Cavab isə aşağıdan, – düşmən əsgərlərinin daha çox toplaşdığı dərədən gəldi. Əks-həmlə taborunun əsgərləri başlarını gizlədib susdular. Baş leytenant Xanışov gizləndiyi qaya parçasının arxasından azacıq qalxınıb:

– Ey, armyanı, vı okrujenı. Sdavaytes! – deyə rusca xəbərdarlıq etdi. Susub düşmənin gizləndiyi ərazini diqqətlə nəzərdən keçirtdi. Bir neçə dəqiqə sürəkli atəşdən sonra düşmən də susdu.

Sakitlikdən istifadə edən taqım komandiri:

– Pervıy batalyon, vperyod na levom flanqe! Vtoroy batalyon, vperyod na pravom flanqe! – deyə öz əsgərlərinə komanda verirmiş kimi var səsilə bağırdı.

Sakitlik çökdü. Düşmən atəşi dayandırıb ətrafı müşahidə etməyə başlamışdı. Elə bil əks-həmlə qrupundan komandirin dediyinin doğrumu, yalanmı olduğunu yoxlayırdı.

– Düşmən bayrağını salmaq lazımdır! – baş leytenant Rəşidzadə yerində dikəlib üzünü yaxınlığında mövqelənmiş çavuş Yadigar Əsgərzadəyə tutdu.

– Gəlin tələsməyək, komandir, düşmən snayperi bizi hədəfdə tutub. Qalxan kimi atacaqlar, – deyə çavuş Əsgərzadə səbr etməyi məsləhət gördü: – Harada olsalar bizimkilər indilərdə gələcəklər. Sonra rahatlıqla düşmən bayrağını endirib öz bayrağımızı asarıq.

– Düşmən bayrağı başımızın üstündə yellənir, çavuş. Bunun nə demək olduğunu sən bilirsənmi? – Bölük ko-

mandiri qalxıb ətrafı diqqətlə müşahidə eləməyə başladı. Komandirin sualına cavab tapa bilməyən çavuş:

– Biz hədəfdəyik, cənab baş leytenant! – deyə fikrindən dönmədi.

– Mən Azərbaycan zabitiyəm, Yadigar. – Bölük komandiri əsgərinə ilk dəfə öz adı ilə müraciət etdi: – Düşmənin mənfur bayrağı altında uzanmaram! Məni qoru! – Cəld yerindən sıçrayıb qətiyyətlə düşmən bayrağı asılmış qülləyə dırmanmağa başladı. Yüksəkliyi silahının binokluyla nəzarətdə saxlamağa çalışan düşmən snayperi qəfil tətiyi çəkdi. Baş leytenant Rəşidzadənin bayraq qülləsindən yapışan sol əli boşalsa da, sağ əlini köksündə gəzdirdiyi Azərbaycan Bayrağının üstünə qoyub müvazinətini saxlamağa çalışdı...



**Şəhid baş leytenant Səid Rəşidzadə**

– Komandiri vurdular! – Meşədən çıxıb yüksəkliyə doğru irəliləyən birinci taqımın əsgəri Cəlil Mehralıyev üzünü döyüş yoldaşlarının sipər olduğu səmtə tutub bağırdı. Yüksəkliyə doğru qaçıb çaşqın vəziyyətdə yarıyolda dayandı. Arxaya, düşmənin mövqeləndiyi istiqamətdə çevrilib: – Məni də vurun, şərəfsizlər! Məni də vurun,

alçaqlar! – deyə ayaq üstdəcə düşmən mövqelərinə güllə yağdırdı.

Baş leytenant Rəşidzadə sürüşüb arxası üstə torpağa düşdü. Taqımı ilə yüksəkliyə tərəf hərəkət edən taqım komandiri Elgün Kazımov da yetirib əsgəri ilə çiyin-çiyinə durdu. Düşmən snayperinin gizləndiyi istiqamət atəşə tutuldu. Cavab atəşi, snayperin gizləndiyi yerin aşağı hissəsindən, dərədən gəldi. "Maxe" Əmrah Səfərli bir neçə addım irəli qaçıb düşmənin toplaşdığı dərəyə ard-arda iki əl qumbarası tolazladı. Partlayışdan sonra ani sükut çökdü. Düşmən susdu. Ardından qırx-əlli nəfərə yaxın düşmən əsgəri toplaşdıqları dərədən çıxıb Hadrut istiqamətində qaçmağa başladı. Əks-həmlə qrupu düşmənin qaçdığı istiqaməti sürəkli atəşə tutdu. Düşmənin gülləyə yaxalanmayan əsgərləri Hadrut istiqamətindəki meşə massivindən ibarət təpəni aşıb gözdən itən kimi taqım komandiri Xanışov yerindən sıçrayıb cəld bölük komandiri Səid Rəşidzadənin yanına yüyürdü.

Snayper gülləsi baş leytenant Rəşidzadənin başından dəymiş, qanı alnından süzülüb yanaqlarına axmışdı. Yanaqları allanıb kirpiklərinə doğru dartılmış, kirpikləri gözlərinin sualını örtmüşdü. Azacıq aralı qalan dodaqları təbəssümün şəklini cızmış, par-par parlayan dişləri alnından dodaqlarına qədər sızan al qırmızı qandan allanmış, mas-mavi səmanın rəngi dişlərində göyərmişdi. Sağ əlini sinəsinin üstündə, qoltuğunda sıxmışdı. Döyüş yoldaşları ətrafında dövrə vurub yerə çökdülər. Baş leytenant Elgün Kazımov çəkib əlini qoltuğundan çıxarmaq istərkən Rə-

şidzadənin ovcunda sıxdığı Azərbaycan bayrağı sıyrılıb sinəsinin üstündə qaldı...

Düşmənin qaçdığı Hadrut istiqamətindəki meşə massivindən atəş səsləri eşidildi. Tabor komandiri mayor Rəhimov düşməni orada qarşılamış, geri çəkilərkən qarşısını kəsmişdi... Şişqaya yüksəkliyinin Azərbaycan ordusu tərəfindən azad edildiyi haqqında məlumat alan düşmən dərhal Şişqaya yüksəkliyini və bütün ətrafını şiddətli artilleriya atəşinə tutdu. Qumbaraatanlar və müxtəlif tipli digər artilleriya qurğuları ilə ərazini nəzarət altında saxlamağa çalışan düşmən iki saata qədər sürəkli mərmi yağdırdı. Artilleriya atəşi günbatana doğru səngidi.

Daşların arasına sığınıb mərmilərdən qorunmağa çalışan əks-həmlə qrupu ehtiyatla gizləndikləri yerlərdən qalxınıb ətrafı müşahidə eləməyə başladı. Yüksəkliyin ətəyindən başlayan meşədən "Allahu Əkbər" nidası eşidildi. Yaxınlaşan var idi. Paroldan gələnlərin kimliyi məlum olsa da, qrup ehtiyatı əldən vermədi. Dərhal yerə uzanıb səs eşidilən tərəfi hədəfə götürdü. Bir neçə dəqiqədən sonra qarşıda tabor komandiri mayor Rəhimov və bələdçi kimi tabora qoşulmuş xüsusi təyinatlıların bir əsgəri, ardınca isə taborun şəxsi heyəti meşədən çıxıb yüksəkliyə doğru qalxmağa başladılar.

Tabor komandiri qrupa yaxınlaşan kimi baş leytenant Xanışov son məlumat haqqında məruzə etmək üçün onun qarşısına addımladı. Mayor Rəhimov taqım komandirinin məruzəsini hərəkətdən qalmadan dinlədi. Və bir söz demədən yanından ötüb şəhid baş leytenant Səid Rəşidzadənin uzandığı yerə yeridi. Hərbi təzim edib böyründə

yerə çökdü. Ovcunda tutub köksünə sıxdığı Azərbaycan bayrağını qaldırıb:

– Sən bu bayraq uğrunda canından keçdin, qardaş! – astadan pıçıldadı: – Rahat uyu, komandir, rahat uyu, əziz qardaşım Səid, əmanətini göz bəbəyi kimi qorumağa and içirik!

– And içirik! – şəxsi heyətin sədası dağlarda əks-səda verdi. Düşmən bayrağına avtomatla atəş açıb yerə saldılar. Səid Rəşidzadənin köksündə daşıdığı Azərbaycan bayrağının üzərinə Səid Rəşidzadə, Allahyar Telmanlı və Hadrut qəsəbəsi uğrunda canlarından keçmiş digər şəhidlərin adlarını yazıb Şişqaya yüksəkliyində dalğalandırdılar. Mayor Rəhimov hərbi hissə komandiri polkovnik Nizami Mövlanovla radio əlaqəsi saxlayıb:

– Cənab polkovnik, Şişqaya yüksəkliyi düşməndən azad edildi. Hazırda Azərbaycan bayrağı yüksəklikdə dalğalanır! – deyə məruzə etdi.

– Təbrik edirəm, mayor, çox şükür, artıq Hadruta girə bilərik! – polkovnik Mövlanov gümrah səslə təşəkkürünü bildirdi. Dərhal da: – Yeni şəhid və yaralılarımız varmı, mayor? – soruşdu.

– Var, cənab polkovnik! – Tabor komandiri dərindən köks ötürdü. Üzünü, sanki başının üstündə dalğalanan Azərbaycan bayrağının şövqündən nur saçan Rəşidzadənin təbəssümlü çöhrəsinə çevirib: – Baş leytenant Səid Rəşidzadə Azərbaycan bayrağını Şişqaya yüksəkliyinə sancarkən şəhid oldu, komandir! – deyə məlumat verdi.

Saat qədər uzun görünən bir anlıq üzücü sükutdan sonra hərbi hissə komandiri:

– Vətən sağ olsun, Rəhimov! Allah rəhmət eləsin! – hər hecanı uzadaraq cavab verdi: – Şəhidimizi alban məbədinin yanına təxliyə edin, mayor. Təxliyə qrupu artıq ora yola düşüb...

Əsgər Cəlil Mehralıyev tabor komandirinə yaxınlaşdı:

– Cənab mayor, icazə verin, şəhidimizi, Səid qardaşımızı mən təxliyə edim! – hərbi təzim edib icazə istədi: – Üzərimdə haqqı var, komandir... – boğazında düyünlənən qəhər son sözlərini bitirməyə imkan vermədi.

Mayor Rəhimov razılıq əlaməti olaraq başını yellədi. Sonra da:

– Tələsmə, Mehralıyev, – güclə eşidilə biləcək səslə pıçıldadı, – vidalaşaq şəhidimizlə! – Yaxınlaşıb şəhid Rəşidzadənin ayaqları tərəfdə diz çökdü. Gözlərini nur saçan təbəssümlü simasından ayırmadan sadə mobil telefonunu döş cibindən çıxartdı. Tərəddüd içərisində titrək barmaqları ilə nömrəni yığdı: – Sizi baş leytenant Səid Rəşidzadənin tabor komandiri mayor Hacı Rəhimov narahat edir!

– Buyurun, komandir! – Telefona Birinci Qarabağ Müharibəsi iştirakçısı, neçə-neçə döyüş yoldaşını itirmiş, onlarla şəhid dəfn etmiş Səid Rəşidzadənin atası Nofəl Qasımov cavab verdi.

– Oğlunuz,... baş leytenant... Səid Rəşidzadə... Azərbaycan bayrağını... Şişqaya yüksəkliyinə sancarkən... qəhrəmancasına... şəhid oldu! – Gözünü məchul bir nöqtədən ayırmadan uzun və qırıq-qırıq ifadələrlə fikrini tamamlayıb susdu. Donmuş, sükunət ifadə edən, buz kimi soyuq gözlərindən bir damla göz yaşı gilələnib sanki sözlərinə nöqtə qoydu.

Dəstəyin digər ucunda da bir anlıq sükut çökdü:

– Vətən sağ olsun, komandir! – ifadəsini elə bil dodaqları ilə deyil, qəlbi ilə pıçıldadı şəhid atası. Ulğumunun qalxıb-enməsi rabitə dalğalarını titrətdi. Gicgahının döyüntüsünü qulağına dayadığı telefonda hiss etdi tabor komandiri. – Bəs bölüyü kim idarə edir, komandir?

Gözlədiyindən fərqli olaraq şəhid atasından ayrı sual eşidən mayor Rəhimov:

– Oğlunuz,... baş leytenant... Səid Rəşidzadə... Azərbaycan bayrağını... Şişqaya yüksəkliyinə sancarkən... qəhrəmancasına... şəhid oldu, Nofəl müəllim! – deyə məlumatı bir daha təkrar etdi.

– ...Onu bildim,... bildim,... komandir, bəs bölüyü kim idarə edir, sizdən soruşuram? – Şəhid Səid Rəşidzadənin atası Nofəl Qasımov narahatlığını aydınca büruzə verən ifadə ilə eyni sualı bir daha soruşdu.

Mayor Rəhimov ayağa qalxıb qeyri-ixtiyari əlini gicgahına apardı. Farağat vəziyyətində hərbi təzim edib:

– Bu dəqiqə Hadruta açılan qapıda, Hadrut yolundakı ən strateji, sizin oğlunuz Səid Rəşidzadənin azad etdiyi hakim yüksəklikdə Azərbaycan bayrağı dalğalanır. Bu bayrağı Səid Rəşidzadə bu yüksəklikdə dalğalandırdı. Biz də sizin qarşınızda, müqəddəs şəhid atasının qarşısında və şəhid qardaşımız Səid Rəşidzadənin müqəddəs ruhu qarşısında Azərbaycan bayrağının əbədi olaraq dalğalanacağına and içirik! – Gözləri parladı, kirpiklərini sıxıb gözlərinin suyunu axıtdı. Tabor farağat durub döyüş yoldaşlarının ruhu, oğlunun şəhadət xəbərini aldıqdan sonra da bölüyü, torpağı düşünən müqəddəs şəhid atasının qüruru qarşı-

sında hərbi təzim etdi: – Səid Rəşidzadənin bizə əmanət saxladığı bayraq da, bölük də etibarlı əllərdədir, atacan! – Xəbəri necə çatdıracağından narahat olan mayor Rəhimov şəhid atasının sözlərindən özü təsəlli tapmış kimi oldu...

Əsgər Cəlil Mehralıyev Səid Rəşidzadənin nəşini belinə alıb təyin olunmuş istiqamətdə hərəkətə başladı. Təxliyə qrupu artıq baş leytenant Allahyar Telmanlı və Hadrut uğrunda döyüş əməliyyatlarında canını fəda etmiş digər şəhidlərin saxlanıldığı qədim Alban məbədinin yaxınlığına çatıb, Səidin yolunu gözləyirdi...

Şişqaya yüksəkliyi alındıqdan dərhal sonra tabor Hadrut qəsəbəsinin işğaldan azad olunması uğrunda hərəkətə keçdi. Digər əks-həmlə qrupları, artilleriya və aviasiya qüvvələri ilə paralel şəkildə hücum fəaliyyətinə qoşulan tabor mayor Hacı Rəhimovun rəhbərliyi altında qəsəbəətrafı kəndləri işğaldan azad edə-edə Hadrut qəsəbəsinin mərkəzindən keçərək Ərgünəş yüksəkliyinə doğru yeridi. Qısa bir müddətdə strateji əhəmiyyət daşıyan Ərgünəş yüksəkliyi də işğaldan azad edildi. Və əks-həmlə taboru əsas hədəfə – Şuşaya doğru istiqamət aldı.

* * *

Taborun qərargah rəisi əsgər yataqxanasından çıxıb tələsik meydana gələn briqadanın siyasi rəhbəri mayor Valeh Mustafayevin qarşısına yeridi:

– Cənab mayor, quru qoşunları briqadasının könüllü olaraq Vətənin müdafiəsinə qoşulan gənclərdən ibarət üçüncü taboru əmrinizlə düzülüb! Taborun qərargah rəisi kapitan Hüseynov! – Və nizami addımlarla kənara çəkilib

üzü tabora tərəf dayandı. Mayor Mustafayev əlini gicgahından endirib “azad” demədən cərgənin qarşısında meydanın düz ortasına yeridi. Əsgərlərlə üzbəüz durub sıraya ani nəzər yetirdi. Boğazını arıtlayıb ucadan danışmağa başladı:

– Əsgərlər, Vətənin bu ağır günündə ali baş komandanın səsinə səs verərək ailənizi, yaxınlarınızı arxada qoyub dərhal cəbhəyə gəlmisiniz. Qarşıda bizi ağır döyüşlər gözləyir. Qarşımızda çox hiyləgər, mənfur, namərd düşmən var, – illərlə torpaqlarımızı işğalda saxlayan, həmvətənlərimizin, qız-gəlinlərimizin başına olmazın işgəncələr gətirən yağı düşmən!... İllərlə işğal altında olan torpaqlarımızı azad etmək arzusu, işgəncələrə, zorakılığa məruz qalmış xalqımızın qisasını yağı düşməndən almaq yanğısı ilə yaşadıq. Artıq zaman çatıb, cənab Ali Baş Komandan bu fürsəti bizə verdi. İndi meydan bizimdir. Tapşırıq hamıya aydındır: Qanımız, canımız bahasına düşməni məhv edib torpağımızı azad etmək, başları kəsilmiş qardaşlarımızın, zorlanmış qız-gəlinlərin, süngüyə taxılmış körpələrin qisasını almaq, illərlə vətən, yurd həsrəti ilə yanan həmvətənlərimizin öz doğma yurd-yuvasına qayıtmağını təmin etmək! Bu şərəfli işdə şəhadətə yüksəlmək də var, qazi olmaq da! Bu şərəfli işdə ölüm də var, itim də! Bu şərəfli işdə ömür boyu qoltuq ağacından, ayaqlarınızı əvəz edəcək bir cüt təkərdən asılı olmaq, yaxud dünya işığına həsrət qalmaq da var, mərdi-mərdanə, alnı açıq, üzü ağ şərəfli bir ömür, şərəfli bir ölüm də! Biz şərəflə yaşayıb, şərəflə ölmək yolunu seçdik! Bu yolda sizinlə bərabər addımlayacaq, sizinlə bir döyüşəcək, ölsək birlikdə öləcəyik,

qalsaq nəyin bahasına olursa-olsun, torpağımızı yağı düşmən işğalından azad edəcək, əsarətdən qurtaracağıq! Ya Qarabağ, ya Ölüm! Qarşımızda yalnız bu iki yol var!...

Susdu mayor. Diqqət kəsildi. Sıradan da səs çıxmadı. Əsgərlər farağat vəziyyətində durub yalnız baxışlarını hərəkət etdirməklə komandirin davranışını izləyir, nəfəs belə almadan səbrlə çıxışını dinləyirdilər. Mayor Mustafayev danışmadan cərgənin qarşısında bir xeyli gəzinib tam mərkəzdə qərar tutdu. Üzünü kapitan Hüseynova çevirib sanki, əsgərlərə yox, ona komanda verirmiş kimi: – Azad! – deyə sərbəstlik verdi. Kapitan siyasi rəhbərin əmrini təkrar edincə mayor əsgərlərin sifətinə baxmadan, sanki öz-özünə gəzinirmiş kimi yenidən, amma asta tonla danışmağa başladı:

– Əsgərlər, əgər aranızda ölümdən, yaxud bizi gözləyə bilən hər hansı təhlükədən qorxan varsa, icazə verirəm, çıxsın sıradan və bu döyüşdə iştirak etməsin... – Susub, başını yuxarı qaldırmadan gəzinməkdə davam elədi. Sanki bununla əsgərlərə sərbəstlik vermək, qərar qəbul etməkdə azad olduqlarını bildirmək və çəkinmədən rahat ürəklərini açmaq üçün şərait yaratmaq istəyirdi: – Bunu bilin, qorxaq əsgər bizə ön cəbhədə lazım deyil. – Kimsənin dillənmədiyini görüb əlavə elədi: – Canının qorxusunu çəkən əsgərlə döyüşmək olmaz! O, öz canının hayına qaldığı, düşmənlə üz-üzə gəlməkdən qorxduğu, çəkindiyi, yaxud başını səngərdən qaldırmağa cəsarət etmədiyi üçün yoldaşlarına yalnız əlavə yük ola bilər. Biz qorxaq əsgərlə qalib gələ bilmərik!... – Yenə də dillənən olmadı. Mayor çıxışına ani ara verib heç kəsin gözünün içinə baxmadan bir daha sı-

ranı nəzərdən keçirtdi: – Bizə cəsarətli, qorxmaz, bir an tərəddüd etmədən canını Vətən yolunda qurban verməyə hazır olan əsgərlər lazımdır! Siz buna hazırmısız?...

– Hazırıq, cənab mayor!!! – bir ağızdan ucalan cavab yaxınlıqdakı dağlarda əks-səda doğurdu. Mayor Mustafayev susdu. Səsini belə çıxarmadan bir-bir əsgərlərin gözlərinin içinə baxaraq sıranın qarşısında addımladı. Heyət susub diqqətlə siyasi rəhbərin hərəkətlərini izləyirdi. Mayor Mustafayev də səbrlə döyüşçüləri müşahidə edir, kiminsə dillənəcəyini, nə deyəcəklərini gözləyirdi.

Kapitan Hüseynov addımlayıb mayor Mustafayevin bir addımlığında dayandı:

– Tabor döyüş tapşırığını yerinə yetirməyə hazırdır, cənab mayor!

Mayor Mustafayev başını yelləməklə qərargah rəisinin məruzəsinə əminliyini bildirdi, üzünə baxmadan sözünü davam etdirdi:

– Əsgərlər, əksəriyyətiniz könüllü olaraq mülkü həyatdan orduya yazılsanız da, şəxsi işinizi yoxladıqda hamınızın hərbi xidməti bir ildən gec olmayaraq başa vurub tərxis olduğunuz məlum olur. Bu, sizin kifayət qədər hazırlıqlı, hətta hal-hazırda hərbi xidmətdə olan çağırışçılardan daha hazırlıqlı və təcrübəli olduğunuzu, könüllü olaraq bura gəlməyiniz isə həm də psixoloji cəhətdən hazır olduğunuzu, qəlbinizin torpaqlarımızın azadlığı uğrunda mübarizəyə qoşulmaq həsrətilə çırpındığını göstərir. Buna baxmayaraq sizə təcrübəli zabitlər, döyüşlərdə sınaqlardan çıxmış komandirlər rəhbərlik edəcək. Əmin olun, bu haqq

işimizdə Allah da bizimlədir! Yolunuz açıq, işiniz avand olsun! Allah amanında!...

Kapitan Ülvi Hüseynovun rəhbərliyi altında quru qoşunları taboru xüsusi tapşırıqla Füzuli rayonunun işğal altında olan əraziləri istiqamətdə hərəkətə başladı. Taborun qarşısında xüsusi təyinatlıları addımbaaddım izləmək, XTQ-nin hücum əməliyyatlarına dəstək vermək, düşməndən geri alınmış ərazilərdə mövqelər qurub, qoşunlarımızın orada möhkəmlənməsini təmin etmək və işğal olunmuş torpaqlarımızın dərinliyinə doğru dayanmadan irəliləmək kimi mühüm bir tapşırıq qoyulmuşdu. Əsgərlərin əksəriyyəti səfərbərliklə çağırılanlar, Vətənin müdafiəsinə könüllü gələnlər olsa da, heç biri döyüş görməmiş, heç biri canlı düşmənə atəş açmamış, heç biri qan tökməmiş, heç biri qan görməmişdi. Buna baxmayaraq orduya çağırılan kimi şəxsi işi yoxlanıldıqdan sonra təlimsiz-filansız ön cəbhəyə göndərilmiş, xüsusi bir tapşırıqla döyüşlərə qatılmışdı. Təlimlər üçün artıq zaman belə yox idi. Əsgərlərdən yalnız "avtomatdan atəş açmağı unutmamısan ki?", deyə soruşulmuş, bilən də, bilməyən də bacarırıq deyə bir ağızdan cavab vermişdi. İndi canlı sipər olsalar da belə, hamı irəli can atır, hamı döyüşmək, düşməni məhv etmək, nəyin bahasına olursa-olsun torpaqlarımızı düşmən işğalından azad etmək, əsarətə son qoymaq haqqında düşünürdü. İndi hamının ürəyi yalnız möhkəm-möhkəm sinələrinə sıxdıqları silahları ilə döyünür, nə vaxt döyüşə qatılacağı həsrəti ilə çırpınırdı...

Digər hərbi hissələrə aid olan bölmələr də eyni istiqamətdə döyüş tapşırığı almışdı. 181 nömrəlihərbi his-

sənin motoatıcı taboru Füzuli rayonunun Alxanlı kəndindən Qaraxanbəyli kəndi istiqamətində yola düşdü. Qaraxanbəyli kəndini keçib Xocavənd rayonu istiqamətində hərəkət edəcəkdilər. Düşmən tərəfindən dağıdılıb xarabalığa çevrilmiş Qaraxanbəyli sovetliyinin Merdinli kəndinin girəcəyinə gecə saatlarında çatdılar. Əksəriyyəti könüllülərdən formalaşdırılmış yeni tabora baş leytenant İlham Dadaşov bölük komandiri təyin edilmişdi. Bütün gecəni aramsız yağış altında uzun yol qət edən tabor xarabalıqlarda daldalanacaq tapıb paltarlarını qurutmaq istədilər. Ocaq qalamağa icazə verilmədiyindən paltarlarını çıxarıb sıxdıqdan sonra yaş halda da əyinlərinə taxdılar. Uzun yolun yorğunluğu dərhal özünü göstərdi. Əsgərlər soyuğa və bədənlərinin yaş olmasına baxmayaraq dağıdılmış evlərin uçuq divarlarının dibində bir-birinə qısılaraq şirin yuxuya getdilər. Bircə saat keçmədi ki, növbətçi təyin olunmuş əsgərlər də döyüş yoldaşlarının böyründəcə uzanıb mürgüləməyə başladılar...

Duman getdikcə qatılaşmağa, narın yağış səpməyə başladı. Amma nə yağış, nə də soyuq hava yorğunluq və yuxuya təslim olmuş əsgərləri oyada bilmədi... Tabor hələ növbəti döyüş tapşırığını almamışdı. Onlar təyin olunmuş yerə çatdıqdan sonra bölüklər üzrə hərəkət etməli, xüsusi təyinatlıların düşməni qovub çıxardıqları ərazilərdə mövqelərimizi möhkəmləndirməli, ehtiyac olduqda əks-hücum qrupuna dəstək verməli idilər.

...Düşmən tankının atdığı mərmi əks-həmlə taborunun arxasında daldalandığı divarın qarşısında partladı. Mərminin qaldırdığı daş-kəsək dərin yuxudan hələ də ayıla

bilməyən könüllülərin yuxusunu çilik-çilik elədi. Torpağa uzanıb hərəsi bir tərəfdə silahını çiyninə sıxdı. Bölük komandiri baş leytenant İlham Dadaşov sürünüb divarın arxasından qarşı tərəfə çıxdı. Divar yerindən silkələnmiş və hər an arxasında gizlənən əsgərlərin üzərinə uça bilərdi. "Döyüşə!" – deyə bağıraraq əsgərlərə də kənarlara sürünüb məsafəli şəkildə müdafiə olunmağı əmr etdi. Qarşıda isə iki düşmən tankı lülələrini əks-həmlə qrupunun mövqeləndiyi yerə tərəf tuşlayaraq aramla atəş açırdı. Bir anın içərisində əks-həmlə taborunun yerləşdiyi ərazi mərmilərin qaldırdığı toz-torpaqdan görünməz oldu. Başları üstündən uçan qəlpələrin, şütüyən güllələrin vıyıltısı baş qaldırmağa macal vermədi.

Taborun siyasi məsələlər üzrə komandir müavini mayor Vidadi Əhmədov bağıraraq yaralı və şəhidləri arxaya, sağlam divarların arxasına sürüməyi əmr etdi. Özü isə hələ də özünə gələ bilməyən əsgərin əlindən qumbaraatanı dartıb alaraq atəşə hazır vəziyyətə gətirdi. Dizi üstə çökərək onları atəşə tutan düşmən tankını nişan aldı. Atəş açmağa macal tapmamış qarşısında partlayan mərminin qəlpəsi alnından yuxarı hissəsini bıçaq kimi kəsərək havaya uçurdu. Bölük komandiri kapitan Mübariz Babayev mayorun əlindən kənara uçan qumbaraatana tərəf süründü. Amma uzatdığı əli silahın qundağındaca qaldı. Düşmənin tank üstündəki pulemyotdan açdığı ardıcıl atəş kapitanın və yanında olan, atəş dəstəklə ona yardım etməyə çalışan əsgər Nicat Hüseynovun bütün bədənini dəlmə-deşik etdi. Əsgər Nicat Hüseynov üzü üstə çevrilib torpağı qucaqlayaraq can verdi. Kapitan Mübariz Babayev isə aldığı güllə

yaralarından huşunu itirdiyindən şəhid kimi görünsə də, sonradan özünə gəlmiş, sürünərək döyüş meydanından çıxa bilmişdi.

Baş leytenant İlham Dadaşov ətrafı diqqətlə müşahidə edib vəziyyətdən çıxış yolu aramağa çalışdı. Onlar qarşı, sağ və sol tərəflərdən atəşə tutulmuşdular. Qarşı tərəfdə düşmənin piyada qüvvələrindən əlavə iki tank da mövqe tutmuş, sağ və sol tərəflərində isə yalnız kiçik çaplı silahlardan güllələr yağdırılırdı. Hava işıqlansa da, çiskin və duman vaxtın təyin edilməsində çətinlik yaradırdı. Səmanı qara buludlar tutmuş, ara-sıra yağış səpir, ətrafı duman bürüyür, tez də çəkilib yox olurdu. Çarpaz atəş altında qaldıqlarını anlayan baş leytenant Dadaşov yalnız irəli sürünməyi əmr etdi. "Ən güclü müdafiə hücumdur" deyə düşünən komandir bu vəziyyətdə yalnız irəli, düşmənin üzərinə getməyi qərara almışdı. Və bu addımı atarkən duman karvanının gəlişindən istifadə etməyi düşünürdü. Bir qədər süründükdən sonra "Ardımca!" – deyə qəfil yerindən sıçrayıb ziqzaq şəklində irəli şütüdü. Duman karvanının arasından fırtına kimi çıxan iyirmi beş nəfərlik dəstə – baş leytenant Dadaşovun bölüyü açıq sahədə düşmənin pulemyot, avtomat, snayper atəşi ilə qarşı-qarşıya qaldı. Dərhal da yerə uzanıb müxtəlif istiqamətdə özlərinə daldalanacaq aramağa başladılar. Kiçik çuxurlara, kol-kosların arxasına sığınıb görə bilmədikləri düşmənin mövqelərini cavab atəşinə tutdular. Bu an, taborun arxada qalmış digər bölükləri də eyni istiqamətdə güllə yağdırmağa başladı.

Taqım komandiri baş leytenant Samiq Fərzəliyev özünü siyasi rəhbər və bölük komandirinin şəhid olduğu yerə

yetirdi. Və nə siyasi rəhbərin, nə də bölük komandirinin fürsət tapıb atəş aça bilmədiyi qumbaraatanı yerdən qamarlayıb atəşə hazır vəziyyətə gətirdi. Gözünü uğrunda şəhid olduğu torpağın üzərindəcə qalmış komandirlərin cəsədindən ayırmadan düşmənin ünvanına: – Şərəfsizlər, sizin ananızı!... – deyə bağıraraq söyüş yağdırdı. Qumbaraatanı elə ayaq üstdəcə çiyninə qoyub düşmən tankını nişan aldı. Amma baş leytenant Dadaşovun bölüyünün düşmən səngəri üzərinə hücuma keçdiyini görüb tez hədəfi dəyişdi. Atəş açıldı və tankın sağ tərəfindəki düşmən səngəri havaya sovruldu. Baş leytenant Samiq Fərzəliyev baş leytenant Dadaşovun bölüyünün tanka yaxınlaşdığı halda aralarındakı məsafə kiçildiyi üçün üzərindəki mərmiatan və pulemyotun atəş trayektoriyasından çıxdığını, kiçik çaplı silahlarla silahlanmış səngərdəki piyadaların isə hədəfinə çevrildiyini nəzərə alıb səngəri nişan almışdı. Hərəkətdən və düşmənin ünvanına söyüş yağdırmaqdan qalmayan baş leytenant Fərzəliyev qumbaraatanın gözünə daha bir qumbara qoyub atəşə hazır vəziyyətə gətirdi. Hərəkətdən qalmadan, elə ayaq üstdəcə düşmən səngərini yenidən nişan aldı. Və düşmən səngərinin daha aktiv digər bir hissəsi də havaya sovruldu.

Bu an düşmən pulemyotçusunun diqqətini cəlb edən baş leytenant Fərzəliyev qumbaraatanı təkrar doldurmağa fürsət tapmadı. Onun hərəkətlərini izləyən düşmən tankının pulemyotçusu hədəfə götürərək atəş açdı. Fərzəliyev sinəsindən və başından aldığı ardıcıl pulemyot güllələrindən səntirləyib üzü üstə torpağa gəldi. Baş leytenant Dadaşovun rəhbərlik etdiyi bölük yerindən sıçrayıb bir ağız-

dan “Allahu Əkbər” – deyərək irəli şığıdı. Zəncirvari şəklində qaçaraq düşmənin iyirmi-iyirmi beş metr qarşıdakı tank üçün nəzərdə tutulmuş səngərinə atıldı. Və mövqelənib baş leytenant Fərzəliyevin ardıcıl olaraq endirdiyi iki qumbaraatan zərbəsindən sonra səngərdən çıxıb geri çəkilməkdə olan düşmən yaraqlılarını atəşə tutdu...

Sol cinahdan hücuma keçən ikinci və üçüncü bölüyün əsgərləri də düşmənin həmin istiqamətdəki müqavimətini qırmış, dağıdılıb yerlə yeksan olmuş Merdinli kəndinin mərkəzində mövqelənərək geri çəkilməkdə olan düşmən qüvvələrini atəşə tutmuşdu... Günün nə vaxt batdığını heç kəs bilmədi. Əslində, Günəşin nə vaxt çıxdığını da heç kəs bilməmişdi. Yalnız hava işıqlandı və qaraldı. İşıqlı olduğu müddətdə də qara buludlar və mərmilərin qaldırdığı toz-duman, partlayışdan doğan alov və tüstü çiskin və yağışa bürünərək təbiətə qaramtıl-boz bir rəng qatmış, hüznlü bir don geyindirmişdi. Hava qaralanda isə bütün bunlar zülmət bir çadraya bürünüb işığı uddu və göz-gözü görməz oldu.

Baş leytenant Dadaşovun bölüyü düşməndən geri aldıqları tank üçün nəzərdə tutulmuş səngərdə səhərə qədər gözləmək məcburiyyətində qaldı. İki günün yorğunluğu öncə soyuğa və aclığa qalib gəldi və əsgərlər islanmış kürəklərini bir-birinə dayayıb üstü örtülü, kənarları açıq sığınacaqda narahat yuxuya getdilər. Amma çox keçmədi ki, susuzluq yuxularına haram qatdı. Heç kimdə bir qurtum da su qalmamış, hətta ağırlıq etməsin deyə su qablarını da atmışdılar. Dəbilqələrini ara-sıra yağan yağmurla doldurmaq ümidi ilə tank səngərinin kənarına düzdülər...

– Komandir, bizə tərəf gələn var! – Növbədə duran əsgər Əfsər Yarməmmədov çevrilib bir addımlığında silahını qucaqlayıb mürgü döyən baş leytenant Dadaşovun qulağına pıçıldadı.

Baş leytenant cəld yerindən sıçrayıb əsgərin göstərdiyi istiqamətdə boylandı. Səhərin ala-toranında qarşı – bir gün qabaq düşmənin geri çəkildiyi tərəfdən iki nəfərin onlara doğru addımladığını aydınca gördü. Əsgər Yarməmmədovun icazəsiz onları nişan aldığını görüb: – Dayan! – deyə gözləmək əmri verdi. Çevrilib: – Şəxsi heyətin hamısı burdamı? – deyə xəbər aldı.

Komandirlə növbətçi əsgərin pıçıltılı danışığını artıq hamı eşitmişdi. Dərhal da qalxıb döyüş mövqeyi tutmuşdular. Şəxsi heyəti sayıb dərhal da məruzə etdilər:

– Xeyir, komandir, iki nəfər yoxdur. Bizə sonradan qoşulan Pənah və İlham adlı iki nəfər yoxa çıxıb.

Komandir başını silkələyib şübhə ilə astadan pıçıldadı:

– Onlar özbaşına hara və niyə getməlidir?

Əsgər Babək Cəfərov:

– Komandir, onlar bizə Füzuli batalyonundan ayrı düşdüklərini dedilər. Özlərini də çox şübhəli aparırdılar. – deyə məlumat verdi. – Birinin də başında erməni papağı var idi.

Qaranlıqda üzü görünməyən əsgər Elsevər Cəfərov da söhbətə qoşuldu.

– Bunu mən də görmüşdüm, – Komandir səs gələn tərəfə boylandı: – Soruşdum, tapdığını dedi. Öz papağını itirdiyindən yağışda islanmasın deyə geyinmək məcburiyyətində qaldığını söylədi.

– Belə çıxır ki, ya satqın, ya da erməni casusudurlar. Yoxsa qaranlıqda, xəbərsiz-ətərsiz niyə, hara yoxa çıxsınlar? – Əsgər Babək Cəfərov yenidən müdaxilə etdi.

– Ola bilər, hər şey ola bilər. Yəqin ki, erməni papağını da erməniyə həm işarə vermək, həm də özünün təhlükəsizliyi, erməni snayperi tərəfindən vurulmasın deyə geyinib. – Komandir təəssüflə söyləndi: – Elə, belə şərəfsizlərin, satqınların ucbatından torpaqlarımız otuz il işğal altında qaldı!... – deyə qəzəbini bildirdi.

Tank səngərinə qarşı gəlməkdə olan iki nəfərdən xeyli arxada zəncir şəklində düzülərək onlara doğru hərəkət edən bir qrup erməni əsgəri göründü. Arxayın addımlarla yerisələr də, silahlarını irəli tutub ehtiyatla hərəkət etdikləri ala-toranlıqda aydınca hiss olunurdu. Komandir silahını atəşə hazır vəziyyətə gətirib:

– Hazır olun, uşaqlar! – deyə əsgərlərə tərəf çevrildi: – Ya Şəhadət, ya qələbə!

Əsgər Əmrah Əkbərovun səbri çatmadı:

– Qarabağ Azərbaycandır! – deyə bağıraraq avtomatını sinəsinə sıxıb tətiyini çəkdi. Bir anın içərisində bütün əsgərlər də Əmrah Əkbərovla bərabər atəşə qoşuldular. Gözlənilməz hücumla qarşılaşan düşmənin ön sırasında hərəkət edən əsgərlər sinələrindən, başlarından aldıqları güllə yaralarından yerə sərildilər. Arxalarınca gələn yaraqlı işğalçılarsa dərhal yerə uzanıb əks həmlə qrupunun sığındığı tank səngərini ardıcıl atəşə tutdular. Ardınca da düşmənin artilleriya qurğuları dilə gəldi. Ərazi bir anın içərisində artilleriya atəşinin qaldırdığı toz dumandan gö-

rünməz oldu. Komandir döyüş yoldaşlarına tərəf çevrilib göstəriş verdi:

– Biz burdan çıxmalıyıq, uşaqlar. Sağ tərəfdən bir-bir sürünərək sığınacaqdan çıxın, qarşıdakı böyürtkən kolları arasından keçib çayı adlayın. Çaydan iyirmi-otuz metr qarşıda yenidən böyürtkən kolları, ardınca dağıdılmış kənd ərazisi başlayır. Kəndə daxil olub öz hissələrimizə doğru hərəkət edin. Mən arxadan sizə çataram.

Əsgərlər hərəkətə başlayan kimi baş leytenant Dadaşov silahına sarılıb düşmənin hərəkətini nəzarətdə saxlamağa çalışdı. Əsgərlər bir-bir səngərdən çıxıb böyürtkən kolları istiqamətində süründülər. Düşmən əsgərlərin süründüyü istiqaməti aydın görməsə də sığındıqları tank səngərini və bütün ətrafı ardıcıl atəşə tutmuşdu. Yoldaşlarının açıq sahədən keçib kolluqlara qədər getməsinin çətinləşdiyini görən əsgər Zabil Azadlı ayağa qalxıb düşmən mövqeyini ardıcıl avtomat atəşinə tutdu. Bundan istifadə edən əsgərlər bir-bir ayağa qalxaraq böyürtkən kolluqlarına tərəf götürüldülər. Açıq sahədə olan yoldaşlarının artıq mövqelənib düşmən istiqamətində atəşə qoşulduğunu görən əsgər Zabil Azadlı ayaq üstdəcə atəşi davam etdirməklə yoldaşlarının getdiyi istiqamətdə addımlamağa başladı. Amma sahəni sona qədər gedə bilmədi. Atəş nöqtəsindən çıxmağa bir neçə addım qalmış sinəsindən aldığı pulemyot gülləsindən üzü üstə torpağa gəldi.

– Zabili vurdular, komandir! – deyə əsgər Babək Cəfərov bağıraraq səngərdən çıxdı. Avtomatını sinəsinə sıxaraq düşmən üzərinə güllə yağdırmağa başladı. Döyüş

yoldaşları kolluqlardan çıxıb Zabil Azadlının yıxıldığı yerə tərəf qaçdılar.

Bu zaman baş leytenant Dadaşov da tank səngərindən çıxıb Babək Cəfərovla bərabər Zabilin cəsədini döyüş meydanından çıxaranlara atəş dəstəyi verməyə çalışdı. Döyüş yoldaşları Zabil Azadlının cəsədini götürüb geri qayıdınca bölük komandiri əsgər Babək Cəfərovla bərabər yenidən tank səngərinə atıldılar. Tank səngəri və döyüş yoldaşlarının getdiyi istiqamət düşmən tərəfindən müxtəlif silahlardan ardıcıl atəşə tutuldu. Yoldaşlarının uzaqlaşa bilmələri üçün bölük komandiri və əsgər Cəfərov səngərdə qalıb döyüşü davam etdirməyi qərara aldılar. Amma çox keçmədən düşmənin yaxınlaşdığını və güllələrinin tükənə biləcəyini nəzərə alan baş leytenant Dadaşov əsgər Babək Cəfərova baxıb çıxmağın vaxtı olduğunu bildirdi. Komandir sürünüb səngərdən çıxdı. Boş sahədə mövqe seçib əsgərlərinin getdiyi istiqamətdə boylandı. Uzaqlaşdıqlarını görüb əsgər Cəfərovun ardınca sürünməsini işarə etdi. Əsgər avtomatın kəmərini biləyinə keçirib komandirinin ardınca hərəkətə başladı. Onlar bir neçə metr süründükdən sonra qəfil qalxıb qarşıdakı böyürtkən kolluqlarına tərəf götürüldülər. Amma kolluqlara çatmamış düşmən onları görüb ardıcıl avtomat atəşinə tutdu. Baş leytenant Dadaşov özünü kolluqların içərisinə atıb yerə uzandı. Əsgər Cəfərovsa kolluqların on-on beş metrliyində ayağından aldığı güllə yarasından səntirləyib yerə yıxıldı.

Komandir əsgərinin, onun yanına sürünə bilməsinə şərait yaratmaq üçün qənaətlə düşmənin dayanmadan onlara tərəf gəldiyi istiqaməti atəşə tutdu. Və:

– Yanıma sürün, Cəfərov, tez ol! – deyə bağıraraq əmr etdi.

– Məni vurdular, komandir, sürünə bilmirəm, mənə kömək et! – artıq gücdən düşmüş əsgər Cəfərov özünü birtəhər yaxınlıqdakı çuxura salıb hərəkətdən qaldı.

Baş leytenant Dadaşov avtomatını çiyninə keçirib tələsik döyüş yoldaşına tərəf süründü. Cəld onu qucağına götürüb dərhal da arxaya, kolluqlara tərəf götürüldü. Düşmən onları yenidən avtomat atəşinə tutdu. Və bölük komandiri artıq ayağını kolluqlara atan anda komandirinin qucağında olan əsgər Cəfərov kürəyini və qolunu yarıb keçən daha bir güllə yarası aldı. Bölük komandiri səntirləyib yaralı qucağındaca kolluqların içərisinə yıxıldı. Dərhal da dikəldi, tikanın bədənlərinə sancılmasına məhəl qoymadan yaralını kolluğun daha sıx yerinə sürüdü. Həm kürəyindən və qolundan güllə yarası alan, həm də pulemyot gülləsinin ayağını qopardığı əsgər ağrıdan sızıldayır, dırnaqları ilə torpağı eşir, əlinə keçən ağacları, kolları qəzəblə sındırır, dayanmadan zarıyırdı.

Hələ də onların getdiyi istiqamətdə irəliləyən düşmənsə kolluqları və bütün ətrafı ardıcıl avtomat atəşinə tutmuş, dayanmadan güllə yağdırırdı. Başları üstündən uçan, ağac budaqlarını, yarpaqları qoparıb üstlərinə səpən güllə yağışı altında baş leytenant Dadaşov yaralını, bacardıqca, kolluqların daha dərin hissəsinə qədər çəkib dayandı. Əsgər Cəfərov dayanmadan zarıyır, yarasından qanı dayanmadan sızırdı. Baş leytenant Dadaşov hərbi formasının qolunu dartıb qopardı. Bir parçası ilə yaralının qolunu sarıdı,

digər parçasını isə kürəyindən aldığı yaranın üstünə basdı. Əli ilə ağzını sıxıb səs salmamağını xahiş etdi.

Düşmən tankının nəriltisi lap yaxından eşidildi. Amma gizləndikləri istiqamətdə atəş kəsildi. Düşmən, deyəsən onların vurulduğunu zənn etmişdi. Bölük komandiri əsgərin boynunun boşaldığını, zarıltısının kəsildiyini görüb tez əlini onun ağzından götürdü. Əyilib qulağını sinəsinə qoydu. Ürəyi döyünürdü. Əsgər ağrıdan huşunu itirmişdi... Artıq düşmən əsgərlərinin səsi lap yaxından eşidilir, texnikanın hərəkətinin yaratdığı titrəyiş uzandıqları torpağın üzərində, sığındıqları kolların əsintisində aydınca duyulurdu. Komandir əsgərinə qısılıb gözlədiyi anda onlardan artıq xeyli uzaqlaşmış əsgərləri düşmən mövqelərini ardıcıl atəşə tutmuşdu. Eyni istiqamətdə cavab atəşi verən düşmən bölük komandiri və yaralı əsgərin sığındığı ərazidən səs-səmir gəlmədiyini görüb onları unutmuşdu.

Başları üstündən döyüş yoldaşlarının getdiyi istiqamətdə uçan güllələrin səsindənmi, ağrıdanmı, əsgərin göz qapaqları titrəyib yenidən aralandı. Dərhal da dartınıb yerindən qalxmaq istədi. “Sakit!” – deyə bölük komandiri sinəsindən basıb onu yenidən yerə uzandırdı. Əsgər Cəfərovun kürəyindən və qolundan axan qanı dayansa da, ayağından dayanmadan sızır, soyuqdan göyərmiş bədəni tir-tir titrəyirdi. Onun qanitirmədən öləcəyindən qorxan bölük komandiri, yaralandıqdan sonra onsuz da yerimək imkanını itirən əsgər üçün əhəmiyyəti qalmayan ayaqqabılarını dartıb çıxartdı. Bağlarını açıb, qanaxmanın qarşısını almaq üçün, yaralandığı yerin bir qədər yuxarı hissəsindən möhkəm-möhkəm bağladı. Amma qanaxmanın

qarşısını ala bilmədi. Cəfərov özü belində əsgər kəməri olduğunu bildirib ondan istifadə etməyi məsləhət gördü. Təxminən üç saatdan sonra ətrafda sakitlik çökdü.

Düşmən onlardan uzaqlaşmış, atəş səsləri xeyli uzaqda eşidilirdi. Əsgərin yaralarının qanı dayansa da, halsızlıq onu aparır, tez-tez "su,..." – deyə sayıqlayır, dayanmadan acgözlüklə qurumuş dodaqlarını gəmirirdi. Baş leytenant Dadaşov hələ də gömgöy olan bir neçə böyürtkən meyvəsi qoparıb əsgərin ağzına apardı:

– Sən burda gözlə, qardaş, mən gedib yaxınlıqdakı çaydan su gətirib gəlirəm, – deyə qulağına pıçıldadı.

– Avtomatımı yanıma qoy, komandir. Əsir düşmək istəmirəm mən! – Öz-özünə danışırmış kimi gözlərini belə açmadan söylədi əsgər.

– Buranı tapmaq asan deyil, Cəfərov. Ermənilər də artıq uzaqlaşdılar. Mən tez gələcəm, sən arxayın ol!

Qayıdana qədər səbr etməyib özü-özünü vuracağından qorxduğu üçün avtomatını əsgərin dediyinin əksinə olaraq bir qədər aralı qoydu bölük komandiri. Sivişib böyürtkən kollarının arasından çıxdı. Çay onların sığındığı yerdən çox uzaq olmasa da, açıqlıqda, düşmənin hər an görüb atəş aça biləcəyi yerdə idi. Yalnız ehtiyatla, sürünərək getmək, sürünərək də qayıtmaq mümkün olacaqdı. Ona görə də baş leytenant Dadaşov yaralı əsgərinin yanına üç saat yarımdan sonra qayıda bildi. Az qala komandirinin qayıdacağına ümidini itirən əsgər Cəfərov ətrafındakı otları yolaraq acgözlüklə yeməyə başlamışdı. Bölük komandirini qarşısında görüncə:

– Şükür,... Şükür,... qayıtdın, komandir, Şükür,... öləcəmsə, qoy elə sənin qollarında ölüm, komandir! – deyə pıçıldayıb öləziyən gözlərini qapadı.

– Ə, hara ölürsən, Cəfərov, biz hələ səninlə Şuşaya qədər gedəcəyik, İnşaAllah! – yanında əyləşib başını dizlərinin üstünə qoydu. Çayın ətrafından tapıb su ilə doldurduğu konserv bankasını astaca dodaqlarına yaxınlaşdırdı: – İç, qardaşım, az-az, qurtum-qurtum iç. – Əsgər suyu ağzına alıb çətinliklə udqundu. Bölük komandiri əsgərini asta-asta içirtdikdən sonra: – Biz burdan getməliyik, Cəfərov! Bir azdan axşam düşəcək. Burada axşamlar zülmət kimi qaranlıq olur, – dedi. – Axşamı gözləsək buradan addım belə ata bilmərik. – Susub diqqətlə əsgərinin soluxmuş sifətinə baxdı. Əsgər bir söz demədən başını yellədi. Görünür danışmağa taqəti qalmamışdı. Komandir Cəfərovun yerindən qopub sallanmış ayağına baxaraq: – Ayağından yenə də qan sızır, əsgər! Tələssək yaxşıdır! – öz-özünə gileylənirmiş kimi dilləndi.

Əsgər: – Yaxşı! – dedi.

Amma bölük komandiri Cəfərovun nə düşündüyünü, nə üçün “Yaxşı” dediyini anlaya bilmədi. Düşündü ki, yəqin əsgər elə özü də nə ilə razılaşdığını anlamır, nə dediyini özü də bilmir. Sadəcə sayıqlayır. Buna baxmayaraq təkrar soruşdu:

– Burdan getməkdə mənə kömək edə bilərsənmi? – Susub su içdikdən sonra sanki taqətini tamam itirən əsgərini başdan ayağa qədər bir daha süzdü: – Sən sadəcə boynumdan yapışa bilsən, kifayətdir. İkimiz də burdan qurtularıq! – özü-özü ilə danışırmış kimi cavabını gözləmədən söylədi.

Əsgər sadəcə: – Yaxşı! – dedi yenə də.

Komandir əsgərini oturaq vəziyyətə qədər qaldırıb kürəyini sinəsinə dayaq verdi. Qollarını çiynindən aşıraraq sinəsinə gətirdi. Astaca dizləri üstə yerində dikəlib ehtiyatla ayağa qalxdı. Gəldiyi istiqamətdə hərəkətə başladı. Kəndin qırağındakı çaydan keçib mərkəzdəki xarabalıqlara doğru gedəcək, yaralını orada olduqlarını təxmin etdiyi təxliyə qrupuna təhvil verib, bölüyü ilə bərabər Xocavənd istiqamətində hərəkətə keçən hissələrimizə qoşulacaqdı. Amma ac, susuz və yuxusuz şəkildə iki gündən artıq dayanmadan hərəkətin yorğunluğu onu taqətdən salmış, nəinki yaralını, heç özünü belə daşımağa qüvvəsi qalmamışdı. Belə vəziyyətdə əsgəri çaydan keçirə bilməyəcəkdi. Həm də yaralarına infeksiya düşməsin deyə onu ətrafını qamışlıq basmış çirkab sudan qorumalı idi.

Çayın yaxınlığındakı uçulmuş tövlənin yanına qədər gələ bildi. Yaralını divarın dibində yerə qoyub özü də yanında uzandı. Dincəlməyə, nəfəsini dərməyə ehtiyacı olsa da, yubana bilməzdi. Qalxınıb ətrafı diqqətlə nəzərdən keçirdi. Yaralının yerini otuz-qırx santimetr hündürlüyü olan uçuq divarın arxasında rahlayıb astaca qulağına pıçıldadı:

– Uşaqlar burda, çayın o biri tərəfindədir. Səni çaydan keçirməyə taqətim qalmayıb, Cəfərov. Suya düşsək, yaran infeksiya tapa bilər. Sən burda gözlə, mən kömək götürüb qayıdıram. – Yaralının cavab verməsini gözlədi. Əsgərin yanğıdan qupquru olmuş dodaqlarını bir-birindən ayırmağa qüvvəsi çatmadı. Yumulmuş gözlərini sıxmaq, qaşlarını əzabla çatmaqla eşitdiyini işarə etdi...

Hava çoxdan qaralmışdı. Hərəkətə başladığı yerdən gəldikləri məkana qədər məsafə bir kilometrdən az olsa da, üç saatdan artıq vaxtını almışdı. Gedəcəyi istiqaməti təxmin edirdi. Mütləq şəkildə çayı keçməli, sonra isə burulub xarabaya çevrilmiş kəndin mərkəzinə girəcəyini düşünürdü. Amma sağamı, solamı burulmalı olduğunu xatırlaya bilmirdi. Diz üstə çöküb zülmət qaranlığın içərisində gəldikləri yerin və ətrafın xəritəsini görə bilmədiyi torpağın üstündə cızmağa çalışdı. Kəndin mərkəzindən hücuma keçmiş, kənarında özləri hücuma məruz qalıb atəş xəttindən sağ tərəfdən çıxmışdılar. Əslində hər iki tərəf onu Merdinli kəndinin mərkəzinə aparır, amma bir tərəfdə hələ də düşmən qüvvələrinin mövcudluğu, digər tərəfdə isə düşməni geri oturdan öz hərbi hissələrinin möhkəmləndiyini ehtimal edirdi. Bir neçə saat qabaq yerləşdikləri tank sığınacağında düşmən hücumuna məruz qaldıqlarından düşmənin hələ də yaxında olduğunu düşünürdü.

Amma artıq yubana da bilməzdi. Yaralı hər an ölə bilər, özü də gözləmədiyi hadisələrlə qarşılaşa bilərdi. Zülmət, göz-gözü görməyən qaranlıqda çayı keçib sola buruldu. Qarşı tərəfdə ara-sıra atəş səsləri eşidilir, səmada qarşı və əks istiqamətdə işıqsaçan güllələr uçuşur, öləziyib tez də zülmətə çevrilirdi. Ayağı altını belə çətinliklə görən baş leytenant Dadaşov xeyli irəlilədikdən sonra xarabalıqların içərisində yarıuçuq kiçik bir sığınacaqdan hənirti duyub yaxınlaşmağa başladı. Bir neçə metrliyində yerə çöküb qulaq verdi. Pıçıltı ilə Azərbaycan dilində danışırdılar. Ürəklənib ehtiyatla sığınacağa yaxınlaşdı. Erməni zənn edib vuracaqlarından qorxduğu üçün qapının bir addımlı-

ğında dayanıb yerə çökdü və silahını səs gələn istiqamətdə tuşlayaraq pıçıltı ilə səsləndi:

– Qardaş!

İçəridə səslər kəsildi. Baş leytenant Dadaşov da susub sığınacaqdakıların reaksiyasını gözlədi. Bir an sükutdan sonra:

– Silahını yerə qoy! – deyə sığınacağın içərisindən deyil, özünün də görə bilmədiyi ətrafından xırıltılı səslə göstəriş verildi. Diqqətlə baxdıqda sığınacağın qapısının sağ tərəfindəki uçuq divarın arxasından iki avtomat lüləsinin ona tuşlandığını gördü.

Baş leytenant Dadaşov ehtiyatla ayağa qalxdı. Silahını əlindən buraxmadan pıçıldadı:

– Mən... – Sözünü tamamlamadan qaranlıqdakı səs təkrar və qətiyyətlə bir daha eşidildi:

– Silahını yerə qoy və yaxınlaş!

Dadaşov silahını yerə qoyub asta-asta qapıya yaxınlaşdı. Qapının kənarında onu izləyən iki əsgərin yanından ötüb təklif gözləmədən qapısı qara rəngdə pərdə ilə örtülmüş sığınacağa daxil oldu. İçərisinə yalnız bir çarpayı yerləşən təxminən iki metr uzunu, metr yarım eni olan sığınacaqda çarpayının üstündə yanaşı oturmuş iki nəfərlə qarşılaşdı. Baş leytenant Dadaşov salam verməyə macal tapmadan onu suala tutdular:

– Kimsən, burada nə gəzisən?

Bölük komandiri diqqətlə baxanda onların səhər düşmənin qəfil hücumuna məruz qaldıqları zaman yoxa çıxdıqları məlum olan, özlərini Pənah və İlham kimi təqdim edən şəxslər olduğunu gördü. Sarsıldığını, onlardan şübhələndiyini hiss etdirməməyə çalışan komandir:

– Mənə kömək lazımdır, uşaqlar. Yaralı var, hər an ölə bilər. Onu çaydan tək keçirə bilmirəm! – deyə həyəcanını boğaraq dilləndi: – Kömək edin onu tez təxliyə qrupuna çatdıraq! – Çevrilib əli ilə gəldiyi istiqaməti göstərdi: – Bəlkə Allah rəhm elədi, ölmədi!

Çevrilərkən arxasında durub avtomatları ona tuşlayan iki əsgərin sifətinə diqqət yetirdi. Qaranlıqda onları xatırlaya bilməsə də, üz cizgilərini yadda saxlamağa çalışdı.

– Gəldiyin kimi də buradan tez qayıt, biz sizə kömək edə bilmərik!

Hansının dilləndiyini ayırd edə bilmədi. Təəccüblə durub sifətlərinə diqqət yetirdi. Ümumiyyətlə, onlardan hansının İlham, hansının Pənah olduğunu bilməyən baş leytenant:

– Yaralı hər an ölə bilər, uşaqlar! – deyə təəccübünü və həyəcanını gizlətmədən təkid etdi: – Siz yalnız onu çaydan keçirməyə mənə kömək edin. Qalan yolu özüm birtəhər apararam!

– Biz burdan ayrıla bilmərik, tapşırıq belədir. – Adlarını dəqiq bilmədiyi ikinci şəxs də köməkdən qətiyyətlə imtina etdi: – Sizə isə məsləhətim belədir, tez burdan uzaqlaşın!

Baş leytenant Dadaşov geri döndü, qapıya qədər gedib dayandı. Çevrilib:

– Bəlkə suyunuz ola, heç olmasa yaralıya bir qurtum su aparım? – deyə onlarla ünsiyyəti davam etdirməklə əlavə müşahidə aparmaq istədi. Adının İlhammı, Pənahmı olduğunu dəqiq bilmədiyi şəxs yerini çarpayıda rahatlayıb "get" – deyə əlinin işarəsi ilə bayırı göstərdi.

Bölük komandiri sığınacaqdan çıxan kimi avtomatını qamarladı. Bir gözü arxada oradan uzaqlaşmağa çalışdı.

Yol boyu “Biz burdan ayrıla bilmərik, tapşırıq belədir”.

“Kimin tapşırığı?” – Şübhələndiyi adamın sözünü təkrarlayıb öz-özünə sual etdi: “Kimdir bunlar və burada nə gəzirlər? Həqiqətən casusdurlarsa, niyə məni vurmadılar? Yeni çağırışçılar bunların yanında nə gəzir? Gecə yarı hara yoxa çıxdılar?...” – Suallar məngənəsində çırpınaraq nə vaxt yaralının yanına qayıtdığını özü də bilmədi. Yaralıya çatmamış onun soyuqdan titrədiyini, diş-dişə döydüyünü uzaqdanca duyub sürətini artırdı. Uzandığı yerdəcə qalan yaralının sifəti, qolları soyuqdan gömgöy göyərmiş, soyuğun göynətdiyi yaralarının sızıltısından tir-tir titrəyir, nəfəsi çatmırmış kimi tez-tez nəfəs alır, ayağındansa dayanmadan qanı sızırdı. Baş leytenant yaralının yanında yerə çöküb:

– Bir az da səbr et, qardaş, uşaqlar gəlirlər artıq! – deyə ona təsəlli verməyə çalışdı. Zülmət yarılmış, hava işıqlanmağa başlamışdı. Uzaqdan düşmənin tutduğu mövqe və işğaldan azad olunmuş ərazilər çətinliklə sezilsə də gedəcəyi istiqaməti təyin etməkdə çətinlik yaratmırdı. Havanın işıqlanmağını gözləmək yaralının daha çox qan itirməsinə və düşmənə görüntü verməklə hərəkət məhdudluğuna səbəb ola bilərdi. Baş leytenant Dadaşov artıq dəqiq bildiyi istiqamətdə hərəkətə başladı. Azərbaycan ordusunun mövqelərinə çatanda onu ikinci bölüyün komandiri qarşıladı. Bölük komandirindən yaralını gətirmək üçün əsgər göndərməsini xahiş edib özü isə vacib bir məsələ ilə əlaqədar tabor komandiri ilə görüşmək istədiyini söylədi. İkinci bölüyün komandiri artıq onun və yaralı əsgər Babək Cəfərovun ardınca əsgər göndərildiyini dedi. Tabor

komandirinin isə vacib bir məsələ ilə əlaqədar komanda məntəqəsinə çağırıldığını bildirdi. Baş leytenant Dadaşova da təcili olaraq bölüyünün yanına getməyi xahiş etdi.

İkinci bölüyün komandiri geniş məlumat verməsə də baş leytenant məsələnin ciddi olduğunu anladı. Əyili vəziyyətdə öz bölüyünün yerləşdiyi səngərə doğru qaçdı. O, əvvəlcə yaralı əsgər Cəfərovun məsələsini həll edib, sonra tabor komandirinin yanına getməyi düşünürdü. Səngərə yaxınlaşmamış Azərbaycan aviasiyasının və dronların havaya qalxması onu ayaq saxlamağa məcbur etdi. Bir neçə dəqiqədən sonra artıq düşmənin bir gün qabaq tutduğu mövqe artilleriya zərbələri nəticəsində havaya sovruldu. Komandir səngərə yaxınlaşanda ikinci bölük komandirlərinin ardınca düşmənin geri çəkilib mövqeləndiyi istiqamətdə hərəkətə başladı. Baş leytenant Dadaşov cəld özünü bölüyünün mövqeləndiyi səngərə çatdırdı. Vəziyyətlə əlaqədar məruzə edən taqım komandiri tabor komandirinin hücum üçün onlara əmr gözləməsini dediyini bildirdi. Bu zaman səngərə atılan əsgər Əmrah Əkbərov tələsik onlara yaxınlaşıb:

– Azadlı Zabil şəhid oldu, komandir! – deyə məlumat verdi.

– Bilirəm, Əkbərov, Allah rəhmət eləsin! Babək Cəfərov da ağır yaralıdır. Mən onu çayın qırağındakı xarabalıqda gizlətmişəm. Təcili olaraq onu təxliyə etmək lazımdır. Daha iki nəfər götürüb onu gətirməyə gedin.

– Biz onu artıq təxliyə qrupuna təhvil vermişik, komandir. Sizin gəlmədiyinizi görüb taqım komandirinin əmri ilə ardınızca getdik. Qayıdanda xarabalıqlarda zarıltı eşidib

yaxınlaşdıq. Babək Cəfərov idi. Onu elə indicə təxliyə qrupuna təhvil verib gəlirik.

– Vəziyyəti necə idi? – Yaralı əsgər tərəfdən bir qədər arxayınlaşan baş leytenant Dadaşov xəbər aldı.

– Sayıqlayırdı, komandir, amma həkimin dediyinə görə sağalacaq, İnşaAllah. Həkim yaxşı ki, qanının dayanmadığını dedi, yoxsa bu qədər vaxt iplə bağlı olduğundan qanqrena ola biləcəyini, ayağının kəsiləcəyini söylədi.

– Lap yaxşı, Allah şəfa versin! – bölük komandiri taqım komandiri olan gənc leytenanta tərəf çevrilib: – Mən təcili olaraq tabor komandirinin yanına getməliyəm, leytenant. Mən qayıdana qədər bölük sənə əmanət, – deyə göstəriş verdi...

İdarəetmə məntəqəsinin əlli-altmış metrliyində bir neçə üzü örtüklü xüsusi təyinatlı əsgər baş leytenant Dadaşovu saxlayıb tabor komandirinə yaxınlaşmağa icazə vermədi. Bölük komandiri vacib bir məlumat verəcəyini bildirib tabor komandiri ilə mütləq görüşməli olduğunu söylədi. Əsgər radio vasitəsilə tabor komandiri polkovnik-leytenant Bahadur Cəfərovla əlaqə saxlayıb məruzə etdikdən sonra baş leytenanta idarəetmə məntəqəsinə yaxınlaşmağa icazə verdi. Baş leytenant bölük mühasirəyə düşən gecə yoxa çıxan iki əsgərin əllərinin arxada bağlı vəziyyətdə hərbi prokurorluq və xüsusi idarə əməkdaşlarının qarşısında dayandığını gördü. Tabor komandirinə yaxınlaşıb hərbi təzim etdikdən sonra:

– Cənab polkovnik-leytenant, İlham və Pənah adlı bu iki nəfərdən şübhələndiyimi bildirmək üçün yanınıza gəlmişəm, – deyə məruzə etdi.

– Onlar, sizin bildiyiniz kimi İlham və Pənah deyillər, Dadaşov, onların kim olduğunu hüquq-mühafizə orqanları aydınlaşdıracaq və qanun qarşısında öz layiqli cəzalarını alacaqlar! – Tabor komandiri məmnunluqla cavab verdi.
– Onlar tək deyildilər, cənab polkovnik-leytenant, onlarla daha iki nəfər gənc çağırışçı da var idi.

– Hər şeydən xəbərimiz var, baş leytenant, onlar və onlar kimi vətən xainləri daim xüsusi xidmət orqanlarımızın nəzarəti altındadır. Azərbaycan ordusunda vətən xainlərinin fəaliyyətinə heç vaxt imkan verilməyib, heç vaxt da imkan verilməyəcək, arxayın ola bilərsiniz!

– İcazə verirsiniz gedim, cənab polkovnik-leytenant? – deyə arxayınlaşmış Dadaşov əlini gicgahına apararaq hərbi təzimlə icazə istədi.

– İcazə verməzdən qabaq tapşırıq vermək istəyirəm, Dadaşov. Məlumunuz olsun ki, Azərbaycan ordusu Qaraxanbəyli qəsəbəsi ətrafındakı düşmənin bütün hərbi-birləşmələrini darmadağın edərək, möhkəmləndikləri mövqeləri geri alıb. Bölüyünlə işğaldan azad olunmuş ərazilərdə möhkəmlənməyə və işğal altında olan digər ərazilərimizə doğru irəliləməyə hazır olun.

– Oldu, cənab polkovnik-leytenant! – deyə baş leytenant Dadaşov hərbi təzim edib hücuma hazırlaşan bölüyünün yanına tələsdi...

## Adsız yüksəkliyə qəfil hücum

– Cənab polkovnik, baş leytenant Yaqublu əmrinizlə gəlmişdir.

– Gəl otur, Yaqublu. Yemək ye bizimlə.

– Ac deyiləm, komandir, çox sağ olun.

– Gəl, gəl, naz eləmə, tapşırıqdan gəlmisən, bilirəm, acsan.

– Doğrudur, acmışam, komandir. Amma sizinlə yemək yemək...

– Gəl, gəl otur, baş leytenant, yeyə-yeyə söhbətimizi davam edərik.

– Baş üstə, komandir. – Əliqismət Yaqublu kətili çəkib hərbi hissə komandiri polkovnik Ələkbər Cahangirov və tanımadığı yüksək rütbəli zabitlə üz-üzə oturdu.



**Şəhid baş leytenant Əliqismət Yaqublu**

Polkovnik Cahangirov qarşısındakı qarabaşaq konservini ona tərəf itələdi. Yaqublu çantasından qatlanan çoxfunksiyalı bıçağını çıxartdı, qaşıq hissəsini aralayıb hərbi hissə komandiri ilə bərabər konservdən mal əti ilə qarışıq bişirilmiş qarabaşaq yeməyə başladı. Polkovnik Ələkbər Cahangirov ağzındakı tikəni udmadan gözlərini qarşısındakı xəritəyə dikib:

– Diqqətlə bax, Yaqublu, bura Xocavənd rayonunun Ağbulaq kəndidir. – Avtomat süngüsü ilə xəritə üzərində nişanlanmış yerləri göstərdi: – Kəndin hər iki tərəfində və üzü bizə tərəf hissəsində düşmənin adsız yüksəklikləri mövcuddur və bu yüksəkliklərdə düşmənin kifayət qədər

canlı qüvvəsi, sursatı, artilleriya qurğuları toplanıb. – Hövsələ ilə sözünə davam etdi: – Belə demək olar ki, düşmən buradan quş da uçurmur. Amma əminəm ki, – nəzərlərini xəritədən ayırıb kəşfiyyat qrupu komandirinin gözlərində cəmlədi: – "Bələdçi" buradan çox rahatlıqla keçə biləcək. Necə ki, əks-həmlə qrupumuz artıq buradan xeyli dərinə sızaraq düşmən arxasında fəaliyyət göstərir.

– Əlbəttə, komandir, təki siz əmr edin, – yeməyini bitirdi. Bıçağını böyründəki böyürtkən kolundan qopardığı yarpaqla silib çantasına qoydu: – Tapşırığımız nə olacaq, cənab polkovnik?

– Tapşırığınız çox sadədir, Yaqublu, – polkovnik kəşfiyyat qrupu komandirinin sifətinə diqqət yetirdi: – Siz düşmən arxasında fəaliyyət göstərən qrupa təminat çatdırmalısınız. – Nəzərlərini "Bələdçi"nin sual dolu baxışlarında cəmləyib bir anlıq susdu: – İki yolunuz var, baş leytenant, ya bu aradan ehtiyatla sızaraq, – bıçağı xəritədə nişanlanmış düşmən mövqelərinin arasında gəzdirdi, – maşın kolonu ilə özünüzü qrupa çatdırmalısız, ya da, – bıçağı xəritədən qaldırıb, – öz bildiyiniz dağ yolları ilə arxa tərəfdən dolanıb qrupa yetişməlisiz. Amma bütün təminat belinizdə. – Baxışlarını istiqaməti göstərirmiş kimi dağlarda dolandırıb müsahibinin sifətində topladı.

– Doğrudan da çox sadədir, cənab polkovnik. – Baş leytenant da komandirinin təbəssümünə təbəssümlə cavab verdi: – Biz o yerləri artıq poçt yoluna çevirmişik, komandir.

– Bununla bitmir, Yaqublu, daha vacib, daha məsuliyyətli bir tapşırıq da var.

– Buyurun, komandir! – Bu tapşırığın çox vacib cəhətlərindən biri isə kolonla bərabər yüksək rütbəli bir Azərbaycan zabitini də təyin olunmuş yerə müşayiət etməyinizdən ibarətdir. Onun həyatını göz bəbəyiniz kimi qorumalısız. Qarşıdakı əməliyyatlarımızın uğuru həmin zabitin təyin olunmuş yerə vaxtında, sağ-salamat və təhlükəsiz çatdırılmasından çox asılıdır.

– Nə qədər vaxt tələb olunur, cənab polkovnik?

– Vaxt çox azdır, Yaqublu. – Hərbi hissə komandiri mundirinin qolunu arxaya itələyib saatına baxdı: – Ən geci səkkiz saatdan sonra haqqında danışdığım zabit təyin olunmuş yerdə olmalıdır.

Yaqublu nəzərlərini məchul bir nöqtədə cəmləyib, nəyi isə götür-qoy edirmiş kimi xeyli susdu. Sonra hərbi hissə komandirinin gözlərinin içinə baxıb: – Biz kolonla, – baş barmağını xəritədə düşmən mövqeləri üzərində gəzdirdi, – baxın, burdan keçəcəyik, – qətiyyətlə bildirdi. – Belə daha tez çatarıq, komandir, İnşaAllah.

– Əminsinizmi, baş leytenant?

– Əminəm, komandir, İnşaAllah! – Ayağa qalxıb farağat vəziyyətində dayandı.

Polkovnik Cahangirov bir daha saatına baxdı:

– Hazırlaşın, komandir, hava qaralan kimi yola düşürsünüz...

***

...Qatı duman qaranlığı bozartmış, qaranlıq dumanın zərrələrinə hopmuşdu. Palçıqlı dağ yolunda ehtiyatla irəliləyən təminat kolonunun nəriltisi görünməzliyi yararaq dağları əsirinə çevirmişdi. “Ural” yük maşınlarının fara-

larının qatı dumandakı közərtisi yolu göstərməkdən daha çox özlərinin yerini nişan verirdi. Yerdəyişmə zamanı düşmən duyuq düşməsin deyə, adətən, işıqlarını söndürüb hərəkət edən kolon bu dəfə, elə bil, düşmənə istiqaməti-ni bildirmək üçün heç bir maskalanma tədbiri görmədən, açıq-aşkar irəliləyirdi.

Öndə hərəkət edən "Ural"ın burnu cücə yumurtadan çıxan kimi dumanın köksünü yarıb qarşılarında peyda oldu. Düşmənin mövqe qoruyan iki əsgəri əllərini gözləri üstünə qoyub irəli yeridi. Faraların közərtisi maşını seç-məkdə, nömrəsini görməkdə əsgərlərə çətinlik yaradırdı. Yaqublu gözlərini düşmən əsgərlərindən ayırmadan sürü-cüyə tərəf çevrildi:

– Maşını sağ tərəfə verib saxla. – Dərhal da radionu ağzına yaxınlaşdırdı: – Siz hərəkəti davam etdirin. Sonun-cu maşın mənim əyləşdiyim maşına çatan kimi sürəti tam azaldın, daha bir neçə metr qabağa sürüb, sonra dayanın və əmrimi gözləyin. – Kolonun arxa maşınlarında oturmuş komandirlərə tapşırıq verdi.

– Fikrin nədir, komandir? – Təyin olunmuş yerə çat-dırılması üçün xüsusi tapşırıq verilən, Yaqublu ilə sürücü arasında oturan, paqonunu açdığından rütbəsi məlum olma-yan xüsusi təyinatlıların zabiti baş leytenantdan soruşdu.

– Mövqeni götürmək, komandir. – Tövrünü pozmadan qrup komandiri cavab verdi. Dərhal da düyməsini basıb, radionu ağzına tutdu: – Diqqətli və hazırlıqlı olun! İlk atəşdən dərhal sonra yerə atılıb döyüşə qoşulun.

İrəlidə hərəkət edən "Ural" maşını düşmən əsgərlərinə çatan kimi sağa burulub dayandı. Qrup komandiri kabinə-

nin pəncərəsini endirmədən özünü məşğul göstərməyə çalışdı. Digər maşınlar asta sürətlə yanından ötüb irəli keçdi. Arxasınca hərəkət edən "Ural" təxminən otuz, ikincisi on beş metr irəlidə, üçüncüsü isə lap qabağında dayandı. Maşının nömrəsinə diqqət yetirən düşmən əsgəri palçığa bulandığından heç nə görə bilmədiyi üçün əli ilə şüşəni endirməyə işarə etdi, kolon komandirinin məşğul olduğunu görüb, səbrlə gözləməyə başladı. Qrup rəhbəri kabinənin pəncərəsini azacıq aşağı endirdi, düşmən əsgərinə işarə ilə maşının səsindən heç nə anlamadığını bildirdi. Diqqətlə ətrafa baxıb, mövqedəki vəziyyətə uyğun çıxış yolu aradı. Düşmən əsgərinin daha ucadan danışaraq nə isə soruşduğunu görəndə, itələyib maşının qapısını açdı, atılıb kabinədən yerə düşdü, hələ də nəsə soruşmağa cəhd edən əsgərə məhəl qoymadan, qarşıda bir neçə əsgərlə yanaşı durub, müşahidə aparan düşmən zabitinə tərəf addımladı.

Təyin olunmuş yerə müşayiət edilən xüsusi təyinatlı zabit kabinədən düşüb nəzərlərini həm "Ural"ın ətrafında dolanan, həm də qrup komandirinin yaxınlaşdığı düşmən zabitinin ətrafında olan əsgərlərdən ayırmadan maşının qarşısında dayandı. Əsgər "Ural"ın arxasından dolanıb xüsusi təyinatlı zabitin bərabərinə gəldi. Ermənicə nəsə soruşdu. Özünü maşının nəriltisindən eşitməzliyə vuran xüsusi təyinatlı üzünü çevirib, ətrafa diqqət yetirdi. Bu zaman kabinəyə yaxınlaşan əsgər sürücünün qolundakı Azərbaycan bayrağını görüb "Turk!, Turk!", "Yaşma!", "Turk!" deyə bağıraraq, avtomatını atəşə hazır vəziyyətə gətirdi, amma atəş açmağa fürsət tapmadı, gözləri önündən ildırım sürətilə ötən xüsusi təyinatlı zabitin əlindəki

süngü-bıçaq boynuna sancıldı. Xüsusi təyinatlı zabit yaraladığı düşmən əsgərini arxa tərəfindən sinəsinə sıxıb, avtomatını əlindən aldı. İkinci düşmən əsgərinin açdığı atəş öz yoldaşının sinəsini dəldi. Arxasında mövqeləndiyi düşmən əsgərinin boynundan dartıb çıxardığı süngünü üzbəüz durub onu atəşə tutan erməni yaraqlısına tolazladı. Düşmən əsgərinin gözləri alnının ortasına saplanan bıçaq istiqamətində çevrildi, heykəl kimi arxası üstə torpağa düşdü.

Baş leytenant Əliqismət Yaqublu düşmən əsgərlərinin toplaşdığı istiqamətdə eyni anda iki əl qumbarası atıb yerə sindi. Xüsusi təyinatlı zabit dizi üstə çöküb, öldürdüyü əsgərdən qamarladığı avtomatla düşmən mövqeyini atəşə tutdu. Təminatçı xüsusi təyinatlılar maşınların işıqlarını söndürüb cəld yerə atıldılar, mövqelənib düşmən əsgərlərinin təxmin edildiyi yeri eyni anda sürəkli atəşə tutdular. Qarşı tərəfdəki yüksəklikdən, düşmən səngərindən də işıqsaçan güllələr yağdırıldı. Bir-birindən on-on beş metr məsafədəki maşınlardan düşüb, otuz-otuz beş metr məsafədə kənarlara çəkilən, qaranlıqda say çoxluğu təəssüratı yaradan doqquz nəfərlik qrup zəncirvarı və növbəli manevrlə düşmən səngərinə doğru irəlilədi. Qumbaraların partlayışından dərhal sonra yerindən sıçrayan baş leytenant Yaqublu sağ cinahdan yetirib özünü səngərə atdı. Qarşısında qəfil peyda olan Azərbaycan zabiti ilə göz-gözə gələn düşmən əsgəri yaxın məsafədən silahından istifadə etməyə fürsət tapmadı, – avtomat süngüsü sinəsinə saplandı. Baş leytenantın belindən çəkib qarşı tərəfə çevirdiyi avtomat od püskürdü. Xüsusi təyinatlıları nişan alan düşmən əsgərlərinin cəsədləri səngərin içinə düşdü...

Azad edilmiş adsız düşmən yüksəkliyində dərhal arama-tarama işləri aparıldı. Düşmən bayrağı endirilib yerində Azərbaycan bayrağı ucaldıldı. Baş leytenant Yaqublu hərbi hissə komandiri polkovnik Ələkbər Cahangirovla radio əlaqəsi yaratdı. Səbrsizliklə məlumat gözləyən polkovnik kəşfiyyat qrupu komandirinin səsini radioda eşidən kimi səbrsizləndi:

– Hardasız, baş leytenant? – deyə məruzəsini gözləmədən özü xəbər aldı.

– Cənab polkovnik, hazırda biz Ağbulaq kəndinin yaxınlığındakı adsız yüksəklikdəyik! – Baş leytenant açıqca hiss olunan sevinclə məruzə etdi.

– Siz orda nə gəzirsiz, baş leytenant, ora düşmən mövqeyidir! – Artıq deyil, cənab polkovnik, biz yüksəkliyi götürdük!

– Şəhid, yaralı varmı? "Əmanət"in vəziyyəti necədir? – Polkovnik Cahangirov ard-arda suallar verdi.

– Şükür, cənab polkovnik, "Əmanət" yanımdadır, sağ-salamatdır. Şəhid və yaralımız da yoxdur.

– Şükür, şükür, – hərbi hissə komandiri arxayınlaşıb dərindən nəfəs aldı: – Radionu "Əmanət"ə ver, – deyə əmr etdi.

"Əmanət" adlandırılan xüsusi təyinatlı zabit radionu alıb kənara çəkildi. Söhbətləri çox qısa oldu. Geri qayıdıb əlaqəni kəsmədən radionu Yaqubluya uzatdı. Baş leytenant:

– Cənab polkovnik, iki maşın komandirini saxlayıb, yolumuza davam etmək istəyirəm. Mövqeni qorumaq üçün. Əmriniz nədir? – deyə soruşdu.

– Məsləhət deyil, baş leytenant. “Əmanət”in həyatı və təyin olunmuş yerə vaxtında çatması daha vacibdir. Siz yolunuza bütün heyətlə davam edin. Bir saat ərzində azad etdiyiniz, Azərbaycan bayrağının dalğalandığı yüksəklikdə yeni qrup mövqe tutacaq, arxayın olun.

– Oldu, cənab polkovnik!

***

...Təyin olunmuş yerə səhər erkən çatdılar. Dərhal da təminatı xüsusi təyinatlı əks-həmlə qrupuna təhvil verib geri qayıtdılar. Azad olunmuş yüksəkliyin ətəyindən keçəndə yüksəklik artıq üçüncü azadlıq saatını yaşayırdı. Və yüksəklikdə Azərbaycan əsgəri mövqe tutmuşdu... Əməliyyatın uğurla başa çatması və qrupun sağ-salamat geri qayıtması haqqında hərbi hissə komandirinə baş leytenant Yaqublu saat on bir radələrində məruzə etdi. Uğurlu əməliyyata görə təşəkkürünü bildirən polkovnik Cahangirov:

– Hələ bir saat on dəqiqə vaxtınız var, Yaqublu, istirahət edə bilərsiniz, sonra yeni tapşırığa gedəcəksiniz, – deyə saatına baxdı. Baş leytenant hərbi təzim edib ayrılarkən: – Yaqublu, – arxasınca səsləndi: – müşayiət etdiyiniz zabitin kim olduğunu bilmək istəmirsən? – deyə soruşdu.

Kəşfiyyat komandiri yerində arxaya çevrilib, polkovniklə üz-üzə dayandı:

– Yəqin, bu vaxta qədər müşayiət etdiklərim kimi, bu da sirdir, cənab polkovnik, – dedi.

– Əlbəttə sirdir, baş leytenant, amma həmin zabitin kimliyini öyrənmək haqqını qazandın. Hətta cənab pol-

kovnik Zaur Məmmədov sizə salamını və şəxsən özünün təşəkkürünü çatdırmağımı xahiş etdi.

– Polkovnik Zaur Məmmədov? – Baş leytenant təəccüblə hərbi hissə komandirinin üzünə baxdı: – Çox təəssüf, cənab polkovnik!

– Təəssüf?!... Nə üçün?!... – Polkovnik Cahangirov sual dolu baxışlarını baş leytenantın bəbəklərinə zillədi.

– Çünki cənab polkovnik ayrılana qədər mənə üzünü göstərmədi. Maskalanmışdı.

– Hımm... – Polkovnik Ələkbər Cahangirov gülümsəyib başını yellədi. Bununla da baş leytenanta gedə biləcəyini işarə etdi.

Baş leytenant yerindən tərpənmədi:

– Ammaaa,... – ürəyində deyib-deməməyini götür-qoy edirmiş kimi sözünü yarımçıq kəsdi.

– Amma nə? – Polkovnik Cahangirov Yaqubluya uzun düşünmək fürsəti vermədi.

– Amma ayrılanda söz verdi ki, Şuşada mənimlə görüşəcək! – uşaq təbəssümü sifətində parladı.

– Şanslısanmış, Əliqismət, – baş leytenantı adı ilə çağırmaqla sevincinə şərik olduğunu nümayiş etdirən polkovnik Cahangirov: – Get, qardaş, get istirahət elə! – məmnun halda təbəssüm göstərdi: – İnşaAllah, qismət olar Şuşada görüşərsiniz!...

– İnşaAllah, İnşaAllah, cənab polkovnik! – hərbi təzim edib döyüşü idarəetmə məntəqəsindən ayrıldı...

## İstiqamət Şuşayadır

Bir ay dayanmadan xüsusi təyinatlılarla bərabər düşməni təqib edən, işğalçıları Cəbrayıldan, Füzulidən, Hadrutdan qovub çıxaran mayor Hacı Rəhimov və qərargah rəisi kapitan Ülvi Hüseynovun rəhbərlik etdiyi əks-həmlə taboru Şuşa qalasını işğaldan azad etmək kimi vacib bir tapşırıq almışdı. Dərhal da 28 il düşmən əsarəti altında olan Şuşa qalası istiqamətində hərəkətə başladı. Verilmiş koordinat üzrə keçilməz dağlar və sıx meşələrdən keçib Şuşa qalasının yaxınlığında yerləşən Şuşakəndə yaxınlaşacaqdılar. Şuşa şəhərini işğalda saxlayan düşmən hərbi birləşmələrinin diqqətini özlərinə cəlb etməklə parçalanmasına, bununla da, Azərbaycan Xüsusi Təyinatlılarının şəhərin digər istiqamətlərindən şəhərə daxil olmasına şərait yaradacaq, eyni zamanda, Xankəndi tərəfdən Şuşa şəhərində müdafiə olunan düşmənə yardım gəlməsinin qarşısını alacaqdılar...

***

Qatı duman zil qaranlığı cilovlamışdı. İzsiz-tozsuz yollar görünməzliyə aparırdı. Artıq iki dəfə yaralanmış və yaralı vəziyyətdə də döyüşə gedən əks-həmlə taborunun komandiri mayor Hacı Rəhimov və onunla bərabər öndə irəliləyən qərargah rəisi kapitan Ülvi Hüseynov sıx meşənin dərinliyinə doğru yalnız hərbçi fəhmilə addımlayırdılar. Tez-tez geri çevrilib, onları addımbaaddım təqib edən taborun yorğun əsgərlərini müşahidə edir, onların yoldan çıxmamağı, səssiz və təhlükəsiz addımlamağı üçün tap-

şırıqlar verir, arxaya qayıdıb bir-bir əsgərləri ilə söhbət edir, onları dinləyir və döyüşə həvəsləndirirdilər... Qalada möhkəmlənmiş düşmən ciddi müqavimət göstərir, tez-tez əks həmlə edib, ordumuzu sarsıtmağa, işğaldan azad etmə əməliyyatını ləngitməyə çalışırdı.

Düşmən Şuşanı alınmaz qala hesab edir, mövqeləri etibarlı olduğundan, Azərbaycan əsgərinin bu mövqeləri aşa biləcəyinə inanmırdı... Qılınc qınından sıyrılan kimi zülmət dağlardan və ətəklərdəki sıx meşələrdən çəkilib yox oldu. Səhərin ala-toranı tora düşmüş balıq kimi sıx dumanın cəngində çırpınmağa başladı. Ara-sıra görünüb yox olan Günəş nə qədər çalışsa da, qatı dumanın torundan sıyrıla bilmədi. Paltarlarına hopmuş sübh şehinin nəmi və tərdən əyin-başları tam islanmış tabor neçə günlük yorğunluqlarını unudub, ehtiyat və qəti addımlarla meşədən çıxdı və qarşıdakı qayalıqlara doğru yeridi. Təxminən yüz-yüz əlli metr irəlilədikdən sonra:

– Uzanın! – mayor Hacı Rəhimovun boğazını yırtıb xırıltıyla püskürən sədası düşmənin qəfil açdığı müxtəlif tipli silahların gurultusuyla bərabər dağları lərzəyə gətirdi. Düşmən az qala ayaqları altında olan Azərbaycan Silahlı Qüvvələrinin əks-həmlə taborunu qayalıqlardan ardıcıl atəşə tutdu. Qarşısında partlayan mərmi mayor Hacı Rəhimovu havaya qaldırıb bir neçə metr kənara atdı.

Kapitan Hüseynov uzandığı yerdən atəş nöqtəsini gülləyə tutunca rabitə bölüyünün komandiri kapitan Elbrus Mikayılov sürünüb özünü komandirinə yetirdi. Atəşə dəstək verməklə bərabər məruzə etdi:

– Cənab kapitan, biz yolu səhv gəlmişik. Şüşakənddən deyil, Daşaltı istiqamətindən Şuşaya yaxınlaşırıq. – Qərargah rəisinin üzünə baxmadan əlavə etdi: – Qatı duman bizi azdırıb, Ülvi.

Qərargah rəisi, həm də indiki halda tabor komandiri vəzifəsini icra edən kapitan Ülvi Hüseynov böyrü üstə diyirlənərək yerini dəyişdi. Gözünü atəş açdığı istiqamətdən ayırmadan üzünü rabitə komandirinə tərəf çevirib bağırdı:

– Taboru arxaya, meşəyə tərəf çəkin!

Əsgərlər komandirlərinin səsini eşitdilər. Rabitə komandirinin tapşırığını gözləmədən qarşıdakı qayalıqlara doğru ardıcıl atəş aça-aça geri sürünməyə başladılar. Rabitə komandiri dizi üstə çökərək avtomatının qundağını sinəsinə sıxdı. Düşmənin mövqeləndiyi qayalıqların üstündən və daha arxada mövqe tutmuş düşmən artilleriya qurğularının yağdırdığı atəş səngimək bilmirdi. Qarşı tərəfdə partlayan mərmi torpağı havaya qaldırdı. Kapitan Hüseynov cəld sıçrayıb yerindən qalxdı. Toz dumanından istifadə edərək ətrafı bir daha diqqətlə nəzərdən keçirdi. Meşənin çıxacağından xeyli irəlidə, müdafiə olunduqları ərazinin sol tərəfində qəbir daşları diqqətini cəlb etdi. Meşəyə doğru geri çəkilməklə itki verəcəklərini düşünüb:

– Qəbiristana qaçın! – deyə özlərinə daha yaxın və müdafiə üçün daha əlverişli hesab etdiyi qəbir daşlarının arxasında mövqelənməyi əmr etdi.

Taborun bir qismi üstlərinə yağan güllə yağmuru altında qəbiristana doğru sürünməyə başladı. Qəbiristana daha uzaq, arxalarında qalan meşəyə daha yaxın olan digər qismi isə geri, meşəyə doğru çəkilməyə başladı. Tabor artıq

ilk şəhidlərini vermişdi. Əsgərlərin bəziləri yaralı yoldaşlarını geri, meşəyə doğru sürüyür, bəziləri artıq canlarını fəda etmiş şəhid qardaşlarını çiyinlərinə alıb qarşı qayalıqdakı düşmən mövqelərini ardıcıl güllə yağışına tutmaqla geri çəkilirdi. Əks-həmlə taborunun açdığı atəş qayalara çırpılıb ətrafa uçuşduqca düşmən artilleriyasının yağdırdığı mərmi kiçik bir vadidə müdafiə olunmağa çalışan Azərbaycan əsgərlərini az qala torpağa basdıracaqdı. Kapitan Mikayılovla bərabər qəbiristana çəkilən taborun bir hissəsi qəbir daşları arxasında mövqelənib yuxarıda, qayalıqda gizlənən düşmən silahlılarını atəşə tutdu.

Kapitan Hüseynov hələ də bir neçə döyüşçü ilə vadinin düz ortasında mövqelənib hər iki cəbhədə döyüşən əsgərlərini idarə etməyə çalışırdı. Düşmənin ağır çaplı silahlardan endirdiyi aramsız mərmi zərbələrindən sonra vadi görünməz olmuş, səma qaralmışdı. Düşmən, sanki, vadidə baş verənləri görmək, hədəfi dəqiq nişan almaq məqsədilə bir anlıq susdu.

Artilleriya qurğuları susunca yaralı əsgərlərin səsi eşidildi: "Yaralanmışam", "Kömək edin", "Heç nə görmürəm", "Burdayıq" – deyə yaralı əsgərlər yardım diləyir, ağrıdan zarıyır, istiqamətlərini nişan verirdilər. Görünməzlikdən istifadə edən kapitan Hüseynov ətrafındakı döyüşçülərlə bərabər özünü yoldaşlarına çatdırmış, ilkin tibbi yardım göstərmədən dərhal geri, meşəyə çəkilməyi, yaralı və şəhidləri də arxaya daşımağı əmr etmişdi. Kapitan Mikayılov isə hələ də vadidə, açıqlıqda qalan yoldaşlarının təhlükəsiz yerə daşınmasını təmin etmək məqsədi ilə düşmən həmləsini öz üzərinə götürmüşdü.

Rabitə bölüyünün komandiri Mikayılov eyni anda iki qumbaraatanla düşmən mövqelərini hədəf almağı əmr etdi. Bir anlıq susan düşmən artilleriyası yenidən qəbiristan istiqamətini atəşə tutdu. Kapitan Mikayılovun əmri ilə əsgərlər iki-bir, üç-bir qəbir daşları arxasından çıxıb meşənin çıxacağındakı yaralı yoldaşlarına tərəf götürüldülər...

Payız axşamı düşməkdə, qaranlıq çökməkdəydi. İriçaplı silahların qaldırdığı toz dumanı vadinin başına papaq kimi qonmuş, zülmət qaranlığın rəngini bozartmışdı. Bundan istifadə edərək qəbiristana toplaşmış döyüşçülər taborun əsas heyətinin yanına gəlib, bütün yaralı və şəhidləri meşənin çıxacağındakı təxminən on metr uzunluğu olan kolluqlardan ibarət təbii maneənin arxasına topladı. Düşmən isə hələ də susmamışdı. Qısa fasilələr verməklə aramsız mərmilər endirir, müxtəlif çaplı silahlarla bütün ərazini, meşənin çıxacağını, qəbiristan istiqamətini, bəzi hallarda isə vadinin özünü – baxmayaraq ki, düşmən əsgərlərimizin artıq oradan çəkildiyini bilirdi, – aramsız atəşə tutur, nəfəs belə almağa imkan vermirdi...

Əllərində olan bütün tibbi vasitələrlə yaralılara ilkin yardım göstərildi. Şəhidlər bir cərgəyə düzüldü. Tabor müxtəlif istiqamətlərdən atəşə tutulduğu üçün kapitan Hüseynov gecəni elə orda qalacaqlarını bildirdi. Vaxtdan istifadə edərək bir neçə istiqamətdə kəşfiyyat qrupu göndərdi. Qısa müddətdə geri qayıdan kəşfiyyat qrupları mövqelərindən çox da uzaq olmayan ətraf yerlərdə düşmənin pusquda durması haqqında məlumat gətirdi.

Mayor Hacı Rəhimov üçüncü dəfə ağır yaralandıqdan sonra tabor komandiri vəzifəsini üzərinə götürən kapitan

Ülvi Hüseynov məsləhətləşmək və yeni tapşırıqlar vermək məqsədilə rabitə bölüyünün komandiri kapitan Elbrus Mikayılovu yanına çağırdı. Sürünərək bölük komandirinin yanına gələn kapitan Mikayılov gəlişi barədə məruzə etməyə macal tapmamış diqqətini gizləndikləri kolluqlardan bir qədər irəlidə basdırılmış dirək cəlb etdi. Baxışlarını həmin istiqamətdən ayırmadan:

– Komandir, qarşıdakı dirəyi görürsənmi? – deyə əlini irəli uzatdı.

Kapitan Hüseynov binoklu gözündən ayırıb yerindən azacıq qalxaraq rabitə komandirinin göstərdiyi istiqamətə boylandı. Dirəyin yuxarı hissəsinə bərkidilmiş kameranı görüncə: "Əclaf hiyləgərlər!" – öz-özünə söyləndi. Üzünü bölük komandirinə çevirmədən:

– Demək, bütün gecəni bizi atəş altında saxlamağa yardım edən bu dirəyə bərkidilmiş kameraymış! – əlavə etdi: – Deməli, düşmən kameralar vasitəsilə bizim bütün hərəkətlərimizi nəzarətdə saxlamağa çalışır.

– Vuraqmı kameranı, komandir? – kapitan Mikayılov avtomatın lüləsini kameraya tərəf tuşladı: – Onsuz düşmən yerimizi də bilir, hərəkətlərimizi də izləyir.

– Tələsmə, indi yox, – görüntü verəcəksən. – Tabor komandiri razılaşmadı: – Sən yaralı və şəhidləri arxaya, meşənin dərinliyinə, təxliyə qrupunun gələ biləcəyi yerə qədər daşımaqla məşğul ol! – deyə tapşırıq verdi: – Ağır yaralılar çoxdur. Təxliyə qrupu gəlib çıxana qədər şəhid ola bilərlər, tələs.

Kapitan Mikayılov arxa-arxaya sürünüb sığındıqları kolluqların altından çıxdı və qalxıb əyilə-əyilə bir qədər

arxadakı yaralıları sıra ilə düzdükləri yerə tərəf götürüldü. Yaralıların sayı az deyildi. Düşmənin nəzarəti altında olan bu ərazidən yaralıları təxliyə qrupuna çatdırmaq asan görünmürdü. Bəziləri qızdırmadan yandığı üçün, bəziləri dayanmadan qan itirdiyindən zarıyır, bəziləri də ağrıdan sayıqlayırdı. Tabor komandiri mayor Hacı Rəhimov da daxil olmaqla huşunu itirənlər az deyildi. Kapitan Mikayılov bir-bir yaralıları yoxlayıb: "Şükür, yaralılardan şəhid olanımız yoxdur!" – deyə pıçıltı ilə özünə təsəlli verdi. Sonra yanlarında yerə çöküb astadan, amma hamının eşidə biləcəyi səslə soruşdu:

– İndi məni diqqətlə dinləyim, aslanlarım! Hal-hazırda biz düşmənin görə bildiyi, hərəkətlərimizə kamera vasitəsilə nəzarət edə bildiyi ərazidəyik. Buradan nə qədər tez uzaqlaşsaq, o qədər yaxşı olar. Kapitan Hüseynov indi bizim burdan təhlükəsiz çıxmağımız üçün bir neçə döyüşçü ilə pusquda duraraq şərait yaratmağa çalışır. İndi aranızda yardım edilmədən özü yeriyə bilən kim varsa, vahiməyə düşmədən, tələsmədən ayağa qalxsın. – Bölük komandiri sözünü bitirər-bitirməz yaralıların əksəriyyəti ayağa qalxmağa çalışdı. Kapitan Mikayılov ağır yaralıların da qalxmağa çalışdığını görüb: – Siz özünüzə əziyyət verməyin, uşaqlar, kim özü yeriməkdə çətinlik çəkirsə, yerindən qalxmasın. Biz yüngül yaralıları təyin olunmuş yerə çatdırıb sizi aparmaq üçün dərhal da geri qayıdacağıq...

Qolundan, çiynindən, belindən və sair nahiyələrindən yara almış on altı əsgər kapitan Mikayılovun ardınca gəldikləri istiqamətdə, meşənin dərinliyinə doğru hərəkətə başladı. Təxminən beş-altı yüz metr getdikdən, atəş nöqtə-

sindən uzaqlaşdıqdan sonra bölük komandiri gedəcəkləri istiqaməti yaralı əsgərlərə izah edib geri qayıtdı. Bu zaman qarşıdakı qayalıqlardan qalxan duman düşmənlə aralarına boz rəngli pərdə çəkməklə həmlə qrupunun düşmənin hədəfindən yayınması üçün şərait yaratdı. Tabor komandiri kapitan Hüseynov tutduğu mövqeni tərk edib, dərhal ağır yaralıların yanına gəldi. Komandirlərinin səssiz işarəsini anlayan taborun şəxsi heyəti özlərini tələsik yaralı yoldaşlarına yetirib, onların vəziyyəti ilə maraqlanmağa başladılar. Kapitan Hüseynov:

– Yubanmaq olmaz, uşaqlar, yaralıları tez təxliyə qrupuna çatdırmaq lazımdır! Götürün! – deyə özü də avtomatını yerə qoyub, yaralıları bir-bir yoldaşlarının çiyinlərinə qaldırmağa kömək etdi.

Komandirlər də daxil olmaqla köməkləşib, ağır yaralıları çiyinlərinə qaldırdılar. Hərəkətə başlamazdan qabaq kapitan Mikayılov:

– Komandir, kamera!... – deyə başının işarəsi ilə arxanı göstərdi.

Kapitan Hüseynov:

– Elbrus, tez həll elə və özünü bizə çatdır! – deyə yaralı əsgəri çiynində rahatlayıb, meşənin dərinliyinə doğru yeridi. Kapitan Mikayılov gəldikləri istiqamətdə bir neçə metr geri qaçıb, ayaq üstdəcə avtomatını çiyninə dayadı. Dumanın kamera bərkidilmiş dirəyi görməyə mane olmasına baxmayaraq, səbrlə gözləyib kameranı dəqiq nişan aldı və atəş açdı. Kamera yerindən qopub getdikcə qatılaşan dumanın içərisinə sıçradı. Atəş qarşıdakı dağlarda əks-səda verdi. Düşmən güllə açılan istiqaməti atəşə tutunca, kapitan Mikayılov yetirib özünü döyüş yoldaşlarına çatdırdı.

Tabor meşənin dərinliyinə çəkilən zaman hərbi hissə komandiri polkovnik Nizami Mövlanov kapitan Hüseynovla əlaqə saxlayıb, yaralıları geri aparmaq üçün təxliyə qrupunun artıq yolda olduğunu bildirdi, yaralıları təyin olunmuş yerdə saxlayaraq, dərhal Şüşakənd istiqamətindən Şuşaya doğru hərəkət etmələri barədə tapşırıq verdi.

## Şuşanın qapıları önündə

Hərbi hissə rəhbərliyinin kömək üçün göndərdiyi kəşfiyyat bölüyünün 15 nəfərdən ibarət şəxsi heyəti təyin olunmuş yerdə tabora qoşuldu. Təxminən gecə saat bir radələrində tabor komandiri dayanmaq əmri verdi. Bu əmri gözləyirmişlər kimi hamı silah-sursatla dolu ağır çiyin çantalarını və silahlarını yerə qoyub dərindən nəfəs aldı. Hamının paltarları nəmdən, çiskindən tamam islanmışdı, tər bədənlərindən bulaq kimi sızır, damlalar alınlarından puçur-puçur gilələnirdi. Payız gecəsinin dağ havası ağızdan çıxan nəfəsi belə qapıb anındaca qırova çevirməkdə, yamyaş paltarları dondurmaqda, əsgərlərin isti bədənlərinin hərarətini soyuğun girovuna çevirməkdə idi. Buna baxmayaraq, bir an keçmədi ki, yorulub əldən düşmüş əsgərlərin əksəriyyəti çiyin çantalarına söykənib, dərin yuxuya getdi.

Kapitan Hüseynov dizləri üstə çöküb, qarşıda qaranlıqdan güclə sezilən Şuşa qalasının möhtəşəm siluetinə boylandı. Kapitan Mikayılov şəxsi heyəti tez gözəyarı yoxlayıb, tabor komandirinə yaxınlaşdı. Qarşıda Şuşakənd kəndi, sol tərəfdə və bir qədər arxada möhtəşəm Şuşa şəhəri,

sağ tərəflərində isə Xankəndi şəhəri yerləşirdi. Kapitan Hüseynov ərazi haqqında xəritə üzrə qısa məlumat verib tapşırığın müzakirəsinə keçdi:

– Qarşıda iki yüksəklik, düşmənin möhkəmlənmiş, yaxşı təchiz olunmuş iki mövqeyi – 1211 və 1214 nömrəliyüksəklikləri yerləşir, – deyə əli ilə düşmən mövqelərinə işarə etdi: – Biz bu gün nəyin bahasına olursa-olsun bu yüksəklikləri götürməli, düşmənin Xankəndi ilə əlaqəsini kəsməli və Xankəndidən Şuşaya gələn yolu nəzarət altında saxlamalıyıq. Eyni zamanda, düşmənin diqqətini üzərimizə cəlb etməklə xüsusi təyinatlılarımızın Daşaltı, Laçın yolu, Muxtarkənd, Şuşa Qalası və digər tərəflərdən Şuşaya girmələrinə şərait yaratmalıyıq. Hərbi hissə komandirinin verdiyi məlumata görə, müxtəlif istiqamətlərdən Şuşaya yaxınlaşan xüsusi təyinatlılarımız artıq qalanın bir addımlığındadır və şəhərə girmək üçün əmr gözləyir. – Tabor komandiri tələsmədən, hər cümləsini uzadaraq, hər sözünü vurğu ilə söyləməklə zabitlərə tapşırığın vacibliyini dərk etdirməyə, məsuliyyətini anlatmağa çalışırdı: – Bizim üzərimizə çox böyük məsuliyyət düşür, uşaqlar. İstəyirəm ki, bu məsuliyyəti dərindən başa düşəsiniz. Bu, bizim üçün taleyüklü məsələ, şərəf, namus, qeyrət məsələsidir. Bu əmr hətta hər birimizin şəhadəti bahasına da olsa belə, yerinə yetirilməlidir!

Komandir sözünə ara verib, zabit yoldaşlarının bir-bir qaranlıqda par-par parıldayan gözlərinə diqqət yetirdi. Sanki əl atsan tuta biləcək qədər yaxın Şuşa Qalasının şövqündən alışıb yanan zabitlər başlarını endirib qaldır-

maqla hər şeyi göz önünə aldıqlarını, hər şeyə hazır olduqlarını bildirdilər.

– Komandir, 1214 irəlidə və daha yüksəklikdə, 1211-ə nisbətən düşmənin arxadakı möhkəmlənmiş mövqelərinə daha yaxın ərazidə yerləşir. – Bölük komandiri kapitan Mikayılov müdaxilə etdi. Əlini həmin yüksəkliklərə doğru uzadaraq sanki xəritə üzərində işləyirmiş kimi izahat verməyə çalışdı: – Məncə biz 1214-ü götürməklə həm 1211-ə, həm də tapşırıq üzrə nəzərdə tutulmuş digər ərazilərə də nəzarət imkanı əldə edəcəyik.

Kapitan Hüseynov bir söz demədən diqqətlə ərazini nəzərdən keçirməyə başladı. Susub bir xeyli düşündü, əlində tutduğu ağac parçası ilə nəm torpağın üzərində ərazinin xəritəsini cızdı. Öz-özünə danışırmış kimi yüksəkliklərlə yerləşdikləri ərazi arasındakı məsafəni və keçəcəkləri maneələri hesabladı. Razılıqla başını yelləyərək üzünü kapitan Mikayılova tutdu:

– Doğrudur, kapitan, əgər hər hansı sürprizlə, yaxud düşmənin hər hansı qəfil hiyləsiylə qarşılaşmasaq, 1214-ə tərəf hərəkət etməyimiz daha münasibdir. – Komandir mundirinin islanmış qolunu biləyinin üstündən azca geri itələyib, saatının qaranlıqda səbrlə irəliləyən fosforlu əqrəblərinə baxdı. Birə on üç dəqiqə qalırdı. Artıq on dörd dəqiqəyə yaxın idi əsgərlər istirahət edirdi: – Qaldır uşaqları!

Kapitan Mikayılov yerindən qalxmadan dizlərini torpaqdan ayırdı. Çömbəlmə oturub palçığa bulaşmış dizlərini təmizlədi. Başının işarəsi ilə zabitlərə hərəkətə keçməyin vaxtı olduğunu bildirdi. Üç dəqiqədən sonra artıq

tabor döyüşə hazır vəziyyətdə komandir Ülvi Hüseynovun arxasınca 1214 nömrəli yüksəkliyə doğru hərəkətə başladı. Duman qarışıq qaranlıqda ehtiyatla irəliləyən kapitan Hüseynov tez-tez dayanıb ətrafı diqqətlə dinşəyir, hər hansı təhlükənin olmadığına əminlikdən sonra inamla yüksəkliyə doğru qalxırdı. Hardasa uzaqlarda müxtəlif çaplı silahlardan açılan atəş səsləri eşidilir, amma bu, komandirin ətrafı nəzarətdə saxlamasına mane olmurdu. Yalnız yaxın ətrafındakı səssizlik tabor komandirini narahat edir, bu sakitliyin düşmənin hiyləsi ilə nəticələnəcəyindən ehtiyatlanırdı.

Əsgərlər bir-birinin çiyninə toxunmaqla aralanmamağa çalışır, aralarındakı məsafəni qorumaqla irəliləyirdilər. Ayaqları altındakı yaş torpaq tez-tez sürüşür, yoldaşlarının harası gəldi qamarlamaqla müvazinətlərini qoruyurdular. Dan yeri sökülməmiş 1214 nömrəli yüksəkliyə qalxdılar. Zirvə sakit və təhlükəsiz görünürdü. Amma bu sakitliyin içərisindəki hiylə xofu komandiri gecikmədən təhlükəsizlik tədbirləri görməyə məcbur edirdi. Artıq zəif də olsa, ətraf sezilməyə başlamışdı. Kapitan Hüseynov dərhal mövqe tutub səngər qazmağı əmr etdi. Taborda yalnız bir bel olduğu üçün hamı avtomat süngüsü ilə özünə sığınacaq qazmağa başladı. Qəfil yağış səpdi. İri damcıların yerə çırpılarkən yaratdığı səda ətrafın sükutunu pozdu. Ara-sıra gurlayan silah səslərindən və avtomat süngülərinin torpağa sancılarkən yaratdığı küydən başqa heç bir səs duymayan tabor komandiri plaş-palatkanı başından endirib ətrafı diqqətlə dinləməyə başladı. Və qəfil baş barmağını dodaqlarının üstünə qoyaraq sol əlini əsgərlərinə sarı uzatdı:

– Suss! – deyə əlinin hərəkəti ilə hamının yerə çökməsini əmr etdi.

Mərmi qarşılarında partladı. Hamı yerə sərildi. Ardınca müxtəlif çaplı silahlardan açılan atəş taborun yerləşdiyi mövqeni və bütün ətrafı dayanmadan mərmiyə tutdu. Eyni anda da yaxın məsafədən açılan avtomat və pulemyotların gülləleri ətraflarından, başlarının üstündən uçuşmağa, ani bir tappıltı ilə yanlarında torpağa sancılmağa başladı. Tabor yaxın məsafədən piyadalar vasitəsilə kiçik çaplı, uzaq məsafədən isə artilleriya atəşinə tutulmuşdu. Demək, tabor düşmən tərəfindən addım-addım izlənmiş, qurtulmaq üçün heç bir çıxış yolu olmayan münasib mövqeyə yetişən və kifayət qədər görüntü verən məqamda atəşə tutulmuşdu.

İlk güllə hələ uzanmağa macal tapmayan əsgərləri yaxaladı. Taborun rabitəçisi əsgər Səmidov aldığı avtomat gülləsindən yerindəcə şəhid oldu. Tabora yeni qoşulmuş kəşfiyyat taqımının əsgərlərindən dördü mövqelənməyə imkan tapmadan can verdi. Şəhid olanlar sanki öz ölümləri ilə digər əsgərlərə sipər olur, onları gülləden qoruyurdu. Kapitan Hüseynov yaxın məsafədə yerləşmiş düşmən mövqelərini təyin edib dərhal əks atəşə başladı. Bağıraraq əsgərlərinə düşmən mövqeyini nişan almağı əmr etdi.

Kapitan Mikayılov avtomatının lüləsini qarşısına yığdığı yaş torpağın üzərinə qoyub atəşə qoşuldu. Əsgər İbişov sürünüb bölük komandirinin yanına gəldi. Amma atəşə qoşulmağa macal tapmamış aldığı güllə yarasından komandirin üstünə yıxıldı. Cəld də qalxıb mövqeləndi. Güllə çiynindən dəymişdi. Amma ağır deyildi. Kapitan

Mikayılov əsgərinin qanının dayanmadan axdığını görüb:

– İbişov, sən olmasaydın, güllə mənim belimə girəcəkdi, xəbərin vaaar? – deyə güllə yağışı altında yarızarafat, yarıgerçək onu sakitləşdirməyə çalışdı: – Həyatımı xilas etdin, İbişov! – uzandıqları yerdən bir qədər yuxarıda olan sanitar çantasını göstərib, özü-özünə ilk tibbi yardım göstərmək üçün ora sürünməyi əmr etdi: – Mən sənə atəş dəstəyi verəcəm, İbişov, qorxma.

– Boş şeydir, komandir, təki tapşırığı yerinə yetirək, təki burdan sağ-salamat çıxa bilək, hamısı düzələr, İn Şə Allah! – İbişov komandirinin göstərdiyi istiqamətdə sürünməyə başladı. Amma sanitar çantasına yetişmədən qarşısında partlayan artilleriya mərmisi yaralı əsgəri havaya qaldırdı...

***

Səhər tam açılmışdı, havanın çiskinli olmasına, arabir yağış səpməsinə baxmayaraq, günəş hərdən buludların arasından boy verib tez də yoxa çıxırdı. Tez-tez üstlərinə qatı duman axın edir, qılınc kimi sıyrılıb qarşıdakı Şuşa dağlarına, qayalara dırmanırdı. Tabor üstündən ötən ani duman karvanından bacardıqca istifadə etməyə çalışır, mövqeyini möhkəmləndirir, yerini dəyişdirir, səngərlərin qazılmasına davam edirdi. Ətraf tam aydın görünəndə taborun bütün heyəti artıq dörd bir yandan mühasirədə olduğunu anladı. Düşmən ətraflarını sarmış, əllərində olan bütün silah növlərindən istifadə etməklə taboru ardıcıl atəş altında saxlamağa çalışırdı. Artıq bir neçə düşmən tankı da əraziyə yaxınlaşmış, taborun mövqe tutduğu yüksəkliyi müəyyən fasilələrlə atəşə tuturdu. Müdafiə taborunun əsgərlərinin

taleyi və ömrü düşmənin ara verdiyi fasilələrdən asılı idi. Fasilələrin bitməsi, daha bir şəhid, daha bir ömrün sona yetməsi demək idi. Fasilələr isə bir udum nəfəs, "sağsanmı hələ" deyə tez-tez bir-birinə verdikləri sual, daha uzun olduqda isə bir-birinə ötürməklə acgözlüklə ciyərlərinə çəkdikləri bir qullab siqaret tüstüsü idi. Bu da hər fasilədə yalnız iki, yaxud üç əsgərə qismət olurdu...

Əsgər Sahib Şirəliyev işartısını düşmən görməsin deyə ovcunda gizlədiyi siqaretdən bir qullab alıb yanında torpağa qısılmış döyüş yoldaşına uzatdı. Əsgər tüstünü hələ ciyərlərinə çəkməyə macal tapmamış döyüş yoldaşı Əlislam Cabbarovun siqareti ondan almaq üçün uzatdığı əlini gözləri qarşısında gördü. Amma siqareti onun əlindən döyüş yoldaşı yox, düşmən mərmisi aldı. Əsgərin boynundan üzülmüş başı qarşıya, kürəyi isə arxası üstə torpağa düşdü.

Şəhid əsgərə yapışıq şəkildə sol tərəfində mövqe tutmuş bölük komandiri kapitan Mikayılov cəld yerindən sıçrayıb yerini dəyişdi. Amma ikinci mərminin zərbindən qurtula bilmədi. İkinci mərmi kapitan Mikayılovun atıldığı xəndəyin qarşısında düşərək, bölük komandirini torpaqqarışıq havaya qaldırdı. Xeyli kənarda yerə çırpılan kapitan bir neçə dəqiqə yerindəcə hərəkətsiz qaldı. Başını silkələyib yerində dikəldi. Ayaqlarını dartıb torpağın altından çıxartdı. Avtomatının qundağını ayaq tərəfində dik, lüləsi torpağa sancılmış gördü. Özünü toparlayıb avtomatına tərəf dartındı. Qundağına dayaqlanıb ayağa qalxdı. Heç nə eşitmir, heç nə duymurdu. Avtomatın qundağını sinəsinə sıxaraq irəli, yüksəkliyə tərəf yeridi.

Bölük komandirinin aldığı zərbədən anlaqsız vəziyyətdə olduğunu görən taqım komandiri baş leytenant Kamran Həmidov:

– Hara, komandir?! – deyə yetirib, onu arxadan qucaqladı və onunla bərabər xəndəyə atıldı: – O tərəf ermənilərdi, komandir! – deyə uzandıqları yerdə bağıraraq bölük komandirinə xatırlatmağa çalışdı.

Kapitan dartınıb yenidən dikəldi. Var qüvvəsi ilə qulaqlarını sıxıb beynini deşən uğultunu kəsməyə, ağrıdan az qala partlayacaq başını ovundurmağa çalışdı. Başları üstündən uçan düşmən gülləsinə tuş gəlməsin deyə baş leytenant dartıb yenidən bölük komandirini yerə uzandırdı...

## "Biz mühasirədəyik!"

Duman cərgəyə düzülmüş dəvə karvanı kimi əlçim-əlçim qarşılarından ötdü. Fürsətdən istifadə edən tabor komandiri kapitan Hüseynov şəhid və yaralılar haqqında məlumat almaq üçün cəld aşağı diyirləndi. Şəxsi heyətin sayı xeyli azalmış, saya bilmədikləri qədər şəhid, çoxlu sayda ilkin tibbi yardıma ehtiyacı olan, amma heç bir yardım göstərə bilmədikləri yaralı diqqətini cəlb etdi. Yaralılar uzandıqları yerdə anlaqsız vəziyyətdə zarıyır, dayanmadan qan itirir, qan itirdikcə göyərən əzaları soyuqdan tir-tir titrəyir, diş-dişə vururdular.

Kapitan Mikayılov hələ də özünə gələ bilməmişdi. Tabor komandiri qarşısında oturub onu dindirməyə, vəziyyətini öyrənməyə çalışdı. Qulaqlarını sıxdığı əllərinin üstündən qamarlayıb, başını yuxarı qaldırdı. Torpaqqarışıq

qanla dolmuş, sanki dərin bir quyunun dibindən boylanan gözləri gah ürək kimi çırpınır, gah da boğulmaqda olan insanın gözləri kimi böyüyüb bərəlirdi, sanki az qala hədəqəsindən çıxacaqdı. Bilə-bilə ki içində suyu qalmayıb, kapitan Hüseynov qumqumanı qaldırıb yoxladı. Boş olduğunu görüncə yamyaş paltarının cibindən çıxardığı yaş dəsmalı ilə bölük komandirinin sifətini sildi, torpaqla dolmuş gözlərini təmizləməyə çalışdı. Yaş dəsmalın soyuq təmasını sifətində duyan bölük komandiri sanki diksinib özünə gəldi. Tabor komandiri onu arxası üstə yerə uzadıb, bir qədər də özünə gəlməsini gözlədi.

Kapitan Mikayılov kəllə-beyin travması almış, tank mərmisinin qəlpələri dizini parçalamış, burnunu sıyırıb keçmişdi. Amma kapitan yaralarını hələ hiss etmir, yalnız başının ağrısından və qulaqlarındakı deşici, aravermədən uğuldayan küydən əziyyət çəkirdi... Kapitan Hüseynov ətrafı, düşmən mövqelərini, geri qayıtmaq üçün yolları, yaralı və şəhidləri bir daha diqqətlə müşahidə edib bölük komandirinin yanına qayıtdı. Kapitan Mikayılov artıq sakitləşmiş, ayağının yarasını bağlamaqla məşğul idi. Tabor komandiri üzbəüz oturub, gözlərini onun qanı axmaqda olan dizindən ayırmadan soruşdu:

– Yeriyə biləcəksənmi, Elbrus?

– Yeriyərəm, Ülvi! – bölük komandiri də rəsmiyyətsiz cavab verdi.

– Lap yaxşı, – kapitan Hüseynov gözləri ilə ətrafı nəzərdən keçirərək: – Nə qədər ki imkan var, şəhid və yaralıları da götürüb dərhal aşağı enir, ordan da hərbi hissəyə yollanırsınız! – tapşırıq verdi.

Belə bir əmri gözləmirmiş kimi kapitan Mikayılov ani duruxdu. Təəccüblə tabor komandirinin sifətinə baxıb:

– Nə danışırsız, komandir? Belə bir vəziyyətdə mənim döyüşü tərk etməyimi istəyirsiz!? – açıqca duyulan təlaş və narazılıqla soruşdu.

– Bu bir əmrdir, kapitan. Yaralılarımız çoxdur. Hər dəqiqəmiz bir əsgər taleyi deməkdir. Burda durduqca şəhidlərin sayı artmaqda davam edir. Dayanmadan şəhid və yaralıları götürüb aşağı enin! Mən hərbi hissə rəhbərliyindən yardım istəyəcəm!...

Şəhidlərin sayı doğrudan da artmış, axşamdan ağır yaralı olan bəzi əsgərlər də can savaşında ruhlarını təslim etmişdilər. Kapitan Mikayılov yaş torpağın üstündə uzanıb, zarıyan yaralı yoldaşlarının solmaqda olan çöhrələrinə diqqət yetirdi. Onların bəziləri ümidsiz gözlərini səmaya zilləyib Allahdan kömək diləyir, bəziləri qan itirməkdən sayıqlayır, bəziləri soyuqda hərarətdən alov kimi yanır, soyuq tər alınlarından puçurlanırdı. Rəngləri solmuş, gözləri çuxura düşmüş yaralılar yardım diləyirdi. Amma nə kömək edə biləcək bir həkimləri var idi, nə də tibbi ləvazimatları qalmışdı. Danılmaz fakt və komandir əmri qarşısında kapitan Mikayılovun razılaşmaqdan başqa yolu qalmadı. Nə qədər ki, hava şəraiti, qatı duman imkan verir, toparlanıb dərhal aşağı enməliydilər.

Oturduqları yerdəcə qucaqlaşdılar. Qoşa əlləri ilə bölük komandirinin belini sığallayıb, tappıltı ilə onun kürəyinə vurdu:

– Əlvida, Elbrus, özünü qoru, qardaş, çalış uşaqları vaxtında, sağ-salamat hissəyə çatdırasan! – deyə tabor ko-

mandirinin xırıltılı səslə verdiyi son tapşırıq da əmr kimi səsləndi.

– Hələlik, komandir, siz də özünüzü qoruyun, qardaş. İnşaAllah, tezliklə görüşərik!

Könülsüzcəsinə ayrılıb az qala bəbəklərində döyünən qəlbinin titrəyişini kapitan Hüseynovdan gizləməyə çalışdı. Yaralıların köməkliyi ilə şəhidləri də götürüb ayağını sürüyə-sürüyə arxa cəbhə istiqamətində hərəkətə başladı. Kapitan Hüseynov döyüş yoldaşlarını çiskin və duman içində gözdən yox olana qədər kədər və nigarançılıq yüklənmiş təbəssümlü baxışlarla yola saldı. Gözlərini dostlarının getdiyi istiqamətdəki məchul nöqtədən ayırmadan hərbi hissə komandiri polkovnik Nizami Mövlanovla rabitə əlaqəsinə girdi. Amma danışmağa macal tapmamış təxminən beş-altı metr arxada partlayan artilleriya mərmisi qaldırdığı torpaq qatını yerləşdikləri mövqeyin üzərinə ələdi.

Tabor komandiri partlayışın səsindən çox, “Vay, sizin ananızı!...” – deyə bağıra-bağıra ermənilərin ünvanına söyüş yağdıran əsgər Eşqin Əliyevin səsindən diksindi. Əsgər axşamdan haradansa tapıb, balaca bir çala qazmaqla içinə yerləşdirdiyi polietilen örtüyün torpaqla dolmasından qəzəblənmişdi. Susuzluqdan ciyərləri yanan əsgərlər ümidlə həmin çuxurun yağış yağarkən, yaxud çiskinin yaratdığı nəmişlikdən suyla dolacağını gözləyirdilər.

Tabor komandiri vəziyyətlə bağlı hərbi hissə komandirinə məlumat verdi. Şəhid və yaralıların getdiyi istiqaməti xüsusi kodlarla bildirib, onları qarşılamaq üçün təxliyə qrupunu göndərməyi xahiş etdi. Sözünü bitirməmiş əlaqə

kəsildi. Düşmən yenidən artilleriya hücumuna başlamışdı. Demək olar ki, yerləşdikləri dəqiqələrdən qazmağa başladıqları yarımçıq səngərlərin hamısı alt-üst olmuş, müxtəlif iri çaplı silahlardan atılmış mərmilərin qaldırdığı torpaq bütün çuxurları doldurmuşdu. Bütün azuqələri tükənmiş, əsgərlər artıq ikinci gün idi ki, aclıq və susuzluqdan əziyyət çəkirdilər.

Tabor komandiri heyətdə olan yeganə beli götürüb, yerləşdikləri mövqedən iki-üç metr yuxarıya doğru, düşmən mövqeləri istiqamətindəki təpəyə süründü. Əvvəlcə ətrafı diqqətlə müşahidə etdi, sonra hərbi təyinatlı beli qatlayıb külüng vəziyyətinə gətirdi. Və uzandığı yerdəcə yenidən səngər qazmağa başladı... Duman, çiskin xeyli çəkilmiş, ətraf aydın sezilirdi. Kapitan Hüseynov yerləşə bildiyi ölçüdə səngər qazan kimi, içində uzanıb qarşı tərəfə yığdığı torpağın arxasından ehtiyatla irəli boylandı. Gəldikləri gündən ilk dəfə idi ki, ətrafı aydın görə bilirdi.

Yerləşdikləri ərazi, – dərənin qalxıb təpəlikdə bitdiyi mövqe təxminən əlli metr diametri olan, çəpinə dayanmış bir piyaləyə bənzəyirdi. Piyalə, demək olar ki, hər yandan düşmən tərəfindən mühasirəyə alınmış, ətraflarına lüləsi onlara tuşlanmış bir neçə tank yerləşdirilmişdi. Tanklar onlara yaxın olduğundan atdığı mərmilər təxminən yeddi-on metr ətrafda düşüb partlayır, yalnız qaldırdığı torpaq başlarına tökülür, qəlpələr üstlərindən uçurdu. Uzaq məsafədən atılan artilleriya atəşi daha dəqiq olduğu üçün nəfəslərini belə dərməyə imkan vermir, yaxın ətraflarından yağdırılan avtomat və pulemyot gülləri qulaqlarının dibində vıyıldayırdı.

Hər tərəfdən mühasirədə olduqları yalnız indi komandirə bəlli oldu. Aşağı – arxa tərəf istiqamətində uzanıb gedən dərənin içiylə düşmək olardı, amma dərənin bitdiyi yerdən çıxmaq yalnız duman və çiskinin ətrafı görünməz etdiyi zaman mümkün idi. Mühasirəyə düşmüş taborun əsgərləri bu yoldan istifadə etməyi xəyallarına belə gətirmir, yalnız irəli, nəyin bahasına olursa-olsun, ya qarşıda onları gözləyən əsir düşmüş Şuşa qalasına gedəcəkləri, ya da şəhid olacaqları barədə düşünürdülər.

Kapitan Hüseynov yarımçıq qazdığı səngərdən çıxıb bir qədər aşağıda mövqelənmiş, ara-sıra yerlərindən sıçrayaraq düşmən mövqelərini atəşə tutub geri çəkilən əsgərlərin yanına süründü. Komandirin gəldiyini görən əsgərlər gözlərini düşmən mövqeyindən ayırmadan kapitan Hüseynova qulaq kəsildilər:

– Biz mühasirədəyik, uşaqlar, düşmən bizi hər tərəfdən hədəfə alıb. Yeməyimiz qurtarıb, sursatımız bitmək üzrədir. Hər an şəhid ola bilərik. Amma burdan sağ çıxmaq da mümkündür. Gördüyünüz bu yol, – şəhadət barmağı ilə dərə içi aşağı enən cığırı göstərdi, – sizi ölümdən qurtara bilər. Getmək istəyən varsa, dərəni aşağı enib, bir qədər gözləmək, duman gələn kimi dərədən çıxıb əkin sahəsini keçmək, özünü Hadrut istiqamətindəki hissələrimizə çatdırmaqla xilas ola bilər.

Susdu, avtomatların qundağını sinələrinə sıxaraq, gözlərini düşmən mövqeyinə zilləmiş əsgərlərə diqqətlə göz yetirdi. Əsgərlər ani olaraq nəzərlərini fokuslanmış bölgədən ayırıb əvvəlcə komandirə, sonra bir-birinə baxdılar. Hamısı bir anda:

– Komandir! – deyib dərhal da susdu.

Təəccüblərini əsgər Qorxmaz Hüseynov söylədi:

– Hara, komandir? Bizim yolumuz o tərəfədir, o tərəfə! – barmağı ilə Şuşa qalasını, orda durub torpaq sahiblərini atəşə tutan düşmən mövqelərini göstərdi.

– Komandir, – əsgər Cahid Yaqubov susuzluqdan qurumuş boğazını arıtlayıb, – atam məni müharibəyə yola salanda "get, tezliklə mən də sənin yanında olacam", – dedi. Mənsə, "sənə ehtiyac qalmayacaq, ata, özüm həll edib, qayıdacam, İnşaAllah", dedim. Mənim atam da, əmim də öz borclarını Birinci Qarabağ müharibəsində yerinə yetiriblər, komandir. İndi növbə bizimdir. Mənim əmim oğlu xüsusi təyinatlıların baş leytenantı Əliqismət Yaqublu da ön cəbhədə döyüşür, bəlkə, tanıyasız. Mənim geriyə yolum yoxdur, komandir!

Kapitan Hüseynov əsgərlərinin bir-bir susuzluqdan və aclıqdan öləzimiş, amma intiqam alovu ilə yanan, geri çəkilmək fikrini bir an belə yaxın buraxmayan inadkar gözlərinin içinə baxdı. Məmnunluqla başını yelləyib, xəfifcə gülümsədi:

– Sağ olun, uşaqlar, sağ olun, aslanlarım! Mən belə də bilirdim! – Minaatan mərmisinin qaldırdığı torpaq sifətinə çırpılaraq təbəssümünü gözlərində dondurdu: – İgidlərim, bu bizim son döyüşümüz olacaq! – azacıq dikəlib ucadan söylədi: – Bu döyüşdən biz mərd çıxmalıyıq! Ya qalib olmalıyıq, ya Şəhid! Ya qalib olmalıyıq, ya Qazi! Ya qalib olmalıyıq, ya da Qalib olmalıyıq!... – Yenidən əvvəlki mövqeyinə, yarımçıq qazdığı səngərə doğru süründü. Çataçatda qanrılıb: – Güllənizə qənaət edin! – deyə tapşı-

rıq verdi: – Bir-bir qalxıb səngəri genişləndirməkdə mənə kömək edəcəksiniz. – Cəld atılıb səngərin içinə düşdü. Uzandığı yerdəcə səngəri genişləndirməyə başladı...

## Son ümid

Mühasirənin ikinci günü tabor komandiri kapitan Hüseynov onları mühasirədən çıxarmaq üçün bölük göndərildiyini bildirdi, amma çox keçmədi ki, onlara dəstək üçün tələsən birinci bölüyün şəxsi heyəti də yaxınlıqdakı əkin sahəsində mühasirəyə düşdü. Şuşanı alınmaz qala hesab edən və bütün imkanlarından istifadə edərək şəhərin azad olunmasının qarşısını almağa çalışan düşmən Şuşakənd tərəfdən irəliləyən əks-həmlə taborunun və ona yardıma tələsən birinci bölüyün hücumunu dəf etmək üçün həmin istiqamətdə çoxlu sayda qüvvə toplamışdı. Əslində, hücum planının birinci hissəsi baş tutmuş, düşmən aldadılmış, xüsusi təyinatlıların Daşaltı, Muxtarkənd, Şuşa Qalası və digər tərəflərdən Şuşaya qalxması üçün ilkin şərait yaradılmış, amma Xankəndi və Kəlbəcər tərəfdən gələ biləcək köməyin qarşısı hələ lazımınca alınmamışdı. Laçın yolu da artıq xüsusi təyinatlılarımız tərəfdən nəzarətə götürülmüş, düşmən getdikcə boğulmaqda, çəmbər anbaan daralmaqda idi.

Nəfəsi kəsilmək üzrə olan düşmən Şuşaya Xankəndi tərəfdən kömək göstərməyə daha çox üstünlük verir, ordumuzun bu istiqamətdən irəliləməsinin qarşısını almaq üçün bütün vasitələrə əl atırdı.

Düşmənin bütün gedişlərini ciddi nəzarətdə saxlayan hərbi hissə komandiri polkovnik Nizami Mövlanov qərargah rəisi polkovnik-leytenant Fariz Rüstəmovla radio vasitəsilə əlaqə yaratdı:

– Polkovnik, xüsusi təyinatlılarımız artıq Şuşanın bir neçə kilometrliyindədir. Bizim hərbi hissəmiz addımba-addım xüsusi təyinatlılara dəstək verərək Şuşa şəhərinin yaxınlığında yerləşən Şuşakəndə qədər gedib çıxa biliblər. Şuşa ordumuz tərəfindən mühasirəyə alınmaqdadır. Amma kapitan Hüseynovun taboru Şuşa şəhərinin girəcəyində, 1214 nömrəli yüksəklikdə mühasirəyə düşüb. Yardıma göndərdiyimiz bölük təyin olunmuş yerə iki kilometr qalmış özü də düşmən hücumuna məruz qalaraq irəliləyə bilmir. Kifayət qədər şəxsi heyət, kifayət qədər silah-sursat və ərzaq təminatı ilə tam hazırlıqlı şəkildə kapitan Hüseynovun yanına tələsin. Unutmayın, kapitan Hüseynovun rəhbərlik etdiyi taborun fəaliyyəti Şuşa əməliyyatının əsas planına daxildir. Cənab Ali Baş Komandan Şuşa şəhərinin tez bir zamanda düşmən işğalından azad edilməsini əsas vəzifə kimi qarşımıza qoyub. Müharibənin taleyi cənab Ali Baş Komandanın tapşırıqlarını tez və qüsursuz yerinə yetirməkdən asılıdır. Dərhal hərəkətə keçin! Dayanmadan yola çıxın, tez-tez mənimlə əlaqə saxlayın!

– Oldu, cənab polkovnik!

...Doxsan nəfərdən ibarət şəxsi heyətin döyüş tapşırığını yerinə yetirmək üçün hazır olduğu haqqında məlumat verilən kimi hərbi hissənin qərargah rəisi polkovnik-leytenant Fariz Rüstəmov sıranın qarşısına çıxdı. Bu tapşırığı yerinə yetirən zaman ideoloji iş və mənəvi-siyasi məsələlər

üzrə briqada komandirinin müavini mayor Valeh Mustafayev də onu müşayiət edəcəkdi. Bölük komandiri kapitan Cavad Məmmədov şəxsi heyətin sıraya düzülməsi haqqında polkovnik-leytenanta məruzə etdi. Bu zaman təchizat üzrə müddətdən artıq xidmət edən ("MAXE") Azər İbrahimov qərargah rəisinin ardınca hərbi hissədən çıxaraq sıraya doğru addımlayan mayor Valeh Mustafayevə yaxınlaşıb, əlindəki bağlamanı ona uzatdı:

– Cənab mayor, bir ana bu bağlamanı yolda bizə verib, əsgərlərimizə çatdırmağımızı xahiş elədi. İçində yemək olmalıdır. Götürün, yolda lazımınız olar.

– Sağ olsun, sən də sağ ol, – deyə mayor Mustafayev bağlamanı alıb, əsgər daşıyan maşının kabinəsinə qoydu.

Polkovnik-leytenant tapşırıq haqqında əsgər və zabitlərə məlumat verib, "maşınlara" – deyə əmr elədi. Əsgərlər maşınlara yerləşincə özü də "Ural"ın qapısından tutaraq pilləsi üzərinə dırmandı. Əsgərlər maşınlara minənə qədər gözlədi. Şəxsi heyət ard-arda düzülən əsgər maşınlarında tam yerbəyer olandan sonra kabinəyə daxil olub, "İrəli" – deyə sürücüyə göstəriş verdi.

Maşın yerindən tərpənməmiş mayor Mustafayev özünü yetirib, "Maxe"nin gətirdiyi bağlamanı polkovnik-leytenanta uzatdı:

– Cənab polkovnik-leytenant, xahiş edirəm yol boyu bu məktubla tanış olasınız.

Cəld də qayıdıb polkovnik-leytenantın arxasınca hərəkət edəcək, kuzovunda əsgərlər əyləşmiş maşının kabinəsinə sıçradı. Maşınlar əsgərləri təyin olunmuş yerə qədər aparıb geri dönəcək, yolun qalan hissəsini isə meşə və dağ yolu ilə piyada gedəcəkdilər.

Təyin olunmuş yerə günün ikinci yarısı, saat dörd radələrində çatdılar. Həmin yerdə artilleriya batareyası mövqe tutduğundan onlara sursat aparan maşınlar da əks-həmlə taborunun kolonuna qoşulmuşdu və qərargah rəisinin rəhbərliyi ilə hərəkət edirdi... Əsgərlər maşınlardan atılıb dərhal da sıraya düzüldülər. Qərargah rəisi artıq bir-iki saatdan sonra qaranlıq düşəcəyinə, qaranlıqda hərəkətin daha da çətinləşəcəyinə baxmayaraq:

– Siyasi rəhbər, xahiş edirəm hərəkətə başlamazdan əvvəl Şəfəq bacımızın göndərdiyi sovqat və məktubun məzmunu ilə şəxsi heyəti tanış edin, – deyə əlindəki bağlamanı mayor Mustafayevə qaytardı: – Qoy bilsinlər, arxadakı ana və bacılarımızın ürəkləri və duaları onlarladır. Bu məktub əsgərlərimizin döyüş ruhunun yüksəlməsi üçün çox əhəmiyyətlidir.

Mayor Mustafayev bağlamanın içərisindəki zərfdən məktubu çıxarıb, bir əlində bağlama, digərində məktub üzünü əsgərlərə tutdu:

– Əsgərlər, səfərə çıxmazdan əvvəl maxe Azər İbrahimov yaxınlaşıb bu bağlamanı mənə verdi. Döyüşə girməzdən bu bağlama haqqında sizi məlumatlandırmağı vacib hesab edirəm. Bu məktubu bağlamadakı sovqatla bir ana, bir əsgərin həyat yoldaşı bizə göndərib. Həmin ananın, Şəfəq bacımızın məktubunu sizə oxuyacam. Ümidi bizə olan bir ananın məktubunu, iki körpə balası ilə ac qalıb öz ruzisini bizə göndərən bir əsgərin həyat yoldaşının məktubunu sizə oxuyacam. Diqqətlə qulaq asın: "Salam, əsgər qardaşım, bu məktubu uzaq bir dağ kəndindən dörd yaşlı bir oğlan və altı yaşlı bir qız uşağının anası yollayır

sizə. Ümidlə Fidanın da atası sizin kimi əsgərdir, qardaşım. Müharibə başlayan ilk gündən könüllü olaraq davaya yollandı. Bir aya yaxındır gedib, amma bu bir ayda yalnız iki dəfə bizimlə danışa bilib. Qalib gələcəyimizi deyib, amma qayıdıb-qayıtmayacağını deməyib. Hər şeyə hazır olmağımı istəyib. Təki Vətən sağ olsun deyib. Bu gün də körpələrimin əlindən tutub yola çıxacam. Torpaqlarımızı sizin kimi qoruyan əsgərlərimizi yola salmaq və bu bağlamadakı bir loxma ruzini onlarla sizə göndərmək üçün. Sağ olsunlar, qəlbimizi heç vaxt qırmırlar, maşını saxlayıb mənim və mənim kimi ürəkləri sizin yanınızda olan kəndlilərimin sizin üçün hazırladıqları bağlamaları alıb, sizə çatdıracaqlarına söz verirlər. Bu bir tikə ruzi qarnınızı doyurmayacaq, əlbəttə. Amma bunu sizə göndərməkdə israr edən Ümidimin də, Fidanımın da ümidləri Sizədir, qardaş, yalnız Sizə. Kəndimizin ağbirçəyi Xatun nənənin də, ağsaqqalı Şirxan babanın da, həyat yoldaşını, qardaşını cəbhəyə göndərən mənim kimi neçə-neçə gəlinlərin də, bacıların da ümidi Sizədir, qardaş, yalnız Sizə. Allah Sizinlə olsun, İnşaAllah! Bizi göz yaşına öyrəşdirməyin, qardaşım, Allah eşqinə! Qələbə ilə qayıdın, sağ-salamat qayıdın! Düşməni torpağımızdan qovub sonra qayıdın. Dualarımız Sizinlədir, Qardaşım! Allah yardımçınız olsun. İmza, körpə Ümidlə Fidanın anası, bacınız Şəfəq!..."

Siyasi rəhbər kövrəldiyini əsgərləri hiss etməsin deyə məktubu tez-tez ara verməklə, təmkinlə oxuyub susdu. Və qəmgin baxışlarını dolmuş gözlərini ona zilləyən əsgərlərdən yayındırıb, bir daha bağlamanın içindəki sovqata baxdı. Bağlamanın içinə bir neçə qaynadılmış yumurta, bir neçə qaynadılmış kartof, arasına pendir qoyulmuş bir

çörək, bir az pomidor-xiyar və səliqə ilə kağıza bükülmüş bir çimdik duz qoyulmuşdu. Uzun-uzadı sürən sükutu polkovnik-leytenant Fariz Rüstəmov pozdu:

– Siz nə kimi müqəddəs bir amal uğrunda döyüşdüyünüzü yəqin yaxşı bilirsiniz. Bu ananın, bu bacımızın bizə göndərdiyi məktub, əslində, hər birimizə bir çağırış, bir xəbərdarlıqdır. Baxın, biz bu qeyrətli bacılarımızın, qeyrətli analarımızın, gələcəyimiz olan Fidanla Ümidin uğrunda, belə övladları, belə anaları olan Vətən uğrunda, torpaq uğrunda döyüşə gedirik! Bacımız ümidlərinin bizə olduğunu yazır, anamız yalnız bizə güvəndiklərini yazır, bizim onların ümidlərini doğrultmaqdan başqa yolumuz yoxdur, aslanlarım. İndi baxın, bizim arxamızda kimlər, qarşımızda kimlərdir? Arxamızdakı bu böyük xalqın uğrunda uf belə demədən ölməyə və öldürməyə dəyər, yüz dəfə dəyər, min dəfə dəyər. Qarşımızdakı bu mənfur, şərəfsiz düşməni də öldürməyə yüz dəfə dəyər, min dəfə dəyər – onlar artıq bunu haqq etmişlər. Baxın, əzizlərim, baxın, aslanlarım, arxamızda olan bu böyük, bu müdrik, bu alicənab, bu şərəfli xalq uğrunda öldürməyə, lazım gələrsə, ölməyə gedirik biz! Qarşımızdakı bu mənfur, bu şərəfsiz düşməni məhv etməyə gedirik!...

Qərargah rəisi susdu. Üzünü siyasi rəhbərə tutub, hərəkətə başlamaq üçün komanda verməsini gözlədi. “Azad” komandasında farağat durmuş əsgərlərin gözlərində parlayan qığılcım mayor Mustafayevə də sirayət etmişdi. Əsgər anasının yazdığı sözlərin təsirindən hələ də qurtula bilməyən mayor əlavəyə ehtiyac duymadı:

– Sağa dön, – ucadan dilləndi, – qabaqdakı ağacların altında oturub, biz burdakı işimizi bitirənə qədər gözləmək üçün iyirmi addım irəli, marş! – deyə komanda verdi...

Sığnax kəndinin sağ tərəfindəki cığırı adlayıb meşəyə girəcək, sıx meşə və qayalıqlardan keçməklə ən qısa yolla Şuşakəndə çatacaqdılar. Amma yola düşməzdən əvvəl artilleriya batareyasının komandiri ilə görüşüb, gətirdikləri sursatı təhvil verməli və onu təlimatlandırmaq lazım idi. Bu vaxt UAZ-ın artilleriya batareyasının komanda məntəqəsinə yaxınlaşması qərargah rəisi polkovnik-leytenant Fariz Rüstəmovun diqqətini cəlb etdi. Sual dolu nəzərlərini mayor Mustafayevə çevirdi. Siyasi rəhbər:

– Korpusun siyasi məsələlər üzrə komandir müavinidir, Fariz, Elşad müəllimdir gələn, – deyə məlumat verdi. – Yaxşı, gedək onu qarşılayaq, sonra yolumuza davam edərik.

Polkovnik-leytenant Rüstəmov mayor Mustafayevin cavabını gözləmədən korpusun siyasi rəhbəri polkovnik Elşad Əbilovun maşınının dayandığı yerə üz tutdu. Onun uzaqlaşdığını görən təchizatçı gizir qaçaraq arxadan qərargah rəisinə yaxınlaşıb:

– Cənab polkovnik-leytenant, minaatanlar üçün gətirdiyimiz mərmiləri hara boşaldaq? – deyə soruşdu.

Polkovnik-leytenant Rüstəmov dərhal batareya komandiri ilə əlaqə saxlayıb, mərmilərin yerləşdirilməsini tapşırdı. Özü isə tələsik addımlarla korpus komandirinin müavininə yaxınlaşdı. Komandir müavini qərargah rəisinin məruzəsini döyüşdən geri qayıdan yaralı əsgərlərlə söhbətini

kəsmədən, yüngülcə qulaq verməklə dinlədi. Və baxışları ilə işlərinin nə yerdə olduğunu soruşdu. Polkovnik-leytenant eyni qayda ilə qısa məlumat verdikdən sonra korpus komandirinin müavini yoluna davam etməsini bildirib, yenidən əsgərlərlə sorğu-suala keçdi...

***

Buludların arxasında gizlənən payız Günəşinin xəsisliklə yaydığı şəfəqlər yay kimi səmaya doğru dartılır, ziyasını da özü ilə bərabər yuxarı çəkir, dağ-daşın, ağacların kölgələri işıqsızlıqda yox olub torpağa qarışırdı. Bir azdan tam yox olub gedəcək, görünməzlik başlayacaqdı. Polkovnik-leytenant Rüstəmovu isə Şuşakənd ətrafında mühasirəyə düşmüş kapitan Ülvi Hüseynovun düşmənə qarşı günlərlə ac-susuz mübarizə aparan taboru gözləyirdi. Tələsməli, qaranlıq çökmədən yola düşməli, gün çıxmadan özünü 1214 nömrəli yüksəkliyə çatdırmalı idi.

Qəfil partlayışın səsindən arxaya çevrildi. Düşmən mərmi dolu yük maşınını nişan almış, amma mərmi yük maşınının bir neçə metrliyində partlamış, boşaldılıb yan-yana yerə düzülmüş mərmi yeşiklərindən biri alovlanmışdı. Gözləri ilə mayor Mustafayevi aradı. Mayorun qaçaraq ona yaxınlaşdığını görüncə dərhal taboru meşəyə, təhlükəsiz yerə çəkib döyüşə hazır olmalarını əmr etdi. Mayor Mustafayev taborun artilleriya atəşindən sonra dərhal mövqeləndiyi əraziyə qaçdı. Polkovnik-leytenant Rüstəmov ərazini müşahidə etməklə düşmənə cavab atəşinə hazırlaşan minaatanlara tərəf yüyürdü. İndi onu korpus ko-

mandirinin müavini narahat edir, düşmənin yüksək rütbəli Azərbaycan zabitini nişan alacağından əndişələnirdi.

Polkovnik Elşad Əbilovun mühafizəçiləri ilə bərabər yaralıları nisbətən təhlükəsiz yerə çəkdiyini və daha güvəndə olduğunu, minaatanların isə əks həmləyə başladığını görüb arxayınlaşdı. Çevrilib artilleriya zərbəsindən sonra alışmağa başlayan mərmi yeşiklərinə tərəf getmək istədi. Bu vaxt düşmən ardıcıl olaraq qarşı və sağ tərəfinə daha iki artilleriya zərbəsi endirdi. Minaatan batareyasının yaxınlığında partlayan mərmi minaatanları müvəqqəti olaraq susmağa məcbur elədi. Ardınca isə qarışıq səslər eşidildi. Minaatanlardan şəhid olan, yaxud yaralanan olduğunu düşünən polkovnik-leytenant cəld onların yanına yüyürdü. İkisi ağır olmaqla üç əsgər yaralanmışdı. Boğazını qəlpə parçalamış əsgər əlini yarasının üstünə sıxıb xırıldayır, sanki əli ilə boğazından fışqıran qanı dayandırmaq istəyir, yalvarış dolu baxışları ilə ətrafdakılardan kömək diləyirdi. Müxtəlif yerlərindən qəlpə yarası alan digər yaralılar isə dartınaraq durmağa çalışır, düşmənin növbəti zərbələrindən qorunmaq üçün yerlərini dəyişməyə cəhd edirdilər...

## Axırıncı aşırım

– Sanitarı, həkimi çağırın, tez! – qərargah rəisi bağıraraq ətrafdakılara göstəriş verdi. Sanitar maşını yaxınlaşınca qərargah rəisinin diqqətini artilleriya atəşindən sonra alışmağa başlayan mərmi yeşikləri cəlb elədi. – Maşını mərmi yeşiklərinin yanından kənara çək! – deyə yanındakı gizirə mərmi dolu maşını uzaqlaşdırmağı əmr etdi.

Yaralıları yükləyən kimi sanitar maşını sürətlə yerindən tərpəndi. Bu vaxt alışmaqda olan mərmi yeşiklərinin yanındakı "Ural" maşınını kənara çəkməklə partlayışdan qurtarmaq əmri alan gizir halsız vəziyyətdə geri qayıdıb, polkovnik-leytenanta yaxınlaşdı. Məruzə eləməyə fürsət tapmadan yerə çökdü. Polkovnik-leytenant Rüstəmov mərmi dolu maşının hələ də yerində, – hər an partlayış təhlükəsi ilə üz-üzə olduğunu, gizirinsə müəmmalı şəkildə geri qayıtdığını görüb, tez onun üstünə yüyürdü: – Nə oldu, əsgər! – həyəcanla soruşdu.

– Komandir, ordakı uşaqların dördü də parça-parça olub, yaxınlaşa bilmədim!...

Sursatla dolu maşından boşaldılıb bir addımlığında yerə düzülmüş altı ədəd mərmi yeşiyi get-gedə daha da alovlanır, alovlandıqca da yanğın digər yeşiklərə keçir, onun sahəsi tədricən genişlənirdi:

– Qarayev, "Ural"a, tez!... – Qərargah rəisi sözünü bitirməmiş gizir Fəzail Qarayev özünü maşına yetirdi. Alovlanmaqda olan mərmi yeşiklərinin yanından adlayıb, cəld kabinəyə atıldı. Motoru işə salıb, qazı basdı. Amma həyəcandan və tələsdiyindən irəli deyil, arxaya sürdü. Kuzovun arxa tərəfi alışmaqda olan yeşiklərə dəyib dayandı. Gizir Qarayev tələsik sükanı tənzimləyib, irəli sürdü və sürətlə alışmaqda olan mərmi yeşiklərindən uzaqlaşdı.

– Uşaqlar, orada şəhidlərimiz var, – deyə polkovnik-leytenant Rüstəmov cəld şəxsi heyət üçün gətirilmiş su qablarını götürdü: – yeşiklər partlasa, onların cəsədləri ələ gəlməyəcək! – alışmaqda olan mərmi yeşiklərinin üstünə yüyürdü. Bir neçə əsgər də su qablarını götürüb,

komandirin ardınca qaçdılar. Taxta arakəsmələr alışsa da, alov hələ sursata keçməmiş mərmi yeşikləri söndürüldü...

Artıq hava qaralmağa başlamışdı. Kapitan Ülvi Hüseynovun mühasirəyə düşmüş taboruna yardıma tələsən polkovnik-leytenant Rüstəmovun 90 nəfərdən ibarət şəxsi heyətini isə qarşıda uzun və təhlükəli yol gözləyirdi...

Şəhidlər hamısı eyni bir yerə daşındı. Mərmiləri "Ural"dan boşaldan hərbi qulluqçulardan üçü tanınmaz hala düşdüyü üçün onların cəsədini yalnız əsgər örtüklərinin içərisinə yığmaqla bir yerə toplaya bildilər. Onlardan təkcə birinin əzaları ayrılmamış, amma bədəni saysız-hesabsız qəlpə yaralarından deşik-deşik olmuşdu. Polkovnik-leytenant Rüstəmov bir neçə dəqiqə qabaq ona yaxınlaşıb "mərmiləri hara boşaldaq?" – deyə soruşanın onlardan hansı olduğunu ayırd edə bilmədi. Gənc və yaraşıqlı "maxe"nin qəmli gözləri və kədərqarışıq təbəssüm saçan çöhrəsi gözləri önündən getmirdi. Gözlərini yumub, başını yırğalayaraq dərindən köks ötürdü, yanağından süzülüb aşağı diyirlənən göz yaşını əsgərlər hiss etməsin deyə alnını ovuşdurmaqla üzünü gizlətməyə çalışdı... "Şəhadətiniz mübarək, tərlanlarım! Qisasınız yerdə qalmayacaq, İnşa-Allah!" – deyə qətiyyətli addımlarla meşənin girəcəyində onu gözləyən əks-həmlə taborunun yanına yollandı.

Düşmən artilleriyasının gözlənilməz hücumundan, döyüş yoldaşlarının şəhadətindən təsirlənən şəxsi heyət komandirlərini ayaq üstə, döyüşə hazır vəziyyətdə qarşıladı. Mayor Mustafayev bir söz demədən hərbi təzim edib kənara çəkildi. Polkovnik-leytenant Rüstəmov intiqam hissi

ilə coşan əsgərlərin alov saçan baxışları ilə göz-gözə qaldı. Hazırdılar, ölməyə də, öldürməyə də, intiqam almağa da.

– Getdik, igidlərim! – deyə əlavə sözə ehtiyac duymadan meşənin dərinliyinə doğru hərəkətə başladı...

***

Qaranlıq getdikcə qatılaşır, duman dayanmadan axın edirdi. Sıx, keçilməz meşədə, yaş, sürüşkən torpağın üzərində hərəkət etmək getdikcə daha da çətinləşirdi. Hər an düşmənlə qarşılaşmaq, hər an düşmən pusqusuna düşmək təhlükəsi getdikcə daha da artırdı. Şuşakəndlə Şuşa arasındakı 1214 nömrəli yüksəklikdə mühasirəyə düşən tabora köməyə tələsən qrup hər an düşmən hərbi birləşmələrinə Xankəndi tərəfdən köməyə gələn, dağlarda, meşələrdə pusquda duran və ya düşmənin daim fəaliyyətdə olan hər hansı bir diversiya qrupu ilə üz-üzə gələ bilərdi. Otuz ilə yaxın işğal altında saxladıqları ərazini əlinin içi kimi bilən düşmən hər daşdan, hər ağacdan istehkam kimi istifadə etməyə çalışır, azad etdikləri ərazilərdə möhkəmlənən Azərbaycan silahlı qüvvələrini, koordinatları çıxarmadan belə, asanlıqla artilleriya atəşinə tuturdu.

Bunları nəzərə alan polkovnik-leytenant Rüstəmov dayanmaq əmri verib, bölük komandirlərini yanına çağırdı. Rəhbərləri bölük komandirləri kapitan Cavad Məmmədov, kapitan Yaşar Qasımov və kapitan Bəhruz Hacıyev olmaqla taboru müxtəlif qruplara böldü. Müəyyən məsafə saxlamaqla qrup şəklində hərəkət etməyi əmr etdi. Bu, həm hərəkəti asanlaşdıracaq, həm də düşmən hücumuna məruz qaldıqları halda bütöv taborun pusquya düşmə ehti-

malını aradan qaldıracaq, ən pis halda qruplardan, heç olmasa birinə özünü kapitan Ülvi Hüseynovun mühasirədə olan taboruna çatdırmaq imkanı verəcəkdi. Polkovnik-leytenant Rüstəmov qruplar şəklində hərəkət edən bölüklərin taqımlarını da ayrı-ayrı qruplara ayırmaları və eyni qayda ilə, nizamla hərəkəti davam etmələrini tapşırdı. Danışmağı, siqaret çəkməyi, hərəkətdən qalmağı, düşmən hərbi birləşmələri, diversiya qrupları, hətta düşmən əsgəri gördükdə belə özlərini aşkar etməyi qadağan etdi. Digər qruplara məsafə və vaxt gözləməklə ardınca hərəkəti davam etdirməyi tapşırıb, birinci qrup kimi təyin edilmiş bölüyün birinci taqımı ilə irəli düşdü...

Qatı duman zülmətin bağrını dəlməyə başlamışdı. Qarşıdakı dağların zirvəsindən, ətraflardakı ağacların başından sallanan erkən səhərin ziyası zülməti qovsa da, dumanın qatını aça bilməmiş, canına hopub yenilmişdi. Boz, bulanıq bir görünməzlik yaranmış, payızın rəngi sarısını udmuşdu. Təbiət öz dilində səhəri açır, xəfif yel yarpaqların dilində xışıldayırdı. Zəif, güclə duyulan bir səs eşidildi:

– Aaayə,... aaayə... – yaxın məsafədən, amma zəif, gücünü itirməkdə olan, taqəti kəsilmiş birinin çağırışı irəlidə hərəkət edən polkovnik-leytenant Rüstəmovu və siyasi rəhbər mayor Mustafayevi ayaq saxlamağa məcbur etdi. İşarə ilə ardınca addımlayan qrupa dayanmaq əmri verib diqqətlə ətrafı dinşədi. Eyni səs yenidən, amma daha inamla eşidildi. Polkovnik-leytenant Rüstəmov qrupun döyüş vəziyyəti aldığına əmin olduqdan sonra:

– Kimsən? – deyə səsini ucaltmadan səs gələn tərəfə boylandı.

– Mənəm, məəən, Əliyev!

– Əliyev kimdir?

– Əliyev Xəzər.

Kəşfiyyat qrupunun giziri Əliyev Xəzər bir neçə gün qabaq itkin düşmüş, onun kəşfiyyatdan qayıdarkən qrupla bərabər düşmən pusqusuna düşdüyü, şəhid olduğu xəbəri gəlmiş, amma cəsədi tapılmamışdı.

– Parol, parolu söylə! – polkovnik-leytenant Rüstəmov səsin sahibini tanısa da dəqiqləşdirmək istədi.

– Allahu Əkbər!

Qərargah rəisinin işarəsi ilə iki əsgər cəld səs gələn tərəfə qaçdı. Gizir Xəzər Əliyev yaralı idi.

İki gün qabaq tapşırıqdan qayıdarkən yolda düşmənin qoyub qaçdığı sanitar maşınına rast gəlmişdilər. Gizir Xəzər Əliyev özü də daxil olmaqla qrupun bütün üzvləri yaralı və çox yorğun olduqları üçün həmin maşına minərək sürətlə hərbi hissə istiqamətində hərəkətə başlamışdılar. Onların hərəkətini müşahidə edən düşmən artilleriya atəşi ilə maşını partlatmış, gizir Xəzər Əliyevdən başqa qrupun bütün üzvləri şəhid olmuşdu. Yaralı gizir isə daha bir neçə yara almış və huşunu itirərək bir müddət düşdüyü yerdə qalmışdı. Özünə gəldikdən sonra ətrafında düşmən əsgərlərinin səsini eşitmiş, qatı dumandan istifadə edərək onlardan gizlənə bilmiş, üç yüz metr məsafəni sürünə-sürünə gələrək qrupun hərəkət etdiyi cığırın yaxınlığında, kolluqların arasında gizlənərək gözləməyə başlamışdı.

O, təcrübəli bir kəşfiyyatçı kimi ərazini beş barmağı kimi tanıyır, Azərbaycan əsgərinin mütləq həmin cığırdan keçəcəyini düşünürdü. Buna görə ac və susuz vəziyyət-

də iki gün kolluqlar arasında gizlənərək, cığırı nəzarətdə saxlamış, əks-həmlə taborunun hərəkətini hiss edən kimi son qüvvəsini toplayaraq yardıma çağırmışdı. Tabor komandirləri yaralıya ilkin tibbi yardım göstərdi, polkovnik-leytenant Rüstəmov briqada komandirinin müavini polkovnik-leytenant Teyfur Rüstəmovla radio əlaqəsinə girib gizir Xəzər Əliyevin sağ olması haqqında məlumat verdi. Koordinatları diktə edib, yaralının təxliyə edilməsi üçün qrup göndərilməsini xahiş etdi.

İlkin tibbi yardım və azacıq yeməkdən sonra özünə gəlməyə başlayan gizir Əliyevə üz tutub:

– Biz getməliyik, Xəzər, səni təxliyə etmək üçün göndərilən qrup tezliklə burda olacaq. Sən gizləndiyin yerdən tərpənmə və gözlə.

Polkovnik-leytenant Rüstəmovun tapşırığı ilə gizir Xəzər Əliyevi cığırdan bir qədər kənarda kolluqların arasında gizlədib, bir az yemək saxladıqdan sonra tabor yenidən Şuşakənd istiqamətində hərəkətə başladı...

Qaranlıq tam çəkilib yox olsa da, qatı duman hərəkət və istiqaməti təyin etməkdə çətinlik yaradırdı. Qarşıdan, müxtəlif tərəflərdən kiçik çaplı silahlardan ardıcıl açılan atəş səsləri eşidilir, ara-sıra tank mərmilərinin partlayışı aydınca duyulurdu. Artilleriya qurğularının atəş istiqamətləri müxtəlif olsa da, mənbələri düşmənin yerləşdiyi mövqeləri təyin etməkdə yardımçı oldu. Demək, qarşı, sağ tərəfdə Şuşakənd, sol tərəfdə isə Daşaltı yerləşir. Artilleriya və tank üzərinə quraşdırılmış iriçaplı silah sistemləri ilə edilən atəşlər yalnız düşmən tərəfindən, müxtəlif istiqamətlərdən açılır və əks-həmlə əməliyyatında olan

Azərbaycan ordusunun yerləşdiyi ərazilər, Şuşakənd və Daşaltı kəndləri dayanmadan bombardman edilirdi.

Daha aydın və nisbətən yaxında eşidilən atışma Şuşakənd istiqamətini təyin etməyə şərait yaratdı. Artıq meşəni tərk edib yoxuşa dırmanan tabor qarşıdakı təpəni enib, düşmənin üç tərəfdən mühasirəyə aldığı 1214 nömrəli yüksəkliyə qalxmalı idi. Yalnız arxa tərəfdən 1214 yüksəkliyinə keçid imkanı olan ərazi düşmənin atəş trayektoriyasında yerləşirdi. Tabor həmin ərazini, digər tərəflərdən hücum imitasiyası yaradıb, düşmənin başını qatmaqla keçməli, ya da uyğun hava şəraitini gözləməli idi. Amma taboru hələ qarşıdakı sonuncu aşırımı keçmək kimi mühüm bir tapşırıq gözləyirdi. Təpənin zirvəsinə qalxan yoxuşun tən ortasında duman zəifləməyə, ətraf sezilməyə başlamışdı.

Polkovnik-leytenant Rüstəmov yerə çöküb, mayor Mustafayevə birinci qrupun önündə sürətli qaçışla ərazini keçmək işarəsi elədi. Birinci qrup siyasi rəhbərin ardınca yandan adlamaqla təpənin arxasına tərəf sürət götürəndə, düşmən bunu görüb, ərazini ardıcıl pulemyot atəşinə tutdu. Kapitan Cavad Məmmədov aşırımın tən ortasında özünü yerə atıb, avtomatının qundağını sinəsinə sıxdı. Polkovnik-leytenant Rüstəmovun işarəsi ilə kapitan Yaşar Qasımov və kapitan Bəhruz Hacıyev cəld döyüş yoldaşlarının yanına süründülər, kapitan Cavad Məmmədovla paralel məsafəli şəkildə mövqelənib düşmənin atəş nöqtəsini hədəf aldılar.

Birinci qrupun sonuncu əsgəri aşırımı keçənə qədər düşmən pulemyotunun gurladığı ərazini ardıcıl olaraq

atəşə tutdular. Bir an keçmədi ki, düşmən pulemyotuna daha bir neçə kiçik çaplı silah dəstək verməyə başladı. Ətrafında torpağa sancılan, vıyıltı ilə qulağının dibindən, başının üstündən uçuşan güllələrə baxmayaraq cəld yerindən sıçrayan kapitan Məmmədov var qüvvəsini toplayıb sürətli qaçışla özünü aşırımın arxasına atdı. Digər qruplar yoxuşun ortasında torpağa qısılıb avtomatları çiyinlərinə sıxmışdılar.

Polkovnik-leytenant Rüstəmov döyüşə hazır olmağı, amma əmr olmadan atəş açmamağı tapşırıb binoklla düşmən mövqelərini izləməyə başladı. Eniş zəif dumana büründüyü üçün düşmən yalnız irəlidə hərəkət edən və dumanın tamamilə yox olduğu təpənin yuxarısında gözlənilmədən peyda olan birinci qrupun fəaliyyətini müşahidə edə bilmişdi. Digər qrupların movqeləndiyi enişin, uzaqdan kifayət qədər görüntü vermədiyini anlayan qərargah rəisi özlərini aşkar etməməyi qərara aldı.

Buna baxmayaraq, düşmən əraziyə ardıcıl olaraq bir neçə tank və artilleriya mərmisi endirdi. Artilleriya atəşinin yaratdığı toz dumandan istifadə edən kapitan Qasımovla kapitan Hacıyev isə kənarlara diyirlənməklə aralarındakı məsafəni böyüdüb atəşi dayandırdılar, hərəkətsizlik görüntüsü yaratdılar. Bir neçə dəqiqə susub müşahidə aparan düşmən ərazini yenidən artilleriya atəşinə tutdu. İndi artıq təkcə sonuncu aşırım deyil, daha irəli və birinci qrupun getdiyi istiqamət də hədəf seçilmişdi. Əlverişsiz hava şəraitindən xoflanan düşmən atəş trayektoriyasını daha da genişləndirmiş, mərmi sayını daha da artırmışdı...

Təxminən yarım saatdan sonra sonuncu aşırım yenidən qatı dumana büründü. Bayaqdan səbrlə gözləyən, yalnız şəxsi heyəti kapitan Hüseynova vaxtında və itkisiz çatdıra bilməsi üçün ürəyində Allaha yalvaran qərargah rəisi polkovnik-leytenant Rüstəmov qruplara qalxaraq cəld aşırımın arxasına qaçmağı əmr etdi. Qatı dumanda aşırımı itkisiz adlayan tabor dərhal 1214 nömrəli yüksəkliyə aparan dərəyə istiqamət götürdü. Kapitan Hüseynovun taborunun mövqe tutduğu yüksəkliyə doğru qalxan yardımçı tabor yoxuşa çatıb, dəstəyə ehtiyacı olan döyüş yoldaşlarına tərəf irəliləməyə başladı...

## Laçın dəhlizində

Şuşa şəhərinə girmək haqqında konkret tapşırıq alan xüsusi təyinatlı qruplar müxtəlif istiqamətlərdən fəaliyyətə başladı. Xüsusi təyinatlıların tabor komandiri mayor Zaur Rəhimov öz qrupu ilə Laçın koridorunu yarıb keçməli, Şuşa şəhərini arxadan adlayıb Xankəndi tərəfdən şəhərə yaxınlaşmalıydı. O, Xankəndi tərəfdən Şuşaya yardıma gələn düşmənin yolunu bağlayacaq, Şuşa Qalasını tutacaq, digər qrup komandirləri ilə əlaqəli şəkildə sürətli hücumla şəhərə daxil olacaqdı... Düşmən Laçından gəlib Şuşadan keçən, Xankəndiyə gedən və Laçın koridoruna paralel keçən yolları çoxlu sayda texnika və canlı qüvvə toplamaqla nəzarətdə saxlamağa çalışır, saysız-hesabsız istehkam və müdafiə qurğuları ilə şəhəri işğalda saxlaya biləcəyinə inanırdı.

Qrup komandiri mayor Zaur Rəhimov asfalt yolun yüz əlli-iki yüz metrliyində dayanmaq əmri verdi. Sıx meşələr və keçilməz dağ yolları ilə dayanmadan hərəkətdə əldən düşmüş, nəfəsi kəsilən əsgərlər yaş torpağın üstünə uzanıb, nəfəslərini qısaraq ala-toranda düşmənin koridor boyu hərəkətini izləməyə başladılar.

Səhərin erkən, yuxunun şirin vaxtı olsa da düşmən yatmır, hərbi texnika koridor boyu dayanmadan hərəkət edir, əsgərlər yol kənarlarında ekskavatorlar vasitəsilə bir-birindən təxminən iki yüz-üç yüz metr məsafədə qazılmış çuxurlarda növbə çəkirdilər. Düşmən gülləyə qənaət etmədən duyulan hər səsi atəşə tutur, tərpənən hər qaraltıya qurğuşun yağdırır, ərazini nəzarətdə saxlamağa çalışırdı.

Tabor komandiri mayor Rəhimov təyinat üzrə dəstə komandiri polkovnik Zaur Zeynalovla radio əlaqəsi yaradıb vəziyyət barədə məruzə etdi. Briqada komandiri:

– Nəyin bahasına olursa-olsun, yolu açın, mayor. Bu axşam digər qruplarımız Laçın yolunu adlayıb, Şuşa ətrafında mövqe tutmalı, şəhəri işğaldan azad etmək üçün fəaliyyətə keçməlidir! Mənimlə tez-tez əlaqə saxlayın. Allah amanında!

– Oldu, cənab polkovnik! – Tabor komandiri əlaqəni bitirib, ərazini bir daha diqqətlə müşahidə etdi. Uzandığı yerdəcə sağ əlini döyüş yoldaşlarının görəcəkləri qədər yuxarı qaldırıb başlamaq işarəsi verdi. Sol cinahdan mayor Azər Məmmədov, sağ cinahdan kapitan Vüqar Qasımov avtomatı çiyinlərinə keçirərək irəli süründülər. Onlar bir-birindən təxminən beş yüz metr aralıda yerləşən Laçın tərəfdən birinci, Şuşa istiqamətindən sonuncu düşmən

istehkamına doğru hərəkətə başlamışdılar. Bir-birindən təxminən yüz otuz beş dərəcə bucaq altında əks istiqamətlərdə sürünən qrup üzvləri əlli-altmış metr irəlilədikdən sonra qrupun digər üzvləri mərkəzdə üzbəüz yerləşən digər səngərlərə doğru hərəkətə keçdi. Xüsusi təyinatlıların hərəkəti səhərin səssizliyində xəfif bir külək sədası doğururdu.

Son günlər daha səksəkəli olan düşmən qarşı tərəfi hədəfsiz atəşə tutdu. Qrup cavab atəşi açmağa macal tapmadan sağ və sol cinahlardan irəliləyən xüsusi təyinatlılar əl qumbaralarını hər iki tərəfdəki çuxurlara atdılar. Eyni anda iki səngərdə baş verən partlayış düşməni daha da qorxuya saldı. Düşmən indi təkcə qarşı tərəfi deyil, öz yoldaşlarının havaya sıçradığı səngərləri də nişan aldı. Qarşı tərəfdən əlli metrliyə qədər sıza bilmiş xüsusi təyinatlılar düşmən səngərlərinə güllə yağdırdı. Əl qumbarasının havaya qaldırdığı toz-torpaq yerə çökməmiş cinahlardan irəliləyən xüsusi təyinatlılar – mayor Azər Məmmədov və kapitan Vüqar Qasımov içindəki düşməni zərərsizləşdirdiyi səngərlərə atıldılar. Cəld də düşmən səngərinin içinə çöküb növbəli şəkildə düşmən atəşinə cavab verməyə başladılar.

Bu vaxt fürsətdən istifadə edərək daha da yaxınlaşan mərkəzi cinah düşmən səngərlərini qumbara atəşinə tutdu. Qumbaralar səngərin içinə düşdüyü üçün qəlpələrin kənara sıçramayacağına, səngər divarlarında ilişib qalacağına əmin olan xüsusi təyinatlılar dərhal ayağa qalxıb, sürətli sıçrayışla özlərini düşmən səngərlərinə çatdırdılar. Qumbara qəlpələrindən qurtula bilən bir neçə düşmən əsgəri də gözünü açmağa macal tapmamış başları üzərindən açılan

avtomat atəşi ilə yerindəcə zərərsizləşdirildi. Qrup dərhal səngərlərdə yerləşib arama-tarama işlərinə başladı...

– Cənab mayor, düşmən texnikası Laçın tərəfdən bizə yaxınlaşır! – Gizir Vüsal Əhədov kənar çuxurlardan adlayaraq, bir neçə nəfərlə mərkəzdəki səngərdə yerləşən tabor komandirinə yaxınlaşıb məlumat verdi.

Mayor Rəhimov üzünü bölük komandirlərinin yerləşdiyi səngərlərə tərəf çevirib:

– Hazır olun! – deyə radionun düyməsini basdı.

Qarşıda piyadaların bir döyüş maşını (PDM), arxasınca bir neçə təkərli zirehli maşın sürətlə qrupun yerləşdiyi məsafəli səngərlərə doğru hərəkət edirdi. Bölük komandiri mayor Məmmədov düşmənə daha yaxın səngərlərə atılıb, qumbaraatanlarla silahlanmış qrup üzvlərinə düşmən texnikasını nişan almağı tapşırdı. Qarşıda hərəkət edən PDM-in qülləsi ilk qumbaraatan zərbəsindən arxaya çevrilsə də, hərəkətdən qalmadı. Arxasınca sürünən təkərli texnikalardan biri üstündə quraşdırılmış pulemyotla qarşı tərəfi sürəkli atəşə tutdu, digərləri isə geri çevrilməyə cəhd etdi. Eyni anda açılan qumbaraatan mərmiləri hər üç hədəfi qatı tüstüyə bürüdü. Bir an keçmədi ki, yoldan çıxan PDM maneəyə ilişib dayandı. Ekipaj maşından atılıb PDM-in arxasında mövqelənərək itirdikləri səngərləri atəşə tutdular.

– Dərhal onları susdurun! – deyə bölük komandiri mayor Azər Məmmədov baş çavuş Yasin Qasımova işarə etdi. Yasin Qasımov səngərdən çıxıb, yan tərəfdən düşmən mövqeyinə doğru sürünməyə başlayan kimi, döyüş yoldaşları eyni istiqaməti avtomat atəşinə tutdular.

Ələ keçirilmiş düşmən radiostansiyasını araşdırmağa çalışan tabor komandiri mayor Rəhimov radioda təyinat üzrə dəstə komandiri polkovnik Zaur Zeynalovun səsini eşidib məruzə elədi:

– Cənab polkovnik, Laçın koridoru üzərindəki düşmən səngərləri itki verilmədən ələ keçirildi. Düşmənə köməyə gələn qüvvə dəf edilmək üzrədir.

– İtki vermədən ələ keçirməyiniz əladır, mayor! Amma düşmənə köməyə gələn qüvvə dəf edilmək üzrədir nə deməkdir?

Briqada komandirinin sualını cavablandırmağa macal tapmadan mayor Məmmədov özünü səngərə atıb:

– Dəf edilmişdir artıq, Zaur! – səsini qısmaqla tabor komandirini məlumatlandırdı.

Başının işarəsi ilə razılığını bildirən tabor komandiri:

– Cənab polkovnik, koridor briqadaların keçməsi üçün tam hazırdır! – deyə inamla məruzə elədi.

– Çox yaxşı, qruplar təhlükəsiz şəkildə ərazini keçənəcən, təyin olunmuş yerlərdə mövqe tutanacan, motoatıcı qruplar gəlib yerləşənəcən koridoru nəzarətdə saxlamaq üçün bir qrup saxlayıb, tapşırıq üzrə fəaliyyətinizi davam etdirin!

– Oldu, cənab polkovnik!... – Radio əlaqəsini kəsdi. Amma briqada komandiri ilə danışırmış kimi mayor Rəhimov sözünü bitirmədi: – Bu şərəfsizlərin ardı-arası kəsilir bəyəm? – Laçın tərəfdən asfalt yol boyu düşmən texnikasının hərəkətini görüb öz-özünə söyləndi. Üzünü bölük komandiri mayor Azər Məmmədova tutub: – Quru qoşunları gəlib mövqeni səndən təhvil alana qədər öz bölüyünlə

Laçın tərəfdən gələn düşmən qüvvələrinin qarşısını almaq səndə!

– Bu axşam İsa bulağı, sabah erkəndən isə Şuşa Qalası ətrafında olacağıq. Səninlə Şuşa Qalasında görüşürük. Allah amanında!...

Səhər ala-torandan başlayan döyüş hava qaralanda səngisə də, bitmədi. Xüsusi təyinatlıların Laçın koridorunda peyda olmasından qorxuya düşən düşmən dayanmadan hücum cəhdləri edir, əks-həmlə briqadalarının hərəkət istiqamətlərini müxtəlif tipli silahlardan ardıcıl olaraq atəşə tutur, sistemli şəkildə artilleriya mərmisi endirirdi. Tabor komandiri mayor Rəhimov hücum cəhdlərinin qarşısını almaq üçün mayor Məmmədovun rəhbərliyi altında bir qrup saxlayıb, çöl yolla Şuşa Qalası istiqamətdə hərəkətə başladı. İsa bulağı ətrafındakı meşəyə gecənin gec saatlarında çatdılar. Boş mədələrini acgözlüklə buz kimi suyla doldurub əl-üzlərini yaxaladılar. Neçə günlük aclıq və susuzluqdan sonra gözlərinə işıq gəldi. Dincəlmək üçün bir saat vaxt ayırıb, növbətçilər təyin etdikdən sonra:

– Yatıb dincəlməyə çalışın, uşaqlar. Səhər bizi ağır döyüş gözləyir. Çalışın bu bir saatdan istifadə edib qüvvənizi bərpa edə biləsiniz, – deyə tabor komandiri mayor Rəhimov çiyin çantasını başının altına qoyub gözlərini qapadı. Amma nə o, nə də digər xüsusi təyinatlılar yuxuya gedə bildi. Müharibənin başladığı ilk gündən dağlarda, daşlarda, meşələrdə hərəkətdə olan əks-həmlə döyüşçüləri yorulub əldən düşmələrinə baxmayaraq, beyinlərini çulğalamış xəyallarının girovuna çevrildilər. Payızın dağ havası

iliklərinə işləsə də, neçə günün aclığı taqətlərini kəssə də, xəyal atlarını cilovlaya bilmədilər.

– Bir də onu görsəm, yaaa, ayaqlarını dişləyəcəm, – gizir yanında uzanmış döyüş yoldaşına pıçıldasa da, hamı eşitdi: – Vallah, ayaqlarını dişləyəcəm! Dişlərim gicişir onun ayaqlarını dişləmək üçün! – dişlərinin gicişməsini hiss edirmiş kimi yumruğunu düyünləyib əlini dodaqlarının qarşısında yellədi.

– Eh, nə qaldı ki, İnşaAllah sabah-bürü gün Şuşanı da götürürük, ondan sonra evdəsən, – əsgər kiçik komandirinə təskinlik verməyə çalışdı.

– İnşaAllah, qardaş, İnşaAllah! – gizir dərindən köks ötürdü: – Şuşanı işğaldan azad edəcəyik, əlbəttə, azad edəcəyik, amma qorxuram uşaqları bir də görə bilməyim.

– Sən bu qorxunu ürəyindən çıxart, komandir, uşaqları da görəcəksən, toylarını da edəcəksən, İnşaAllah. – Kiçik komandirindən yaşca böyük olan əsgər də söhbətə qoşuldu: – Hələ onların toylarına bizi də dəvət edəcəksən, qismət olsa.

– Əlbəttə, İnşaAllah! Amma, uşaqlar, elə bilməyin ki, mən ölümdən qorxuram. Bir tikə də qorxmuram, Vallah qorxmuram. – Gizir ürəkdən elə and içdi ki, elə bil ürəyindən axan qanın şırıltısı eşidildi: – Əgər şəhid olmaqdısa, onda heç qorxmuram. Amma mənim iki körpə balam var. İkisi də qız!... – susub dərindən köks ötürdü: – Biri isə lap balacadı. Bapbalaca da ayaqları var. İki ayağı ovcumun içinə güclə sığırdı, təsəvvür edirsiz?

– Təsəvvür edirəm, dayı, – böyründə uzanıb isinsin deyə kürəyini döyüş yoldaşının kürəyinə söykəyən əsgər

üzünü gizirə çevirdi: – Sənin əllərinin içinə elə mən də sığaram! Bilmirəm səni yazıq anan necə doğub.

Hamı gülüşdü. Boyu iki metrə çatan, enli kürək, ağır gövdəli, qartal baxışlı gizir özü də gülümsədi. Amma döyüş yoldaşının sözündən incimədi:

– İndi belə danışırsan, Allah qoysa, evlən, sənin də uşaqların olsun, görüm onda nə deyəcəksən.

– Məndə isə biri oğlan, biri də qız idi. – Başını döyüş yoldaşının ayağı üstünə qoymuş taqım komandiri də gözlərini açmadan dilləndi: – Özü də heç yola getmirdilər. Yaşca kiçik olsa da, oğlum həmişə bacısını incidirdi, əclaf!

– Allah bütün balaları saxlasın, – daha bir əsgər söhbətə qoşuldu: – Mən heç üzünü belə görməmişəm, oğlum döyüş başlayandan sonra dünyaya gəlib: – Qaranlıqda sifəti seçilməyən, pıçıltı ilə danışdığından kimliyini güclə ayırd edə bildikləri əsgər: – Amma deyirlər həm çox balaca, həm də çox eybəcərdir, – təəssüflə əlavə etdi.

– Hım, yəqin atasına çəkib! – Döyüş yoldaşı söz atdı. Xətrinə dəyməsin deyə tez də sözünə düzəliş verdi: – Ay dəli, bilmirsən ki, təzə doğulan bütün körpələr əvvəl kifir olur, sonradan düzəlib sənin kimi yaraşıqlı oğlana çevrilirlər...

– Düz deyir, düz deyir. Vallah, təzə doğulanda mən də oğlumu qucağıma götürə bilmədim. – Həmişə ciddi görünən çavuş da səsinin tonundan hiss olunan təbəssümlə dilləndi: – Amma xəstəxanadan çıxıb evə gələnə qədər, elə bil, Allah onun sifətinə nur verdi. Sonra anası əlimdən zorla almayınca qucağımdan yerə qoya bilmirdim.

– Hə uşaqlar, istirahətimiz maraqlı keçdi. Xatirələrimiz çox gözəldi. Amma artıq getməliyik, – tabor komandiri yerində dikəlib sakit, amma hamının eşidə biləcəyi tərzdə bir daha təkrar etdi: – Getmək vaxtıdır...

Qrup dərhal ayağa qalxıb çiyin çantalarını kürəklərinə keçirdi. Taqım komandirləri şəxsi heyəti yoxlayıb məlumat verdi. Mayor Azər Məmmədovun birinci qrupundan başqa şəxsi heyət tam yerində idi. Tabor komandiri mayor Rəhimov qarşıya düşüb hərəkətə başladı. Bütün istiqamətlərdən – qarşıdan və arxadan, sağdan və soldan dayanmadan müxtəlif tipli silahlardan açılan atəş səsləri eşidilir, əks həmlə qruplarının düşməndə yaratdığı qorxunun sədası bütün Qarabağda duyulurdu. Hava öz şıltaq dəyişkənliyi ilə xüsusi təyinatlıların hərəkətlərini çətinləşdirsə də, düşmənin gözündən yayınmaqda, hədəfə doğru ayaq üstə hərəkət etməkdə işlərini asanlaşdırır, qatı duman qoruyucu mələklər kimi daim onları təqib edirdi...

Tabor komandiri qrupa dayanıb mövqelənməyi əmr etdi. Hava işıqlanmağa başlasa da, qarşı tərəf güclə sezilir, düşmən əsarətində olan Şuşa Qalasının viranə qalmış solğun divarları duman-çiskindən seçilmirdi. Tabor komandiri xəritə ilə qarşı tərəfdə, təxminən bir kilometr yuxarıda Şuşa Qalasının, arxada, aşağıda isə Xankəndinin yerləşdiyini təyin edib, Xankəndi tərəfdən gələn yolun ciddi nəzarətdə saxlanılmasını tapşırdı. Aşağıdan – Xankəndi tərəfdən gələn yoldan eşidilən texnika səsi artıq özlərinin də hədəfdə olduğundan xəbər verir, hər an pusquya düşə, qəfil hücuma məruz qala biləcəklərini diktə edirdi. Düşmən səssizcə onları izləyib, mühasirəyə ala, gözlənil-

mədən hücuma keçməklə əməliyyat planlarını al-üst edə bilərdi.

– Komandir, düşmən "şilka"ları Şuşa istiqamətində hərəkət edir, – deyə kapitan Vüqar Qasımov Xankəndi tərəfdən qarşıdan bir "Kamaz", arxasınca isə üzərində hava qüvvələrini vurmaq üçün zenit-raket kompleksi quraşdırılmış tank tipli iki ağır texnikanın onlara doğru hərəkət etdiyini göstərdi. Mayor Rəhimov binoklla texnikanın hərəkət etdiyi istiqamətdə baxdıqda, "şilka"ların üzərindəki artilleriya qurğularının onların mövqeləndiyi əraziyə doğru çevrildiyini gördü.

– Ətrafa yayılın, teeez! Qumbaraatanlaaar, hazır oluuuun! – deyə binoklu gözündən ayırmadan əmr etdi...

Xüsusi təyinatlıların bir qismi silahlarını aşağı – Xankəndi istiqamətində, bir qismi isə yuxarı – Şuşa Qalası istiqamətində tuşlayaraq, aralarındakı məsafəni böyütməklə torpağa qısıldılar. İki qumbaraatan silahlarını çiyinlərinə qoyub "Kamaz"ın arxasınca hərəkət edən "şilka"ları nişan aldı. Amma atəş açmağa macal tapmamış düşmənin hər iki texnikası eyni anda alov saçdı. Düşmən yeri dəqiq təyin edə bilmədiyi üçün, əks-həmlə taborunun mövqeləndiyi ərazini deyil, onlardan bir qədər yuxarı, Şuşa Qalasının aşağı hissəsini nişan almışdı.

Qumbaraatanlar cəld yerlərini dəyişib yenidən "şilka"ları hədəfə götürdülər. Atəş açıldı. Hər iki zirehli texnika eyni anda alovlanıb yoldan çıxdı. Bir neçə avtomatçının eyni anda hədəf aldıqları "Kamaz" da yoldan çıxıb, böyrü üstdə çevrildi. Kuzovdakı əsgərlər cəld yerə atılıb, silaha

sarıldılar. Amma mövqeləndikləri yer dərhal qumbaraatan mərmiləri ilə havaya sovrulduğu üçün tez də susdular.

– Kapitan Qasımov, ikinci qrupdan on beş nəfəri mənimlə saxlayıb, qalanların hamısını götürüb Xankəndi tərəfdən gələn hücumun qarşısını almaq üçün aşağı enin. – Tabor komandiri Rəhimov özündən aşağıda mövqe tutan bölük komandirinə bağırdı: – Daş plitələrin ətrafında mövqelənib, düşmənin hücumunu qarşılamağa hazır olun!

– Oldu, komandir! – Bölük komandiri hər iki əlini yuxarı qaldırıb, hamının görəcəyi tərzdə "arxamca" işarəsi verdi. Tabor komandiri on beş nəfərdən ibarət qrupla qala divarlarına tərəf dartınınca, döyüş yoldaşlarına atəş dəstəyi vermək məqsədilə kapitan Şamxal Ağayevin rəhbərliyi ilə on nəfərdən ibarət xüsusi təyinatlı aşağı – asfalt yolun qırağına endi. Düşmənin hərəkətlərini izləyə bilmək üçün yol kənarındakı kolluqların arasında müvafiq yer seçib mövqeləndilər. Qalan qırx nəfərdən ibarət qrup kapitan Qasımovun ardınca təbii istehkam sayıla bilən plitə daşlara tərəf səmt aldı.

Havada iki düşmən qırıcısı qəfil peyda oldu. Onlar aşağı məsafədən süzərək, xüsusi təyinatlıların bir qədər əvvəl mövqeləndiyi ərazini sürəkli atəşə tutmaqla Laçın istiqamətində uçdular. Şuşa şəhərinin üzərində bir-birinin əks istiqamətində dövrə vurub ürək şəkli cızmaqla geri qayıtdılar. Yenidən saysız-hesabsız pulemyot güllələri və mərmilər endirərək, eyni ərazinin üzərindən ötməklə Xankəndiyə tərəf getdilər. Mayor Rəhimov uzandığı yerdən qalxıb üzü yuxarı hərəkətini davam etdirmək istəyəndə daha bir düşmən tankının Xankəndi yoluyla Şuşaya

doğru hərəkət etdiyini gördü. Tankın sürücüsü pusquya düşəcəyini hiss edib kapitan Ağayevin yol kənarında mövqelənmiş qrupuna yüz-yüz əlli metr qalmış geri dönüb əks istiqamətdə sürət götürdü.

Mayor Rəhimovun qrupu hərəkəti davam etdirmək üçün ayağa qalxmağa macal tapmamış eyni istiqamətdən daha beş tankın sürətlə Şuşa şəhərinə doğru şütüdüyünü gördü. Tanklar vurulmasınlar deyə yüksək sürətlə hərəkət edir və dayanmadan atəş açırdılar. Tankların atdığı mərmilərdən biri Şuşa Qalasının alt tərəfindən Şuşaya doğru uzanan qaz kəmərinin üzərinə düşüb borunu partlatdığı üçün qumbaraatanlar hədəfi nişan ala bilmədilər. Kapitan Şamxal Ağayevin qrupu da sürətlə hərəkət edən tanklara atəş açmağa macal tapmadı.

Tanklardan ikisi Şuşa şəhərinə buruldüğu zaman, üçü çöl yolla Laçın istiqamətində şütüdü. Tanklar gözdən itən kimi qarşıda bir "UAZ" markalı yük maşını, ardınca isə yetmiş-yüz nəfərdən ibarət canlı qüvvənin eyni yolla zəncir şəklində irəlilədiyi müşahidə edildi. Düşmən piyadaları səbrlə hərəkət edir, əks həmlə qruplarının yerlərini təxmini təyin edə bildikləri üçün Şuşa Qalasının aşağı tərəfindəki meşə massivini ardıcıl atəşə tutmaqla irəliləyirdilər. Xankəndi-Şuşa yolunun kənarındakı kolluqlarda mövqelənən kapitan Şamxal Ağayevin qrupu atəş açmağa tələsmir, sona qədər yerlərini düşməndən gizli saxlamağa çalışırdı. Bölük komandirinin niyyətini anlayan mayor Rəhimov düşmənin diqqətini hədəfdən daha uzaq olan öz qrupunun üzərinə cəlb etmək qərarına gəldi. Son döyüşdə

qrupuna qatılan gənc pulemyotçuya düşmən piyadalarının qarşısında hərəkət edən "UAZ"-ı nişan almağı əmr elədi.

Amma yenidən başları üzərində peyda olan düşmən qırıcıları atəş açmağa imkan vermədi. İki düşmən qırıcısı xüsusi təyinatlıların mövqeləndiyi bütün əraziləri bombardman edərək Laçın istiqamətində uçdu. Qırıcıların gurultusu uzaqlaşan kimi tabor komandiri:

– "UAZ"-ı nişan al, tez ol! – deyə pulemyotçuya bağırdı. Gənc pulemyotçunun gülləlləri hədəfdən yan keçdi. Amma düşmənə yerini bəlli etdi. Ətrafından uçuşan güllələrə baxmayaraq, mayor Rəhimov yerindən sıçrayıb, özünü gənc pulemyotçunun yanına atdı: – Ay Allah evini tiksin səniiiin, ver bura görüüüm! – deyə pulemyotu əsgərinin əlindən dartıb aldı. Dərhal yerini dəyişib, düşmən texnikasını hədəfə götürdü. Ardıcıl atəşlə gülləlləri "UAZ"-ın qabaq şüşəsinə yağdırdı.

"UAZ" istiqamətini dəyişdi, yoldan çıxıb dayandı. Canlı qüvvə yerə sərilib, növbəli manevrlə hərəkəti davam etdirməyə çalışırdı. Yolun kənarındakı kolluqlarda gizlənən kapitan Ağayevin və plitə daşların arxasında mövqelənən kapitan Qasımovun qrupu dərhal atəşə qoşuldu. Müxtəlif istiqamətlərdən atəşə tutulduğunu görən düşmən əsgərlərinin bir qrupu istiqamətlərini yolun əks tərəfindəki meşəyə tərəf dəyişib iki-bir, üç-bir manevr etməyə başladılar. Digər qruplar isə kapitan Qasımovun qrupunun üzərinə güllə yağdırır, plitə daşların böyür tərəfindən yol açaraq, qalaya tərəf dırmanmağa cəhd edirdilər.

Qalanın yuxarısında istehkam qurmuş düşmən də əks-həmlə taborunu yuxarıdan aşağı gülləyə tutmaqla

diqqəti yayındırmaq, hədəflərini müxtəlif istiqamətlərdə çoxaltmaqla Xankəndidən gələn köməyin onlarla birləşməsinə şərait yaratmağa çalışırdı. Elə bu an bir qədər əvvəl Xankəndidən gəlib Şuşaya girmiş iki tank da şəhərin girişindəki yanacaqdoldurma məntəqəsinin yaxınlığında mövqelənib, xüsusi təyinatlıları mərmi atəşinə tutdu. Mayor Rəhimov radionun düyməsini basıb, kapitan Ağayevə səsləndi:

– Şamxal, yanacaqdoldurma məntəqəsinin yanındakı tankları görürsənmi?

– Görürəm, komandir!

– Onları susdura biləcəksənmi?

– Susduraram, komandir! – Kapitan Ağayev əlaqəni kəsən kimi qrupdan beş nəfər özü ilə götürüb asfalt yolun qırağı ilə yanacaqdoldurma məntəqəsinə tərəf hərəkətə başladı.

Qrupun digər üzvləri isə ardıcıl atəş açmaqla qaçaraq meşəyə girmiş düşmən silahlılarının diqqətini kapitan Ağayevin getdiyi istiqamətdən yayındırmağa çalışdı. Kapitan Ağayev düşmən tanklarının iki-üç yüz metrliyinə qədər irəliləyib mövqeləndi. Bölük komandiri qumbaraatanı əsgərindən alıb özü çiyninə qoydu. Tankı nişan aldı. Amma Laçın yolundan çıxıb irəliləyən düşmənin iki PDM-inin Şuşa Qalasının altına qədər sıza bilmiş xüsusi təyinatlıların mövqelərini eyni anda atəşə tutması diqqətini hədəfdən yayındırdı. Dərhal çevrilib qarşıda hərəkət edən zirehli texnikanı hədəfə götürdü. Və atəş açdı. Zirehli texnikanın qülləsi alovlanıb dayandı. Arxasınca hərəkət edən ikinci maşın istiqamətini dəyişib gözdən itdi.

Bu an şəhərin içindən bir “UAZ”, bir “Ural” və bir “RAV-4” markalı maşın çıxıb, sürətlə Xankəndi yolu ilə irəli şütüdü. Düşmənin təkərli texnikasının məqsədi, görünür, əks-həmlə taborunun diqqətini özünə çəkməklə tankların onları vura bilməsinə şərait yaratmaq idi. Mayor Rəhimovun qrupu təkərli texnikanın məhv edilməsini öz üzərinə götürdü. Tabor komandiri öndə hərəkət edən “RAV-4”-ü avtomat atəşi ilə sıradan çıxarınca, pulemyotçuların sürəkli atəşi “RAV-4”-ün arxasınca hərəkət edən yük maşınlarını dayanmağa məcbur elədi. Xüsusi təyinatlılar yük maşınlarında əsgərlərin olacağını düşündükləri üçün hədəfi nişanda saxlamışdılar.

Kapitan Ağayevin qrupu yanacaqdoldurma məntəqəsinin yüz metrliyinə qədər yaxınlaşa bilmişdi. Bölük komandiri düşmənin zirehli texnikasının birini susdurandan sonra zərərsizləşdirilmiş təkərli texnikanın beş addımlığında mövqelənib, radio ilə maşınların kuzovunda düşmən piyadalarının olmaması haqda məlumat verdi. Digər tanklar və hədəfdən qaça bilən PDM şəhərin girəcəyində geri çəkilib diqqətdən yayındılar. Onlar növbə ilə gizləndikləri yerdən çıxıb əks həmlə taborunun mövqelərini atəşə tutur, tez də arxaları üstə geri çəkilib gözdən itirdilər. Müqaviməti gücləndirən düşmən intensiv atəşlə həm Xankəndi tərəfdən gələn köməyin hərəkətinə şərait yaradır, həm də ciddi-cəhdlə əks-həmlə taborunun qarşısını almağa çalışırdı.

Xüsusi təyinatlılar müxtəlif istiqamətlərdən – həm Xankəndi tərəfdən, həm Şuşa Qalasından, həm yanacaqdoldurma məntəqəsinin yaxınlığında gizlənib, növbə ilə onları atəşə tutan zirehli texnika tərəfindən, həm də bi-

linməyən səmtlərdən üzərlərinə yağan artilleriya atəşi altında qaldıqları üçün irəliləyə bilmir, mövqelərini dəyişməyə belə çətinlik çəkirdilər. Tabor komandiri mayor Rəhimov kapitan Qasımovla əlaqə saxlayıb, Qala divarlarına tərəf qrup göndərməsini əmr etdi. Kapitan Qasımov taqım komandirini yerində rəhbər təyin edib, on nəfərdən ibarət qrupla düşmənin gözləmədiyi yerdən, qayalıqlarla Qala divarlarına doğru dırmanmağa başladı. Bu zaman Xankəndi tərəfdən gələn yolda daha bir neçə əsgər daşıyan düşmən maşını peyda oldu. Maşınlar Xankəndi yolundakı ziqzaqı keçib, Şuşaya girişin təxminən iki kilometrliyinə qədər irəliləyib dayandılar. Əsgərlər kuzovdan atılıb, zəncir şəklində əks həmlə taborunun mövqeləndiyi əraziləri sürəkli atəşə tutmaqla irəliləməyə başladılar...

Yanacaqdoldurma məntəqəsinin yaxınlığında gizlənib düşmən texnikasının hərəkətini izləyən kapitan Ağayev:

– Diqqətinizi yalnız tanklar və PDM-in hərəkəti istiqamətində cəmləşdirin, uşaqlar, – deyə göstəriş verdi: – Biz onları mütləq sıradan çıxarmalıyıq! Yoxsa Qalaya çıxa bilməyəcəyik!

– Mən onu gördüm, komandir, baxın, baxın... – deyə əsgərlərdən biri baş barmağını düşmən tankının atəş açdıqdan sonra geri çəkildiyi istiqamətə uzatdı.

Kapitan Ağayev qumbaraatanı çiyninə qoyub dizi üstə yerə çökdü:

– Hamınız eyni istiqaməti izləyin! – deyə silahı atəşə hazır vəziyyətə gətirdi.

– Komandir, PDM... – əsgərlərdən biri pıçıltı ilə maşının uzaqdan ağacların arasından ehtiyatla irəli çıxdığını

göstərdi. Ağacların arasından yalnız bir hissəsi görünən zirehli texnika azacıq irəli sürünüb dayandı, lüləsini Şuşa Qala divarlarının aşağı hissəsindəki əks-həmlə taborunun mövqeləndiyi əraziyə tuşladı. Kapitan Ağayev ağacların arasından güclə sezə bildiyi düşmənin zirehli texnikasını tələsmədən nişan aldı. Əsgərlər nəfəslərini çəkib həyəcanla atəşin açılacağı anı gözləməyə başladılar. Eyni anda iki atəş açıldı. Qumbaraatan mərmisinin zərbəsi zirehli texnikanı yerindən tərpətdiyinə görə düşmən mərmisi nişan aldığı hədəfdə deyil, mayor Rəhimovun qrupunun mövqeləndiyi ərazidən bir qədər yuxarıda partladı.

Zirehli texnikanın tırtılı qırılmışdı. Bir qədər geri sürünüb hərəkətdən qaldı. Ekipaj tələm-tələsik kabinədən atılıb ağacların arasında gözdən itdi. Kapitan Ağayev cəld yerini dəyişib qumbaraatanı yenidən çiynində rahatladı, qrupla bərabər tankların gizləndikləri yerdən çıxıb atəş açmalarını görmək üçün pusquda durdu...

Mayor Rəhimov Xankəndi tərəfdən hərəkət edən düşmən bölüyünü göstərib, iki pulemyotçunun eyni hədəfi atəşə tutmasını əmr elədi, özü isə mövqeləndiyi yerdən çıxıb üzüyuxarı hərəkətə başladı.

Daha bir qrup düşmən xeyli sayda canlı qüvvə ilə şəhərin çöl yol istiqamətindəki girişindən manevrlə Qala divarlarının alt hissəsinə adlayıb, xüsusi təyinatlıları yuxarıdan pusquya salmaq üçün hərəkətə keçmişdi.

Kapitan Qasımov öz qrupu ilə qalanın alt tərəfinə doğru hərəkətə başlasa da, ikitərəfli atəş altında, sıldırım qayalarla hərəkət etdiyindən mövqeyə hələ də yetişə bilməmişdi. Mayor Rəhimov Şuşa Qalasından təxminən beş-altı

yüz metr aşağıda yerləşən səngərə atılıb, düşmənin yuxarı yolla hücumunun qarşısını almağa çalışdı. Bu an əməliyyat taborundan olan daha bir zabit özünü tabor komandirinin mövqeləndiyi səngərə yetirdi. Artıq düşmən snayperi tabor komandirinin hərəkətlərini nəzarətə götürmüş, səngərin üzərindən güllələr yağdırırdı.

Tabor komandiri döyüş yoldaşına atəşi davam etdirməyi tapşırıb, sıçrayaraq səngərdən çıxdı, sürətlə Qala istiqamətində yuxarı qaçmağa başladı. Düşmən tabor komandirini dayanmadan atəşə tutdu. Snayperin açdığı birinci atəş mayor Rəhimovun avtomatının qundağını parçaladı, ikinci atəş ayağının altında partladı. Komandir özünü yerə atıb, düşmən snayperinin gizləndiyi istiqaməti atəşə tutdu, amma gülləsi yetmədi. Cəld yerindən sıçrayıb, bir qədər yuxarıda şəhid olmuş iki Azərbaycan əsgərinin cəsədlərinin qaldığı yerə götürüldü. Hər iki şəhidin daraqlarını qamarlayıb, birini cəld avtomatına yerləşdirdi. Dərhal, elə ayaq üstdəcə düşmənin hərəkət istiqamətini sürəkli atəşə tutdu. Döyüş yoldaşlarının aramsız dəstəyini hiss edib, qalaya doğru hərəkəti davam etdirmək istədi. Amma ikicə addım atmışdı ki, bayaqdan hərəkətlərini nəzarətdə saxlamağa çalışan düşmən snayperi ayağından nişan aldı. Mayor Rəhimov səntirləyib, üzü üstə torpağa gəldi, amma hərəkətindən də qalmadı. Başının üstündən vıyıldayan, ətrafında torpağa sancılan güllə yağışı altında sürünərək özünü qarşıdakı meşəyə saldı...

Çöl yol istiqamətindən Qalanın alt tərəfinə doğru irəliləyən düşmənin atəş səsləri daha yaxından eşidilir, amma irəliləyiş hiss olunmurdu. Mayor Rəhimov daş plitələr is-

tiqamətindən qalxıb, Qalanın altına gəlmək tapşırığı alan kapitan Qasımovla əlaqə yaratmaq istəsə də, alınmadı. Görünür, başı döyüşə qarışan kapitan radionun səsin eşitmirdi. Mayor Rəhimov dərhal təyinat üzrə dəstə komandiri polkovnik Zaur Zeynalovla əlaqə yaratmağa çalışdı. Briqada komandiri ilk çağırışdaca cavab verdi.

– Cənab polkovnik, biz həm Xankəndi tərəfdən, həm də Şuşa tərəfdən atəş altında qalmışıq, – deyə məruzə elədi: – Xankəndi tərəfdən düşmən dayanmadan üstümüzə gəlir. Bizə dəstək göndərin!

– Kömək göndərirəm, mayor, narahat olmayın! – Briqada komandirinin arxayın səsi eşidildi: – İkinci briqadanın bir bölüyü və mayor Azər Məmmədov öz qrupu ilə çöl yol istiqamətindən sizə yaxınlaşır.

– Çöl yol istiqamətindən, cənab polkovnik? – Mayor Rəhimov yerində dikəlib, az qala bağıraraq bir daha soruşdu.

– Bəli, Zaur, çöl yol istiqamətindən! – Briqada komandiri tabor komandirinin sualına eyni tərzdə gümrah səslə cavab verdi: – Bizimkilər artıq həm Daşaltı tərəfdən, həm də Qala tərəfdən Şuşanın içərisinə sıza biliblər. Siz Xankəndidən gələn hücumun qarşısını almağa çalışın! – Əlaqə kəsildi. Mayor Rəhimov arxası üstə yaş torpağın üzərinə uzanıb dərindən nəfəs aldı.

Hava qaralmağa başlamışdı. Atəş səsləri kəsilmir, getdikcə daha yaxından eşidilirdi. Radioda kapitan Qasımovun səsini eşidib, taqətdən düşməkdə olan qolunu sinəsinin üstünə sürüşdürdü. Radionun düyməsini basıb, dərhal da soruşdu:

– Xankəndi tərəfdən hücum davam edirmi, Vüqar?

– Hücuma çalışırlar, komandir, amma dərhal da yerlərində otuzdururuq.

– Sən indi hardasan, kapitan?

– Mən artıq öz qrupumla Şuşa Qala divarlarına yaxınlaşıram, komandir.

Əlaqə kəsildi. Mayor Rəhimov dirsəklərinə dayaqlanıb, kürəyini torpaqdan qaldırdı. Ayağında ağrı hiss edib yaralandığını xatırladı. Qan itirməsin deyə budunu rezinlə sıxıb, avtomatına dayaqlanaraq ayağa qalxdı...

* * *

Qruplarla əlaqəli şəkildə fəaliyyət göstərən xüsusi təyinatlı qüvvələr artıq müxtəlif istiqamətlərdən Şuşa şəhərinə yaxınlaşmış, düşmənin müqavimətini qıraraq bir sıra vacib yüksəklikləri ələ keçirə bilmişdilər. Amma düşmən məğlubiyyətlə barışmır, itirdikləri mövqeləri geri qaytarmaqdan ötrü bütün vasitələrə əl atırdı. Laçın koridorunu yarıb keçən xüsusi təyinatlıların tabor komandiri mayor Zaur Rəhimov öz qrupu ilə Şuşa şəhərini çöl yolla arxa tərəfdən adlayıb, Xankəndi tərəfdən Qalaya yaxınlaşırdı. Xüsusi təyinatlıların digər qrupları müvafiq mövqelər seçərək, müxtəlif istiqamətlərdən addım-addım şəhərə yaxınlaşır, düşməni qarış-qarış geri çəkilməyə məcbur edirdi.

Xüsusi təyinatlıların kapitanı, qrup komandiri Ceyhun Təhməzov öz qrupu ilə qarşı tərəfdən, Daşaltı istiqamətindən Şuşaya yaxınlaşmağa başlamışdı. Qarşıda 1400, ardınca 1553 nömrəli yüksəklik, sağ tərəfdə Şuşakənd, sol tərəfdə Daşaltı kəndi yerləşir, arxada isə Şuşa şəhəri uca-

lırdı. 1400 və 1553 nömrəli yüksəklikləri götürmədən qarşı tərəfdən Şuşa şəhərinə girmək qeyri-mümkün görünürdü. Qrup yalnız düşmənin bu yüksəkliklərdəki qüvvələrini məhv etdikdən sonra aşağı enib, Daşaltıdan Şuşaya qalxa bilərdi.

1400 nömrəli yüksəkliyin ətəyinə gecə saat iyirmi üç radələrində çatdılar. Qarşıdakı sərt qayanın üzünü noyabr gecəsinin soyuq küləyi yaladıqca nərildəyir, çiskin yağış, axın-axın ötən duman karvanı narın-narın dənələrini ələyirdi. Yüksəkliyə bu sürüşkən və sərt qayadan qalxmalıydılar. Qayalığın üstündə diametri təxminən iyirmi-iyirmi beş santimetr olan pərakəndə formada ağaclar bitmiş və bu ağaclar qayalara paralel şəkildə səmaya millənmişdi.

Bir neçə xüsusi təyinatlı mövqelənib ətrafı müşahidə etməyə başlayanda digərləri süngü-bıçaqlarını çıxarıb, qayaya dırmanmağa başladılar. Bir-birindən tutmaqla, kəndirlərin və süngü-bıçaqların köməyi ilə yüksəkliyə qalxan xüsusi təyinatlılar səkkiz, on nəfərdən ibarət düşmən əsgəri ilə göz-gözə gəldilər. Arxa tərəflərindən peyda olub silahlarını qəfildən üzlərinə tuşlayan Azərbaycan əsgərini qarşılarında görən düşmən müqavimət göstərməyə cəhd etsə də, imkan tapmadan məhv edildi. Qrupun bir neçə üzvü yüksəklikdə, digərləri isə aşağıda mövqe tutub səhəri gözlədi. Səhər erkən ətrafı diqqətlə müşahidə edib, növbəti yüksəkliyi ələ keçirmək üçün hərəkətə keçəcəkdilər.

Həmişəki noyabr sabahı kimi səhər dumanla gəldi. 1400 nömrəli yüksəklik bütün ətrafı müşahidə etmək, düşmənin yerini təyin etmək, hərəkət istiqamətini planlamaq üçün geniş imkanlar yaradır, amma təbiəti boz yorğanı

altında gizləyən duman onları gözləməyə məcbur edirdi. Görünməzlik ətrafı tez bir zamanda təhqiq edib fəaliyyətə başlamaq üçün tətikdə dayanan xüsusi təyinatlıları az qala kor eləmişdi. Qarşıda isə onları Şuşanı cənubdan mühafizə edən ən güclü istehkam sayılan 1553 yüksəkliyi gözləyirdi. Hava yolu ilə Şuşa şəhərinin iki min iki yüz metr məsafəsində yerləşən yüksəkliyin işğal altında olan mədəniyyət mərkəzi ilə eyni səviyyədə olması həm Şuşanı, həm də bütün ətrafı nəzarətdə saxlamaq imkanı yaradırdı. Yüksəkliyin sərt qayaların üstündə yerləşməsi və düşmənin həmin qayaların ətrafında qurduğu pusqular 1553-ü keçilməz səddə çevirmişdi.

Saat on radələrində duman parçalanmağa başladı. Kəşfiyyatın gətirdiyi xəbərləri dəqiqləşdirərkən məlum oldu ki, düşmən 1553 nömrəli yüksəkliyin qarşısında, Daşaltı kəndinin girişindəki düzənlik ərazidə səngərlər qazaraq iyirmi-iyirmi beş nəfərdən ibarət qüvvə yerləşdirib. Həmin qüvvənin qarşısında isə əks həmlə qruplarının diqqətini öz üzərlərinə cəlb etmək kimi mühüm bir tapşırıq qoyulub. Düşmən əks həmlə qüvvələrini həmin əraziyə cəlb etməklə həm başları üzərində olan 1400 və 1553 nömrəli yüksəkliklərdən, həm də artilleriya qurğuları yerləşdirdikləri digər mövqelərdən onları vuraraq asanlıqla sıradan çıxarmaq istəyirdi.

Briqada komandiri ilə əlaqə yaradan kapitan Təhməzov düşmənin düzənlikdə yerləşdirdiyi pusqu qrupu üzərinə həmlə etmək üçün əlavə qüvvə göndərməyi xahiş etdi. Bu, 1553 nömrəli yüksəkliyə doğru hərəkət edən xüsusi təyinatlılardan düşmənin diqqətini yayındırmağa xidmət

edəcəkdi. Qrup 1400 nömrəli yüksəkliyi mövqeyə günün ikinci yarısı çatan digər bölmələrə təhvil verib, 1553 nömrəli yüksəkliyə doğru hərəkətə başladı. Eyni zamanda motoatıcı qüvvələrin bir taqımı Daşaltı ilə 1553 arasındakı düzənlikdə yerləşdirilmiş düşmən mövqelərinə doğru hərəkətə keçdi. Düzənlikdən öz üstünə hərəkət hiss edən düşmən cavab atəşi verməyə tələsmədi. Planlarına uyğun olaraq əks-həmlə qüvvələrinin daha açıq sahəyə irəliləməsinə qədər susmağa üstünlük verdilər...

Günbatana doğru duman qorxusundan ərşə çəkilmiş, axşamdan qayaları nərildədən külək dağların ulğumunda ilişmiş, nəfəsi kəsilmişdi. Torpağı narın-narın isladan sısqa yağış yerin təkinə çökmüşdü. Təbiət ildırım gözləyən bulud kimi nəfəsini içinə çəkib, mayasını udmuşdu. Yüksəklikdəki düşmən artilleriya qurğularını və kiçik çaplı silahları düzənlikdəki əks-həmlə qrupunun hərəkət etdiyi istiqamətdə tuşlayıb, nəfəs belə almadan diqqət kəsilmişdi.

Xüsusi təyinatlılar kiçik çaplı silahlarını bədənlərində nizamlayıb, hər iki əllərində tutduğu süngü-bıçaqla səbrlə üzüyuxarı, yüksəkliyə dırmanmağa başlamışdılar. Ara-sıra eşidilən atəş səsi getdikcə intensivləşir, qarşıdakı dağlarda partlayan artilleriya mərmiləri vahimə ilə əks-səda verirdi. Yüksəklikdəki mövqelərində uzanaraq silahlarını düzənlikdə ehtiyatla irəliləyən əks-həmlə qrupuna tuşlayan düşmən nəfəsini dərmədən məqam gözləyirdi. Xüsusi təyinatlılar düşməni bacardıqca sayıq salmamağa çalışır, kəndir üzərində yeriyirmiş kimi hərəkətlərini tənzimləyərək addımlarını ehtiyatla atırdılar.

Atəş açmaq üçün hazır duran düşmən diversiya qrupu xüsusi təyinatlıların artıq yüksəkliyi qalxıb üstünə yeriyəndə xəbər tutdu. Dərhal da çevrilib əlli-altmış metr yaxınlığına qədər sıza bilmiş kəşfiyyat qrupunu nişan aldı. Manevrlə irəliləyən əks-həmlə qrupu bir neçə düşmən əsgərini silahdan istifadəyə macal vermədən yerindəcə məhv etdi. Kapitan rütbəli düşmən zabiti əl qumbarasının həlqəsini çəkib atmaq istəyəndə kapitan Təhməzovun tolazladığı bıçaq onun sinəsinə saplandı. Düşmən zabiti dizləri üstə yerə çöküncə qumbara boşalmış əlindən qarşısına düşdü. Kapitan Təhməzov və səkkiz-on metrliyində düşmən üzərinə irəliləyən xüsusi təyinatlılar cəld özlərini torpağa atdılar. Partlayışdan dərhal sonra qalxıb əks – silsilə qayalar istiqamətində qaçmağa cəhd göstərən düşmən əsgərlərini nişan aldılar. Qayanın kənarlarına qədər qaça bilmiş düşmən əsgərləri səntirləyib qayadan aşağı yuvarlandılar. Amma qayada bitən ağaclara ilişib qalma ehtimalını nəzərə alan xüsusi təyinatlılar arxadan bir əl qumbarası da atıb geri çəkildilər.

Cəld geri aldıqları mövqelərdə yerləşib düşməndən qalan artilleriya qurğularını atəşə hazır vəziyyətə gətirdilər. Düzənlikdə diqqəti cəlb etməyən səngərlərdə mövqelənib, səbrlə əks-həmlə taqımının hərəkətini izləyən düşməni nişan aldılar. Qrup komandiri:

– Hərəkəti dayandır, döyüşə! – deyə radionun düyməsini basaraq motoatıcı taqımın komandirinə əmr etdi.

Taqım məsafəli şəkildə yerə uzanıb, sürəkli olaraq düşmən səngərini atəşə tutdu. Əli tətikdə də olsa, belə tez reaksiya gözləməyən düşmən qarşılıq verməyə tələsmədi,

taqımın qalxaraq daha da irəliləyəcəyini, səngəri tutmağa cəhd göstərəcəyini gözlədi. Əlverişli şərait yaranan kimi düşmən 1553-dəki qüvvələrinə atəşə başlamaq üçün işarə verəcəyini, ardınca da atəşə qoşulub əks-həmlə taqımını qısa bir zamanda sıradan çıxaracağını planlamışdı. 1553-dən atəş düşmənin işarəsindən və gözlədiyindən daha tez başladı. Yüksəklikdə mövqelənən xüsusi təyinatlılar düşmənin pusqu qrupunu özlərindən götürdükləri artilleriya qurğuları ilə qəfil atəşə tutdu. Düşmən mövqeləndiyi səngərdəcə qısa bir zamanda zərərsizləşdirildi. Dərhal da motoatıcı taqım irəliləyib, məhv edilmiş düşmən səngərində yerləşdirildi...

Hava qəfil soyudu. Yüksəklikdə qayalara çırpılan külək öz xışıltısı ilə xüsusi təyinatlıların tərdən tamamilə islanmış bədənlərinə bıçaq kimi işləməyə başladı. Əsgərlər çiyin çantalarını axtarsalar da nə yeməyə, nə də yaş paltarlarını dəyişməyə bir şey tapdılar. Xüsusi təyinatlılar mövqeni motoatıcı qruplara təhvil vermədən yüksəklikdən enməyəcəkdilər. Yeni qüvvələrin gəlişi isə ertəsi günün ikinci yarısına gözlənilirdi. Geri aldıqları mövqelərdə möhkəmlənən döyüşçülər soyuğun təsirini tərdən islanmış kürəklərini, yalnız bir-birinə dayamaqla azaltmağa çalışdılar.

Əks-həmlə qrupu səbrsizliklə dumanın çökməsini gözləyirdi. Qatı qaranlıq Şuşa dağlarının sıx dumanına qarışıb, onları görünməzlik yorğanına bürüyəndə ocaq çata biləcəklərini zənn edirdilər. Qarşıda – Şuşa şəhərində yanan işıqlar isə hələ də közərtisini itirməmişdi...

– Komandir, arxa tərəfdən, aşağıdan səs eşitdim! – Əsgər Şirxan Xanməmmədov yaxınlaşıb gecəgörmə cihazı ilə qarşı tərəfi müşahidə edən kapitan Təhməzova məruzə etdi.

– Ola bilməz, Xanməmmədov, – qrup komandiri əsgərə tərəf çevrildi: – Arxa tərəfdə bizim bölmələrimiz yerləşir, düşmən kəşfiyyatının onları adlayıb keçməsi qeyri-mümkündür. Bizimkilər isə məlumat vermədən hərəkət etməzlər. – Kapitan ətrafı dinşəməyə mane olacaqmış kimi astadan izahat verdi: – Düşmənin gəlmə istiqamətini isə biz yaxşı bilirik.

– Eşitdim, komandir, Allah haqqı, eşitdim. Rusca danışırdılar. "Davay, davay" sözləri aydınca eşidildi, sonra səs kəsildi.

– Yaxşı, Şirxan, sən uşaqlara xəbər ver. Bir nəfər də özünlə götürüb tez ardımca gəl... Ətrafı ciddi şəkildə müşahidə etməklə təxminən qırx-əlli metr aşağı endilər. Yerə çöküb bütün ətrafı nəzərdən keçirdilər. Diqqəti cəlb edən olmadı. 1553 nömrəli yüksəklik götürüldükdən dərhal sonra yerdəyişmə edilərək ön cəbhəyə yaxınlaşdırılmış qərargah istiqamətində hərəkətə başladılar. Təxminən iki yüz metr irəlilədikdən sonra əsas qərargahın yerləşdiyi yerdən yüz metr arxada on iki-on üç nəfərdən ibarət bir qrupun toplaşdığı diqqətlərini cəlb etdi. Kapitan Təhməzov düyməsini sıxıb, radionu dodaqlarına yaxınlaşdırdı:

– Komandir, dəstək üçün əlavə qüvvə, yaxud təminat çağırmısınızmı? – məruzə etmədən sual verdi.

– Xeyr, kapitan! – Radio dalğaları dərhal da qrup komandirinin az qala cihaza yapışdırdığı qulaqlarında titrədi.

– Arxanızda on iki-on üç nəfərdən ibarət adam toplaşıb, komandir! – Kapitan Təhməzov məruzə elədi.

– Dəqiqləşdir, Ceyhun! – Səhra komandiri polkovnik-leytenant Füzuli İmrəliyev göstəriş verdi.

Qrup komandiri radio əlaqəsini kəsən kimi hər üçü silahlarını hazır vəziyyətə gətirərək şübhəli obyektə tərəf yeriməyə başladı. Ayaq üstə ehtiyatla qərargaha doğru hərəkət edən şübhəli obyekt onlara tərəf addımlayan üç nəfər xüsusi təyinatlını görüncə yerlərində durdu. Kapitan Təhməzov:

– Dayan, parol! – deyə ucadan əmr etdi. Kapitanın amiranə səsini eşidən şübhəlilər dərhal yerə çöküb silahlarını xüsusi təyinatlılara tuşladılar. Silahdan istifadə etməyə macal tapmamış polkovnik-leytenant Füzuli İmrəliyevin radiodan eşidilən tələskən və təlaş dolu səsi kapitan Təhməzovun qulaqlarında xırıldadı:

– Ehtiyatlı olun, Ceyhun, bunlar düşmən kəşfiyyatıdır!...

## Pusquya qarşı pusqu

Xüsusi təyinatlılar dərhal yerə çökdülər. Təyinat üzrə dəstə komandiri polkovnik-leytenant Füzuli İmrəliyevin: "Ehtiyatlı olun, Ceyhun, bunlar düşmən kəşfiyyatıdır!..." – deyə zamanında verdiyi məlumat düşmənin on iki-on üç nəfərdən ibarət diversiya qrupuna qarşı üç nəfərin üstünlük əldə etməsinə və qabaqlayıcı tədbir görməsinə şərait yaratdı. Aralarındakı yetmiş beş metr məsafədə müdafiə olunmaq üçün heç bir maneə olmayan meydanda üz-üzə gələn iki düşmən qrupu bir-birini nişan aldı. İlk və sər-

rast atəşin ardınca xüsusi təyinatlılar eyni anda iki əl qumbarasını diversiya qrupunun üzərinə tolazladı. Düşmən kəşfiyyatçıları özlərini yerə atdılar. Xüsusi təyinatlılarsa partlayış baş verən ərazi ilə aralarındakı məsafənin altmış metrdən çox olduğunu nəzərə alaraq yerə uzansalar da, atəşi dayandırmadılar.

Əl qumbarasının qaldırdığı toz-duman yerə çökmədən düşmən diversiya qrupundan sağ qalmış bir neçə nəfər ayağa qalxdı. Onlar xüsusi təyinatlıların uzandıqları səmtə atəş aça-aça gəldikləri istiqamətdə geri çəkilməyə cəhd göstərdilər. Amma kapitan Təhməzovun avtomatın darağını dəyişmə zamanından yalnız üç düşmən kəşfiyyatçısı istifadə etməyi bacardı. Digərləri Şirxan Xanməmmədov və onunla bərabər döyüşə qatılan əsgər Nihal Bədəlovun açdığı sürəkli atəş nəticəsində məhv edildi. Düşmən diversiya qrupundan yalnız üç nəfər gəldikləri istiqamətdə qaçaraq qaranlıqda yox oldu.

Xüsusi təyinatlılar ehtiyatla yaxınlaşıb, məhv edilmiş düşmən diversiya qrupunun cəsədlərini və bütün ətrafı diqqətlə yoxladılar. Kapitan Təhməzov polkovnik-leytenant Füzuli İmrəliyevlə əlaqə saxlayıb son vəziyyət haqqında məlumat verdi və ərazidə on nəfərdən ibarət düşmən cəsədinin qaldığını bildirdi.

– Cəsədlərlə nə edək, komandir? – deyə xəbər aldı.

Təyinat üzrə dəstə komandiri:

– Siz briqadanı böyük bir təhlükədən qurtardınız, kapitan! – Qrup komandirinin sualına cavab vermədən: – Təşəkkür edirəm, Ceyhun! – səmimiyyətlə söylədi: – İndi isə dərhal mövqeyinizə qayıdın. Yüksəkliyi motoa-

tıcı qruplara təhvil verənə və növbəti tapşırıq alana qədər mövqeni qoruyun! – deyə əmr etdi: – Unutmayın, kapitan, 1553 nömrəli yüksəklik bizim üçün son dərəcə əhəmiyyətli və strateji bir mövqedir. Bu yüksəklik bizim üçün nə qədər əhəmiyyətlidirsə, düşmən üçün də bir o qədər, hətta daha artıq əhəmiyyətlidir. Ona görə də nəyin bahasına olursa-olsun, düşmən onu geri almağa çalışacaq. – İzahat verdi: – Diqqətli və son dərəcə ehtiyatlı olun! Allah amanında!

– Oldu, cənab polkovnik-leytenant!...

Gecə boyu hava bir neçə dəfə dəyişdi. Əvvəlcə duman gəldi, ardınca yağış səpdi. Narın-narın yağan yağış çox keçmədi ki, qaranlığı bozardan dumanı ağırlayıb onun üstünə çökdü. Kapitan Təhməzov öz qrupu ilə səhəri Şuşanın yaşaran, kədərdən öləzimiş, ağlamaqdan qarası getmiş, uzaqdan zəif közərən pərişan gözlərinə baxa-baxa açdı...

Zülmət süzülüb soldu. Qaranlıq zəif işıqdan bulandı. Həyəcandan ürək kimi çırpınan Şuşa şəhərinin uzaqdan rəngi bozardı...

– Tezliklə orada olacağıq, İnşaAllah! – deyə qrup komandiri dərindən köks ötürdü. Kapitan Təhməzova bağlıymış kimi hamı səhərin soyuq havasını acgözlüklə ciyərlərinə çəkib: – İnşaAllah! – deyə uzun-uzadı havaya buraxdı.

– Komandir, – sol tərəfində mövqe tutan kapitan Mirzə Musayev əlini qarşıya – bir gün qabaq düşməndən geri alınıb, motoatıcı qüvvələrin mövqeləndiyi düzənlikdəki əraziyə tərəf uzadaraq: – Gələn var, komandir! – pıçıldadı. Kapitan Təhməzov binoklu gözünə yaxınlaşdırıb diqqətlə müşahidə apardı. Sonra öz-özünə danışırmış kimi:

– Bunların heç bir-birindən xəbəri də yoxdur, – deyə dilləndi: – Bununla da torpaq iddiasına düşür, bizimlə müharibəyə qalxırlar. Bədbəxtlər! Düşmənin "Ural" markalı üç maşını düzənlikdəki ermənidən geri alınmış mövqeyə doğru hərəkət edirdi: – Hm, təminat gətirirlər bizimkilərə. – İstehza ilə gülümsədi: – Qoy gətirsinlər, elə buna ehtiyacımız vardı. – Hamı gülüşdü. – Radionu dodaqlarına yaxınlaşdırıb gözünü maşınların hərəkət etdiyi istiqamətdən ayırmadan düzənlikdəki səngərdə mövqe tutmuş motoatıcı qrupun komandiri ilə əlaqə saxladı: – Neçə vaxtdır təminat almırsınız, komandir? – deyə soruşdu.

Taqım komandiri dərhal cavab verdi:

– Sonuncu dəfə nə vaxt təminat aldığımızı xatırlamıram, cənab kapitan.

– Hazırlaşın, indi alacaqsınız! – Qrup komandiri çevrilib maraqla onların söhbətini izləyən xüsusi təyinatlılara nəzər yetirdi: – Ermənilər şəxsən özləri sizə təminat gətirirlər! – əlaqəni kəsib: – Siz də hazırlaşın, uşaqlar, – deyə ətrafında mövqelənən döyüş yoldaşlarına tapşırıq verdi.

– Anladım, komandir, – motoatıcı qrupun komandiri də əlaqəni kəsdi.

Xüsusi təyinatlıların leytenantı Cavad Səmidov düşməndən qənimət götürdükləri artilleriya qurğusunu atəşə hazır vəziyyətə gətirib, motoatıcı qrupun mövqeləndiyi əraziyə doğru hərəkət edən sonuncu "Ural"ı nişan aldı... Yaxınlaşdıqca sürəti azaldan düşmən texnikası səngərlərdən təxminən on beş-iyirmi metr arxada, bir-birindən beş-altı metr məsafə saxlamaqla dayandı. Bir neçə dəqiqəlik sükutdan sonra qarşıdakı maşının kabinəsində oturan

düşmən zabiti aşağı düşüb, əvvəlcə ətrafı bir daha müşahidə etdi, sonra əyilə-əyilə asta-asta səngərə doğru hərəkət etməyə başladı. Səngərin beş-altı metrliyində səssizlikdən şübhələnib dayandı. Avtomatını sol əlinə keçirib əl qumbarasını çıxartdı.

Səngərdə mövqe tutan motoatıcı qrup düşmən zabitinə əl qumbarasının həlqəsini çəkməyə fürsət vermədi. Qəfil və sərrast avtomat gülləsi düşmən zabitinin sinəsini parçaladı. Bayaqdan kabinədən düşməyib gözləyən, səbrlə komandirlərini müşahidə edən “Ural” maşınlarının sürücüləri texnikanı dərhal geri çevirməyə cəhd göstərdilər. Motoatıcı qrupun bütün əsgərləri eyni anda hər üç düşmən texnikasının təkərlərini nişan aldı. Təkərləri partlayan maşınlar dayandı. İkinci və üçüncü maşından düşən sürücü və əsgərlər maşınların arxasına keçib yerə uzandılar və qarşı tərəfi ardıcıl avtomat atəşinə tutdular.

Birinci maşının sürücüsü aldığı güllə yarasından maşındaca ölmüşdü. Kapitan Təhməzov üzünü atəş açmayıb bayaqdan əmr gözləyən xüsusi təyinatlılara tutub:

– Snayperlər, döyüşə! – deyə göstəriş verdi: – Çalışın texnikaya ziyan vurmayın. Motoatıcıların təminata ehtiyacı var. Eyni anda həm 1553-dən snayper atəşinə, həm də düzənlikdəki səngərdən avtomat atəşinə tutulan düşmən qısa müddətdə məhv edildi.

Motoatıcı qrupun əsgərləri ehtiyatla qənimət götürülmüş texnikaya yaxınlaşıb yoxlama apardıqdan sonra komandirləri:

– Düşmən məhv edildi, cənab kapitan. Maşınlarda canlı qüvvə yoxdur, – deyə kapitan Təhməzova məruzə etdi...

1553 nömrəli yüksəkliyi azad edən xüsusi təyinatlıları əvəz edəcək piyada qoşunların gəlişi gecikirdi. Motoatıcılar dağ massivinə qalxmaqda çətinliklə üzləşmişdilər. Düşmən 1553-ün aşağısında, Daşaltı kəndinin qarşısındakı düzənlikdə qurduğu pusqunun aşkar olunub məhv edildiyini biləndən sonra artıq silsilə boyunca bütün ərazilərin Azərbaycan silahlı qüvvələri tərəfindən götürüldüyünü anlamışdı. Və aramsız artilleriya atəşi başladı. Bir neçə dəqiqə içində yüksəklik və bütün ətraf düşmənin iriçaplı silahlardan yağdırdığı saysız-hesabsız mərmi yağışı altında amansız tufanın altını üstünə çevirdiyi bir okeana bənzədi.

Atəş nöqtələrini təyin etməkdə çətinlik çəkdikləri və cavab atəşi açmaq imkan xaricində olduğu üçün xüsusi təyinatlılar yalnız müvafiq yerlər seçib gizlənmək, özlərini qəlpələrdən qorumaqla müdafiə olunmaq qərarına gəldilər. İki saatdan artıq davam edən bombardman yüksəklikdəki bütün ağacları yerlə yeksan edib, torpağın altını üstünə çevirdi. Yalnız axşam düşdükdən, hava qaraldıqdan, yüksəklikdə artıq canlı bir varlığın qalmadığına əmin olduqdan sonra düşmən artilleriyası susdu.

Kapitan Təhməzov dartınaraq üstünə qalaqlanmış torpağın altından çıxıb ətrafa boylandı. Gözlərinə toz-torpaq dolduğu üçün heç nə görə bilmədi. Silkələyərək başının toz-torpağını təmizləməyə çalışdı. Və anladı ki, eşitmir. Ətrafında partlayan saysız-hesabsız mərmilərin gurultusundan qulaqları tutulmuş, başı ağırlaşıb zindana dönmüşdü. Ovuşdurub gözlərini təmizlədi. Və qarşısında kölgə kimi iki nəfərin diz üstə çöküb onunla danışdığını gördü.

Gözlərini yumub gözlədi. Və göz qapaqlarını açanda qarşıdakıları tanıdı. Əsgər Şamo Əsgərov və rabitəçi Şahram Diniyev dayanmadan nəsə deyir, həyəcanla nəyisə anlatmağa çalışırdılar. Qrup komandiri isə onları eşidə bilmirdi.

Əsgərlər komandirlərini anlamışdılar. Rabitəçi Şahram Diniyev qrup komandirinin yanında oturub gözləməyə başlayınca, Şamo Əsgərov uzaqlaşıb gözdən itdi. Kapitan Təhməzov eşitməsə də, fikirlərini ifadə edə bildi:

– Nə olub, Diniyev? – deyə soruşdu. Komandirinin vəziyyətini anlayan Diniyev sifətini ona yaxınlaşdırıb pıçıltı ilə, – Şirxan Xanməmmədov şəhid oldu, komandir!... – dedi.

Kapitan Təhməzov dodaqlarının tərpənişindən, ifadə tərzindən əsgərinin nə dediyini anladı. Dirsəklərini dizlərinə dayaqlayıb, başını əllərinin arasına aldı:

– Şəhadətin mübarək, qardaşım!...

Qrup komandiri eşitməsə də, rabitəçi Şahram Diniyev davam elədi:

– Elvin Sadıqov şəhid oldu, komandir!... – susdu, amma səbri çatmadı: – Seymur İbrahimov şəhid oldu, komandir!... – Rabitəçi komandirinin onu eşitmədiyini anlamışdı. Amma heç kim eşitməsə də, danışmaqdan, ürəyini boşaltmaqdan qalmırdı. Deməsəydi, danışmasaydı, ürəyi partlayacaqdı sanki. Dağlara, daşlara söyləyirdi dərdini sanki.

Kapitan Təhməzovsa beynində guruldayan, qulaqlarında əks-səda verən daha birinin şəhid olduğu xəbərini eşitməsin, daha bir döyüş yoldaşının həyatına son verildiyini duymasın deyə, sanki tutulmuş qulaqlarını var gücü ilə

sıxıb qapadı, ağırlaşmış başını ovucları arasına alıb susdu. Rabitəçi Diniyevsə hələ də ürəyini boşaldıb bitirməmişdi, gözlərini məchul bir nöqtəyə zilləyib, bir-bir şəhid yoldaşlarının adlarını sadalayırdı...

***

Mövqeni təhvil almağa tələsən qüvvələr gecənin qaranlığından və qatı dumandan istifadə edərək, yüksəkliyə doğru hərəkətə başladılar. Çətin relyef və əlverişsiz hava şəraiti motoatıcı qüvvələrin hərəkətini ləngitsə də, səhər erkəndən özlərini yüksəkliyə çatdıra bildilər. Dərhal mövqelənib düşmənin bütün hərəkət istiqamətlərini nəzarətə götürdülər. Bir neçə saat səssizlikdən sonra eşitmə qabiliyyəti bərpa olan qrup komandiri Təhməzov təyinat üzrə dəstə komandiri polkovnik-leytenant Füzuli İmrəliyevlə əlaqə saxlayıb, mövqeni təhvil vermələri haqqında məruzə elədi. Füzuli İmrəliyev bütün gecə boyu əlaqə yaratmağa çalışsa da, texniki nasazlıq və bombardman nəticəsində müvəqqəti olaraq eşitmə qabiliyyətini itirdiyi üçün kapitan Təhməzov ona cavab verə bilməmişdi. Ona görə də dəstə komandiri:

– Şəhid və yaralılarımız varmı? – deyə dərhal soruşdu.

– Şəhidlərimiz də, yaralılarımız da var, komandir! – qrup rəhbəri təəssüflə bildirdi.

– Şəhidləri də, yaralıları da götürüb dərhal aşağı enin! – Polkovnik-leytenant İmrəliyev əmr elədi. Cümləsinə nöqtə qoymadan da: – Yaralılara vaxtında tibbi yardım göstərmək üçün həkim heyətimizi sizi qarşılamağa göndərirəm, – əlavə elədi: – Şəhid və yaralıları onlara təhvil verib Şuşa istiqamətində hərəkətə başlayın. – tapşırıq verdi: – Amma

yüksəklikdən enərkən ehtiyatlı olun, Ceyhun. Unutmayın, düşmən artilleriyası hələ də yüksəkliyi nəzarət altında saxlamaqda davam edir!... – məsləhət verdi.

Duman süzülüb yüksəklikdən aşağı endi, dağa-daşa, kola-kosa, bir gün qabaq saysız-hesabsız mərmi qəlpələrinin qoparıb qalaq-qalaq dərələrə yığdığı ağac parçalarına ilişib qaldı və getdikcə qatılaşmağa başladı. Yuxarı hissəsi səhərin tərtəmiz, apaydın şəffaf havasında bərq vurduğu halda, çiynindən aşağısı kürəklərini ağ kəlağayıyla örtmüş gəlin kimi dumana büründü. Kapitan Təhməzov:

– Tez olun, uşaqlar! Nə qədər ki, duman çəkilməyib, tez aşağı enməliyik, – deyə döyüş yoldaşlarını tələsdirdi.

Xüsusi təyinatlılar şəhid və yaralıları çiyinlərinə qaldırıb, hərəkətə başlamaq üçün əmr gözləyən zaman kapitan Təhməzov mövqeni təhvil almış motoatıcı taqımın komandirinə yaxınlaşdı: – Görürsünüzmü, komandir, – çevrilib əlini döyüş yoldaşlarının çiyinlərindəki şəhid və yaralılara tərəf uzatdı: – Yüksəkliyi bu qardaşlarımızın qanı bahasına aldıq və şəhidlərimizin canı hesabına qoruyub saxladıq! İndi onu sizə əmanət edirik. Onu yaxşı qoruyun! – deyə çevrilib döyüş yoldaşlarına tərəf addımladı. Sıranın qarşısında durub, bir daha üzləri his-pasdan tanınmaz halda olan, sifətlərindən hüzn yağan, gözlərindən yorğunluq və yuxusuzluq süzülən xüsusi təyinatlılara və onların çiyinlərindəki şəhid və yaralılara diqqət yetirdi. Heç bir hərbi komanda vermədən: – Getdik, uşaqlar! – deyə asta, amma hamının eşidə biləcəyi yumşaq tərzdə dilləndi. Döyüş yoldaşları addımlarını atınca bayaqdan yerindən tərpənməyib hələ də heyranlıqla xüsusi təyinatlıları müşahidə edən,

mövqeni təhvil almış motoatıcı taqımın komandirinə tərəf çevrildi: – Ehtiyatlı olun, komandir, unutmayın, düşmən artilleriyası hələ də yüksəkliyi nəzarət altında saxlayır! – deyə son tapşırığını verib qətiyyətlə qrupun qarşısına doğru yeridi.

Motoatıcı taqımın gənc komandiri kapitan Təhməzovun ardınca bir addım atıb:

– Komandir, şəhidlərimizin qanı bahasına aldığınız yüksəkliyi qanımız, canımız bahasına da qoruyacağıq, arxayın olun! – deyə ucadan səsləndi...

Duman yüksəklikdən bir qədər aşağı ensə də, xüsusi təyinatlılar uzaqlaşmadan görünməz oldular. Daha bir neçə addımdan sonra isə yüksəklik də gözdən itdi. Çox keçmədi ki, zəif meh qaşıq kimi dumanı qarışdırıb yatağından çıxartdı və parçalayıb əlçim-əlçim ətrafa yaydı. Xüsusi təyinatlılar yüksəkliyin ətəyinə yaxınlaşanda dumanın ayaqları köhlən at kimi Daşaltının qayalarında görünüb yox oldu. Dumanın gəlişi ilə ətrafa nəzarəti itirən düşmən artilleriyası onun gedişini görüncə dilə gəldi. Və xüsusi təyinatlıların hərəkət istiqaməti yenidən sürəkli atəşə tutuldu...

## Kapitan yaralandı

Uçuşu səssiz olsa da, partlayışı qorxunc olan 60 millimetrlik minaatan mərmisi qarşıda qəfil partladı. Müdafiə imkanı belə vermədi. Səssiz, qəfil gəldiyi, partlayış baş verən ana qədər özünü heç bir yolla aşkar etmədiyi üçün əsgərlər 60 millimetrlik minaatanın mərmisindən çox eh-



**Şəhid baş leytenant Əliqismət Yaqublu (Soldan birinci) döyüş yoldaşları ilə**

tiyat edərdilər. Düşmənsə bu “casus” silahdan istifadəyə daha çox üstünlük verir, Azərbaycan əsgəri ilə üzə-üzə döyüşməyə cəsarəti çatmadığından, əsasən qumbaraatan, minaatan və digər növ artilleriya atəşindən istifadə etməklə işğal etdiyi əraziləri əlində saxlamağa çalışırdı...

Xüsusi təyinatlılar cəld ətrafa yayılıb bir-birindən məsafəli şəkildə yerə uzandılar. Düşmən susdu. Sanki pusquda durub xüsusi təyinatlıların aşkara çıxacaqlarını, görüntü verəcəklərini gözlədi. Xüsusi təyinatlılarsa ətrafı müşahidə edib, atəşin açıldığı ərazini təyin etməyə çalışdı. Müxtəlif istiqamətlərdən atəş səsləri eşidilir, müxtəlif yerlərdə partlayışın qaldırdığı toz-duman diqqəti cəlb edirdi. Qrupun dumanın gəlişini gözləyəsi vaxtı yox idi. Artıq tarixi hərəkət, illərlə gözlədikləri Şuşa üzərinə yürüş başlamışdı, müxtəlif istiqamətlərdən irəliləyən qruplar səbrlə şəhərə yaxınlaşırdı. Düşmənsə bütün qüvvəsini toplayıb müqavimət göstərirdi. O, şəhərin işğalını qoruyub saxla-



**Şəhid baş leytenant Əliqismət Yaqublu (Sağdan birinci) döyüş yoldaşları ilə**

maq üçün şəhər və şəhərətrafı mövqelərdə illərlə cəmlədiyi bütün texniki, hərbi vasitələri döyüşə cəlb etmişdi, müxtəlif istiqamətlərə dayanmadan atəş yağdırmaqla güclü olduğunu və hələ də tükənmədiyini nümayiş etdirməyə çalışırdı.

Aralarındakı məsafə əlli-altmış metr olmaqla qarşıda, arxada, ardınca xüsusi təyinatlıların yenicə endiyi 1553-cü yüksəklik və müxtəlif yerlərdə düşən bir neçə artilleriya mərmisi torpağı havaya sovurdu. Xüsusi təyinatlılar mövqeləndikləri yerdən qalxıb, Şuşa şəhəri istiqamətində hərəkətə başladılar. Onlar Daşaltı kəndinin yaxınlığından sızıb Şuşaya qalxacaqdılar. 60 millimetrlik minaatan mərmisi hərəkət etdikləri çığırın sağ çiynindəki ağacları qoparıb üstlərinə sıçratdı. Qəlpələr başları üstündən, ətraflarından uçuşub yamaclara sancıldı.

Kapitan Təhməzov sol qolunu dəlib yandıraraq keçən qəlpənin hərarətini bütün vücudunda hiss etdi. Qeyri-ixti-

yari əlini yaranın üstünə bassa da, qapqara qanı barmaqları arasından sızıb mundirin qolu boyu süzülməyə başladı. Kapitan Mirzə Musayev qaçaraq özünü qrup rəhbərinə yetirdi. Döyüş yoldaşının təkcə qolundan yaralandığını görüncə:

– Şükür, qorxulu bir şey yoxdur! – deyə özü-özünə təsəlli verirmiş kimi dilləndi. Tez də arxada hərəkət edən həkim Nihal Bədəlovu səslədi: – Cəld ol, həkim, komandiri vurdular!

Həkim sanitar çantasını çiynindən çıxararaq kapitan Təhməzovun yanına yüyürdü. Əlini yaranın üstünə möhkəm-möhkəm sıxan qrup rəhbəri:

– Hərəkətdən qalmayın, uşaqlar, qorxulu bir şey yoxdur, – yarasını sarımağa icazə vermədi: – Qəlpə sümüyü zədələməyib, belə bir yaradan ötrü vaxt itirməyə dəyməz! – deyə hərəkəti davam etdirməyi tapşırdı.

Komandirin əmrini yerinə yetirməyə məcbur olsa da, həkim Bədəlov qrup rəhbəri ilə addımını bir atır, onu nəzarətdə saxlamağa çalışırdı. Əslində həkim kapitan Təhməzovun yarasının ciddi olduğunu anlamışdı, dayanmadan qan itirdiyini də hiss edirdi. Amma vaxtın darlığını, zamanında təyin olunmuş yerə çatmağın vacib olduğunu bildiyi üçün komandirin inadına qarşı getməyib səbr göstərirdi.

Təyin olunmuş yerə günün ikinci yarısı çatdılar. Təyinat üzrə dəstə rəhbəri polkovnik-leytenant Füzuli İmrəliyev radio vasitəsilə mövqelənib tapşırıq gözləməyi əmr etdi. Bir-iki saatdan sonra özünün də onların yanında olacağını bildirdi. Hava vaxtından tez qaralmağa başlamış,

sanki gün dönən kimi Günəş yorğun düşmüş, şüalarını yığaraq səmanın ənginliyində öz qınına çəkilmişdi. Qapqara buludlar bir-birini qovaraq səmada axın etdikcə, işığın üzünü yaxıb dağların boz rəngini qaraldır, qayaların sərt üzünü kölgəsinin arxasında gizlədib dərələri qapqara yorğanı ilə örtürdü. Soyuq üzünü sərt tərəfinə çevirmiş, yorğun düşmüş xüsusi təyinatlıların kürəklərinə yüklənmişdi. Artıq heç nə – nə durduqları yerdə hərəkətlə, nə də kürəklərini bir-birinə dayayıb hərarətlərini paylaşmaqla isinə bilirdilər. Dünəndən islanmış paltarlarının hərarəti ucları buz bağlamış tikana çevrilib vücudlarına sancılır, aclıq və susuzluq taqətlərini kəsirdi...

Təyin olunmuş yerdə mövqelənib əmr gözləyəcəkdilər. Kapitan Təhməzov qrupun mövqelənməsini və ətrafı müşahidə etməyi kapitan Mirzə Musayevə tapşırıb, bayaqdan addım-addım onu izləyən həkim Nihal Bədəlova dedi ki, yarasını sarısın. Onun qolu şişməyə, bədəninə ağırlıq eləməyə başlamışdı. Xeyli qan itirdiyindən başında kəskin ağrı baş qaldırmışdı. Gözləri qaralır, getdikcə halsızlaşırdı. Həkim Bədəlov tibbi ləvazimatları çantasından tez çıxarıb yerə düzdü. Qayçını götürüb, komandirin mundirinin qolunu kəsmək istəyirdi ki, leytenant Cavad Səmidov özünü yetirdi, təyinat üzrə dəstə rəhbəri polkovnik-leytenant Füzuli İmrəliyevin gəldiyini xəbər verdi. Leytenant Səmidov sözünü bitirməmişdi ki, dəstə rəhbəri yaxınlaşıb əlini məruzə etmək üçün qalxmaq istəyən kapitan Təhməzovun çiyninə qoydu:

– Əyləş, kapitan, durmağa ehtiyac yoxdur. – Yanında yerə çöküb: – Yarası necədir, həkim? – deyə yorğunluq-

dan şişmiş gözlərini qıyaraq qrup rəhbərinin yaralı qoluna diqqət kəsildi.

– Bir şey deyil, cənab polkovnik-leytenant. – Kapitan Təhməzov həkimin dillənməsinə macal vermədi: – Sadəcə qəlpə sıyırıb, – deyə komandirini arxayınlaşdırmaq istədi.

– Səndən soruşmadım, Ceyhun. – Polkovnik-leytenant İmrəliyev üzünü həkimə tərəf çevirib, sualının cavabını gözlədi.

Həkim qrup rəhbərinin mundirini qayçıyla kəsərək, şişib paltarına pərçimlənmiş qanlı qolundan çətinliklə ayırdı. Diqqətlə yarasına baxıb:

– Şükür ki, qəlpə sümüyü parçalamayıb, cənab polkovnik-leytenant. Amma yarası dərindir. Şişib göyərdiyi, qaralmağa başladığı üçün vaxtında cərrahi müdaxilə edilməsə, qolunu itirə bilərik. Özü də çoxlu qan itirib, – deyə izahat verdi.

– Aydındır, həkim. Diqqətlə müayinə elə, sarğını qoy. Əlində olan bütün imkanlardan maksimum istifadə elə, – hər cümləsi, hər sözü, baxışları yorğunluq ifadə edən polkovnik-leytenant həkim Bədəlova üzünü tutdu: – Elə et ki, heç bir halda amputasiyaya ehtiyac qalmasın. Fürsət yaranan kimi dərhal təxliyə edin, – tapşırıq verdi.

Kapitan Təhməzov yerində dikəlib: – Mən özümü yaxşı hiss edirəm, cənab polkovnik-leytenant. Sarğıdan sonra daha yaxşı olacaq. İcazə verin döyüşü davam etdirim, – deyə təxliyə olunmasına narazılığını bildirdi.

– Sənin bir qolunun sıradan çıxma ehtimalı var, kapitan. Belə vəziyyətdə döyüşü davam etdirə bilməzsən. – Mən tək qolla da atəş açmağı bacarıram, komandir.

– Tək qolla qayalara da dırmanmağı bacarırsanmı, Təhməzov? – Ayağa qalxıb üzünü qarşıdakı qayalara tərəf çevirdi: – Heç bilirsənmi bizi qarşıda hansı tapşırıq gözləyir? Yoxsa səni ora qaldırmaq üçün daha bir əsgər ayırmalıyıq? – soruşdu. Amma cavabını gözləmədi: – Bax ha, həkim, sonra qolunu kəsmək məcburiyyətində qalmayaq! İlk fürsətdə qospitala təxliyə edin. – Bir daha qətiyyətlə təkrar etdi. Sonra da kapitan Təhməzova tərəf çevrilib: – Allah şəfa versin, Ceyhun. Müalicə olunub tezliklə sıralarımıza qayıdarsan, İnşaAllah.

Qərardan narazı qalsa da:

– İnşaAllah, çox sağ olun, komandir! – deyə Təhməzov sözünü deyən kimi uzaqlaşmaqda olan polkovnik-leytenant İmrəliyevin ardınca səsləndi...

***

Axşam yağış yağmasa da, gecə yarı başlayan çiskin döyüş yoldaşlarının haradansa tapıb ona verdiyi əsgər örtüyünü qısa müddətdə tamamilə islatdı. Səhərə qədər nazik və islanmış yorğanın altında diş-dişə döydü. Səhəri yatmadan, hərarət içərisində açdı. Erkəndən xüsusi təyinatlıların yeni bir kəşfiyyat qrupunun Daşaltıya yaxınlaşması və bundan sonrakı döyüş əməliyyatlarını həmin qrupla koordinasiyalı şəkildə davam edəcəkləri haqqında məlumat aldı. Amma o, bu döyüşdə iştirak edə bilməyəcəkdi. Həkim Bədəlovun sarğısını dəyişdirməyə macal, döyüş yoldaşlarıyla halallaşmağa fürsət tapmadan, onlardan ayrılması kapitan Təhməzovu sarsıtmış, ruhdan salmışdı. İllərlə bərabər xidmət etdiyi, ağır sınaqlardan üzüağ, al-

nıaçıq çıxdığı, qaynayıb-qarışdığı döyüş yoldaşlarından, doğma qardaşlarına bərabər olan əsgərlərindən ayrılması qrup rəhbərini kövrəltmiş, nigaran salmışdı. Bu qədər çətin yolu qət edib, bu qədər ağır və amansız döyüşlərdən sağ-salamat keçib, son – həlledici döyüşdə iştirak edə bilməməsi kapitan Təhməzovun qüruruna toxunurdu. Pərişan və küskün şəkildə təxliyə olunacağını gözləyən vaxt üzünü saqqal basmış, tanımadığı bir baş leytenant ona yaxınlaşıb:

– Ceyhun, bu sənsən?! – deyə az qala bağıraraq soruşdu.

Başını qaldırıb diqqətlə zabitin sifətinə baxdı. Səsində doğmalıq duysa da, dünəndən bəri qanitirmədən, neçə günün aclıq və susuzluğundan, yorğunluq və halsızlıqdan işığını itirmiş gözlərinin qarşısında sanki bir insan deyil, bədheybət bir varlığın dayandığını sandı.

– Mənəm, amma sizi tanıya bilmədim, üzrlü hesab edin! – Gözlərini qıyıb diqqətlə bir daha baxdı. Amma yenə də kəsdirə bilmədi.

Baş leytenant:

– Mənəm də, Ceyhun, Əliqismət! – Dəbilqəsini çıxarıb əlində tutdu: – Əliqismət Yaqublu! – deyə bir daha ucadan təkrar etdi.

Kapitan Təhməzov qeyri-ixtiyari ayağa qalxdı. Baş leytenant Yaqublu dəbilqəsini yerə qoyaraq, uşaqlıq dostunu bağrına basdı. Kapitan Təhməzov sağ əlini dostunun kürəyinə vuraraq:

– Sən hardan çıxdın, qardaş?! – kövrək bir sevinclə soruşdu: – Səni mənə Allahmı yetirdi?!...

Baş leytenant Yaqublunun diqqəti Təhməzovun qaldıra bilmədiyi sol qolunda idi:

– Yaralanmısan, qardaş! – əlini ehmalca kapitanın daş kimi ağırlaşmış yaralı qolunun üstündə gəzdirdi. – Bir şey deyil, Əli, keçib gedəcək, inşaAllah. Təki Vətən sağ olsun!

– Qələbə bizimlədi, Ceyhun, sən ürəyini heç sıxma! İndi isə səni təxliyə etmək lazımdır, – baş leytenant saatına baxdı. Ürəyində nəyi isə götür-qoy edirmiş kimi: – Çatarıq, – deyə onu müşayiət edən "Niva"nın sürücüsünü yanına çağırdı: – Kömək elə, cənab kapitanı maşına yerləşdirək. Sürücü maşını kapitan Təhməzovun yanına sürüncə baş leytenant Yaqublu radionun düyməsini sıxıb: – Cənab polkovnik, uşaqlıq dostum kapitan Təhməzov ağır yaralıdır. Onu təcili Sığnağa çatdırmaq lazımdır. İcazə verirsinizsə... – Sözünü bitirmədən briqada komandiri polkovnik Ələkbər Cahangirov:

– İcazə verirəm, Əliqismət, tez get, tez də qayıt. Gedərkən şəhid və yaralıları da Sığnağa çatdır, – deyə göstəriş verdi.

– Oldu, cənab polkovnik! – əlaqəni kəsib kapitan Təhməzovun və daha bir yaralı əsgərin maşının arxa oturacağında əyləşmələrinə kömək elədi. Daha iki şəhidi və üç yaralı əsgəri "UAZ"-a yerləşdirib Sığnaq kəndi istiqamətində hərəkətə başladılar.

Birinci Qarabağ müharibəsindən əvvəl bu kəndlər arasında yol olsa da, illər keçdikcə hər şey dağılmış, ətrafı kol-kos basmış, yol-iz itmişdi. İkinci Qarabağ müharibəsi başladıqdan bəri isə amansız döyüşlər, artilleriya, tank mərmiləri yolun altını üstünə çevirmiş, keçilməz eləmişdi.

Buna baxmayaraq, Azərbaycan Silahlı Qüvvələri irəlilədikcə, kəndləri, şəhərləri düşmən tapdağından azad etdikcə, zirehli texnikanın keçdiyi yollar təkərli texnikanın hərəkəti üçün də açılır, təminatın çatdırılması, şəhid və yaralıların arxa cəbhəyə göndərilməsi üçün imkan yaradırdı. Yolların çətinliyinə baxmayaraq, qabaqda hərəkət edən “Niva” sürətlə irəliləyir, təqibçi “UAZ” isə geri qalmamağa çalışırdı. Səkkiz-on kilometrlik məsafəni təxminən iyirmi dəqiqəyə qət edib, Sığnaq kəndində müvəqqəti yaradılmış qərargaha çatdılar.

Baş leytenant Əliqismət Yaqublu şəhid və yaralıları təhvil verən kimi kapitan Təhməzovu bir küncdə odun sobası qoyulmuş çadıra gətirdi. İçəri girən kimi:

– Tez bir çay dəmlə, zəhmət olmasa, – deyə çadırdakı yaralı zabitdən xahiş elədi. Özü isə sobanın üstündəki qəhvədanı isti-soyuq edib kapitan Təhməzova yaxınlaşdı:
– Əlini ver görüm! – deyə kapitan Təhməzovun üzərində qanı qurumuş sol əlinə su töküb yumağa başladı. Dərhal da yarasını açıb, yenidən sarğı qoydu. Bu vaxt yaralı zabit iki fincan çay süzüb onlara yaxınlaşdı. – Hə, qardaş, çayını iç, – deyə Əliqismət dəmir fincanlardan birini yaralı zabitin əlindən alıb ehmalca kapitan Təhməzova uzatdı. Kətili çəkib dostu ilə üz-üzə oturdu.

Uşaqlıq dostunu görüncə səhərki nigarançılığından əsər-əlamət qalmayan Təhməzov içində isti çay olan dəmir fincanı əllərini yanar sobaya yaxınlaşdırırmış kimi ovucları arasında sıxıb:

– 22 gündür bir qurtum isti çay içmirik, Əliqismət, xəbərin var? – deyə təbəssümlə baş leytenantın üzünə baxdı.

Dərhal da: – Gileylənmirəm, qardaş, şükürlər olsun Allaha, nəinki ac-susuz qalmağa, ölməyə belə dəyərdi!

– Əlbəttə, xəbərim var, Ceyhun, indi elə hamımız eyni vəziyyətdəyik. Təki müharibəni qələbə ilə bitirək, təki işğala birdəfəlik son qoyaq, hər şey düzələcək, İnşaAllah.

– İnşaAllah, Əli, İnşaAllah. – Çaydan bir qurtum alıb: – Hə, danış görüm, sənin işlərin necə gedir? – deyə soruşdu.

Əliqismət Yaqublu dostunun sualına cavab verməyə macal tapmadı. Ayağa qalxıb səssizə qoyduğu sadə telefonunu arxa cibindən çıxartdı. Qulağına yaxınlaşdırıb:

– Eşidirəm, komandir, – deyə diqqətlə qulaq asdı. – Oldu, komandir, baş üstə! – deyib telefonu qapatdı. Kətilə çöküb, qaynar çaydan bir qurtum aldı və üzünü Ceyhuna tutub: – Getməliyəm, qardaş! – deyə dəmir fincanı masa kimi istifadə etdikləri kətilin üstünə qoydu.

– Səninlə söhbətdən doymadım, Əli, çox təəssüf! – Kapitan Təhməzov gileyləndi: – Amma indi hər şeydən vacib vəzifəmizi layiqincə yerinə yetirməkdir. Ona görə səni yubada bilmərəm. Hər şeyə görə çox sağ ol, qardaş.

– Sən də sağ ol, qardaş, – deyib ayağa qalxdı: – Səni burda gördüm, elə bil, dünyanı mənə bağışladılar. – Gözlərində parlayan sevinclə uşaqlıq dostunun gözlərinin dərinliyinə diqqət yetirdi: – Qismət olsa, müharibədən sonra danışarıq, inşaAllah!

– İnşaAllah! – Qucaqlaşdılar.

Aralanıb bir addım geri çəkildi:

– Özünə yaxşı bax, qardaş. Vaxtında sarğını dəyişdir, – deyə dostunun yaralı qoluna işarə ilə dilləndi.

– Oldu, Əliqismət! – Ani sükutdan sonra: – Bilmək olarmı hara gedirsən? – nigarançılıqla soruşdu.

– Yox, çox təəssüf ki, yox. – Bir-iki addım geri atıb dayandı. Qayıtdı, əyilib: – Sənə demək olar, Ceyhun, – qulağına pıçıldadı: – xüsusi tapşırıq var, qardaş. Şuşaya qalxırıq, İnşaAllah!

Ceyhunun gözləri parladı. Qol güləşdirirmiş kimi dostunun əlini qamarlayıb, özünə tərəf çəkdi:

– Allah yardımçınız olsun, qardaş! Şükür, bu da bizə qismət oldu! Səninlə fəxr edirəm, Əli, kaş yaralanmayıb, bu şərəfli döyüşdə mən də olaydım!

– Sən öz vəzifəni layiqincə yerinə yetirdin, Ceyhun. Şərəflə, qəhrəmancasına döyüşdün. İndi də yaralanmısan. Öz qanını Vətən yolunda axıtdın. İndi də bir az müalicə olun, istirahət elə, özünə gəl. İcazə ver, sənin də yerinə mən döyüşüm!

– “Bələdçi”nin cəsurluğu, igidliyi haqqında eşitmişdim, Əli. Amma bu “Bələdçi”nin sən olduğunu gec öyrəndim.

– “Bələdçi” olmağına “Bələdçi”yəm, burada “Bələdçi” çağırırlar məni. Amma bu “Bələdçi” XTQ-nin adi zabitlərindən, bəlkə də ən zəif zabitlərindən biridir.

– Allah amanında ol, qardaşım, özünü qoru!

– Sağ ol, qardaşım, sən də özünü qoru. Sağ qalsaq, tezliklə qələbə xəbərini sənə özüm çatdıracam, İnşaAllah! – Ayrılıb ayağını çəkə-çəkə onu gözləyən “Niva”ya tərəf addımladı.

– İnşaAllah, qardaşım, İnşaAllah. Gözləyəcəm, səbrsizliklə gözləyəcəm! – sağ əlini havaya qaldırıb uşaqlıq dostunun ardınca yellədi. Axsadığını görüb dərhal da arxasınca səsləndi: – Sən yaralısan, Əliqismət? Belə bir vəziyyətdə də tapşırığa gedirsən?

Baş leytenant Yaqublu bir söz demədən gülümsəyib, uşaqlıq dostuna əl elədi və atılıb "Niva"nın kabinəsinə əyləşdi. Maşın sürətlə yerindən tərpəndi...

## Əlbəyaxa döyüş

Səhər qarabasma ilə açılmışdı sanki. Təbiət ayılsa da, gözləri qapalıydı hələ. Dönə-dönə diksinib ayıldığından ürəyi ayaqları altına düşmüşdü elə bil. İndi sükut qorxuya çevrilmiş, səssizlik vahimə saçırdı. İndi silahlar susanda ürəklər nigaran olur, mərmilər yerin altını üstünə çevirməyəndə qulaqlar kar olurdu. Qayalar xəstə ürək kimi çırpınır, torpaq diksinmiş ürək kimi döyünürdü. Bu döyüntü yüksəklikdə, qayaların üstündə daha aydın hiss olunurdu. Torpağın ürəyi döyündükcə, nəbzi vurduqca qayaların üstündə pusquda durub səksəkə içərisində ətrafı müşahidə edən düşmənin vücudu tir-tir titrəyir, ruhu tələyə düşmüş vəhşi kimi çabalayırdı. Bir gün qabaq Laçın qayalarından yürüşə başlamış dumanın bir qanadı Daşaltıda qırılıb qalmış, bir qanadı Şuşaya qalxsa da, çırpınıb-çırpınıb, qayaların üzərində yorğun düşmüşdü.

Düşmən qayaların üzərində dumana bürünüb gözdən yayınmağa çalışsa da, xüsusi təyinatlılar yerlərini müəyyən etmiş, məhz düşmənin gözləmədiyi, özlərini nisbətən təhlükəsiz hiss etdikləri qayalardan qalxmağa qərar vermişdilər. Axşamın gec saatlarına qədər şəhərin dörd bir tərəfində kiçik çaplı silahlar susmamış, sürəkli atəş səsləri eşidilmişdi. Şəhər ətrafında müxtəlif istiqamətlərdə gurlayan tank, minaatan və artilleriya mərmiləri gecə yarıya

qədər davam etmişdi. Qayaların üstündən duman dağı, daşı, dərəni, meşəni qanadları altına almış xəfifcə çırpınan nəhəng bir göyərçin kimi görünürdü. Qayanın üstündə mövqe tutan düşmən silahını aşağı, dumanın qanadları arxasında gizlənən Daşaltı istiqamətinə tuşlamış, səsini udub, xofunu içində dəf etmişdi.

Qrup rəhbəri baş leytenant Əliqismət Yaqublu hər iki əlini çiyinləri bərabərinə qaldırıb, yumruğunu açıb-qapamaqla qrup üzvlərinə öz ardınca növbə ilə qayaya dırmanmağı işarə etdi və kəndirdən yapışdı. Birnəfəsə qayanın yarısına qədər dırmanıb dayandı. Geri qanrıldı. Qrup üzvlərindən ikisi artıq kəndirlərindən yapışaraq addımbaaddım onun arxasınca dartınır, digər üçü isə aşağıda, dərənin içində mövqelənərək, qayanın yuxarısında mövqe tutmuş düşmən əsgərlərini nəzarətdə saxlayır, döyüş yoldaşlarının qalxmağına şərait yaradırdılar. Döyüş yoldaşları qalxıb komandirləri bərabərinə çatdı. Hər üçü eyni anda daha bir təkanla dartınıb, başları qayanın üstü bərabərində, düşmən gülləsinin tutmadığı məsafədə dayandılar. Arxalarınca dartınan daha üç xüsusi təyinatlı ayaqları bərabərində dayanıb, yenidən dəstək mövqeyi tutdu.

Yuxarıda, qayanın üstündə mövqelənib Daşaltı istiqamətini nəzarətdə saxlamağa çalışan düşmən hənir duyub enişə boylandı və aşağı baxmağa belə cəsarət etmədikləri qayadan ilan kimi sürünüb qalxan duman rəngində, sanki dumandan paltar geyinmiş üç xüsusi təyinatlının alov saçan baxışları ilə göz-gözə qaldı. Sanki qarşılarında insan deyil, qeyri-adi bir varlıq görən düşmən "Yaşma!" – deyə vahimə içində bağıraraq, silahlarını hədəfə çevir-

məyə cəhd etdilər. Qrup rəhbərinin anında atdığı, boğazını dəlib keçən bıçaq “Yaşmaaa!!!” sözünü xırıltıya çevirib, qanla bərabər havaya püskürdü. Düşmən əsgəri yerində dikəlib, arxası üstə qayanın üstünə çırpıldı. Xüsusi təyinatlılar kürəklərindən sallanan avtomatlarını dartıb qarşıya, sinələrinin önünə gətirdilər. Uca səslə “Allahu Əkbər” deyərək qəfil qayanın üstünə atıldılar, dərhal da qarşılarına çıxan düşmən əsgərlərini sürəkli atəşə tutdular.

Düşmənlər gözlənilmədən və ağıllarına belə gətirmədiyi halda peyda olan üç Azərbaycan xüsusi təyinatlısını göz-gözə görüncə özlərini itirdilər. Bir an keçmədi ki, xüsusi təyinatlı qrupun daha üç üzvü qayanın üstündə göründü. Üstlərinə ardıcıl yağan avtomat güllələrindən və sonrakı xüsusi təyinatlıların da qayanın üstündə peyda olma qorxusundan düşmən geri çəkilməyə cəhd etdi. Amma bir an keçmədi ki, ildırım sürəti ilə şığıyan xüsusi təyinatlılar düşmən taqımının tən ortasında göründü. Artıq odlu silahdan istifadənin çətinləşdiyini anlayan baş leytenant Əliqismət Yaqublu avtomatının kəmərini boynuna keçirib cəld arxaya, kürəyinə çevirdi. Dərhal da dartıb bel kəmərinin hər iki tərəfindən sallanan avtomat süngülərini qınından çıxartdı və düşmənin üzərinə yeridi. Onun əllərində parlayan bıçaqların parıltısından gözləri qamaşan düşmən sanki qarşısında altı nəfərdən ibarət Azərbaycan xüsusi təyinatlısı yox, bütöv bir ordu görürdü.

Cəld və qətiyyətli hərəkətləri ilə düşməni qorxuya salan xüsusi təyinatlılar sanki illərlə həsrətindən yandıqları Şuşa torpağından qüvvət almışdı, sanki illərlə yollarını gözləyən Şuşa dizlərinə təpər, qollarına güc vermişdi. Alov və nifrət

saçan gözlər qorxu və qaçmaq üçün fürsət axtaran gözlərlə göz-gözə qalmışdı... Baş leytenant Yaqublunun sağ əlində tutduğu süngü bıçaq düşmən əsgərinin boğazının altından fışıltı ilə sürüşüb ilğımını alma kimi kəsib keçdi. Düşmən əsgəri buz kimi soyuq bıçağın təmasını bütün vücudunda hiss etdi. Sol əlində tutduğu bıçaq arxadan ona hücum etmək istəyən düşmən əsgərinin sinəsinə saplandı. Məhv etdiyi düşmənin vücudundan çəkib çıxardığı bıçağı əsgərlərinin arxasından onu nişan almağa çalışan düşmən zabitinə tolazladı. Alnına sancılan süngünün zərbindən geri addım atan düşmən zabiti kürəyi üstə yerə çırpıldı. Digər düşmən əsgəri "Yaşmaaa!!!" - deyə bağıraraq geri qaçmaq istəyəndə baş leytenant Yaqublu sol əlindəki süngünü onun ardınca atdı. Düşmən əsgəri kürəyindən saplanan süngünün zərbindən üzü üstə torpağa düşdü.

Düşmən taqımı aralarına sızıb avtomatdan istifadə etmək imkanlarını məhdudlaşdıran, onları əlbəyaxa döyüşə cəlb edən altı nəfər xüsusi təyinatlının zəhmindən və hər an qayalardan peyda ola biləcək digər "Yaşma" döyüşçülərinin vəhmindən addım-addım geri çəkilməyə başladı. Xüsusi təyinatlılar tez-tez yerlərini dəyişməklə düşmənin geri çəkilməsini ləngitməyə çalışırdı. Cəld və çevik fəndlərlə düşmən əsgərlərini pərən-pərən salan diversiya qrupunun hər bir əsgəri ayrı-ayrılıqda bir neçə düşmən əsgəri ilə çarpışdığı anda qrup rəhbəri Əliqismət Yaqublu döyüşə-döyüşə özünü yetirib, süngülərini sapladığı cəsədlərdən çıxartdı. Silahını döyüş meydanında saxlamağı sevməyən xüsusi təyinatlılar düşmənin həmlələrini özlərinə

qarşı çevirdi, onların gülləələri istiqamətini dəyişib, özləri-nin sinələrini parçaladı. Xüsusi təyinatlıların yalnız bıçaqdan istifadə etməklə əlbəyaxa döyüşü düşmən əsgərlərini vahiməyə salmışdı. İndi onlar geri çəkilmək imkanlarını belə itirdiyindən hara gəldi atəş açır, bundan da kəşfiyyat qrupu ustalıqla istifadə edirdi.

Vaxt daraldıqca düşmənin sayı azalır, qüvvələri tükənirdi. Kəşfiyyat qrupu tapşırığı vaxtında bitirməyə tələsir, aldıqları çoxsaylı yaraları unudub, qəfil gəlişləri ilə düşməndə yaratdıqları xof və əlbəyaxa döyüşə girməklə əldə etdikləri üstünlükdən istifadə etməyə çalışırdı. Gözləri üst-başları kimi qanla dolmuş, bədənlərindən axan tər yaralarından axan qanla bərabər vücudlarını sarmışdı. Düşmən əsgərlərinin sayı azalsa da, hər an yenilərinin gələcəyi gözlənilirdi. Əməliyyatın nəticəsi haqqında məlumatı komandanlığa vaxtında çatdırmaq, vaxt itirmədən tapşırığın ikinci hissəsinə başlamaq lazım idi. Kəşfiyyat qrupu diz üstə yerə çöküb silahlarını düşmən əsgərlərinin gələcəyi istiqamətə tuşladı. Baş leytenant Əliqismət Yaqublu əlbəyaxa döyüşdə məhv etdikləri işğalçı ordunun qırx nəfərə yaxın qalaqlanmış cəsədləri arxasında mövqelənib, komandanlıqla radio əlaqəsinə girdi:

– Cənab polkovnik, Şuşa şəhərinin qayalarla qalxdığımız Daşaltı istiqamətində düşmənin təxminən qırx nəfərdən ibarət canlı qüvvəsi məhv edildi. Ətraf öyrənildi. Düşmənin əsas qüvvələrinin Şuşakənd, Şuşa Qalası ətrafında, Laçın-Şuşa və Xankəndi-Şuşa yolu istiqamətində cəmləşmələri müşahidə olunur. Düşmən ağır texnikanın, çoxsay-

lı canlı qüvvənin hərəkət edə biləcəyi istiqamətlərdə daha çox qüvvə toplayıb. Əmriniz nədir?

– Yaralanan və şəhid olan varmı, baş leytenant?

– Yaralanan var, şəhid olan yoxdur, komandir!

– Dərhal gəldiyiniz istiqamətdə, əvvəlki mövqeyinizə geri qayıdın və əmrimi gözləyin.

– Oldu, komandir!

Düşmən artıq xüsusi təyinatlıların Daşaltı istiqamətindən qayalarla Şuşaya dırmanmaları haqqında məlumat almışdı. Dərhal həmin istiqamətdə xeyli sayda yaxşı təchiz olunmuş canlı qüvvə göndərildi. Onlar Azərbaycan xüsusi təyinatlılarının göründüyü ərazidə müqavimətlə qarşılaşdı. Amma bu xüsusi təyinatlı qrupun geriyə çəkilmək üçün hazırladığı müvəqqəti müqavimət, qrup üzvlərinin qayalardan aşağı enmələrini təmin etmək üçün atəş-dəstəkdən başqa bir şey deyildi. Kəşfiyyat qrupu üzvləri gəldikləri kimi kəndirlərdən istifadə etməklə ildırım sürəti ilə sıldırım qayalardan bir-bir aşağı endi. Yalnız sonuncu xüsusi təyinatlı qayanın dibində olanda düşmən qayalardan aşağı, Daşaltı istiqamətində boylana bildi. Amma dərhal da aşağıda mövqelənib yoldaşlarının qayadan enmələrinə şərait yaradan qrup üzvlərinin yağdırdığı atəş nəticəsində geri çəkilmək məcburiyyətində qaldı.

Duman çəkilmiş, qayalar öz sərt üzünü göstərməyə başlamışdı. Boz rəngli yaşmağını endirib cilvələnən təbiət silah səslərindən diksinib donmuş, yollar açılmışdı. Qayadan enən kəşfiyyat qrupu bir yerə toplanan kimi dərhal təyin olunmuş istiqamətdə hərəkətə başladı. Qrup rəhbəri baş leytenant Əliqismət Yaqublu da daxil olmaqla altı

nəfərdən ibarət qrupun bütün üzvləri bədənlərinin müxtəlif yerlərindən çoxlu sayda həm güllə, həm də bıçaq yarası almışdı. Amma tapşırığı uğurla yerinə yetirdiklərinə görə heç kim yarasına əhəmiyyət vermir, hamı sevinir, yalnız hərəkət imkanları məhdudlaşmış yaralıları çiyinlərinə alaraq, komanda idarəetmə məntəqəsinə tələsirdilər. Düşmən artıq qrup üzvlərinin geri çəkildiyi ərazini nəzarətə götürmüş, həmin istiqaməti vurmaq üçün koordinatları artilleriya batareyasına ötürmüşdü. Onsuz da dayanmadan qrad və digər artilleriya atəşi altında olan əraziyə yağan mərmilərin sayı daha da artmağa başladı.

Qayanın başında uzanıb binoklla düşmənin qırx nəfərdən ibarət bölüyünü darmadağın, planını alt-üst edən, müdafiəsini sarsıdan və qüvvələrini parçalamaqla Azərbaycan xüsusi təyinatlılarının digər tərəflərdən Şuşaya qalxmalarına şərait yaradan kəşfiyyat qrupunun hərəkətini izləyən düşmən zabiti dayanmadan radio ilə danışır, koordinatlar verir, artilleriyanı həmin istiqaməti vurmaq üçün təlimatlandırırdı. Kəşfiyyat qrupu üzvləri ətrafda partlayan müxtəlif tipli artilleriya qurğularının yağdırdığı mərmilərə əhəmiyyət vermədən irəliləyir, yaralıları tibb məntəqəsinə çatdırmaq üçün tələsirdilər...

### "Bələdçi"nin şəhadəti

Çiynində daşıdığı yaralı döyüş yoldaşını həkimə təhvil verib dərindən nəfəs aldı. Acgözlüklə içinə çəkdiyi Şuşa havası ciyərlərinə yetmədi. Sanki təmiz dağ havası bədəninə azlıq elədi. Çəkib zirehli gödəkçəsini əynindən çıxart-

dı. Avtomat və zirehli gödəkçəsini sol əlində tutub sağ əlini boynundakı qanı sızan yarasının üstünə basdı. Ağrıdan xəfifcə sızlasa da, yoldaşları duymasın deyə səsini içində boğdu. Yaralı ayağını çəkə-çəkə yorğun addımlarla döyüşü idarəetmə məntəqəsinə tərəf yeridi. Qarşısında partlayan qrad mərmisi baş leytenant Əliqismət Yaqublunu havaya qaldırıb bir neçə metr kənara atdı. Avtomat və zirehli gödəkçəni əlindən alıb havaya uçurtdu. Qarın nahiyəsindən başlayan istilik bütün əzalarını bürüdü. Dabanından sızan cərəyan gözlərində parladı.



**Şəhid baş leytenant Əliqismət Yaqublu**

– Yaqublunu vurdular! – deyə mərminin qaldırdığı toz-torpaq yerə çökən kimi ayağa qalxan döyüş yoldaşları bağırıb onun üstünə qaçdılar: – Həkim, Əliqisməti vurdular, həkiiiim! – deyə əməliyyatdan yenicə qayıtmış yaralıların yarasını sarımaqla məşğul olan sanitarı çağırdılar.

Həkim qaçıb özünü yaralıya çatdırdı. Böyründəcə dizlərini yaş torpağa qoyub, çantasının içini araşdırmağa başladı. Qanaxmanın qarşısını almaq üçün lazım olan tibbi ləvazimatları çıxarıb yaralıya tərəf çevrildi. Dizləri boşalıb yerə çökdü. Tibbi ləvazimatları kənara atıb, qoşa əlləri ilə sifətini qapadı. Haradan başlayacaqdı? Hansı ya-

rasına məlhəm qoya biləcəkdi? Qrad mərmisinin qəlpələri Əliqismət Yaqublunun qarın nahiyəsini parçalamış, bədəninin müxtəlif yerlərini dəlik-deşik eləmişdi...

Sifətini qarsan məşəl uzaqlaşdıqca istisi çəkilməyə, yanğısı səngiməyə başladı. Kirpikləri kəpənək qanadları kimi çırpınıb aralandı. Gözləri önündə qızaran dəmir parçaları öləziyib qaraldı. Və getdikcə qaraltısı çəkilib durulmağa başladı. Başının üstündə duran döyüş yoldaşlarını tanıdı. Səslərini eşitməsə də, onların həyəcanını hiss etdi. Xəfifcə gülümsəyib gözlərini qıydı. İncə bir təbəssüm işıq kimi sifətinə yayıldı. Üzünü basmış qapqara saqqalı da gözləri kimi parlayıb şəfəq saçdı...

... – Sən də gəlib çıxdın, Cahid?

– Hə, Əli, səni tək qoyardımmı heç?

– Bilirdim, dinc qalan deyilsən, dəcəl. – Boynunun ardından tutub, yüngülcə özünə tərəf çəkdi. Uşaqlıqda olduğu kimi saçlarını mehribanlıqla qarışdırıb: – Amma bura dəcəllik yeri deyil, qardaş. Özünü qoru! – Ciddi şəkildə tapşırdı.

– Bilirsən, Əli, rayonda, kənddə hamı səndən danışır, səninlə fəxr edirlər, Əli! Mən də dedim ki, mənim qəhrəman qardaşım orda, cəbhədə düşmənin başına od yağdırdığı halda, mən arxada niyə qalmışam? Mütləq qardaşımın yanında olmalıyam. Hələ kiçik qardaşın Nurlan da cəbhəyə yazılıb. Bu gün-sabah o da burada olacaq, İnşaAllah.

– İnşaAllah, Cahid! Allah amanında olun, qardaşım! – Çevrilib Cahid Yaqubovu gözləyən komandiri baş leytenant Səid Rəşidzadədən soruşdu: – Yolunuz haradır, komandir?

– Siz hara, biz də ora! Yolumuz birdir, İnşaAllah!

– Allah yardımçınız, işiniz avand olsun, komandir! – baş leytenant Səid Rəşidzadəyə razılığını bildirib üzünü qardaşı Cahid Yaqubova tutdu: – Mən indi getməliyəm, qardaş. – Qucaqlaşdılar. – Sən özündən muğayat ol, Cahid. Komandirlərin sözünə qulaq as. Boşuna özünü güllə qabağına vermə. Ölüm haqdır, şəhadət ölümlərin ən şərəflisidir. Biz bura şəhadət arzusu ilə gəldik. Nəsib olacaqsa, nə böyük səadət. Amma, unutma, şəhadətdən qabaq üzərimizə, burada olan hər bir zabitin, hər bir əsgərin üzərinə böyük bir vəzifə düşür. O vəzifəni yerinə yetirmək üçün özümüzü qorumalıyıq!

Aralansalar da, əllərini bir-birindən çəkmədilər. Üz-üzə, göz-gözə durub, danışıb-dinmədən xeyli baxışdılar. Bir daha görüşə biləcəkdilərmi? Bir daha göz-gözə gələ biləcək, bir daha bir-birinin doğma qoxusunu duya, bir-birinin mehriban səsini eşidə biləcəkdilərmi? Yenidən sarılıb nəfəslərini dərindən içlərinə çəkdilər:

– Haqqını halal et, qardaş! – Əliqismət Yaqublu pıçıldadı.

– Halal olsun, qardaşım! Sən də halal et, Əli!

Ayrılıb əvvəlcə bir neçə addım arxaları üstə geri çəkildilər. Sonra hər ikisi əlini havada bir-birinə yelləyib, təbəssüm saçan baxışlarla vidalaşdılar...

... – Əliqismət... Əli,... Əli, – döyüş yoldaşları ehmalca çağırıb, komandirlərini danışdırmağa cəhd göstərdilər. Əliqismət Yaqublu isə onları eşitmir, xəyalları ilə çarpışır, keçdiyi qısa həyat yolunu varaqlayırdı...



**Şəhid baş leytenant Əliqismət Yaqublu**

... – Camaat təkər çıxarır, sənsə ağac çıxarırsan, neynirsən bu boyda ağacı, Əli? – Həmkəndlisi soruşmuşdu. Hər il axır çərşənbəyə bir ay qalmış kənd uşaqları ilboyu toplayıb saxladıqları təkərləri, odun parçalarını min bir əziyyətlə daşıyıb kəndin möhtəşəm, uca Qala dağının, Şahmaruçanın, Sahalın buludlara çatan zirvəsinə yığar, axır çərşənbə axşamı qalayardılar. Və səbrsizliklə sərhədin o tayında, Cənubi Azərbaycanda olan qardaşlarımızın da Savalana bitişik uca dağların zirvəsində ocaq çatmasını gözləyərdilər. O tayda da ocaqlar çatılanda sevincdən atılıb-düşər, yurdumuzun bu ili də qəza-qədərsiz, ağrı-acısız, ölüm-itimsiz keçdiyindən sevinib şadlanar, bir-birini təbrik edərdilər. Beləcə, güneydəki qardaşları ilə alov dilində danışar, əhvallarından xəbər tutar, dərdləşərdilər. Sərhədin bir tərəfində ocaq qalanmadıqda həmin ildə yurdumuzun bir tayında sıxıntı, ölüm-itim olduğunu öyrənər, canlarından ayrı düşmüş qardaşlarının dərdinə şərik olardılar. İllərlə belə danışar, belə dərdləşər, bir-birindən belə xəbər tutardılar. Kənd sakinlərini nə sovetin sərt qanunları, nə fars şovinizmi, nə rejimin güllələnmə qorxusu, nə də irticanın dar ağacı qorxudardı. Müxtəlif vasitələrlə mane olmağa,

yollarını bağlamağa çalışsalar da, güneylilərlə quzeylilə-ri bir-birinə həsrət qoysalar da, camaat əlaqə üçün yollar tapar, ocaq dilində, alov dilində danışar, Zərdüşt dilində bir-birindən xəbər tutardı...

Lerik rayonunun Kələxan kəndində doğulan Əliqismət Yaqublu hərbi məktəbdə oxuyanda da novruz bayramlarında imkan tapıb böyüyüb boya-başa çatdığı kəndə gələr, uşaqlıq dostları ilə bərabər Qala dağının başında axır çərşənbə ocaqlarının qalanması ənənəsini davam etdirərdi. Bu il isə o, kəndlilərindən fərqli olaraq Qalanın başına təkər deyil, yekə bir ağac gətirmişdi. Həmin ağacı da təkərlərlə bərabər yandırmaq üçün dağın başına qaldırdığını düşünən uşaqlıq dostları etirazlarını bildirəndə Əliqismət:

– Bu adi ağac deyil, uşaqlar, dirəkdir, bayraq dirəyi, – izahat vermişdi. Və sinəsində daşıdığı üçrəngli bayrağı çıxarıb: – Haydı, uşaqlar, kömək edin! – deyə uşaqlıq dostlarından xahiş etmişdi. Əliqismətin niyyətini anlayan kəndliləri həvəslə ona kömək etməyə girişmişdilər. Əvvəlcə üçrəngli Azərbaycan bayrağını dirəyin ucuna bərkidib, sonra da köhnədən qalma dirəyi qoparıb yerində – Qalanın başında yenisini ucaltmışdılar. Zirvədə dalğalanan bayrağa qürurla baxan gələcək zabit: – Tezliklə bu bayrağı Şuşada və işğal olunmuş bütün torpaqlarımızda dalğalandıracağıq, İnşaAllah! – deyə dostlarından bayrağın altında şəklini çəkmələrini xahiş etmişdi. Ardınca da, gün batandan sonra axır çərşənbə ocağını qalayıb, Qaladan enmişdilər...

... – Həkim, yardım edin, həkiiim! – Döyüş yoldaşları yaralının başının ucunda oturub, hələ də yardım göstərə

bilməyən həkimin üstünə bağırdılar: – Nə donub qalmısan, həkim, yardım etsənə!

Sanitar ehmalca başını qaldırıb, qapanmış kirpiklərini aralamadan üzünü Əliqismət Yaqublunun döyüş yoldaşlarına tərəf tutdu. Bir-birinə pərçim olmuş kirpikləri arasından göz yaşları xəfifcə giləl追ənib toz-torpaqdan, his-pasdan bilinməyən yanaqları boyu süzüldü. Qrup rəhbərinin döyüş yoldaşları həkimin ümidsizcəsinə başını yelləməsindən:

– Allahım! – deyə başlarını qamarlayıb yerə çökdülər.

– Bələdçi, cavab ver, Bələdçi! – Əliqismət Yaqublunun özündən bir neçə addım kənara düşmüş zirehli gödəkçəsinin döş cibinə bərkidilmiş radiodan briqada komandiri Ələkbər Cahangirovun səsi eşidildi.

Döyüş yoldaşı qaçaraq tez radionu qamarladı:

– Cənab polkovnik, Əliqismət Yaqublunu vurdular! – güclə eşidilə biləcək üzüntülü pıçıltı ilə cavab verdi.

– Nə danışırsız, Yaqublunun kəşfiyyatdan sağ-salamat qayıtdığı haqqında məlumat almışdıq!

– Kəşfiyyatdan yaralı qayıtmışdı, komandir! Amma elə burdaca qrad qurğusu ilə vurdular!

– Vəziyyəti necədir?!

– Ağır yaralıdır, cənab polkovnik!

– Təcili olaraq təxliyə edin! Mən onu qarşılamaq üçün həkim briqadası göndərirəm!

– Qorxuram çatdıra bilməyək, cənab polkovnik, yarası çox ağırdır!...

... – Salam, ana, hazırlaşın, kəndə gedəcəksiz! – Anası dəstəyi götürən kimi Əliqismət tələsik dilləndi: – Etibar əmiyə demişəm, gəlib sizi götürəcək.

– Mən çoxdan hazıram, Əli, – anası Təranə xanım nəvəsi Məhəmmədi qucağından yerə qoyub, arxayınlıqla cavab verdi: – Əminə də əziyyət vermə. Özüm burdan taksiyə oturub, gedəcəm evə.

– Yox, ana, uşaqları da aparacaqsız. Əliəsgərlə Məhəmmədə kənddə daha yaxşı olar. – Əliqismətin səsindən uzun danışmaq imkanı olmadığı aydın hiss olunurdu: – Təlimə gedirik, ana.

– Təlimdən, axı, dünən gəlmisən, ay bala! – ana qeyri-ixtiyari divana çökdü. Əliqismət təlimlərə gedəndə, adətən, anası gəlib onlarda qalar, həddən artıq dəcəl olan nəvələrinin təlim-tərbiyəsi ilə məşğul olar, gəlininə göz-qulaq olardı.

– Etibar əmi artıq Bakıdan çıxıb, ana. Siz nə qədər tez hazırlaşsaz, o qədər yaxşı olar. Əmim gələnə qədər mən də gəlib çıxacam evə...

Evə vaxtından tez, amma hazırlıqlı gəlmişdi – hərbi səhra forması əynində, zabit çantası da çiynində. Əmisinin gəlişini gözləməyə vaxtı olmadığından onu elə Bakı-Astara yolunda qarşılamağı, yola salıb dərhal da geri qayıtmağı qərara aldı. Tələsik taksi çağırtdırıb yola çıxdılar. Yol boyu əmisinə zəng edib, gözləyəcəkləri yeri nişan verdi...

– Bu necə təlimdir, ay qardaş, ay başına dönüm, adam bir nəfəs alar, heç olmasa bir gün uşaqlarının üzünü görüb, sonra gedər! – Əmisi yaxınlaşan kimi Təranə xanım gileylənməyə başladı: – Bu, dünən təlimdən qayıdıb, bu gün yenə də təlimə gedir!

– Bu dəfə dərs verməyə gedirik, ana, dərs. – Anası ilə qucaqlaşıb vidalaşdı: – Dərs bitəndən sonra birbaşa kəndə



**Şəhid baş leytenant Əliqismət Yaqublu**

gələcəm, İnşaAllah. Həm də o vaxt istirahət üçün daha çox vaxtımız olacaq!

Uşaqları bir-bir öpüb Məhəmmədi artıq əmisinin maşınında oturmuş anasının, Əliəsgəri isə həyat yoldaşının qucağına qoydu.

– Sağ-salamat get qayıt, bu dəfə sənin dərsini özüm verəcəm, İnşaAllah! – yarızarafat, yarıciddi dodaqaltı deyinən ana oğlunun gənc əsgərlərə dərs verəcəklərini düşündüyü halda:

– Bu nə dərsdir, belə, Əli? – deyə əmisi eyhamla xəbər aldı.

– Düşmən yenə də dinc oturmur, əmi, ermənilərə dərs verməyin vaxtı çatdı artıq! – Ailəsini maşında yerbəyer etdikdən sonra bir qədər kənara çəkilib: – Düşmən aprel döyüşlərindən dərs almadı, əmi, – inamla söylədi: – Polad Həşimovun şəhadətindən sonra onlara yerlərini bildirə bilərdik. Amma cənab Prezident daha əlverişli məqam gözləməyi məsləhət bildi. Artıq məqam yetişir, əmi. Ümidvaram, bu dəfə Ali Baş Komandan öz sözünü deyəcək, İnşaAllah!

– İnşaAllah, Əliqismət, İnşaAllah! Allah Sizi qorusun, sağ gedib, qələbə ilə salamat qayıdın, Əli!

Quсaqlaşdılar.

– Haqqını halal et, əmi!

– Halal olsun, Əli, halal olsun! Sən də halal et, Əliqismət!

Maşın yerindən tərpəndi. Arxa oturacaqda oturan anasının maşının sağ tərəfindəki aynasından onu izlədiyini görən Əliqismət əlini gicgahına yaxınlaşdırıb hərbi təzim etdi və farağat vəziyyətində durub, maşın gözdən itənə qədər baxışları ilə onları yola saldı. Anasının kiçik bir güzgüdən boylanan nisgil dolu baxışları uzaqlaşdıqca ayna boyda bir ulduza çevrildi. Qadının uzaqlaşdıqca həsrət saçan və işığı yanıb-sönən baxışları Əliqismətin, oğlunun hərbi təzim vəziyyətindəki məğrur duruşu isə ananın xatirəsində əbədi qaldı...

***

Zaman da uzaqlaşdı, səma da, xatirələr də. Və dondu şəhidin sifətindəki təbəssüm kimi. Səma üzünü yalayıb ötən soyuq, amma doğma dumanla, üzüb keçən əlçim-əlçim, amma əlçatmaz buludlarla, zəif duman içində güclə sezilən yüksəklikdə qanad çalan dağ qartalı ilə, ətrafda eşidilən güllə səsləri, artilleriya atəşi ilə və bütün bu səslərin içindən: "Əliqismət, həkiiiim, həkiiiim, komandir, komandiiir!" – deyə döyüş yoldaşlarının həyəcan dolu çırpıntıları ilə dondu.

– Haqqınızı... halal edin! – qırıq-qırıq, zəif pıçıltı ətrafındakı bütün səsləri batırdı: – Atama deyin... məni kənddə... babamın yanında... dəfn eləsin! – Atəş səsləri də, küləyin vıyıltısı da, təbiət də bu səsin fonunda susub dondu: – Əşhədu ənla ilahə illəllah – və silahlar da, külək də, təbiət də yenidən dilə gəlib, onunla bərabər təkrar etməyə başladı: – Əşhədu ənnə Muhəmmədən rəsulullah, – başının üstündə durub həyəcanla komandirlərini izləyən döyüş

yoldaşları da: – Əşhədu ənnə əmirəl-mömininə Əliyyən vəliyullah! – qeyri-ixtiyari Əliqismət Yaqublunun dediklərini söylədi.

– Komandir... Əli... Əliqismət!... – döyüş yoldaşları ehmalca sinəsinə toxunub dillənməsini, bir söz deməsini gözlədilər. Əliqismət isə susurdu. Baxışları uzaqlarda, səmanın dərinliyində gəzdi, sifətinə çökmüş təbəssüm buludların arxasından sızıb parlayan Günəş kimi şölə saçdı, boynu ehmalca ətrafında dizlərini yerə qoymuş döyüş yoldaşlarına tərəf çevrildi...

– Toxunmayın ona, incitməyin ruhunu! – həkim qulağını Yaqublunun sinəsinə qoyub pıçıltı ilə dilləndi: – Əliqismət şəhid oldu!...

Nəfəslər dondu, hənirlər kəsildi. Ətrafında yerə çöküb susdular.

– Şəhadətin mübarək, qardaş! – Yaralandığını unudub özünü Bələdçinin yanına yetirən döyüş yoldaşı xırıldadı. – Ruhun şad olsun, Əli! – Göz yaşları içərisində pıçıldadı: – Allah səni ən uca məqamı ilə mükafatlandırdı, Əli!

– Qisas bizə qaldı, qardaş!

– Əmin ol, əziz qardaş, sənin də, sənin kimi şəhadətə ucalmış digər qardaşlarımızın da, Xocalı qurbanlarının da, süngüyə taxılan uşaqlarımızın, diri-diri yandırılan qız-gəlinlərimizin də qisasını, Allahın izni ilə alacağıq, İnşaAllah!...

...Şuşa, Şuşakənd kəndi ətrafındakı yüksəkliklər və şəhərin bütün ətrafı intensiv artilleriya atəşinə tutulur, düşmən son qüvvəsini toplayıb şəhərə daxil olmağa çalışan Azərbaycan ordusuna bütün mövqelərindən sürəkli mərmi

yağdırırdı. Avtomat və kiçik çaplı silahlardan açılan güllə səsləri getdikcə şəhərin küçələrində eşidilir, mərkəzində əks-səda verirdi...

## Hərbi müşavirə

– Cənab general-leytenant, döyüş əməliyyatlarının hazırkı vəziyyəti haqqında məruzə edin! – Səhra vəziyyətində, aktiv döyüş əməliyyatları gedən ərazidən beş kilometr arxada keçirilən müşavirədə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov üzünü müavini general-leytenant Kərim Vəliyevə tutdu. General-leytenant bir addım irəli ataraq məruzəyə başladı:

– Cənab general-polkovnik, əvvəla məruzə edim ki, hazırda döyüş əməliyyatları müşavirəyə toplaşdığımız bu ərazidən beş kilometr qarşıda, Şuşa şəhəri ətrafında davam etdirilir. Toplaşdığımız bu ərazinin məxfiliyi və təhlükəsizliyi tam təmin edilmiş, ətraf dəqiqliklə öyrənilmiş, etibarlı maskalanma işləri lazımi şəkildə yerinə yetirilmişdir. Xüsusi təyinatlı qüvvələrin bir tabordan ibarət şəxsi heyəti, aviasiya qüvvələri və quru qoşunlarının müəyyən sayda heyəti tərəfindən etibarlı şəkildə qorunur!

– Çox yaxşı, davam edin.

Həyata keçirilən əməliyyatlar barədə ümumi məlumat verdikdən sonra general-leytenant Kərim Vəliyev üzünü Müdafiə naziri general-polkovnik Zakir Həsənova tutaraq müraciət etdi:

– Cənab general-polkovnik, icazənizlə, Xüsusi Təyinatlıların iştirakı ilə keçirilən döyüş əməliyyatı haqqında

xüsusi təyinatlıların komandanı general-leytenant Hikmət Mirzəyev məruzə eləsin!

General-polkovnik Zakir Həsənov nəzərlərini general-leytenant Mirzəyevə yönəldərək: – Buyurun! – deyə başının işarəsi ilə irəli keçməsini göstərdi.

General-leytenant Mirzəyev döyüş əməliyyatları gedən ərazini əhatə edən və çadırın baş tərəfində asılmış xəritənin önünə keçdi. Çıxışa başlamazdan əvvəl müşavirəyə toplaşmış hərbi hissə rəhbərlərinə, birləşmə komandirlərinə, general və yüksək rütbəli zabitlərə bir-bir diqqət yetirdikdən sonra:

– Cənab general-polkovnik, cənab general-leytenant, əvvəla xüsusi qeyd etmək istəyirəm ki, cənab Müdafiə naziri və onun müavininin aktiv döyüş əməliyyatları gedən ərazidə əsgər və zabitlərlə bir səngərdə olması bizi ruhlandırır, qələbənin yaxında olmasına inamımızı daha da gücləndirir. – Ucadan və inamla söylədi: – Buna görə mən bütün zabit və əsgərlər adından Sizə dərin minnətdarlığımı bildirirəm, – deyə üzünü Müdafiə naziri və onun müavininə tutdu.

– Bu bizim həm mənəvi, həm də vəzifə borcumuzdur, general-leytenant, bizim davamız haqq davasıdır və xalqımız üçün taleyüklü məsələlərin həllində heç nədən çəkinmədən öndə olmalıyıq. Bizi bu yoldan ölüm belə çəkindirə bilməz. Davam edin.

Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev də davam etməsi üçün başının işarəsi ilə razılığını bildirəndən sonra Xüsusi Təyinatlıların Komandanı xəritə çubuğunu əlinə götürüb, çıxışına davam elədi:

– Cənab general-polkovnik, cənab general-leytenant, cənab ordu komandirləri, hazırda döyüş əməliyyatları Azərbaycan ordusunun tam üstünlüyü və nəzarəti altında davam etdirilir. Xankəndi-Şuşa yolu bağlanmışdır, Laçın-Şuşa yolu artıq bizim nəzarətimiz altındadır. Aldadıcı manevrlər sayəsində düşmən Daşaltı və Şuşakənd istiqamətində döyüşə cəlb olunaraq qüvvələrimiz tərəfindən məhv edilməkdədir. Kəşfiyyatçılarımız tərəfindən şəhər tamamilə öyrənilmiş və sektorlara bölünməklə qruplar üzrə hərəkət edəcək xüsusi təyinatlıların hərəkət planına daxil edilmişdir. Bütün çətinliklərə baxmayaraq, döyüşlər bütün istiqamətlərdə düşmənin gözlədiyi istiqamətdəki yollardan keçməklə deyil, keçilməz dağ cığırları ilə irəliləyərək Ordumuz tərəfindən düşmənə sarsıdıcı zərbələr vurmaqla aparılır. Əldə etdiyimiz məlumata görə, düşmən Şuşa şəhərini müdafiə etmək üçün bütün qüvvələrini səfərbər edib. Şuşanı bir il ərzində əldə saxlaya bilmək üçün düşmən şəhərə çoxlu miqdarda azuqə, silah-sursat ehtiyatı toplayıb. O, şəhəri nəyin bahasına olursa-olsun əldə saxlamaq üçün şəhərə əlavə üç min hərbçi cəlb edib. Şuşa şəhərini əldə saxlamaq vəzifəsi “təcrübəli hərbçi”, Birinci Qarabağ Müharibəsi iştirakçısı, Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyana tapşırılıb. Şəhərin bütün giriş-çıxışları ağır texnika ilə möhkəmləndirilib. Düşmən Xankəndi tərəfdən Şuşaya girməyin qarşısını almaq və bu istiqamətdəki qüvvələrimizi zəiflətmək məqsədilə hücumlarını ardıcıl olaraq davam etdirir. Xüsusi təyinatlılarımız artıq – üzünü xəritəyə çevirib çubuqla hərəkət istiqamətlərini göstərməklə davam edir: – Laçın-Şuşa

dəhlizini yararaq düşmənin arxasına keçib. Burda bir qrupumuz düşmənin Laçın istiqamətindən hücumlarının qarşısını almaq üçün müdafiə mövqeyində dayanmış, digər qruplarımız isə Şuşa-Laçın yoluna paralel olan çöl yolu tərəfdən, yəni arxadan irəliləyərək Şuşa qalasına çatıblar. Kiçik qruplar şəklində hərəkət edən bəzi qruplarımız artıq şəhərə sızmışdır. Digər qruplarımıza isə Xankəndi tərəfdən Ermənistan silahlı qüvvələri bölmələrinin Şuşa istiqamətində hücumlarının qarşısını almaq tapşırığı verilib. 1214 nömrəli yüksəklikdə döyüş mövqeyi tutan motoatıcı qüvvələrimiz Şuşakənd istiqamətindən, qruplar şəklində sıldırım qayalarla şəhərə qalxan xüsusi təyinatlılarımız isə Daşaltı tərəfdən şəhərə hücum imitasiyası yaratmaqla düşmənin xeyli sayda qüvvəsini özlərinə cəlb etməklə digər istiqamətlərdən hərəkətimizə dəstək verirlər. Döyüş planına əsasən, məqsədimiz noyabr ayının səkkizinəcən, yəni "Bayraq günü" bayramından bir gün qabaq düşmənin müqavimətini qırıb onu şəhəri təslim etməyə məcbur etməkdir. Hadisələrin gedişi planımızın vaxtında və uğurla baş tutacağını göstərir. Əminəm ki, cənab Ali Baş Komandan və cənab nazirin əmr və tapşırıqlarını düzgün və vaxtında yerinə yetirməklə tezliklə qələbəyə nail olacağıq.

– Aydındır, – üzünü müavininə tutub: – general-leytenant Vəliyev, əlavəniz varmı? – soruşdu.

Müdafiə nazirinin sualını eşidən general-leytenant Vəliyev: – Bəli, cənab general-polkovnik, – deyərək bir addım irəli atdı.

Müdafiə naziri: – Siz yerinizə keçin, Mirzəyev. – Xüsusi təyinatlıların komandanına başının işarəsi ilə sıranı,

müavininə isə əlinin işarəsi ilə xəritənin qarşısını göstərdi:
– Buyurun.

– Cənab general-polkovnik, Şuşa ermənilər üçün bütün Qarabağı nəzarətdə saxlayan strateji yüksəklik və bölgənin əsas müdafiə sütunudur. Xankəndinin də müdafiəsini Şuşa təmin edir. Onu Laçın dəhlizi vasitəsilə Ermənistanın Gorus vilayəti ilə bağlayan yol da məhz buradan keçir. Şuşanı azad etmək Vətən müharibəsinin ən mühüm tərkib hissəsidir.

– Bunları bilirik, general-leytenant, siz döyüş əməliyyatları haqqında məlumat verin.

General-leytenant Vəliyev Müdafiə nazirinin müdaxiləsindən dərhal sonra ani fasilə verib, çıxışına davam etdi:

– Düşmən Qırmızı Bazardan Şuşakəndə, ordan da Şuşaya qalxan yolda və Laçın istiqamətində şiddətli döyüşlərə hazırlaşırdı. Ona görə də əsas qüvvələrini orda cəmləşdirmişdi. Sizin tapşırığınız və Azərbaycan hərbi komandanlığının əməliyyat planına görə, Şuşaya sıx meşələrdən yeni yol açıldı. Qəhrəman mühəndis-istehkam qoşunlarımız qısa müddətdə bu yolu istifadəyə verdi. Mühəndis-istehkamçılarımız ensiz dağ cığırını texnikanın hərəkət edəbiləcəyi meşə yoluna çevirdilər. Hazırda əlverişsiz hava şəraitinə, çətin dağ relyefinə və yolların çətin, keçilməz və palçıqlı olmasına baxmayaraq artilleriyaçılarımız yüksək peşəkarlıq nümayiş etdirərək, ağır topları, artilleriya qurğularını Şuşa ətrafına çəkə biliblər. Atəş nöqtələri quraraq Şuşa ətrafındakı düşmən mövqelərinə dəqiq zərbələr endirməkdədirlər. Xüsusi Təyinatlı Qüvvələrin və digər

hərbi birləşmələrin şəxsi heyəti isə atəş dəstəyi olmadan sıldırım qayalar, yarğanlar, meşələr vasitəsilə Şuşaya doğru irəliləyir, ciddi mühafizə olunan Laçın dəhlizindən keçir, Şuşa ətrafındakı kəndləri, yüksəklikləri mərhələli şəkildə azad edərək şəhərə sızmaqdadırlar. Belə əməliyyat düşmənin ağlına gəlmirdi və o belə bir addım atılacağını əvvəlcədən hesablaya bilməmişdi. İgid döyüşçülərimizin çətin relyefli ərazilərlə hərəkəti hətta düşmən kəşfiyyatçıları tərəfindən belə müşahidə olunmurdu. Laçın dəhlizinin əsas hissələrinə nəzarətin təmin olunması, Daşaltı kəndi ətrafındakı strateji yüksəkliklərin nəzarətə götürülməsi nəticəsində Şuşanın mühasirəsi daralmaqdadır. Xüsusi Təyinatlı Qüvvələrin komandanı general-leytenant Hikmət Mirzəyevin məruzə etdiyi kimi, qədim Azərbaycan şəhəri Şuşanın düşmən işğalından azad olunmasına sayılı günlər qalıb.

– Aydındır, general-leytenant, mən sizin çıxışlarınızı diqqətlə dinlədim. Və belə qərara gəldim ki, düşmən hücumlarına qarşı əks-həmlə əməliyyatına başladığımız ilk dəqiqələrdən cənab Ali Baş Komandanın əmr və göstərişlərinə riayət etməklə taktikanı doğru seçə bilmişik. Amma unutmamalısız, düşmən Azərbaycan Ordusunun güclü olduğunu çox yaxşı bilir və hərbi potensialımızda baş verən müsbət dəyişiklikləri diqqətlə izləyir. Ermənistanın xüsusi xidmət və hərbi kəşfiyyat orqanları bu məsələdə çox həssasdır. Xüsusi Xidmət Orqanlarımızın verdiyi məlumata görə, düşmən vəziyyəti gərginləşdirmək məqsədilə hərbi-siyasi təxribatlar planlaşdırır. Cənab Prezident diplomatik orqanlara da bu məsələyə ciddi yanaşmağı tapşırıb. Unutmayın, müharibə təkcə döyüş meydanında getmir,

eyni zamanda, informasiya müharibəsi gedir, diplomatik meydanda müharibə gedir. Ali Baş Komandanımız, demək olar ki, hər gün müxtəlif beynəlxalq informasiya orqanlarına müsahibələr verir, hər gün müxtəlif dövlət nümayəndələri ilə görüşlər keçirir. Amma bir an belə diqqət və nəzarətini aktiv döyüş əməliyyatlarından, döyüşən ordudan ayırmır. Bu gün mən bura gəlməmişdən qabaq da cənab Ali Baş Komandana döyüş əməliyyatları haqqında ətraflı məruzə elədim və onun əmr və tapşırıqlarını dinlədim... Bizim bugünkü müşavirəmizin və bu müşavirədə mənim də iştirak etməyimin xüsusi əhəmiyyəti var. Artıq müharibənin taleyi bir neçə gün ərzində həll olunmalıdır. Artıq ordumuz düşməni dalana dirəyib. Artıq biz müqəddəs şəhərimiz olan Şuşanı işğaldan azad etmək ərəfəsindəyik. Cənab Ali Baş Komandanın dediklərini sizə olduğu kimi təkrar etmək istəyirəm: "Şuşa Azərbaycanın tarixi mədəniyyət mərkəzi, Qarabağın baş tacı və hərbi-strateji əhəmiyyətə malik qədim şəhərimizdir". Ümummilli liderimiz Heydər Əliyev də Şuşaya yüksək qiymət verirdi. Onun təbirincə desək, "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir". Ona görə də Şuşanın işğaldan azad olunmasına və şəhərin azad olunma prosesinə ciddi yanaşmalıyıq. Cənab Ali Baş Komandan tapşırdı ki, Şuşanın mədəniyyət mərkəzi olduğu nəzərə alınmalı, şəhər dağıdılmadan, tarixi görkəmi qalmaq şərti ilə azad olunmalıdır. Yəni bu döyüşlərdə ağır artilleriyadan tam gücü ilə istifadə edə bilməyəcəyik. Artilleriyadan əsasən

Şuşa ətrafında olan Ermənistan qoşunlarının mövqeləri və atəş nöqtələri hədəf götürülməlidir. Cənab Prezident xüsusilə vurğuladı ki, qədim Şuşa şəhərində yerləşən tarixi abidələrimizə atılan hər bir güllə Üzeyirin, Vaqifin, Natəvanın, Bülbülün ruhuna atılan güllə kimidir. Cənab Ali Baş Komandanın dediklərini sizə olduğu kimi təkrar edirəm: "Onlara atılan hər bir güllə işğal olunmuş torpaqlarımızı azad etməyi mənə vəsiyyət edən ümummilli liderimiz Heydər Əliyevin ruhuna atılan güllə kimidir! Onlara atılan hər bir güllə Birinci Qarabağ Müharibəsində Xocalıda, Şuşada, Ağdamda şəhid olmuş vətəndaşlarımızın ruhuna atılmış güllə kimidir. Onlara atılan hər bir güllə bu günə qədər torpaq uğrunda şəhid olmuş bütün şəhidlərimizin ruhuna atılan güllə kimidir". Və nəhayət, cənab Ali Baş Komandan söylədi ki, onlara atılan hər bir güllə şəxsən mənim ürəyimə atılan güllə kimidir. Bəli, biz şəhəri güllə atmadan azad edə bilməyəcəyik. Amma ehtiyatla davranmalı, şəhər dağıdılmadan, tarixi görkəmi qalmaq şərti ilə azad olunmalıdır. Eyni zamanda, az itki ilə azad olunmalıdır. Cənab Ali Baş komandan hər bir vətəndaşımızın, hər bir əsgərimizin onun üçün əziz olduğunu söylədi. Bəli, hər şəhid bir ailənin, bir nəslin, bir kəndin faciəsidir. Biz müqəddəs müharibə aparırıq. Təəssüf ki, müharibə itkisiz olmur. Xalqımız artıq kifayət qədər şəhid verib. Əminəm ki, nəhayət, biz bu ədalətli müharibəmizdə haqq-ədaləti birdəfəlik bərpa edəcək, işğal olunmuş ərazilərimizi düşməndən tamamilə azad edəcək və bundan sonra əsgər və zabitlərimizin, vətəndaşlarımızın şəhid olmalarına son verəcəyik. Bu şərəfli işdə xalqımız da bizimlədir, inanıl-

maz birlik, hədsiz sevindirici, ruhlandırıcı həmrəylik nümayiş etdirir. Müşahidələr aparıram, yol boyu gələ-gələ insanların münasibətini görürəm. Heç kim müharibə istəmir, amma hamı da torpaqlarımızın bütövlüyünü müharibəsiz təmin etməyin mümkün olmadığını bilir və bu haqq davamızda hər şeylərini qurban verməyə hazır olduqlarını göstərirlər. Cənab Ali Baş Komandan illərlə mübarizə apardı, münaqişənin sülh yolu ilə həll olunmasına, torpaqlarımızın qan tökülmədən azad olunmasına çalışdı. Diplomatiyanın bütün imkanlarından istifadə etdi. Amma düşmən bizə bu məsələdə heç bir fürsət saxlamadı. Düşmən status kvonun əbədi qalacağına, bizim də torpaqlarımızın işğalına razı olacağımıza inandı. Paşinyanın "Qarabağ Ermənistandır" deməsi Ermənistanın savaşdan başqa bizə bir yol saxlamadığını açıqca göstərdi. Beynəlxalq qanunlar da bizim tərəfimizdədir. Və bizə özümüzü müdafiə etmək, torpaqlarımızı qorumaq haqqı verir. Mən də beynəlxalq qanunların verdiyi hüquqdan istifadə edərək, bu gün sizinlə bir səngərdəyəm. Cənab Ali Baş Komandan da ədalətə və beynəlxalq qanunlara arxalanaraq, bu gün hərbi uniformadadır. O demişdir ki, biz heç vaxt işğala, dədə-babalarımızın yurdlarının düşmən tapdağı altında qalmasına, ərazilərimizdə düşmənin at oynatmasına razı olmayacağıq. Nəyin bahasına olursa-olsun torpaqlarımızı işğaldan azad edəcəyik. Və nəhayət, bu gün düşmən bizi yenidən aktiv döyüş əməliyyatlarına cəlb etməklə torpaqlarımızı işğaldan azad etmək imkanı yaratdı. Düşmən yeni ərazilər zəbt etmək ümidi ilə yenidən torpaqlarımıza namərdcəsinə hücum etdi. Öz havadarlarına arxalanan düşmən elə bilirdi

ki, biz bu dəfə də səbr edəcək, dözüm göstərəcəyik. Düşünürdü ki, yenə də xarici havadarlarının əliylə bizə təsir edə biləcək. Düşünürdü ki, biz yenə də onların yalanlarına inanıb nə vaxtsa torpaqlarımızın sülh yolu ilə azad olunacağını gözləyəcəyik. Bitdi artıq! İndi heç bir təzyiq bizə təsir edə bilməz, heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz. Çünki biz haqq yolundayıq! Birik, cənab Ali Baş Komandanın yumruğu kimi – yumruğunu qaldırıb havada yellədi – və bu birlik əbədidir və əbədi olacaq! Azərbaycan xalqının səbr kasası dolub artıq! İndi Ermənistanı Azərbaycan xalqının qəzəbindən, rüsvayçı məğlubiyyətdən heç nə qurtara bilməyəcək! Bu gün Paşinyan beynəlxalq güclər vasitəsilə bizə təsir etmək, atəşkəsə nail olmaq istəyir. Hər gün bir dünya liderinə zəng edir. Əgər bizimlə normal dildə danışsaydı, bizim müqəddəs şəhərimizi murdarlamasaydı, əlbəttə ki, cənab Ali Baş Komandan çalışacaqdı ki, bu məsələ danışıqlar yolu ilə həll olsun. Amma onun hər addımı təxribat, hər addımı təhqirdir və hesab edir ki, biz bununla barışacağıq. İndi biz göstərdik kim kimdir! Cənab Ali Baş Komandanın dediyi kimi, iti qovan kimi qovuruq onları, iti qovan kimi! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır! Onların səngərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik! Cənab Prezident demişdir ki, əgər Ermənistanı xilas etmək istəyirsinizsə, deyin, çıxsınlar torpaqlarımızdan. Dərhal rədd olsunlar! Şuşada, Cıdır düzündə sərxoş vəziyyətdə oynayan o təlxək bəyan etsin ki, çıxıram! Yoxsa gündə dünya liderlərinə

zəng etməklə məsələ düzəlməz! Biz artıq öz gücümüzlə bu məsələyə son verəcəyik! Axıra qədər gedəcək və bu məsələni bu gün, burda həll edəcəyik. Biz bu məsələni gələcək nəsillərə saxlaya bilmərik! Buna bizim haqqımız yoxdur! Gələcək nəsillər, sizin övladlarınız, nəvə-nəticələriniz bu torpaqlarda əbədi və əmin-amanlıq içərisində yaşayacaqlar! Buna onların haqları var! Ona görə ki, Sizin kimi igid insanların övladlarıdır! Ona görə ki, bu torpağı Siz düşmən işğalından azad edib, qoruyub saxlayacaqsınız! Öz qanınız, canınız bahasına, şəhidlərimizin qanları, canları bahasına! Onlar sizinlə fəxr edəcəklər! İndi xalqımız sizinlə fəxr etdiyi kimi! Əsgərlərimizə yüzlərlə, minlərlə məktublar gəlir. Cənab Ali Baş Komandana sadə xalq tərəfindən, ziyalılarımız tərəfindən müraciətlər olunur. Hamı sona qədər əzm göstərməyimizi, nəyin bahasına olursa olsun, işğala son qoyulmasını tələb edir. Yaşlısından tutmuş cavanına qədər əllərindən gələn köməyi göstərməyə hazır olduqlarını bildirirlər. Biz xalqımızın səsinə səs verməyə borcluyuq! Ona görə də sona qədər gedəcəyik! Çünki biz haqlıyıq! Və biz güclüyük! Ermənistandan fərqli olaraq heç kimdən biz yardım istəməmişik və istəmirik! Qoy, bizə mane olmasınlar və Azərbaycan xalqının səbri ilə oynamasınlar! Biz haqq-ədalət tərəfdarıyıq! Hal-hazırda biz tarixin ən şərəfli anlarını yaşayırıq! Bu şərəfli tarixi Siz yazırsız, qəhrəman əsgərlərimiz, canlarını torpaq uğrunda qurban verən şəhidlərimiz yazır! Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz tarixi ədaləti bərpa edir, ərazi bütövlüyümü-

zü bərpa edir, xalqımızın ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. İyirmi səkkiz il bundan əvvəl Minsk qrupu yaradılıb. İyirmi səkkiz il bizi aldadıblar ki, gözləyin, Ermənistana təzyiq edəcəyik! Hamısı yalan idi. Biz öz torpaqlarımızda vuruşuruq. Ermənistanın ərazisinə girmək niyyətimiz yoxdur. Əgər bizim belə bir fikrimiz olsaydı, çoxdan bunu edərdik. Döyüş meydanında biz uğurlar qazanmışıq. Bu döyüşlər, eyni zamanda, göstərdi ki, hələ də qüsurlarımız var, çatışmazlıqlar var. Və onları biz operativ qaydada aradan qaldırırıq. İkinci Qarabağ Müharibəsi başa çatandan sonra döyüş zamanı əldə edilmiş uğurlar və çatışmazlıqlar ciddi təhlil edilməlidir. Düzdür, bu gün Azərbaycan ordusu dünya meydanında güclü ordular sırasındadır, amma biz bundan sonra ordu quruculuğu işində daha müasir metodlardan istifadə etməliyik. Bu döyüşlər bizim üçün böyük təcrübədir. Biz gördük ki, bəzi hallarda hərbi arsenalımızda olan bəzi silahlar müasir döyüşlərdə o qədər də lazım olmur. Əksinə, bu gün yüksək texnoloji mərhələyə qədəm qoymuşuq. Və əlbəttə ki, yüksək peşəkarlıq, müasir texnologiya ordunun uğurunu təmin edir. Ancaq, cənab Ali Baş Komandan demişdi və mən də təkrar edirəm ki, torpaqları işğaldan azad edən sizsiz, siz – əsgərlər və zabitlərdir! Bayrağı da siz qaldırırsız, torpağı da işğalçılardan siz təmizləyirsiz! Ona görə də növbəti döyüş əməliyyatları elə aparılmalıdır ki, səmərəli və daha təsirli olsun. Vaxt itirməyək, bəzi hallarda yubanmalar var. Bəzi hallarda bu yubanmalara heç bir əsas gətirə bilmirlər. Bütün bunları biz təhlil edirik, təhlil edəcəyik. Yenə də deyirəm, Azərbaycan ordusu böyük bir rəşa-

dət göstərib. Biz doxsanıncı illərin əvvəllərində bir neçə il ərzində torpaqlarımızı itirmişik. Bu gün artıq bir ay ərzində Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Qubadlı rayonlarının bir hissəsi işğalçılardan azad edilib. Və hər gün də azad etməkdə davam edirik, hər gün xalqımıza yaxşı xəbərlər veririk. Düzdür, bəzi istiqamətlərdə ciddi düzəlişlərə ehtiyac var, amma bütövlükdə qarşımızda duran hədəfə çatırıq. Hər gün növbəti gün üçün döyüş tapşırığı verilir. Və cənab Ali Baş Komandan bu döyüş tapşırığını təsdiqləyir. Demək olar ki, döyüş tapşırıqlarının böyük hissəsi icra edilib. Və biz ərazi bütövlüyümüzü bərpa etməliyik, işğalçıları öz torpaqlarımızdan qovmalıyıq, ölkəmizin suverenliyini təmin etməliyik. Əminəm ki, biz buna nail olacağıq. Amma buna nail olmaq üçün, əlbəttə ki, hər birimizdən böyük məsuliyyət tələb olunur, cəsarət tələb olunur və nizam-intizam tələb olunur. Cənab Ali Baş Komandan demək olar ki, müntəzəm olaraq xalqa müraciət edir, öz fikirlərini bildirir, uğurlarımız haqqında xalqımızı məlumatlandırır. Bu gün də sizə arxalanaraq, müdrik xalqımıza, vətənpərvər xalqımıza, ləyaqətli xalqımıza arxalanaraq, cənab Ali Baş Komandana arxalanaraq əmin etmək istəyirəm ki, biz heç vaxt öz haqq yolumuzdan dönməyəcəyik! Heç bir qüvvə bizim iradəmizə təsir edə bilməz! Hələ biz öz qüvvələrimizin yalnız müəyyən bir qismini aktiv döyüşlərə cəlb etmişik. Bununla belə heç kim bizim qarşımızda dura bilməz! Düşməni sona qədər qovacağıq! Qarabağ bizimdir!!! Qarabağ Azərbaycandır!!!

## Xankəndi-Laçın dəhlizi bağlandı



**Şəhid kapitan Ülvi Hüseynov**

Düşmən sanki kapitan Ülvi Hüseynova kömək göndərildiyini hiss etmişdi. O, kömək yetişmədən taborun gücünü zəiflətmək və nəhayət, tamamilə sıradan çıxarmaq, yaxud da geri çəkilməyə məcbur etmək məqsədilə yüksəkliyi daha intensiv artilleriya atəşinə tuturdu. Bütün gecə boyu yağan mərmi yağışı səhərin gözünü qorxutmuşdu. Düşmənin hərəkət istiqaməti dumanın toz-torpağa, toz-torpağın səksəkədən bağrı çatlamış ala-torana qarışmış toru arxasından zəifcə duyulurdu. Düşmən dayanmadan hərəkətdə idi. Bir neçə günlük mühasirədən sonra gücdən düşməkdə olan tabor üzvləri dişini dişinə sıxıb düşmənin ən kiçik hərəkətini belə nəzarətdən qaçırmır, son nəfəslərini belə silah kimi istifadə eləməyə çalışırdılar...

Kapitan Ülvi Hüseynov ətrafı tez-tez müşahidə etməklə səngəri dərinləşdirməyə başladı. Dayanmadan təxminən bir metr dərininə, yarım metr eninə, bir metr uzununa qazdı. Sonra başını səngərdən çıxarıb, təpənin arxa tərəfə enişində uzanaraq avtomatlarını sinələrinə sıxan və düşməni nəzarətdə saxlayan əsgərlərinə boylandı. Düşmən aramsız

atəş açır, güllə yağış kimi yağır, ətrafda partlayan mərmilərin qaldırdığı toz-torpaq başlarına ələnir, əsgərlər gülləyə qənaət məqsədilə yalnız tək-tək cavab atəşi ilə düşmən mövqelərini nişan alırdılar. Sifətinin təri toz-torpağa qarışmış, gözlərindən başqa sifətində insan olduğuna işarə edən heç nə hiss olunmayan kapitan Hüseynov kürəyini səngərin divarına dayayıb dərindən nəfəs aldı. Paltarının qolları ilə alnının tərini, sifətinin palçığını təmizləməyə çalışdı. Artıq özünün müşahidə aparması, düşməni nəzarətdə saxlaması üçün qazdığı səngər kifayət edəcəkdi. Amma düşmənə daha güclü müqavimət göstərə bilmək, şəxsi heyətin daha təhlükəsiz olması və dayanmadan başlarına yağan mərmi qəlpələrindən qoruna bilmələri üçün səngərin genişləndirilməsi vacib idi. Beli torpağa sancıb, başını əsgərlərinə sarı uzatdı. Özünə daha yaxın məsafədə mövqelənib düşmənin gəldiyi istiqaməti atəşə tutan əsgər Cahid Yaqubovu yanına çağırdı. Əsgər Yaqubov cəld sürünərək özünü komandirinin olduğu səngərə atdı. Kapitan Hüseynov beli sancdığı torpaqdan çıxarıb, Yaqubova uzatdı:

– Səngəri sağ tərəfə genişləndirməkdə davam et, Yaqubov. Başını yuxarı qaldırmadan qaz. – Əli ilə qazacağı yeri göstərib: – Bax, buradan qazmağa başlayacaqsan. Torpağı qabağa at. Yorulanda xəbər elə, səni başqası ilə dəyişdirəcəm, – deyə tapşırıq verdi. Əsgər Yaqubov səngərin sağ çiynini qazmağa başlayanda kapitan Hüseynov avtomatının lüləsini səngərin ön tərəfinə topladığı torpağın üzərinə qoyub, qundağını çiyninə dayadı. Düşmən addım-addım kapitan Hüseynovun taborunun mövqe tutduğu yüksək-

liyə doğru sürünür, düşmən texnikası qarış-qarış üzüyuxarı dartınır, güllə üstlərinə yağış kimi səpilir, mərmilərin qaldırdığı toz-torpaq dayanmadan başlarına yağırdı. Düşmənin texnika və canlı qüvvəsinin sayı xeyli çoxalmış, hərəkəti və atəş intensivliyi artmışdı. Xankəndi tərəfdən düşmənə kömək gəldiyi aydınca hiss olunurdu. Mühasirə getdikcə daralır, ərzağı artıq iki gün qabaq bitmiş müdafiə taborunun gücü, qüvvəsi, silah-sursatı isə anbaan tükənirdi.

– Tufan, Tufan, mən Qartalam, Tufan, cavab ver, Tufan! – gözlərini bir an belə düşmənin hərəkət istiqamətindən qaçırmayan, bir əlini avtomatının tətiyində saxlayan, digər əlilə isə radioqəbuledicini dodaqlarına yapışdıraraq dayanmadan hərbi hissə komandirini əlaqəyə çağıran kapitan Ülvi Hüseynov polkovnik Nizami Mövlanovun xırıltılı səsini eşidəndə dərhal məruzəyə başladı: – Mühasirə getdikcə daralır, cənab polkovnik, Xankəndi tərəfdən düşmənə gələn kömək vasitəsilə ətrafımız tamamilə sarılıb. Düşmən üzərimizə dayanmadan müxtəlif tipli silahlardan güllə yağdırır. Silah-sursatımız tükənmək üzrədir. Çoxlu sayda şəhidimiz, yaralımız var. Yaralılar qanitirmədən şəhid olurlar. Canlı qüvvənin saylı xeyli azalıb. Qalanların da artıq gücü tükənmək, qüvvəsi bitmək üzrədir. Təcili dəstəyinizə ehtiyacımız...

Kapitan Hüseynov sözünü bitirmədən səngərdən bir neçə metr qarşıda düşən mərminin sifətinə çırpdığı torpaq radioqəbuledicini əlindən alıb havaya uçurtdu. Tabor komandiri səngərin içinə çöküb, tez də ayağa qalxdı. Mərmi səngərin qarşısına yığdıqları torpağı da havaya sovurmuş-

du. Kapitan Hüseynov əsgər Yaqubovun partlayışdan dərhal sonra da qan-tər içində səngəri genişləndirməyə davam etdiyini görüb arxadakı əsgərlərdən birini yanına çağırdı. Üzünə belə baxmağa imkan tapmadığı əsgərə beli əsgər Cahid Yaqubovdan alıb səngər qazmasını, Yaqubova isə əvvəlki mövqeyinə qayıtmasını əmr elədi. Əsgər qazmağa başlayınca:

– Başını yuxarı qaldırmadan qaz, əsgər, torpağı qarşı tərəfə at! – deyə bağıraraq tapşırıq verdi.

Əsgər Cahid Yaqubov səngərdən sıçrayıb arxa tərəfə qaçmaq istəyəndə qəfil pulemyot atəşinə tutuldu. Düşmən bir neçə yüz metr qarşıdan, Şuşa şəhəri istiqamətindəki yüksəklikdən taborun mövqe tutduğu ərazini mərmi atəşinə tuturdu. Xankəndi tərəfdən və Şuşa şəhərindən gələn silahlı qüvvələrin seçdiyi mövqe isə ermənilərə müdafiə taborunun yerləşdiyi ərazini tam nəzarətdə saxlamaq, daha yüksəklikdə olduqları üçün əsgərlərimizin manevrlərini izləmək və pulemyot atəşi ilə bütün taboru sıradan çıxarmaq imkanı qazandırırdı. Daha yaxın məsafədə yerləşən tanklar atəş məsafəsini tənzimləmək üçün bir qədər geri çəkilmiş və daha sərrast atəşlə müdafiə taborunun tutduğu mövqeyi dəqiq vurmaq imkanı əldə eləmişdi.

Düşmən gözlənilmədən burunlarının ucunda peyda olan müdafiə taborunu, nəhayət ki, bir neçə günlük mühasirədən sonra tamamilə sıradan çıxara biləcəyinə əminliklə əks-hücuma keçmiş və hərbi texnikanın bütün növlərindən istifadə edərək var qüvvəsi ilə hücumu davam etdirirdi. Şuşaya imitasiya xarakterli hücum tapşırığı alan əks-həmlə taboruna qarşı düşmən Xankəndidən yardıma gələn



**Şəhid kapitan**
**Ülvi Hüseynov**

qüvvələrinin bir hissəsini istiqamətləndirməklə kifayətlənməmiş, Şuşadakı qüvvələrinin də bir hissəsini ayırıb, eyni mövqeyə göndərmişdi. Şuşakənd istiqamətində qüvvələr balansını öz xeyrinə dəyişən düşmən özü də bilmədən digər tərəflərdən şəhərə sızma tapşırığını yerinə yetirən xüsusi təyinatlıların hərəkət istiqamətlərində və şəhərin özündə qüvvələrinin nisbətən azaldılmasına səbəb olmuşdu...

Əsgər Cahid Yaqubov ətrafından, qulaqlarının dibindən vıyıltı ilə uçan pulemyot güllələrindən qorunmaq üçün qaçıb özünü səngərin bir neçə metr arxa tərəfindəki çuxura atdı. Mövqelərinin atəş altında olduğundan yerlərini dəyişmək məcburiyyətində qalan daha iki əsgər eyni anda həmin çuxura atıldı. Və kiçik, yalnız bir əsgərin sığa biləcəyi çuxura üç əsgər eyni anda düşdükdə: – Vay, boğuldum! – deyə daha altda qalan əsgər bağıraraq digərlərinin üstündən qalxmasını istədi. Amma pulemyot yağmuru buna imkan vermədi. Sıçrayıb tutduğu mövqeni dəyişməyə çalışan daha bir əsgər havadaca aldığı güllə yarasından bir neçə addım qabaqda torpağa düşdü. Günlərlə çəkən aclıq və susuzluqdan işığını itirən, aldığı güllə yarasından öləziyən, yardım üçün yalvarış dolu gözlərini Cahid Yaqubova tuşladı. Əsgər Yaqubov:

– Əlini mənə uzat! – deyə bağıraraq kömək üçün yaralı əsgərə tərəf dartındı. Qüvvəsi tükənməkdə olan yaralı əsgər əlini sinəsindən sürüşdürüb döyüş yoldaşına uzatdı. Cahid dartınıb yaralı əsgərin qanlı barmaqlarını yaxalaya bildi və var qüvvəsi ilə onu özünə tərəf çəkdi. Amma onu yerindən tərpətməyə macal tapmamış daha bir pulemyot gülləsi yaralı əsgərin çiyin nahiyəsindən tutdu və güllənin açdığı yaradan fışqıran qan Yaqubovun sifətinə sıçradı. Əsgər Yaqubov güllənin zərbindən yerindən sıçrayıb, qucağına düşən yaralı döyüş yoldaşını kürəyi üstə torpağa uzatdı. Döyüş yoldaşının gözlərini az qala yandıracaq qapqara qanının isti təmasını qollarının arxası ilə sifətindən silib onu yanındaca yaş torpağa uzandı. Buz kimi soyuq baxışlarını səmaya zilləyib döyüş yoldaşının soyumaqda olan qanlı əlini ovcunda sıxdı...

Əsgər Qorxmaz Hüseynov səngərdən xeyli arxaya düşmüş kapitan Hüseynovun radioqəbuledicisini qamarlayıb, komandirə sarı süründü. Uzaqdan onu tabor komandirinə tolazlayıb, torpağa qısıldı. Hələ də səngəri genişləndirməkdə davam edən əsgər radioqəbuledicini səngərin içindən qaldırıb, komandirə uzatdı. Kapitan Hüseynov radioqəbuledicini əlinə alan kimi düyməsini basıb, komandanlıqla əlaqə yaratmağa çalışdı. Bu vaxt səngərdən azacıq qalxıb, qazdığı torpağı qabağa atmaq istəyən əsgər snayperlə alnından aldığı güllə yarasından komandirin üstünə sıçradı. Kapitan Hüseynov gözləri alnına tərəf çevrilən əsgəri qucağına alaraq, səngərin dibinə çökdü:

– Sənə dedim, axı, başını qaldırma, əsgər, sənə dedim, axı, əyilib işlə, qardaş! Kiprikləri kəpənək kimi çırpınan,

baxışları başının üstündəki komandirə zillənən əsgərin təbəssümü sifətində dondu. Qıpqırmızı qanı sanki təbəssümünün şəklini cızırmış kimi alnından süzülüb göz çuxurlarına, oradan da yanaqlarına sızdı. – İndi anana nə cavab verəcəm, əsgər, – kapitan Hüseynov onu sinəsinə sıxdı, – indi anana nə cavab verəcəm, qardaş! – başını səmaya qaldırıb xırıltılı səslə bağırdı.

Əsgər sanki yuxuya getdi. Tabor komandiri əsgəri qucağından ustufca sürüşdürüb səngərin dibinə uzatdı. Ehmalca qalxıb ətrafında və arxasında mövqe tutmuş əsgərlərinə boylandı. Mühasirə vəziyyətində bir necə gün davam edən aramsız döyüşdən yorulmuş, aclıq və susuzluqdan taqəti tükənmiş əsgərlərinin bir qismi tükənməkdə olan sursatı qənaətlə istifadə etməklə döyüşü davam etdirir, digərləri şəhidləri və yaralıları təhlükəsiz yerə daşımağa çalışırdılar.

Bu zaman xüsusi təyinatlıların bir neçə əks-həmlə qrupu artıq Şuşa şəhərinə sızma əməliyyatına başlamışdı. Onlar müxtəlif istiqamətlərdən ehtiyatla düşmənin şəhər ətrafındakı mövqelərinə doğru irəliləyirdi. Polkovnik Çingiz Əliyev, mayor Saleh Həsənov, mayor Anar Qasımov, kapitan Nahid Tağıyev və Birinci qrupun komandiri öz qrupları ilə müxtəlif istiqamətlərdən addım-addım şəhərə yaxınlaşır, düşmənin müqavimətini qıraraq onu geri sığışdırır, şəhərə daxil olmağa çalışırdılar. Laçın koridorunu keçib, Şuşa şəhərini arxa tərəfdən adlayan, Xankəndi istiqamətindən Şuşa Qalasına tərəf hərəkət edən Saleh Həsənovun qrupu yanacaqdoldurma məntəqəsi ilə Qalanın arasında yerləşən qəbiristanın girişində mövqe tutdu. Mayor Sa-

leh Həsənov, Birinci qrupun komandiri və digər qruplarla əlaqəli və paralel şəkildə hərəkət edən kapitan Nahid Tağıyev isə öz qrupu ilə Xankəndi istiqamətindəki asfalt yolun alt tərəfində, kol-kosla, ağaclarla çevrələnmiş qayalıqda mövqeləndi. Birinci qrupun komandiri Xankəndi istiqamətində irəliləyərək Saleh Həsənovun sol cinahından, qayalıqlardan buruldu və Şuşaya doğru istiqamət aldı...

Axşamçağının ala-toranı dərə boyu sürünən dumanın üzərindən adlayıb torunu Şuşaya atdı. Arxasınca dartınan zəif duman özünü ağaclara, qayalara çırparaq çilik-çilik olub ala-torana qarışdı. Yollar, izlər görünməz oldu. Müxtəlif istiqamətlərdə gurlayan, sədası Şuşa Qalasına çırpılıb Laçın qayalarında əks-səda verən atəş səsləri təbiətin qapanmış gözlərinə iynə kimi sancıldı...

Qruplar mövqelərini tutmuşdu, səbrlə müşahidə aparır, hərəkət üçün məqam gözləyirdi... Müxtəlif istiqamətlərdən eşidilən müxtəlif tipli silah səsləri gecənin bağrına yalquzaq ulartısı kimi sancılır, bayquş qiyyəsi kimi əks-səda verirdi. Yuxarıda, Şuşa şəhərinin ətrafında və şəhərin kənarından keçib Xankəndi istiqamətində uzanan asfalt yolda düşmən texnikasının hərəkəti müşahidə edilirdi. Kapitan Nahid Tağıyevin sürüşkən dağ yamacı və qayalıqla çevrələnmiş meşəlikdə mövqe tutan əsgərləri ağaclardan yapışaraq, müvazinətlərini tənzimləməyə çalışırdılar. Tabor komandiri ətrafı diqqətlə müşahidə edib, üzünü kapitan Cəlal Kamalova tutdu:

– Vaxtdır, Kamalov, on iki nəfərdən ibarət heyətlə qalxıb koridorun qırağında pusquda duracaqsız, – pıçıltı ilə tapşırıq verdi: – Düşmən arxa tərəfdən hücum etməklə

şəhərə girməyimizə mane olmağa çalışacaq. Diqqətli olun, düşmənin Laçın yolu boyu ən kiçik hərəkəti belə nəzərinizdən qaçmamalıdır.

– Oldu, komandir! – Kapitan Kamalov başının işarəsi ilə anladığını bildirdi.

– Döyüş şəraitini nəzərə almaq, məqamında müdaxilə etməklə qüvvələrimizin irəliləməsinə dəstək verəcəksiz! – əlavə etdi: – Qalanları ardımca! – deyə koridora paralel şəkildə hərəkətə başladı. – Ulduz, Palıd, Küknar, məni eşidirsiz, qəbul. – Radionu dodaqlarına yaxınlaşdırıb, astadan cavab verdi. – Ulduz səni eşidir, Günəş, qəbul!

Eyni anda Birinci qrupun komandiri və mayor Saleh Həsənovun:

– Palıd, Küknar səni eşidir, Günəş, qəbul! – deyə səsləri radioda eşidildi.

– Ulduz, Palıd, Küknar, bir-birinizlə sıx əlaqəli şəkildə şəhərə doğru hərəkətə başlayın! – Təyinat üzrə dəstə komandiri polkovnik Zaur Zeynalov əmr etdi: – Məni necə başa düşdünüz, qəbul?

– Sizi başa düşdük, Günəş, qəbul!

– Mayor Zaur Rəhimov öz qrupu ilə artıq Şuşa Qalasının ətrafına çatıb və aktiv döyüş əməliyyatlarını davam etdirir. Mayor Rəhimov sizdən öndə, Şuşa qalasına daha yaxın olduğu üçün hücum əməliyyatını əlaqəli şəkildə, bir-birinizə mane olmadan aparın.

– Oldu, cənab polkovnik!

Qruplar üç istiqamətdən koridora doğru hərəkətə başladılar. Kapitan Nahid Tağıyevin qrupu dəhlizə paralel şəkildə yanacaqdoldurma məntəqəsi istiqamətində yamac boyu

irəliləyib, yolun kənarındakı böyürtkən kollarının arasında mövqe tutdu. Birinci qrup Xankəndi istiqamətindən, mayor Saleh Həsənovun qrupu isə mərkəzdən – aşağıdan yuxarı dırmanaraq, dəhlizin aşağı hissəsinə çatıb dayandı.

Düşmən texnikası hər iki istiqamətdən – həm Laçın, həm də Xankəndi istiqamətindən qarşıya şütüyür, onun canlı qüvvəsi bütün koridor boyu keşik çəkirdi. Birinci qrupun komandiri koridoru bir neçə dəqiqəlik müşahidədən sonra: – Hazır olun, uşaqlar! – deyə ətrafındakılara pıçıldadı. Radionu dodağına yaxınlaşdırıb: – Ulduz, Küknar, məni eşidirsiz, qəbul! – eyni tərzdə soruşdu.

Hər iki qrup komandiri: – Eşidirik və əməliyyata hazırıq! – deyə eyni anda cavab verdi.

– Ulduz, Küknar, ilk atəşdən sonra koridoru götürməyə və hər iki tərəfdən bloklamağa hazır olun, qəbul!...

Atəş açıldı. Xankəndi tərəfdən şütüyən "UAZ" markalı komandir maşını yoldan çıxıb yamaca diyirləndi. Eyni anda mayor Saleh Həsənovun tapşırığı əsasında koridorun altındakı yamacda mövqelənib işarə gözləyən əsgər zərbə dronunu havaya qaldırdı. Dron yanacaqdoldurma məntəqəsi ilə üzbəüz üç yüz metr qarşıda, Xankəndi istiqamətində partladı. Düşmən texnikası ətrafdakı əsgərlərlə bərabər havaya qalxdı. Koridor boyu hərəkət edən təkərli düşmən texnikası və minik avtomobilləri əvvəlcə ani olaraq dayandı, sonra sürətli hərəkətlə getdikləri istiqamətdə şütüyüb uzaqlaşmağa çalışdı. Piyadalar çaxnaşma içərisində mövqelənməyə yer axtardı.

Əks-həmlə qruplarının xüsusi təyinatlıları qəfil yerlərindən sıçrayıb: – Allahu Əkbər! – bağırtılarıyla Laçın

yoluna çıxdılar. Sağ və sol cinahdakı qruplar pərgar kimi ətraflara açılıb ayaq üstdəcə üstlərinə şığıyan düşmən texnikasını atəşə tutdular. Mərkəzi qrup sürəkli atəş açmaqla düşmən əsgərlərinin və artıq iki qrup arasında qalmış düşmən minik avtomobillərinin üzərinə yeridi...

***

...Xüsusi təyinatlı qüvvələr Şuşa-Laçın yolunu yararaq arxa tərəfdən, Şuşa-Laçın yoluna paralel olan kənar yolla irəliləyən vaxt onların arxasınca hərəkət edən xüsusi təyinatlı qüvvələrin qrup komandiri kapitan Qəzənfər Bağırlı və motoatıcı qüvvələrin qrup komandiri kapitan Ramazan Hudulov öz qrupları ilə Şuşa-Laçın koridoruna çatıb dayandılar. Laçın istiqamətindən düşmənin yolunda pusqu quraraq mövqelənən kimi Qəzənfər Bağırlı təyinat üzrə dəstə komandiri polkovnik Zaur Zeynalovla radio əlaqəsinə girib: "Cənab polkovnik, düşmənin Laçın tərəfdən gözlənilən hücumunun qarşısını almaq üçün bütün tədbirlər görülüb. Qüvvələrimiz tərəfindən yol tamamilə nəzarətə götürülüb və düşmənin istənilən fəaliyyətinin qarşısını almaq üçün tam hazırıq!" – deyə məruzə etdi.

***

... Düşmənin təkərli texnikası və minik avtomobilləri hər an başları üstündə peyda ola biləcək dronlar və ildırım kimi şığıyan xüsusi təyinatlıların xofundan istiqamətini dəyişib, koridor boyu geri çəkilməyə çalışırdı. Ardıcıl atəş yağdırmaqla kütləvi şəkildə hərəkət edən xüsusi təyinatlılar düşmənin iki minik avtomobilini dayanmağa məcbur

etdilər. Düşmən əsgərlərinin bir qismi minik avtomobillərinin arxasında mövqelənib üstlərinə yeriyən mayor Saleh Həsənovun qrupunu atəşə tutunca, digərləri yerə sərilib silaha sarıldılar.

Yaxın məsafədən kiçik çaplı silahlarla döyüşə girən xüsusi təyinatlılar dayanmadan irəliləyirdi. Düşmən əsgərləri cavab atəşi yağdırır, sürünərək yolun kənarındakı kolluqlara doğru çəkilməyə cəhd göstərirdilər. Gizir Anar Nağıyev düşmənin mövqelənmək istədiyi ərazini nəzarət altına almaq məqsədilə yolun kənarındakı kolluqlara ilişərək dayanmış, amma hələ də mühərriki sönməmiş avtomobilin sol tərəfindən buruldu. Və avtomobilin arxa tərəfində mövqelənib, avtomatını atəşə hazır tutan düşmən zabiti ilə göz-gözə gəldi. Düşmən zabiti Nağıyevin alov saçan baxışlarının vəhmindən bağıraraq, addımını geri atdı və darağındakı bütün güllələri xüsusi təyinatlının üstünə yağdırdı. Gizir avtomobilə dayaqlanaraq müqavimətini saxlamağa çalışdı. Və tükənməkdə olan qüvvəsini toplayıb tətiyi çəkdi. Geri addımlamaqla avtomatının darağını dəyişdirməyə çalışan düşmən zabiti sinəsini dəlib keçən güllənin zərbindən arxası üstə torpağa düşdü.

Gizir Əziz Əzizli avtomobilə dayaqlanaraq hələ də müvazinətini saxlamağa çalışan Anar Nağıyevə çatdırdı. Kürəklərini qucaqlayıb, döyüş yoldaşını astaca torpağa uzatdı:

– Anar... Anar! – deyə qeyri-iradi səsləndi.

– Get... Əziz... irəli get... ora!... – Nağıyev əlini irəli, döyüş yoldaşlarının getdiyi istiqamətdə uzadıb gözlərini qapadı...

Mayor Həsənov cəld avtomatını kürəyinə çevirdi. Hər iki əli ilə qamarlayıb, qumbaraları çantasından çıxartdı. Dişləri ilə dartıb həlqələrini qopartdı. Eyni anda iki yerdə partlayış baş verdi. Yolun ortasındaca hərəkətdən dayanmış ikinci minik maşınının arxasında mövqelənən və ondan on-on beş metr aralı yerə sipər olmuş düşmən əsgərləri ani olaraq susdu. Qarşılarını partlayışın qaldırdığı toz-torpaq kəsdi. Bundan istifadə edən xüsusi təyinatlılar partlayış zamanı uzandıqları yerdən qartal kimi sıçrayıb, cəld düşmən mövqelərinə atıldılar və əl qumbarasının qəlpələrindən xilas olan düşmən əsgərlərinin başı üstünü çevik bir hərəkətlə aldılar. Düşmən qısa bir vaxtda və yaxın məsafədən məhv edilib susduruldu.

Döyüş tapşırığını yerinə yetirən kimi mayor Saleh Həsənovun qrupu iki hissəyə bölünüb sağ və sol cinahlarda döyüş aparan digər qruplara köməyə tələsdi. Kapitan Nahid Tağıyevin qrupunun dəhlizə çıxdığı istiqamətdə, yolun alt tərəfində pusquda duran və əks-həmlə taborunun dəhlizə çıxdığını görən düşmən qəfil atəşə başladı. Amma qrup rəhbərinin arxadan gözlənilən hücumdan qorunmaq və müşahidə məqsədilə geridə – pusquda saxladığı kapitan Cəlal Kamalov öz qrupu ilə dərhal güllə yağdıra-yağdıra düşmən əsgərlərinin üzərinə yeridi. İki tərəfdən atəşə tutulan düşmən Şuşa istiqamətində qaçaraq, aradan çıxmağa cəhd göstərdi.

Qrup rəhbəri kapitan Nahid Tağıyevin işarəsi ilə gizir Pənah Əliyev sürətli qaçışla özünü düşmənin, aşkar olunmazdan qabaq pusquda durduğu, mövqeyinə yetirdi.

Mövqelənib düşməni özlərinin qoyub qaçdığı RPK pulemyotu ilə atəşə tutdu...

– Koridor bizdə! – Birinci qrupdan komandirin səsi radioda eşidildi.

– Sizdən yuxarıdakı təpəyə doğru irəliləyin, mayor. – Təyinat üzrə dəstə komandiri polkovnik Zaur Zeynalov göstəriş verdi: – Düşmənin həmin mövqedəki qüvvələrini məhv edib şəhərə doğru hərəkətə keçin!

– Oldu, cənab polkovnik!...

***

...Dan yeri sökülmüşdü. Uzaq, qara buludlar saçaqlamışdı sanki. Sıyrılıb zülmətdən çıxan, gecənin qaranlığını canlarına çəkən buludların boz sifətlərinə qara ləkələr hopmuşdu. Səmada qaynaşıb bir-birinə çırpıldıqca başları üzərindən boylanan dan yeri çilik-çilik olub maili şəkildə Şuşanın üstünə səpələnmişdi. Amma şəhərin üstü və ətrafında qaynaşan şəffaf saçaqlar bulanıq sularda hara gəldi şütüyən qorxmuş balıqlar kimi dinc durmur, tez-tez yerdəyişmə edir, elə bil, gizlənməyə yer axtarırdılar...

Əsgər çəkmələri illərlə bağlı qalmış, üstünü toz basıb kif bağlamış, içini hörümçək hörüb tor basmış, siçovullar yuva qurub məskən salmış qədim, möhtəşəm bir qəsrin taxta qapılarını döyürmüş kimi yerə çırpıldıqca dağlarda, qayalarda əks-səda verir, gum-gum gumbuldayıb təbiəti lərzəyə gətirirdi...

Qarşıda Qala divarları göründü. Əsgərlər qeyri-ixtiyari dərindən nəfəs alıb bir-birinə baxdılar. Bu, illərlə görüşünü arzuladıqları Şuşa Qalası idi. Bu, neçə igidin uğrunda

canını qurban verdiyi Azərbaycanın mədəniyyət mərkəzinin qapısı idi. Bu, həsrətilə yaşayıb qovuşmadan can verdiyi neçə şuşalının ümid qapısı idi. Bu, əsgər vicdanının rahatlıq tapdığı şəhidlər gülüstanı idi... Və bu gurultuları xüsusi təyinatlılar da aydın, lap aydın eşidirdi. Amma bu gurultular əsgərlərin qulaqlarında əsgər çəkmələrinin tappıltıları kimi deyil, qaval dilində səslənirdi. Bu səslər sazın tellərindən süzülən "Ruhani"nin naləsiydi. Bu səslər ürəkləri, döyüşə göndərdiyi oğullarının ürəkləri ilə bir çırpınan anaların türküyə çevrilən göz yaşlarıydı. Bu səslər əsgərlərin haqq yolunda döyüşə gedərkən qəlblərində hayqıran və bütün damarlarında qaynayan gülüş səsləriydi...

Bu səslər illər qabaq ruhları bu torpaqlarda qalıb gözlərini yollara dikmiş şəhidlərin qan çanağına çevrilmiş gözlərinin işartısıydı. Bu səslər bir an belə kirpiklərini qırpmayıb, gözlərinin acısını almayan şəhidlərin qəlblərində illərlə yığıb saxladıqları göz yaşlarının qəfil sızmağa başlayan şırıltısıydı. Və bu səsləri hamı eşidirdi... hamı. Ayaqlarını inamla yerə çırpıb bu musiqini yaradan, bu musiqinin sədasını hayqıran... hamı. Ətraflarında uçuşan, qulaqlarının dibindən keçən güllələrin, ayaqlarının altında partlayıb torpağın altını üstünə çevirən mərmilərin gurultusu bu musiqinin yanında bir ağcaqanad, bir eşşəkarısı vızıltısı kimi eşidilirdi...

Xüsusi təyinatlılar təpəni adlayıb Qalaya doğru yeridilər. Bu vaxt arxa tərəfdən, Xankəndi istiqamətindən şütüyən düşmənin bir neçə təkərli texnikası Şuşa-Laçın yolunda, yanacaqdoldurma məntəqəsinin təxminən iki-üç kilometrliyində dayanıb pulemyot və artilleriya qurğula-

rını xüsusi təyinatlılara sarı çevirdilər. Desant kabinələri açılar-açılmaz düşmən əsgərləri maşınlardan kənara sıçrayıb, zəncirvari şəkildə arxadan əks-həmlə taborunun üzərinə yeridilər. Və düşmən həm pulemyot və artilleriya qurğularından, həm də motoatıcı qüvvələrdən xüsusi təyinatlıları atəşə tutdu.

– Düşmənin arxa hücumunun qarşısını almaq səndə, kapitan! – mayor Saleh Həsənov bağıraraq: – Öz qrupunla arxadan müdafiəni təşkil elə, Elvin! – deyə sol cinahında hərəkət edən kapitan Elvin Alıyevə tapşırıq verdi.

Kapitan Alıyev işarə ilə dərhal on iki nəfərdən ibarət qrupu dayandırıb, arxa istiqamətdə mövqelənməyi əmr etdi. Baş barmağı ilə üzərindən od yağdıran düşmən texnikasını baş leytenant Kamran Soltanlıya göstərib susdurmağı tapşırdı. Baş leytenant Soltanlı ani bir hərəkətlə yerdəyişmə edib özünü qumbaraatanla silahlanmış əsgərin yanına çatdırdı. Ayaq üstdə hərəkət edən düşmən piyadaları qəfil atəşlə qarşılaşıb, mövqelənməyə yer axtardılar. Eyni anda qumbaraatandan açılan mərmi düşmənin təkərli texnikasını alova bürüdü. Və üstlərinə yağan sürəkli atəş Xankəndi tərəfdən Şuşaya yardıma gələn düşmən qruplarını geri sürünüb yolun altındakı böyürtkən kolluqlarına çəkilməyə məcbur etdi.

Düşmənin ikinci təkərli texnikası pulemyot atəşini dayandırmadan manevrlə geri süründü. Kapitan Elvin Alıyevin qrupunun arxa tərəfdən müdafiəni təşkil etməsi xüsusi təyinatlıların Qalaya inamla yeriməsinə şərait yaratdı. Onlar, – Allahu Əkbər! – deyə bağıraraq şəhərin girişinə doğ-

ru hərəkətə keçdilər. Xüsusi təyinatlıların sürəkli atəşlə və kütləvi şəkildə irəliləməsi Qala divarlarının arxasında gözləyən düşmən əsgərlərini başlarını gizlətməyə məcbur etdi...

Qaçıb asfalt yolun altındakı böyürtkənlikdə mövqelənən düşmən Qalaya doğru irəliləyən xüsusi təyinatlıları arxadan eyni anda qəfil atəşə tutdu. Kapitan Elvin Alıyevin işarəsi ilə qrup böyürtkənlikdə mövqelənmiş düşməni nişan aldı. Baş leytenant İlyasov və leytenant Ruslan Məmmədov xüsusi təyinatlıların şəhərə girməsinə mane olmağa çalışan düşmənə doğru sağ və sol cinahlardan hərəkətə keçdi. Asfalt yola qədər manevrlə irəliləyən hər iki xüsusi təyinatlı asfaltı sürətlə keçib, hər iki əllərində tutduqları qumbaraları böyürtkənlikdə gizlənmiş düşmən əsgərlərinə atdı. Eyni anda dörd partlayış baş verdi. Partlayışın qaldırdığı toz-torpaq yerə enməmiş düşmən mövqeləri sürəkli atəşə tutuldu...

Üç qrupdan ibarət xüsusi təyinatlılar Qalanın ön tərəfindəki meşəliyə çatıb dayandılar. Qala divarlarının arxasında gizlənən düşmən əsgərlərinin atəş imkanları əks-həmlə qruplarının sürəkli atəşi nəticəsində məhdudlaşdırılsa da, Xankəndi tərəfdən daim hərəkətdə olan düşmən texnikasının manevr və atəş açma imkanı xüsusi təyinatlıları mövqelənib gözləməyə məcbur edirdi. Şuşa Qalası və ətrafı qatı dumana bürünsə də, düşmən xüsusi təyinatlıların hərəkət istiqamətlərini müəyyən etmiş və tırtıllı texnika üzərindəki artilleriya qurğuları ilə ardıcıl mərmi yağdırmağa başlamışdı.

– Qalaya doğru hərəkəti davam etdirin və Qala divarlarının arxasına keçməyə çalışın! – Birinci qrupun komandiri əmr etdi. Qruplar şəhid və yaralıları da götürərək manevrlə Qala divarlarının arxasına doğru hərəkətə başladılar. Qarşı tərəfdən – Şuşa Qalasının arxasından pulemyot və avtomatların güllə yağmuru, arxa tərəfdən – Xankəndi yolundan ağır texnikanın aramsız mərmi atəşi altında irəli yeridilər. Qala divarlarının arxasında mövqelənmiş düşmən atəş intensivliyini artırmağa çalışdı.

Amma hətta sinələrinə dəyən avtomat güllələrinin də xüsusi təyinatlıları dayandırmadığını, bəzilərinin çiyinlərində yaralı yoldaşları, bəzilərinin çiyinlərində şəhid qardaşları olan xüsusi təyinatlıların: – Allahu Əkbər! – deyə bağıraraq inamla irəli şığıması düşmən əsgərlərini lərzəyə saldı. Atəşi dayandırmadan təlaş içərisində geri çəkilməyə başladılar. Və qatı dumandan, tank mərmilərinin qaldırdığı toz-torpaqdan istifadə edərək, qrupların üçü də qısa bir zamanda Qala divarlarını adlayıb, şəhərə daxil oldu. Qala divarlarının arxasında mövqe tutmuş düşmən əsgərlərinin böyük bir hissəsi məhv edilmiş, sağ qalanlar isə ölüləri qoyub qaçmışdılar. Amma düşmən artilleriyası hələ də susmaq bilmirdi...

– Xankəndi tərəfdən gələn düşmən hücumunun qarşısını almaq üçün Şuşa Qalası ətrafında müəyyən sayda qüvvə saxlayıb şəhərin içinə doğru hərəkətə başlayın! – Təyinat üzrə dəstə komandiri polkovnik Zaur Zeynalovun amiranə səsi radioda eşidildi: – Şəhəri düşməndən təmizləmək və müdafiəni təşkil etmək məqsədi ilə mərkəzə doğru müxtəlif istiqamətlərdən hərəkəti davam etdirin!

Hər üç qrupun komandiri eyni tapşırığı eyni anda eşitdi. Xankəndi tərəfdən gəlib Şuşa şəhərinin üç kilometrliyində mövqe tutaraq xüsusi təyinatlıların hərəkət istiqamətlərini intensiv atəşə tutan düşmən tankları təxminən on dəqiqə sonra susdu. Amma bu cəmi bir neçə dəqiqə çəkdi... Qruplara irəliləmək tapşırığı verildi. Şuşa Qalasını və şəhərə girişi nəzarətdə saxlamaq, düşmən hücumlarının qarşısını almaq məqsədilə bir qrup xüsusi təyinatlı Qala divarlarının arxasında mövqeləndi. Yaralandıqdan sonra gecəni Şuşa Qalasının yaxınlığındakı meşəlikdə keçirən mayor Zaur Rəhimov da təxliyə olunmaqdan imtina edərək öz qrupunu toparladı və Xankəndi tərəfindən gözlənilən hücumun qarşısını almaq üçün Qala divarlarının yaxınlığında mövqe tutdu.

Digər qruplar isə müxtəlif istiqamətlərdən şəhərin içərilərinə doğru irəliləməyə başladı. Birinci qrup sağa burularaq şərq istiqamətində, təpələrə tərəf hərəkətə keçdi. Mayor Saleh Həsənov və kapitan Nahid Tağıyev öz qrupları ilə sola burularaq, şəhərin qərb istiqamətinə, Şuşa həbsxanasına doğru irəliləməyə başladı...

Şəhər qəribə bir narahatçılıqla susmuş, təbiətin səsi batmışdı sanki. Şəhərin ətrafında gurlayan artilleriya atəşi qayaların ürək döyüntüsü kimi səslənir, torpaq həyəcandan gum-gum gumbuldayırdı. Duman burularaq qaya boyda qar topaları kimi dərə boyu üzüaşağı diyirlənir, dağ-daşa çırpılıb parçalanır, yaş torpağa səpələnirdi. Xüsusi təyinatlılar şəhərin rütubətli havasını acgözlüklə ciyərlərinə çəkib, içlərində əzizləyə-əzizləyə ehtiyatla addımlayırdılar. Şuşanı işğaldan azad etmək tapşırığını öz üzərinə götürən

əks-həmlə qrupunun bütün üzvləri şəhəri xəritədə dəqiq öyrənmiş, hissələrə bölüb nömrələdikləri bütün tikililəri əzbərləmişdilər. Havanın dumanlı, çiskinli olmasına baxmayaraq, hərəkət istiqamətlərini plan üzrə davam etdirməyə çalışır, koordinasiyalı şəkildə irəliləyirdilər.

Şuşa həbsxanası yaxınlığında bir qrup düşmən əsgəri erməni dilində nəsə bağıraraq, onların üstünə yeriməyə başladı. Xüsusi təyinatlılar silahlarını atəşə hazırlayınca mayor Saleh Həsənov əllərini yanlara açıb, "tələsmə" işarəsi verdi. Xüsusi təyinatlıların şəhərə sızmasından və hərəkət istiqamətlərindən xəbərsiz düşmən əsgərləri onları özlərinki hesab edir, yardım istəyirmiş kimi yanlarına tələsirdilər. Erməni əsgərləri ucadan və tələsə-tələsə danışaraq, xüsusi təyinatlılara yaxınlaşmağa başladılar. Havanın çiskinli və dumanlı olması, Azərbaycan xüsusi təyinatlılarının belə tez və gözlənilmədən şəhərə sıza bilmələrinə inamsızlıq düşməni aldatmışdı. Aralarındakı mübahisədən və səs-küylərindən narahatlıqları və vahimə içində olmaları aydın hiss olunurdu.

Düşmən şəhərin müdafiəsini üzərinə götürmüş "təcrübəli hərbçi", Birinci Qarabağ Müharibəsi iştirakçısı, Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyanın nə işlə məşğul olduğundan, şəhərin müdafiəsinə cəlb olunmuş üç min əsgərin hara yoxa çıxmasından, Araik Arutunyanın ölümü, dirimi olduğundan danışıb mübahisə edir, bəziləri Ohanyanın qaçıb şəhəri tərk etdiyini iddia edirdilər.

Kapitan Nahid Tağıyev mayor Saleh Həsənova tərəf boylanıb, əlini xəfifcə sinəsinə toxundurmaqla – "məndə" – deyə işarə elədi, avtomatını kürəyinə çevirib, kəmərin-

dən sallanan süngü-bıçağını qamarladı. Komandirlərinin hərəkətini anlayan baş leytenant Azad Axundov, baş leytenant Tural Koroğluyev, gizir Əlimuxtar İbrahimov, gizir Azər Hüseynov və baş leytenant Elnur Qasımov soyuq silahlarının dəstəklərini əllərində sıxıb, irəli addımladılar. Əlbəyaxa döyüşə hazır olan qrup asta addımlarla düşmən əsgərlərinin üzərinə yeridi. Düşmən aldandığını və səhv etdiyini anladıqda qrup üzvləri artıq onlara göz bəbəklərini görəcək qədər yaxınlaşmışdı. Düşmən əsgərlərinin əks-həmlə qrupuna yaxınlaşarkən arxada qalan hissəsi duyuq düşüb, avtomatlarını atəş vəziyyətinə gətirdilər və geri çəkilməyə cəhd etdilər. Qarşıda təkcə Azərbaycan ordusunun xüsusi təyinatlıları deyil, Ermənistan ordusunun xüsusi təyinatlılarının da olmasına baxmayaraq, qəfil atəşə başladılar. Digərləri isə başqa bir çıxış yolu görməyib, göz-gözə qaldıqları xüsusi təyinatlıların üzərinə atıldılar.

Düşmənin geri çəkilən hissəsi uzaqlaşmağa macal tapmadan mayor Saleh Həsənovun qrupu tərəfindən sərrast atəşlə məhv edildi. Kapitan Nahid Tağıyevin qrupu isə vahimə içində üzərlərinə atılan düşmən əsgərlərini süngü-bıçaqla qarşıladı. Kapitan Tağıyev süngü-bıçağını bağıraraq üstünə atılan düşmən zabitinin sinəsinə sapladı. Dərhal da çevrilib avtomatının qundağını başına endirmək istəyən düşmən əsgərinin hülqumunu süngü-bıçaqla parçaladı. Aralarına sızmış altı nəfərdən ibarət xüsusi təyinatlı ilə əlbəyaxa döyüşə girmiş on beş-iyirmi nəfərdən ibarət düşmən odlu silahını işə salmağa macal tapmadan süngü-bıçaqla məhv edildi.

Şuşa həbsxanasının yaxınlığında mövqelənib, Şuşakənd istiqamətindən gözlənilən hücumdan müdafiə tapşırığı almış düşmən əsgərləri cəld arxaya, xüsusi təyinatlıların gəldiyi istiqamətə çevrilib qəfil atəşə başladılar. Xüsusi təyinatlılar sürəkli atəş və sürətli hərəkətlə düşmənin üzərinə yüyürdü. Düşmən ani olaraq susdu. Bir neçə dəqiqədən sonra o özünün əvvəlki mövqeyindən təxminən yüz əlli-iki yüz metr arxadan əks-həmlə qrupunu atəşə tutdu...

– Samiri vurdular! – Baş leytenant Hidayət Cahangirov bağırıb xəbərdarlıq etdi.

Sinəsindən aldığı avtomat yarasından gizir Samir Mehdiyev bir neçə addım irəliləyib, üzü üstə torpağa düşdü. Baş leytenant Cahangirov qaçıb özünü döyüş yoldaşına çatdırdı. Samir Mehdiyevi arxası üstə çevirib, başını dizinin üstünə qoydu. Gizir Mehdiyev gözlərini açıb başının üstündə duran döyüş yoldaşının sifətinə boylandı. Ani bir təbəssümlə gözlərini qıyıb:

– Haqqınızı... halal edin... qardaş! – deyə xəfifcə qapadı...

Düşmən əsgərləri xüsusi təyinatlıların hərəkəti istiqamətində aramsız atəş yağdırmaqla şəhərin mərkəzinə doğru çəkilib gözdən itdilər. Qarşı tərəfdən gələn “UAZ” markalı komandir maşını da istiqamətini dəyişib, geriyə doğru sürətlə uzaqlaşdı...

Həbsxananın yaxınlığında şəhəri Şuşakənd tərəfdən gözlənilən hücumdan müdafiə etmək üçün səngərlər qazılıb, istehkamlar qurulmuşdu. Demək, düşmən xüsusi təyinatlıları arxadan – keçilməz qayalar və möhkəm müdafiə sistemi qurduqları Şuşa Qalası istiqamətindən deyil, qarşıdan – Şuşakənd tərəfdən gözləyirmiş. Şuşakənddən Şuşa-

ya hərəkət edən kapitan Ülvi Hüseynovun motoatıcı taboru isə 1214 nömrəli yüksəklikdə düşmən tərəfindən mühasirə olunmuşdu. Düşmən, motoatıcı taborun hücum imitasiyası yaratmaqla xüsusi təyinatlıların digər istiqamətlərdən şəhərə girişinə şərait yaratdığından xəbərsiz idi...

Qruplar müxtəlif istiqamətləri nəzarətdə saxlamaq şərtilə şəhərin mərkəzinə doğru, düşmən əsgərlərinin geri çəkildiyi istiqamətdə irəliləməyə başladı. Şəhərdə ölü bir sükut hökm sürür, atəş səsləri belə sükutun ölən nəfəsi kimi titrəyir, ara-sıra yollarda görünüb tez də yox olan avtomobillərin şəhərin küçələrində vurnuxaraq çıxış yolu aradığı boğulmaqda olan səslərindən aydın duyulurdu. Hər an bir sürpriz, hər an bir hiylə ehtimalı əks-həmlə qrupunu olduqca ehtiyatlı davranmağa məcbur edirdi. Binaların damları, yuxarı mərtəbələri, girişləri, dolanbac küçələrin giriş-çıxışları və dönüşlərini nəzarətdə saxlayaraq, ehtiyatla irəliləyərək məktəb binası qarşısında dayandılar.

Məktəblə yanaşı qədim tikili olan muzey də diqqəti cəlb edirdi. Hər iki obyektin ətrafı və içi ehtiyatla yoxlanıldı. Düşmən qüvvələrinin yoxluğuna, hər hansı bir pusqunun olmadığına əmin olandan və tikililərin qədim, qalın divarlarının artilleriya hücumlarına qarşı davamlılığını, təhlükəsizlik baxımından əlverişli olduğunu nəzərə alaraq, orda mövqelənməyi qərara aldılar. Mayor Saleh Həsənov öz qrupu ilə sol tərəfdə – məktəbdə, kapitan Nahid Tağıyev isə öz qrupu ilə sağ tərəfdə – muzeydə mövqeləndi...

Azərbaycan xüsusi təyinatlılarının şəhərdə olması xəbəri düşmənin yüksək hərbi dairələrinə artıq çatmış, düşmən həm Laçın, həm də Xankəndi istiqamətindən Şuşaya

hücum etməklə birləşmək və xüsusi təyinatlıların təminat yolunu bağlamaq tapşırığı almışdı...

Şəhərin mərkəzinə doğru irəliləmək tapşırığı alan mayor Saleh Həsənov öz qrupunun bir hissəsini Xankəndi tərəfdən gözlənilən hücumun qarşısını almaq üçün Şuşa Qalasının ətrafında mövqeləndirmişdi. Şərq istiqamətində hərəkət edən birinci qrupun komandiri də müəyyən sayda döyüşçülərini eyni tapşırıqla görəvləndirmişdi.

Yaralandıqdan sonra gecəni Şuşa Qalasının yaxınlığındakı meşəlikdə keçirən mayor Zaur Rəhimov öz qrupu ilə Xankəndi tərəfdən gözlənilən hücumun qarşısını almaq tapşırığını öz üzərinə götürdü. Briqada komandiri polkovnik Ələkbər Cahangirovun rəhbərliyi altında hərəkət edən xüsusi təyinatlılar polkovnik-leytenant Ceyhun Camalovun başçılığı ilə mərkəzə doğru irəliləməklə şəhəri düşməndən təmizləmək tapşırığı aldı...

Düşmən bir neçə ağır zirehli texnika və çoxsaylı canlı qüvvə ilə şəhərin girişinə doğru irəliləməyə başladı. Qala divarlarının arxasında mövqelənən xüsusi təyinatlılar cavab atəşiylə düşməni geri çəkilməyə, ağır zirehli texnikanı isə mövqelənməyə məcbur elədi. Düşmən tankları mövqeləndikləri yerlərdən ani olaraq irəli şütüyüb Şuşa Qalasının ətrafını atəşə tutduqdan sonra geri çəkilib gizlənməyə çalışır, fürsət gözləyirdi. Bir neçə saatdan sonra irəliləyə bilməyəcəklərini anlayan düşmən piyada qüvvələri sürətli hərəkətlə şütüyən təkərli texnikaların içində şəhərə sızmağa cəhd göstərdi. Amma xüsusi təyinatlıların ciddi müqaviməti nəticəsində böyük itki verərək geri çəkildi. Nəhayət, düşmən ağır texnikanın arxasınca həm

tanklar üzərindəki artilleriya qurğuları, həm də avtomat və pulemyotlarla sürəkli atəş açmaqla şəhərə doğru irəliləməyə başladı.

Qala Divarlarının arxasında mövqelənmiş xüsusi təyinatlılar müqavimət göstərməyib, düşmənin daha da yaxınlaşmasını gözlədi. Bu vaxt tabor komandiri kapitan Nahid Tağıyevin kapitan Kamalovun rəhbərliyi ilə ayırdığı pusqu qrupu və tabor komandiri mayor Anar Qasımovun pusqu qrupu düşmənin piyada qüvvələrinin qarşısını almaq haqda tapşırıq aldı. Laçın-Xankəndi asfalt yolunun altındakı böyürtkən kolluqları ilə örtülmüş qayalıqda gizlənərək gözləmə mövqeyi tutan hər iki qrup qəfil sıçrayışla düşmənin qarşısına çıxdı. Eyni anda həm Şuşa Qalası istiqamətindən, həm də şəhər kənarındakı pusqu qrupları tərəfindən kiçik çaplı silahlarla atəşə tutulan düşmən böyük itki verərək, yenidən geri çəkilmək zorunda qaldı. Tank əleyhinə heç bir silahdan istifadə edilmədiyinə əmin olan düşmən texnikası isə müqaviməti yararaq, şəhərə daxil ola bildi və sürətlə şəhərin mərkəzinə doğru hərəkət eləməyə başladı...

Şəhərə girdikdən sonra şərq istiqamətində hərəkət edən birinci qrup isə Laçın tərəfdən dairəvi müdafiəni öz üzərinə götürən düşməni zərərsizləşdirib, Laçın istiqamətində irəlilədi. Və düşmənin ağır zirehli texnikası, piyada qüvvələri ilə üz-üzə gəldi. Amma bu vaxt düşmənin Laçın rayonu istiqamətindən qarşısını almaq məqsədilə pusquda duran xüsusi təyinatlıların qrup komandiri kapitan Qəzənfər Bağırlı və motoatıcı qüvvələrin qrup komandiri kapitan Ramazan Hudulov düşməni pusquya salaraq böyük

itki verməklə geri çəkilməyə məcbur etdi. Birinci qrupun komandiri isə öz qrupu ilə şəhəri düşməndən təmizləmə əməliyyatını davam etdirməyə başladı...

Həm şəhərin mərkəzinə doğru hərəkət edən, həm də kənardan müdafiəni təşkil edən xüsusi təyinatlıların ağır texnikaya qarşı silahlarının tükəndiyini hiss edən düşmən zirehli texnikası bundan maksimum istifadə etməyə çalışaraq, mərkəzə doğru şütüdü...

– Düşmən tankları artıq şəhərin mərkəzindədir, cənab polkovnik. Amma onları məhv etmək üçün əlimizdə tank əleyhinə heç bir vasitə yoxdur! Xahiş edirəm, təcili olaraq bizə zirehli texnikaya qarşı silah göndərin! – Mayor Saleh Həsənov radio vasitəsilə təyinat üzrə dəstə komandiri polkovnik Zaur Zeynalova məlumat verdi.

– Tank əleyhinə idarə olunan raketlər yaxın saatlarda sizə çatdırılacaq, mayor. O vaxta kimi zirehli texnika tərəfindən yerinizin aşkar olunmasına imkan verməyin.

– Oldu, cənab polkovnik!

* * *

*07.11.2020-ci il, saat 17:58.*

...Kapitan Ülvi Hüseynov döş cibindən telefonunu çıxarıb yaxınlığındakı əsgərinə uzatdı: – Götür, əsgər, valideynlərinlə vidalaş! Sonra da o birilərinə ötürərsən... Valideynləri ilə vidalaşmaq növbəsi əsgər Cahid Yaqubova çatanda başının üstündən uçan avtomat güllələrinə, ətrafında partlayan tank və minaatan mərmilərinə məhəl qoymadan arxası üstə yaş torpağa uzanıb atasının nömrəsini

yığdı. Atası zəngə cavab verən kimi: – Yaz, ata, – bağıraraq göstəriş verdi. Hərbi hissənin nömrəsini və komandiri Ülvi Hüseynovun adını qeyd edib, dərhal da əlavə elədi: – Biz indi Şuşa şəhərinin yaxınlığında mühasirədəyik, ata. Ağır döyüşlər gedir. Komandirimiz Ülvi evlərimizə zəng edib halallaşmaq üçün bizə imkan yaradıb. Haqqınızı halal edin, ata!...

– ...Halal olsun, Cahid!... – atasının bir anlıq sükutdan sonra yerindən qopub boğazında çırpınan ürək döyüntüləri üstlərinə yağan tank mərmilərinin gurultusunu anındaca batırdı: – Allah sizi qorusun, Cahid!... – Hüzn dolu xırıltılı səsi ətrafında partlayan mərmi və güllə səslərindən qəlbini daha çox titrətdi: – Allah sizi qorusun, Cahid!...

Gözlənilməz və cavabsız, duadan savayı qarşılığı olmayan xəbərin qarşısında ata başqa söz deyə bilmədi və fikrini bitirmədən əlaqə kəsildi. Cahid Yaqubovun, əmisi oğlu, xüsusi təyinatlıların baş leytenantı Əliqismət Yaqublunun mühasirəyə düşdükləri yerdən bir az aralıda, iki gün qabaq şəhid olmasından hələ xəbəri yox idi. Bilmirdi ki, atası onun zənginə Əliqismət Yaqublunu uğrunda şəhid olduğu torpağa tapşırıb geri qayıdanda cavab verir. Bu barədə o bir neçə gün sonra, Füzuli rayonunun Əhmədbəyli kəndindəki hospitalda müalicə alanda xəbər tutacaqdı...

Valideynlərinə zəng edib halallaşmaq üçün növbə gözləyən döyüş yoldaşlarını görən Yaqubov nömrəni təkrar yığmaq fikrindən vaz keçdi. Telefonu digər döyüş yoldaşlarına ötürüb, səngərdə mövqe tutmuş komandir kapitan Hüseynova tərəf süründü.

– Tufan! Tufan! Tufan! – kapitan Hüseynov radioqəbuledicinin düyməsini basıb bağırdı: – Tufan! Tufan! – Amma qulaqları tutulduğundan aparatın artıq sıradan çıxdığını bilmədi. Radioqəbuledicini qəzəblə yerə çırpıb, avtomatını götürdü. Bir neçə addım qabaqda partlamış minomyot mərmilərinin zərbindən qabaq tərəfi xeyli dayazlaşmış səngərin içində dizüstə yerə çöküb, silahını sinəsinə sıxdı. Avtomat gurladı. Həmlə taborunun tutduğu mövqeyə tərəf sürünən bir neçə düşmən əsgəri arxaya diyirlənib, qalaqlanmış meyitlərə ilişdi. Döyüş yoldaşlarının meyitləri arxasında mövqelənən düşmən eyni anda kapitan Hüseynovun səmtini gülləyə tutdu. Güllələr başının üstündən vıyıltı ilə uçdu. Kapitan bir anlıq səngərin içinə çöküb, yenidən yuxarı sıçradı. Avtomat dilləndi, artıq irəliləməyə cəsarət tapmayan düşmən əsgərləri yenidən qınına çəkilib, istehkam kimi yararlandıqları ölü yoldaşlarının arxasında gizləndilər.

Və Şuşa istiqamətindən kapitan Hüseynovu nəzarətdə saxlayıb fürsət gözləyən düşmən snayperi silahının tətiyini çəkdi. Kapitan Hüseynov arxası üstə öz əlləri ilə qazdığı səngərin divarına çırpılıb, içinə çökdü. Güllə tabor komandirinin alnından dəymişdi. Başı arxaya qanrılmış, gözləri səmaya dikilmişdi. Hansısa möcüzə nəticəsində o, hələ də nəfəs alırdı. Komandirin vurulduğunu görən əsgər Cahid Yaqubov və əsgər Qorxmaz Hüseynov sürünərək özlərini səngərə atdılar.

– Uşaqların... halı... neçə olacaq... İlahi! – güclə eşidilə biləcək səslə kapitan Hüseynov pıçıldadı: – Bu uşaqların... burdan... salamat çıxmalarına... yardım et... ya Rəbbim!...

Mən... mən!... – Gözləri qapandı, başı sivişib çiyninə düşdü.

– Komandir, komandir!... – hər iki əsgər hönkürərək artıq şəhadətə qovuşmuş komandirin sinəsinə qısıldı. Sanki hər şeyi itirib, son ümidlərini tapmış, bu ümidə sığınmışdılar. Əsgər Əlislam Cabbarov və əsgər Eşqin Əliyev də sürünərək özlərini səngərə atdılar. Komandirin cansız bədəni qarşısında diz çöküb, başlarını döyüş yoldaşları Cahid Yaqubovun çiyninə dayadılar. Döyüş yoldaşlarının Xudu deyə çağırdıqları əsgər Anar Xuduzadə və əsgər Cavidan Fətəliyev də özlərini yetirdilər... Sanki hər şey bitmiş, komandirin şəhadəti ilə onların da ömürləri sona yetmiş, düşmənə nifrətləri son həddə çatmışdı...

Qalxıb eyni anda səngərin üstünə atıldılar. Ayaq üstə bağıraraq avtomat atəşinə tutduqları düşmənin üstünə yeridilər. Əsgər Cavidan Fətəliyev:

– Gəlin şərəfsizlər, gəlin alçaqlar, gəlin, sizin ananızı...! – deyə qeyri-iradi söyüşlər yağdırmaqla irəlilədi.

Taqım komandiri baş leytenant Kamran Həmidov:

– Hara gedirsiz, dəlilər, tez geri qayıdın, teeeez! – bağıraraq əmr verdi. Amma heç kim baş leytenantın səsini eşitmədi. Əsgərlərin irəlidə, özünün isə arxada olduğunu zabit şərəfinə sığdırmayan baş leytenant Həmidov sıçrayıb səngərin üstünə çıxdı. Var səsilə: – Alın şərəfsizlər, alın alçaqlar, alın namərdlər, – deyə bağıraraq avtomatını gurladaraq düşmən üzərinə yeridi: – Bu Ülvi Hüseynov üçün, bu Əli Məmmədov üçün, bu Səid Rəşidzadə üçün, bu Həmid Cəfərli üçün, bu Bilal Qəmbərov üçün!... – deyə bir-bir şəhidlərin adlarını sayaraq irəli yüyürdü: – Haydı, uşaqlar, şəhadət zamanı, qisas vaxtıdır!

Baş leytenant Kamran Həmidovun nidası güllələri bitmək üzrə olan silahlarına sarılaraq mövqe tutmuş əsgərlər arasında əks-səda doğurdu. Bir ağızdan: – Allahu Əkbər! – deyərək ayağa sıçrayıb, inamla düşmən üzərinə şığıdılar. Əks-həmlə qüvvələrinin qəfil və inamla düşmən üzərinə şığıması düşməndə bir neçə gün mühasirədə saxladıqları tabora yardım gəlməsi təəssüratı yaratdı. Düşmənin irəli can atan piyada qüvvələri cəld yerə sərilib, müdafiə olunmağa çalışdı. Açıq hədəf düşmən texnikasının sərbəst atəş açması üçün şərait yaratdı. Tank mərmisi artıq əsgərlərindən bir addım irəlidə olan baş leytenant Kamran Həmidovun qarşısında partladı. Və baş leytenant Həmidovla bərabər onun arxasınca irəliləyən əsgər Qorxmaz Hüseynovu bir neçə addım arxaya tulladı.

Dartınıb üstünü örtmüş torpağın altından çıxan əsgər gördü ki, başından və qollarından başqa komandirin bütün bədəni torpağın altında qalıb. Torpağın altından çıxarmaq üçün komandirin yan-yörəsini əlləri ilə cəld qazmağa başladı. İkinci tank mərmisi əsgər Cahid Yaqubovu və onunla çiyin-çiyinə düşmən üstünə yeriyən əsgər Əlislam Cabbarovu havaya qaldırıb bir-neçə addım kənara atdı...

Düşmən pulemyotu dilə gəldi. Son güllələrini qənaətlə atan, bəziləri isə gülləsi bitmiş avtomatlarını düşmənə doğru tutaraq irəliləyən əks-həmlə taborunun öndə gedən əsgərləri yerə sərildi. Sanki elektrik cərəyanına qoşulmuş düşmən pulemyotçusu güllələrini əks-həmlə taborunun üzərinə dolu kimi yağdırırdı. Özlərini artıq bir neçə gündən bəri məhv etdikləri düşmənin qalaqlanmış cəsədlərinə

çatdıran əks-həmlə taborunun əsgərləri yerə sinib, cəsədlərin arxasında mövqeləndilər. Hədəfi daha dəqiq vurmaq üçün arxaya çəkilib 1214 nömrəli yüksəkliyi atəşə tutan düşmən tankları düşmən cəsədləri arxasında mövqe tutub son hücum əməliyyatını həyata keçirən taborun üstünə şütüdü.

Və qəfil qarşıda irəliləyən düşmən tankının qülləsi alovlandı, istiqamətini dəyişib bir qədər də irəlilədikdən sonra dayandı. Ekipaj cəld alovlanmaqda olan texnikanın kabinəsindən sıçrayıb, onun arxasında gizləndi. Bir neçə gün dayanmadan irəliləməklə mühasirəyə düşmüş tabora yardıma tələsən briqadanın qərargah rəisi polkovnik-leytenant Fariz Rüstəmov doxsan nəfərdən ibarət qüvvə ilə yüksəklikdə göründü. Briqada komandirinin ideoloji iş və mənəvi-siyasi məsələlər üzrə müavini mayor Valeh Mustafayev dizi üstə çöküb düşmən pulemyotçusunu nişan aldı. Birinci pulemyotçu susdu. İkinci və üçüncü atəş nöqtələri od püskürdü.

Düşmən tankları yenidən yüksəkliyi nişan aldı. Aldığı güllə yarasından irəli diyirlənən baş leytenant rütbəli əks-həmlə zabiti geri – yüksəkliyə doğru sürünməyə cəhd göstərdi. Motoatıcı qüvvələrin mayor rütbəli zabiti baş leytenanta doğru süründü. Əlini döyüş yoldaşının kəmərindən keçirib onun yuxarı – yüksəkliyə doğru dartmaq istədi. Sürəkli avtomat güllələrinin yağışı vıyıltı ilə ətrafında torpağa sancılıb ilan kimi dalğavari şəkildə təpəyə süründü. Mayorun əli döyüş yoldaşının kəmərindəcə vücudu boşalıb sifəti torpağa düşdü. Güllənin gicgahından açdığı yaradan sızan qapqara qan alnından süzülüb torpa-

ğa damcıladı. Kürəyindən ardıcıl güllə yaraları alan baş leytenant yerindəcə qıvrılıb arxası üstə çevrildi...

Tank mərmisinin havaya qaldırıb bir neçə metr kənara atdığı əsgər Cahid Yaqubov torpaqla dolmuş gözlərini yumruqlarının arxası ilə ovuşdurub araladı. Ətrafında baş verən hadisələri görsə də, aldığı zərbənin təsirindən qulaqları tutulduğu üçün eşidə bilmirdi. Dartınıb yerindən qalxmaq istədi, bacarmadı, kürəklərindən və başının arxasından baş qaldıran kəskin ağrı bütün damarlarına işlədi. Başını qaldırmadan sol tərəfə çevirdi. Onunla bərabər əsgər Əlislam Cabbarovun yanındaca huşsuz halda uzandığını gördü. Əlini sürüşdürüb, döyüş yoldaşının qolunu qamarladı. Ehmalca silkələyib, onu ayıltmağa çalışdı. Əsgər Cabbarov gözlərini açsa da, heç nə görə bilmədi. Gözləri torpaqla dolmuşdu. Qeyri-ixtiyari dartınıb yerindən qalxmaq istədi, əsgər Yaqubov tez sinəsindən basıb qalxmasına imkan vermədi. Hər iki tərəfdən sinələrinin üstündən vıyıltı ilə uçub keçən sürəkli güllələr başlarını qaldırmağa aman vermirdi. Bir daha huşlarını itirməsinlər və köməkli şəkildə atəş altından çıxsınlar deyə əl-ələ verib, arxaları üstə geri – yüksəkliyə doğru ehtiyatla dartınmağa başladılar...

Polkovnik-leytenant Fariz Rüstəmov yanındaca mövqelənib düşmən tankını nişan alan əsgərin əlindən qumbaraatanı dartıb aldı. Çiyninə qoyub ayaq üstdəcə düşmən tankını nişan aldı. İkinci düşmən tankının tırtılları qırılıb yerində geri fırlandı. Düşmənin sipər olduğu bütün mövqelər kapitan Hüseynovun bir neçə gün ərzində gecə-gündüz,

ac-susuz, tükənmək üzrə olan sursatla mübarizə apardığı 1214 nömrəli yüksəklikdən sürəkli atəşə tutuldu.

– Şükür, özlərini yetirdilər, şükür! – deyə şəhid kapitan Hüseynovun hər iki tərəfdən atəş altında qalan bir neçə günlük mühasirədən sonra taqətləri tükənən əsgərləri arxaları üstə torpağa uzanıb, dərindən nəfəs aldılar... Briqadanın qərargah rəisi polkovnik-leytenant Fariz Rüstəmov və komandirin ideoloji iş və mənəvi-siyasi məsələlər üzrə müavini mayor Valeh Mustafayev başda olmaqla tabor ayaq üstəcə düşmənin üzərinə yeridi.

Zirehli texnikası sıradan çıxan və altıgünlük güclü müqavimət qarşısında zəifləyən düşmən gözləmədiyi halda əks-həmlə taboruna gələn köməyin qəfil hücumu ilə üzləşib, geri çəkilmək zorunda qaldı.

Amma Şuşakənd tərəfdən, 1214 nömrəli yüksəklikdən irəliləyən Azərbaycan motoatıcı qüvvələrinin qarşısından qaçaraq Şuşa şəhərinə çəkilmək istəyən düşmənin Azərbaycan xüsusi təyinatlılarının şəhərin mərkəzində olmasından hələ xəbəri yox idi...

## Gizli qərargah

...Şuşanın girişində müdafiə mövqeyində duran əks-həmlə qruplarının müqavimətini qıraraq, şəhərə daxil olan beş ədəd T-72 tipli ağır çəkili tank, iki ədəd PDM, bir ədəd “UAZ” markalı sanitar və bir ədəd “UAZ” markalı komandir maşınından ibarət olan kolon Laçın tərəfdən şəhərə girən yola doğru hərəkət elədi. Düşmən şəhərin mərkəzinə və ətraflarına artilleriya qurğuları ilə mərmi

yağdırmağa başladı. Mərmilərin əhatə etdiyi yer, məsafə və vaxt göstərirdi ki, artilleriya şəhərə daxil ola bilmiş düşmən zirehli texnikası tərəfindən idarə olunur.

– Gizir İlham Məmmədov, gizir Rəvan Xıdırov, gizir Kənan Seyranlı, gizir Ayaz Əzizov və gizir Pərvin Avilov, mənimlə gələcəksiz! – mayor Saleh Həsənov məktəb binasında mövqelənmiş qrupa göz gəzdirərək ucadan dilləndi. Adları çəkilən gizirlər yerləşdikləri binanın giriş-çıxışındakı, pəncərə və qapı arxalarındakı mövqelərini digər döyüş yoldaşlarına təhvil verib, komandirin önündə düzüldülər. Mayor Həsənov üzünü gizir Əziz Əzizliyə tutub: – Sizinlə bərabər olmadığım müddətdə rəhbərlik səndə, gizir! – tapşırıq verdi: – Diqqətli olun, ətrafı ciddi şəkildə nəzarət altında saxlayın. Lazım olmadığı halda müdaxilə edib yerinizi aşkar etməyin. Lazım olanda bizə atəş dəstəyi verin. Mənimlə daim əlaqədə olun! – əlavə elədi. Üzünü gizirlərdən ibarət yaratdığı yeni qrupa çevirib: – Getdik! – əmr elədi.

Düşmən texnikasının gurultusu hələ də şəhərin Laçın tərəfindəki istiqamətindən eşidilirdi. Ətrafı ciddi müşahidə altında saxlayan qrup ehtiyatlı addımlarla yolu adlayıb, yaxınlıqdakı hündür mərtəbəli binaya, "Qarabağ" otelinə tərəf hərəkətə keçdi.

– "Ulduz", məni eşidirsən, qəbul! – Mayor Həsənov hərəkətdən qalmadan radionu dodaqlarına yaxınlaşdırdı.

Anındaca: – "Ulduz" səni eşidir, "Küknar", qəbul! – deyə kapitan Nahid Tağıyev cavab verdi.

– Sizdən qabaqda, sol tərəfdə görünən "hündürlük" düşmən texnikasını nəzarətdə saxlamaq üçün əlverişlidir. İstiqamətimiz o tərəfədir. Qoruma sizdə!

– Sizi anladım, “Küknar”, qəbul!

Kapitan Nahid Tağıyev:

– Baş leytenant Azad Axundov, qrupa rəhbərlik səndə. – Baş leytenant Azad Axundova tapşırıq verdi. Üzünü digər döyüş yoldaşlarına tutub: – gizir Cəsarət Sarıyev, gizir Famil Əhmədov, gizir Əliyar Quliyev, gizir Vüsal Quliyev, gizir Asif Bəbirli və... – kapitan Tağıyev döyüş yoldaşlarının adlarını sadaladıqca bir-bir onun qarşısında sıraya düzülürdülər: – və çavuş Namiq İbrahimli! –əsgərlərinin arasında aramaya son verib: – ...mənimlə gələcəksiz! – deyə fikrini tamamladı: – Baş leytenant Elnur Qasımov, çavuş Musa Qədirov və əsgər Emil Abuzərli, ətrafın kəşfiyyatını aparıb mənə məlumat verəcəksiz!

– Oldu, komandir! – kəşfiyyat qrupunun komandirinin işarəsi ilə kəşfiyyatçılar bir andaca muzeyi tərk edib gözdən itdilər.

Kapitan Tağıyevin ardınca qrupu da yerləşdiyi muzeydən çıxdı. Əsgərlər ətrafı ciddi nəzarətdə saxlamaqla küçəni keçib, qarşı tərəfə yönəldilər. Arxa tərəfdən, gəldikləri istiqamətdən qəfil avtomat atəşinə tutuldular. Arxa istiqamətdə hərəkət edən sonuncu əsgər dalanda görünüb, tez də yox olan düşmən silahlısının səmtinə güllə yağdırdı. Tez də dizi üstə yerə çöküb düşmən əsgərinin göründüyü istiqaməti avtomatın nişangahından izləməyə başladı. Qrup dayanmadan “Qarabağ” otelinin yaxınlığından ötüb şərq istiqamətində irəlilədi.

Qarşıda gurlayan avtomat səslərindən qrupun uzaqlaşdığını zənn edən bir neçə düşmən əsgəri gizləndiyi yerdən çıxıb kilsə istiqamətində manevr etmək istədi. Dizüstə çö-

küb səbrlə gözləyən gizir Asif Bəbirlinin sərrast gülləleri düşmən əsgərlərini yerdəyişmə eləməyə macal tapmadan yaxaladı. İşğal dönəmində düşmənin dövlət binasına çevirdiyi köhnə icra hakimiyyəti istiqamətindən minik maşınının mühərriki gurlayıb sönükdü. Kapitan Tağıyev sol qolunu havaya qaldırıb, əlini açıb yumaraq ardınca gələn xüsusi təyinatlılara xəbərdarlıq edəndə qarşıda düşmənin "UAZ" markalı komandir maşını göründü, döngəni burulub, sürətlə xüsusi təyinatlıların hərəkət etdiyi istiqamətdə şütüdü. Gözləmədiyi halda küçədə Azərbaycan əsgərlərini görən maşındakı düşmən zabiti avtomatını pəncərədən çıxarıb, sürəkli atəşə başladı. Kapitan Tağıyev komandir maşınının sürücüsünü nişan aldı. Maşın yoldan çıxıb qarşıdakı evin divarlarına çırpılaraq çevrildi...

...Mayor Saleh Həsənovun qrupu "Qarabağ" otelinin ətrafına dövrə vurub girişdə dayananda yaxınlaşmaqda olan düşmən tanklarının gurultusu eşidildi. Şuşa Qalası istiqamətindən müqaviməti yarıb şəhərə daxil olan düşmən texnikası şəhərin Laçın koridoru tərəfdəki girişindən dövrə vurub geri qayıdırdı. Mayor Həsənov başının işarəsi ilə qrupa binaya daxil olmağı əmr elədi. Qrup üzvlərindən biri küçəni nəzarətdə saxladı, digər xüsusi təyinatlılar komandirin ardınca "Qarabağ" otelinin birinci mərtəbəsinə daxil olub görünməz oldular. Düşmən texnikası ətrafı pulemyot atəşinə tutmaqla otelin yaxınlığından sürətlə ötüb, əvvəlcə şimal istiqamətində şütüdü, sonra yolunu şərqə dəyişib gözdən itdi. Otelin və ətraf binaların üzərinə yağdırdığı pulemyot gülləleri divarlardan vıyıltıyla sivişib, ətrafda əks-səda verdi. Güllələrin divarlardan qopardığı

kərpic parçaları, pəncərə şüşələrinin qırıntıları yerə düşüb çilik-çilik oldu.

Otelə daxil olan mayor Həsənovun qrupu dörd bir yanı avtomatların nişangahından izləməklə yuxarı mərtəbəyə qalxmağa başladılar... Kapitan Nahid Tağıyevin qrupu köhnə icra hakimiyyətinin binasının yanından burulub geri, "Qarabağ" oteli istiqamətində mövqeləndi. Qrup rəhbərinin işarəsi ilə dərhal ətrafda kəşfiyyat aparıldı. Baş leytenant Elnur Qasımov radio vasitəsilə əlaqə yaradıb, düşmənin şəhərdəki qərargahının aşkar edilməsi barədə məlumat verdi, "Hökumət binasında" yerləşən qərargahda düşmənin xeyli sayda canlı qüvvəsi və yüksək rütbəli zabitlərinin olmasını bildirdi.

– Düşmən qərargahını ciddi şəkildə nəzarətdə saxlayın, Elnur! – Kapitan Tağıyev tapşırıq verdi: – Hər hansı hərəkət və ya hərəkətsizlik barədə vaxtaşırı məni məlumatlandırın.

– Oldu, komandir!

...Şəhər buta işləməli bəyaz tül yaylıqla yaşmaqlanmışdı, dayanmadan əsən xəfif külək duman və çiskindən hörülmüş yaylığı dalğalandırdıqca üstündəki işləmələr kəpənək qanadları kimi çırpınır, qonduğu çiçəyin zərif ləçəklərinin üstündə tarazlığını qorumağa çalışırdı. Üstünə sürəkli yağan mərmilərin qaldırdığı toz-torpaq, daş-kəsək aramsız döyünən kirpiklərinin arasından parlayan qapqara gözlər kimi bərq vurub sönür, qara, dumanlı şəfəqlər yüksəlib yerə çökürdü. Diksinib qorxmuş, bəbəkləri torpaqla dolmuş şəhər bozarıb tutqunlaşmış, işığını itirmişdi.

Mayor Saleh Həsənovun "Qarabağ" otelinin yeddinci mərtəbəsində mövqelənmiş qrupu işığı qürub edən şəhərin hər tərəfini snayperin binoklundan müşahidə edirdi. Sürəkli atəşlə hərəkət edən düşmən tankları otelin yeddinci mərtəbəsindən aydın görünürdü. Şəhərin müxtəlif istiqamətlərində görünüb tez də yox olan düşmən əsgərləri manevrlə yerdəyişmə etməyə çalışır, amma görünən andan snayperin nişangahından izlənilir, növbəti dəfə məhv edilirdi. Şəhərdən kənardakı meşə massivlərində mövqe tutmuş düşmənin bir neçə zirehli texnikası tez-tez maskalandığı mövqedən çıxaraq atəş açır, tez də geri çəkilib gözdən itirdi. Düşmən Azərbaycan xüsusi təyinatlıları tərəfindən texnikaya atəş açılmadığını görüb xeyli arxayınlaşmış, sərbəst manevr etmək imkanı əldə etmişdi. Mayor Saleh Həsənovun "Qarabağ" otelinin yeddinci mərtəbəsində mövqelənmiş qrupu düşmən tanklarının hərəkət istiqamətlərini nəzarətdə saxlayır, onları zərərsizləşdirmək üçün fürsət gözləyirdi. Gizir Kənan Seyranlı mayor Həsənova yaxınlaşıb:

– Komandir, tanklar ekipaj komandirlərinin başlarını lüklərdən çıxardıqları halda hərəkət edir, – deyə baş barmağı ilə şəhər kənarındakı meşəlikdə hərəkət edən düşmən tanklarını göstərdi.

Ani müşahidədən sonra mayor Həsənov:

– Sol tərəfdəki tankın komandirini sən nişan al, Seyranlı, sağ tərəfdəki məndə! – deyib snayperin binoklunu gözünə yaxınlaşdırdı. Gözləmədikləri halda ard-arda iki atəş açıldı və hər iki düşmən tankının komandiri alınlarından aldıqları qurğuşun yarasından boşalıb, zirehli texnikanın

kabinəsinə düşdülər. Nişan almağa belə fürsət tapmayan mayor Həsənov:

– Əla! – deyə yumruğunu düyünləyib baş barmağını yuxarı qaldırdı.

Gizir Seyranlı snayperin binoklunu gözündən ayırıb, təəccüblə komandirin sifətinə baxdı:

– Maşallah, pis işləmirlər, komandir! – sevincək dilləndi.

– Bəli, Seyranlı, gizir Elvin Məmmədovun işidir bu! – mayor Həsənov təbəssümlə gizir Seyranlının fikrini təsdiqlədi. Düşmən tanklarının komandirləri digər binada mövqe tutmuş birinci qrupun giziri Elvin Məmmədov tərəfindən vurulmuşdu. – "Günəş", məni eşidirsən, qəbul? – Mayor Saleh Həsənov radio ilə əlaqə yaratmağa çalışdı.

– "Günəş" səni eşidir, "Küknar", davam elə! – təyinat üzrə dəstə komandiri polkovnik Zaur Zeynalov anındaca cavab verdi.

– Cənab polkovnik, hazırda olduğumuz yerdə düşmən texnikasının hərəkət istiqamətini nəzarətdə saxlamaq və onları sıradan çıxarmaq imkanları genişdir. – Mayor Saleh Həsənov məruzə elədi: – Tank əleyhinə vasitəni olduğum yerə göndərməyinizi xahiş edirəm. Olduğumuz yer "uğrunda can verməyə dəyər"!

– Səni başa düşdüm, "Küknar", tank əleyhinə vasitəni "uğrunda can verməyə dəyər"ə istiqamətləndiririk.

...Otel binasının girişində ayaq səsləri əks-səda verib kəsildi. – "Küknar", "Küknar", məni eşidirsən? Məni eşi-

dirsən? Qəbul! – girişdəki növbəti hənir duyulmamış kapitan Nahid Tağıyevin səsi radiodan eşidildi.

– “Küknar” səni eşidir, “Ulduz”, davam elə!

– “Günəş” sizə “salam” göndərib, komandir. “Salam”ı gətirən gizir “uğrunda can verməyə dəyər”ə yaxınlaşmaqdadır.

– “Salam”ı qəbul etməyə hazırıq, “Ulduz”, sağ ol!

Birinci mərtəbədə eşidilib yox olan ayaq səsləri ikinci mərtəbədən gəlməyə başladı. Mayor Saleh Həsənovun işarəsi ilə iki döyüşçü “Salam”ı gətirən giziri qarşılamağa yollandı. Kapitan Nahid Tağıyev isə: – “Uğrunda can verməyə dəyər” ətrafından nəzarətimiz altındadır, – deyə məlumat verdi: – “Salam”ı aldıqdan sonra arxayın yönləndirə bilərsiniz.

“Qarabağ” otelinin yeddinci mərtəbəsindəki bilyard zalında mövqelənmiş qrupun komandirin əmri ilə zalı tərk edən iki döyüşçüsü bir neçə dəqiqədən sonra “Salam”ı gətirən gizirlə bərabər geri qayıtdılar. Zala daxil olan kimi gizir:

– Cənab mayor, əmrinizlə tank əleyhinə gecə görmə cihazını gətirmişəm, – deyə mayor Həsənova yaxınlaşıb məruzə etdi.

– Mən tank əleyhinə gecəgörmə cihazı yox, gizir, kornet gözləyirdim! – qrup komandiri narazılığını bildirdi.

– Tank əleyhinə idarə olunan raketlər şəhərdəki digər xüsusi təyinatlı qruplara artıq çatdırılıb. Yaxın dəqiqələrdə sizə də çatdırılacaq, cənab mayor, – deyə yorğunluğu aydın hiss olunan gizir tank əleyhinə gecəgörmə cihazını çiynindən endirib, qrup komandirinin qarşısına qoydu.

Mayor Saleh Həsənov: – Korneti alan kimi avadanlığı üzərinə quraşdırmaqda gizirə yardım elə, Məmmədov. – Üzünü gizir İlham Məmmədova tutub tapşırıq verdi: – Ətrafın müşahidəsini aparıb mənə ətraflı məlumat verin, – deyə snayperin binoklunu gözünə dayayıb, şəhəri nəzərdən keçirməyə başladı.

Bir neçə dəqiqədən sonra gizir Məmmədov yaxınlaşıb:

– Korneti aldıq, cənab mayor, amma tank əleyhinə gecəgörmə cihazını ona quraşdıra bilmədik, sıradan çıxıb, işləmir, – açıqca hiss olunan təəssüflə məruzə elədi. Məmmədovla bərabər qrup komandirinə yaxınlaşan tank əleyhinə raketlər üzrə mütəxəssis olan gizir də:

– Cənab mayor, çox çətinliklə onu gətirib bura çıxara bildim. Özünüz də görürsüz, tez-tez yağış yağır, hər tərəf yağış suyundan islanıb, – deyə vəziyyəti izah eləməyə çalışdı: – Həm də güllə yağışı altında, döyüşə-döyüşə yoluma davam etdiyim üçün avadanlığı lazımi qaydada qoruya bilməmişəm. Həm islanıb, həm də sürünərkən daşa-kəsəyə dəyərək sıradan çıxıb. Üzrlü hesab edin!

Gözünü snayperin binoklundan ayırmadan gizirləri dinləyən mayor Həsənov ani dayanıb snayperin qundağını yerə qoydu. Əvvəlcə gizirləri, sonra isə yeddinci mərtəbənin dəhlizindən hər tərəfi görünən şəhəri diqqətlə nəzərdən keçirib, baxışlarını məchul bir nöqtədə cəmlədi. Düşmən texnikası hələ də şəhər və şəhər ətrafında sərbəst hərəkət edir, hara gəldi mərmi və pulemyot güllələri yağdırırdı.

– Məmmədov, kenvudu mənə verin! – Yol çəkən baxışlarını cəmlədiyi nöqtədən ayırmadan əlini döyüş yoldaşına uzatdı.

Gizir Məmmədov sinəsinə bərkitdiyi motorola tipli radioəlaqə vasitəsini dərhal çıxarıb komandirə uzatdı. Mayor Həsənov kriptosu olmayan radioəlaqə vasitəsini dodaqlarına yaxınlaşdırıb düyməsini basdı və açıq mətnlə rəhbərliklə əlaqəyə girdi:

– Cənab polkovnik, tank əleyhinə gecəgörmə cihazları və tank əleyhinə raketlər müvafiq mövqelərdə quraşdırılıb və bu istiqamətdə gecə-gündüz hərəkət edə biləcək hər növ texnikanı məhv etməyə hazırıq!...

* * *

...Payız axşamı tez düşdü. Günəş batmamış səma qaraldı. Sifəti bozarmış qara buludlar işığı udub şişməyə, şişdikcə də səmanı çiyinlərinə yükləyib, daşımağa başladı. Çırağı sönmüş şəhərin barıt qoxusu və silah tüstüsü, mərmilərin qaldırdığı toz dumanı qara buludlara çatıb dayandı. Şəhər gözlərini qapayıb, özünün bərk-bərk çırpınan ürək döyüntülərini dinləməyə başladı...

...Məqsədli şəkildə açıq mətnlə və kriptosu olmayan motorola tipli radioəlaqə vasitəsilə ötürülən məlumat dərhal öz nəticəsini verdi. Düşmənin müxtəlif tipli nəqliyyat vasitələri və zirehli texnikası işıqlarını söndürüb ehtiyatla hərəkət edir, küçədən-küçəyə tələsik adlayıb gizlənməyə çalışır, fürsət tapıb tədricən şəhərdən uzaqlaşmağa yollar axtarırdı. Artıq döyüşü uduzduqlarını və şəhəri əldə saxlaya bilməyəcəklərini anlayan düşmən son anda belə Azərbaycan ordusuna və Şuşaya zərbə vurmağa çalışır, sürəkli və ünvansız atəş açmaqla, bütün şəhəri qurğuşun girovunda saxlamağa cəhd göstərirdi.

Düşmən artilleriyası bütün gecə boyu susmadı. Şuşa aramsız olaraq müxtəlif tipli artilleriya qurğuları ilə atəşə tutuldu. Şəhərə daxil olan Azərbaycan xüsusi təyinatlıları səhərə qədər təmizləmə işlərini davam etdirdi. Addım-addım, küçədən-küçəyə adlayaraq şəhəri düşmən qüvvələrindən təmizləməyə çalışdı. Tank əleyhinə idarə olunan raketlərlə təmin edilən əks-həmlə qrupları düşmənin zirehli texnikasını məhv eləmək üçün fəaliyyətə keçdi. Düşmənin zirehli texnikası gecə boyu işıqlarını söndürüb sürəkli atəş yağdırmaqla şəhəri dolaşsa da, şəhəri tərk edərkən gurultusunu gizlədə bilməyib, hərəkət istiqamətini Azərbaycan xüsusi təyinatlılarına nişan vermişdi.

Səhər dumanla açıldı. Şəhər üzünü yuyub qurulamadan gözlərini döyməyə başladı. Yarpaqların üzərində ilişib qalmış, pəncərə şüşələrindən, dam örtüklərindən süzülən səhər şəbnəmləri bərq vurduqca göz qamaşdırırdı. Yorğun, əldən düşmüş, günlərlə ac və susuz, yuxusuz hərəkət edən xüsusi təyinatlılar doğma təmasdan diksindilər. Şəhərə qədəm qoyduqları andan, sanki ruhları yenilənmiş, bütün yorğunluqlarını, ac və susuzluqlarını, yuxusuzluqlarını unutmuşdular. Dayanmadan üstlərinə yağan mərmi, ətraflarında uçuşan qurğuşunlar belə qəlblərində baş qaldıran qürur və sevinc hissini cilovlaya bilməmiş, yalnız ruhlarını qəribə bir nisgil çulğalamışdı. İndiki halından fərqli olan, işğaldan qabaqkı Şuşanın həsrət dolu nisgili.

Səhərin şaxtalı payız mehi sifətlərini darayıb, ara-sıra ətraflarından ötən ala-tala duman karvanı saçlarına sığal çəkdikcə acgözlüklə şəhərin barıt qoxusunu, tüstü və toz-torpağa qarışmış buz kimi havasını ciyərlərinə çəkir,

silahlarının qundağını çiyinlərindən, gözlərini hədəfdən ayırmadan dərindən nəfəs alırdılar. Vətən torpağının illərlə girova çevrilmiş doğma qoxusunu doya-doya ruhlarına hopdurmağa çalışır, barmaqlarını tətikdən ayırmadan addımlarını atırdılar...

***

...Muxtar kəndində ağacların arasında mövqelənmiş düşmən tankı qəfil atəş açıb yerini dəyişdirdi. Mayor Saleh Həsənov tank əleyhinə idarə olunan raketləri onlara çatdıran giziri yanına çağırtdırdı. Ağacların arasında görünüb tez də yox olan düşmən tankını nişan verib:

– Onu tez məhv etmək lazımdır, gizir, yoxsa ordumuz itki verə bilər! – deyə əmr etdi.

Gizir ətrafı müşahidə edib:

– Cənab mayor, bu silahdan belə şəraitdə istifadə etmək olmaz, – deyə narazılığını bildirdi: – Bu silahın istifadəsi açıq, geniş sahə üçün nəzərdə tutulub. Əks təqdirdə atəş zamanı durduğumuz bu dəhliz də bizimlə bərabər uça bilər, – deyə narazılığının səbəbini izah eləməyə çalışdı.

Mayor Həsənov bir söz demədən ətrafı və durduqları dəhlizi diqqətlə nəzərdən keçirtdi. Düşmən tankı isə dayanmadan manevr edir, tez-tez yerini dəyişməklə şəhərin müxtəlif istiqamətlərini aramsız atəşə tuturdu.

– Silahı mənə ver, görüm. – Gizirin silahı ona uzatmasını gözləmədən qrup komandiri dartıb TƏİR-i döyüş yoldaşının əlindən aldı: – Bunu necə istifadə edirlər? – gözünü silahdan ayırmadan sual verdi. Gizir bir addım irəli atıb, silahın istifadə qaydasını izah elədi. – Aydındır! – mayor

Həsənov TƏİR-i atəşə hazır vəziyyətə gətirib: – Dərhal hamınız buranı tərk edin! – deyə göstəriş verdi. Tank əleyhinə idarə olunan raketlər üzrə mütəxəssis:

– Komandir... olmaz... komandir, siz risk edirsiz! – Həyəcanını gizlətmədən fikrindən dönmədi. Düşmən tankının getdiyi istiqamətdən gözlərini ayırmayan mayor Həsənov:

– Risk etməkdən qorxan əsgər qalib gələ bilməz, gizir. Tez çıxın, tərk edin buranı! – deyə əmrini bir daha təkrar etdi. Qrup zalı tərk edincə TƏİR-i çiyninə qoydu, düşmən tankının mövqeləndiyi istiqaməti hədəfə alıb səbrlə gözləməyə başladı. Tank ağacların arasından çıxıb üzərindəki artilleriya qurğusunu şəhərin mərkəzi istiqamətində nizamladı. Mayor Saleh Həsənov tankın qülləsini nişan aldı. Atəş açıldı. Tankın lüləsi yüz səksən dərəcə bucaq altında geri çevrilib dayandı. Qülləsini alov bürüdü.

Atəş açarkən TƏİR-in əks istiqamətdə buraxdığı alov bilyard zalının altını üstünə çevirdi. Qapı-pəncərələr, televizor yerindən qopub yerə töküldü. Ətrafı toz-duman bürüdü. Tankın qülləsinin qapısı qaldırıldı. Ekipaj tələsik kabinədən çıxıb yerə atıldı. Qrup komandiri TƏİR-i yerə qoyub cəld snayperi götürdü. Düşmən tankının ekipajı zirehli maşının ardına keçməyə fürsət tapmamış nişan almağa çalışdı. Və atəş açıldı. İki düşmən əsgəri eyni anda yerə yıxıldı. İkincisi mayor Həsənovun TƏİR-dən atəş açmazdan əvvəl zaldan çıxartdığı, aşağı – altıncı mərtəbədə mövqe tutmuş xüsusi təyinatlılar tərəfindən məhv edilmişdi. Ekipajın üçüncü üzvünə isə eyni anda bir neçə atəş açıldı.

Ekipaj tam məhv edildikdən sonra mayor Həsənov snayperi yerə qoyub yenidən TƏİR-i qamarladı. Atəşə hazır vəziyyətə gətirib çiyninə qoydu. Eyni məkandan otuz dərəcə bucaq altında sağ tərəfdən, Topxana meşəsindən düşmənin daha bir tankı ağacları titrədib meydana çıxdı. Mayor Həsənov cəld TƏİR-i fırlayıb, düşmənin ikinci zirehli texnikasını hədəfə götürdü. Və atəş açıldı. Mayor Həsənovun qulaqları tutulsa da, sevincdən gözləri parladı.

Dərhal təyinat üzrə dəstə komandiri polkovnik Zaur Zeynalovla radio əlaqəsi saxlayıb, Muxtar kəndi istiqamətində və Topxana meşəsində düşmənin T-72 tipli iki zirehli texnikasının məhv edilməsi haqqında məruzə etdi. Məlum oldu ki, düşmənin bir gün qabaq müdafiə xəttini yararaq şəhərə daxil ola bilmiş digər zirehli texnikaları və bir neçə komandir maşını da xüsusi təyinatlılarımızın digər qrupları tərəfindən məhv edilib. Düşmən özünün T-72 tipli bir tankını isə şəhərin girişindəki yanacaqdoldurma məntəqəsinin yaxınlığında işlək vəziyyətdə tərk edərək aradan çıxıb...

**Şuşa, sən azadsan!**

Xüsusi təyinatlı qruplar təmizləmə əməliyyatını başa çatdırıb, günorta saatlarında Şuşanın tam nəzarətə götürülməsi haqqında rəhbərliyə məruzə elədilər. Şəhərin mərkəzində yerləşən köhnə icra hakimiyyəti binasının üzərindəki düşmən bayrağı endirilib, yerində Azərbaycan dövlət bayrağı yüksəldildi. Azan verildi və şəhəri düşməndən azad edən əsgərlər tərəfindən Azərbaycanın dövlət himni oxundu. Xüsusi təyinatlıların kapitanı Tural Dadaşov Ali

Baş Komandana Şuşa şəhərinin düşməndən azad olunması haqqında videogörüntülü məruzə etdi

– Cənab Ali Baş Komandan, Sizin rəhbərliyiniz altında Şuşa şəhəri düşməndən azad edildi! Yaşasın Ali Baş Komandan, eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!

* * *

*08.11.2020-ci il.*

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyabanında oldular. Ulu öndər Heydər Əliyevin, akademik Zərifə Əliyevanın məzarlarını ziyarət edib, Şəhidlər xiyabanına gəldilər. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad etdilər, onların məzarları və "Əbədi məşəl" abidəsinin önünə əklillər qoydular. Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra dövlət başçısı Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət etdi:

– Əziz həmvətənlər, əziz bacılar və qardaşlar! Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir.

Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

* * *

Azərbaycan ordusunun Şuşanı – Azərbaycanın qədim mədəniyyət mərkəzini, Qarabağı nəzarətdə saxlayan strateji yüksəkliyi və bölgənin əsas müdafiə sütununu işğaldan azad etməsi ilə barışa bilməyən düşmən şəhəri hələ də sürəkli artilleriya atəşinə tutmaqda davam edirdi. Və müxtəlif tipli artilleriya atəşi İkinci Qarabağ Müharibəsinin son saatlarına qədər, hətta Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasındakı üçtərəfli bəyanat imzalandıqdan sonra da bir neçə saat davam elədi...

* * *

Şəhidləri daşıyıb bir sıraya düzdülər, yaralıları isə digər sıraya düzüb, ilkin yardım göstərməyə çalışdılar. Bu zaman taqım komandiri baş leytenant Kamran Həmidov:

– Farağat! – deyə ucadan səslənərək komanda verdi.

Hərbi hissənin qərargah rəisi polkovnik-leytenant Fariz Rüstəmov və briqada komandirinin ideoloji iş və mənəvi-siyasi məsələlər üzrə müavini mayor Valeh Mustafayev yorğun, amma qətiyyətli addımlarla yaxınlaşıb, altı günlük mühasirədən salamat, amma əldən düşmüş və üzgün halda çıxa bilən əsgərlərin qarşısında dayandılar.

– Yaxın gəlin, uşaqlar. Toplaşın bir yerə, – deyə polkovnik-leytenant Fariz Rüstəmov ətrafa boylanıb pərakəndə

şəkildə ayaq üstdə dayanmış əsgərləri yaxına çağırdı. Əksəriyyəti yaralı, taqətdən düşmüş, yaralı və şəhidləri bir yerə toplayarkən başdan-ayağa qədər qana bulaşmış əsgərlər daşıyıb bir sıraya düzdükləri şəhid və yaralıların arxasına çəkilib, farağat düzüldülər. Qərargah rəisi Rüstəmov komanda verilmədən farağat dayanan əsgərlərin simalarını yoxlayırmış kimi bir-bir nəzərdən keçirib: – Rəhbərlik adından, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi adından, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev adından sizə təşəkkür edirəm, igidlər! Siz və canlarını vətən yolunda fəda etmiş şəhid qardaşlarımız xalqımızın, millətimizin üzünü ağ elədiniz! Üzünüz ağ olsun! – deyə ucadan dilləndi.

– Sağ olun! – əsgərlərin səsi dağlarda əks-səda doğurdu.

– Azadsınız! – sərbəstlik verib üzünü siyasi rəhbərə tutdu: – Buyurun, mayor Mustafayev.

Siyasi rəhbər mayor Mustafayev söz deməzdən əvvəl canlarını vətən yolunda fəda etmiş şəhidlərin nur saçan simalarına bir-bir nəzər yetirdi. Dərindən köks ötürüb:

– Sizə, Allah Sizə rəhmət eləsin deməyə dilim gəlmir, uşaqlar! Əminəm ki, siz sağsınız və bu an məni eşidirsiniz! – deyə ucadan dilləndi: – Ona görə, mən təkcə ayaq üstdə durub məni dinləyən əsgərlərə deyil, hamınıza, – şəhadətə yüksəlmiş və məni çox-çox yüksəklikdən dinləyən qardaşlarımıza da illərlə gözlədiyimiz bir xoş xəbər vermək istəyirəm! – Susub gözlərini əvvəlcə səmada, sanki yuxarıdan onu dinləyən şəhidlərin, sonra yaralı vəziyyətdə yerdə uzanaraq ona diqqət kəsilən yaralıların, sonra da ayaqda durub gözlərini ona zilləmiş əsgərlərin sifətində

gəzdirdi. Gözlərini qapayıb, bir anlıq susdu. Kirpiklərinin arasından sızan göz yaşını unudub: – Əsgərlər, müharibə bitdi!... Müharibə bitdi!... – deyə bağırdı: – Düşmən təslim oldu, uşaqlar! Təslim oldu!... – Bir anlıq sükut çökdü. Mühasirə şəraitində davam edən son amansız döyüşlərin nəticəsindənmi, ard-arda aldıqları zərbələrin gücündənmi, keçirdikləri həyəcanın təsirindənmi eşitdikləri xəbərin mənasını bir anlıq heç kim dərk edə bilmədi. Sanki siyasi rəhbər bu xəbəri əsgərlərə deyil, cansız daşa, divara söyləmişdi. Sanki ağır döyüşlər, dost itkisi, qardaş qurbanı əsgərlərin beyinlərini kilidləmişdi: – Biz qalib gəldik, uşaqlar! Biz qalib gəldik!... – Mayor Mustafayevin növbəti nidası əsgərlərin duyğu tellərini titrətdi.

Sıra pozuldu. Əsgərlər xəbərin doğruluğuna bir-birinin gözlərində təsdiq axtardılar. Və bəbəklərdə qəfil parlayan təbəssüm:

– Allahu Əkbər!... – deyə sədaya çevrilib sevinc püskürdü!

– Biz qalib gəldik, igidlər!... – Mayor Mustafayevin səsindəki titrəyiş, sifətindəki kədərdən cilalanmış təbəssüm, yanağındakı sevincə bürünmüş göz yaşları əsgərlərə də sirayət elədi: – Biz qalib gəldik, əsgərlər, düşməni iti qovan kimi qovduq, sizin sayənizdə... igidlərim... sizin sayənizdə, aslanlarım!!!

– Allahu Əkbər! – nidası siyasi rəhbərin səsini batırdı. Mustafayev əsgərlərlə bərabər, – "Allahu Əkbər!" – deyə yumruğunu havaya qaldırıb başının üstündə yellədi:

– Siz düşməni diz çökdürdünüz, qardaşlar! Siz düşmənə qan uddurdunuz, əsgərlər! Torpaqlarımızı düşmən

tapdağından siz azad etdiniz, siz! – Sanki özünü unutmuş mayor Mustafayev səsinin xırıltısına, boğazının az qala cırılacağına baxmayaraq, hisslərinin tüğyanından qurtula bilmir, danışır, bağırır, hayqırırdı: – Otuz ildən sonra xalqımız doğma torpaqlarımıza qovuşdu, otuz ildən sonra düşmənlərimiz işğal etdiyi ərazilərimizi tərk etmək məcburiyyətində qaldı. Düşmən canını götürüb qaçdı. İndi artıq torpaqlarımız azaddır!!! A - zad - dır! İndi artıq Şuşa bizimdir! Cəbrayıl bizimdir! Füzuli bizimdir! Qarabağ bizimdir!!! İndi artıq öz əzəli və əbədi doğma torpaqlarımızda özümüz yaşayacağıq! Öz torpaqlarımızı özümüz becərəcəyik!!! – Üzünü şəhidlərə tutub, – Qoy şəhidlərimizin ruhu şad olsun! Qoy şəhidlərimiz rahat uyusunlar!!! Siz şəhidlərimizin qısasını aldınız, aslanlarım!!! Siz Xocalının, Şuşanın, Xankəndinin qisasını aldınız, igidlərim!!!

***

*09.11.2020-ci il.*

Düşmən son fürsətdən də istifadə etməyə çalışdı. Noyabrın 8-i gün ərzində və 9-na keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutdu. Və nəhayət 2020-ci il noyabr ayının 9-da Qarabağdakı separatçı rejimin "mətbuat katibi" Vaqram Poqosyan: "Şuşa tamamilə nəzarətimizdən çıxıb, Azərbaycan Ordusu artıq Xankəndinin yaxınlığında döyüşlər aparır", – deyə etiraf etmək məcburiyyətində

qaldı. Şuşanın bir gün qabaq itirildiyini və Xankəndinin də belə bir təhlükə ilə üz-üzə qaldığını açıqlayan Vaqram Poqosyan "Paytaxtın" mövcudluğu təhlükə altındadır. Təəssüf ki, bu günə kimi bizi uğursuzluq zənciri təqib etdi" – deyə bəyan etdi.

Azərbaycan hərbi rəhbərliyi isə hərbi kontingentin işğaldan azad olunmuş ərazilərdə yerləşdirilməsi, ərazilərimizin etibarlı şəkildə müdafiəsi, asayişin qorunub saxlanması, düşmən təxribatının qarşısının vaxtında alınması və digər gündəlik iş planlarının müzakirəsi üçün düşmən işğalından azad olunmuş Şuşa şəhərində toplaşmışdı....

***

– "Bələdçi"ni yanıma çağırın, polkovnik, – Şuşa şəhərinin ilk komendantı təyin edilmiş general-mayor Zaur Cavanşir (Məmmədov): – baş leytenant Əliqismət Yaqublunu, – deyə polkovnik Ələkbər Cahangirovdan xahiş elədi. Polkovnik Cahangirov göz qapaqlarını bir anlıq aşağı endirdi:

– Əliqismət Yaqublu şəhid oldu, komandir! – "Bələdçi"ni xəyalında canlandırırmış kimi astadan söylədi: – Sonuncu tapşırığı yerinə yetirib geri qayıdanda Daşaltıda qumbaraatan mərmisi ilə vurulub şəhadətə qovuşdu!...

General-mayor Məmmədov bir anlıq susdu:

– Mən onunla Şuşada görüşəcəyimə söz vermişdim! – öz-özüylə danışırmış kimi astadan pıçıldadı. Hərbi hissə komandirindən ayrılıb, Daşaltı qayalarına tərəf addımladı. Siqaretini yandırıb, tüstüsünü acgözlüklə ciyərlərinə çəkdi. Burum-burum qalxan siqaret tüstüsünün arxasından

Daşaltı qayalarına boylandı. Al-qırmızı şəhid qanına boyanmış qayalar cana gəldi elə bil, əvvəli-sonu bilinməyən karvana çevrildi və bu karvan Günəş şəfəqlərinin açdığı cığıra düşüb sonsuz ənginliyə doğru irəlilədi.

... Öndəki dəvənin noxtasından şəhid Əliqismət Yaqublu tutmuşdu. Simaları nur saçan, təbəssümləri par-par parlayan əsgərlər əllərini havada yelləyərək, karvanın üz tutduğu sonsuz ənginlikdəki nura qovuşub gözdən itdilər...

## Epiloq əvəzi

Şuşanın azad olunması əməliyyatında Azərbaycan əsgəri misilsiz rəşadət göstərdi. Dünya hərb tarixinə yeni bir qəhrəmanlıq səhifəsi yazdı. İkinci Qarabağ müharibəsində və qələbənin əldə olunmasında Azərbaycan xalqı və dövləti dünyaya birliyin həqiqi simasını nümayiş etdirdi. Neçə illərdən bəri donmuş, süni surətdə dalana dirənmiş və bir sıra maraqlı dövlətlər tərəfindən həlli deyil, uzanmasına, status-kvonun əbədi qalmasına cəhd göstərilən, XX yüzilin tarixinə ən faciəli olaylardan biri kimi daxil olan, milyonlarla insanın taleyinə ciddi təsir göstərən Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinin bitməsində və İkinci Qarabağ Müharibəsinin qələbəylə sonuclanmasında Azərbaycan Respublikasının Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev istər strateji, istərsə də taktiki baxımdan mahir sərkərdəlik və uzaqgörən siyasi liderliyin parlaq nümunəsini göstərdi.

Və – Xalq, Dövlət, Ordu Birliyi Qələbəni təmin etdi. Statuslarla başlayıb dəhşətli müharibəyə çevrilən münaqişə statussuz bitdi. Şuşanın azad olunması əməliyyatında əsgərlərlə bərabər şəhər özü də döyüşdü. Yara aldı, şəhid verdi. Neçə illərin əsarətindən qurtulmaq üçün düşmənə meydan oxudu. Azadlıq ordusunun əsgərlərinə qucaq açdı. Azadlığı uğrunda mübarizə apardı. Əzm göstərdi. Öz daşı, kəsəyi, otu, ağacı, dumanı, buludu, şaxtası, yağmuruyla qələbə uğrunda savaşdı. Və sonucda azad oldu.

***Yanvar 2021-may 2022***